# HƏR GÜN QURANLA

**Giriş**

Quran və hədis dinin tanınması üçün iki dəyərli məxəz hesab olunur. Belə ki, – məşhur və mütəvatir "Səqəleyn" hədisinə görə, – bir-biri ilə sıx və ayrılmaz əlaqədədirlər. Məlumdur ki, parlaq dini maarifin yayılması Quranın vəhyə dayanan təlimləri olmadan və rəvayətlərdə mövcud olan dərin maarifi anlamadan mümkün deyil. Son illərdə – Quranla yaranan ümumi və uğurlu ünsiyyətə nəzərən – Quran və hədisin öyrədilməsi və yayılması sahələrində əhatəli və faydalı mətnlərin hazırlanması zərurətini yaratmışdır. Bu topluda ən mühüm və işlək Quran maarifinin sistematik və məntiqi surətdə toplanılmasına çalışılmışdır ki, təsirli rəvayətlərin və lazımi izahların əlavə olunması ilə oxucuya faydalı və işlək dini təlimlər məcmusu təqdim etsin.

Mətləblər Peyğəmbərin (s) məşhur hədisi əsasında – "Elm üç növdür: möhkəm ayələr, mötədil vaciblər və dəyişməz sünnələr"[1] – üç hissədə verilmişdir: inanclar, hökmlər və əxlaq.

Quranın mövzular üzrə əzbərlənməsi sahəsində üç toplu nəşr etdikdən sonra hazırda ayə və rəvayətlərin mövzular üzrə əzbərlənməsi ilə bağlı ən önəmli əsərimizi təqdim edirik. İnşallah, yaxın gələcəkdə "Mövzular üzrə əzbərləmə dərsliyi" və "Quranın mövzulara görə əzbərlənməsi metodu" adlı digər iki toplumuzu da oxuculara təqdim edəcəyik.

---

[1] Kafi, c. 1, səh. 32, hədis: 1

Bu toplunun bəzi imtiyazları aşağıdakılardır:

- Quranın mövzular üzrə əzbərlənməsi və izahı prosesinin asanlaşdırılması üçün Quran ayələrinin sistematik və məqsədyönlü toplusunun verilməsi;

- Müxtəlif Quran və hədis mətləblərinin sistematik və məntiqi bir qəlibdə, ixtisaslaşmış və geniş yayılmış İslam elmi kitablarının metodu əsasında verilməsi;
- Ən mühüm etiqad, əxlaq və əhkam məsələlərinin – nəticə etibarilə din təlimlərinin ümumi əsaslarının öyrənilməsinə gətirib çıxaracaq – münasib həcmdə və ümumi oxucu kütləsinə uyğun verilməsi;
- Ümumi oxucu kütləsinin "Səqəleyn"nin ruhverici ayə və hədisləri ilə əlaqəsinin güclənməsi məqsədilə zəngin dini təlimlərin seçimində işləklilik və təsirlilik istiqaməti;
- Dini dünyagörüşdən qanunlara, əxlaqa, dini həyat tərzinin ləyaqət və zərurətlərinə qədər ən mühüm İslam həyat tərzi göstəricilərinin verilməsi;
- Dini biliklərin quruluşunda Quran və hədisin birinciliyi üzərində təkid olunması və Peyğəmbərin (s) bu iki dəyərli əmanətinin sıx əlaqəsinin aydın nümunəsinin göstərilməsi;
- Məxəzlərin çıxarılmasında hədis qaynaqlarının etibarına və mötəbər qaynaqların verilməsinə diqqət.

Qeyd edək ki, qarşınızdakı kitab önəmli mövzulara geniş yer verən və Quranın əzbərlənməsini asanlaşdıran üç cildlik "Quranı mövzular üzrə əzbərləmə dərsliyi" kitabından seçmələrdir. Ümid edirik ki, bu kitab ilahi vəhy müştaqları tərəfindən yüksək dəyərləndiriləcək və həqiqət susuzlarına nur dəryasından və Quran maarifindən bir damla içizdirəcəkdir.

Sonda bu əsərin ərsəyə gəlməsində göstərdiyi cidd-cəhdə görə dəyərli alim və Quran hafizi Höccətül-islam vəl-müslimin Seyid Mehdi Haşimiyə təşəkkürümü bildirirəm. Ayələrin seçilməsinə və hazırlanan materiallara nəzarət olunmasına böyük səylər sərf edən bu əsərin işçi qrupu Höccətül-islam Hacı Əbül-Qasim və Əli Qasimiyə təşəkkürümüzü bildiririk.

Seyid Mustafa Hüseyni

“Nurüs-səqəleyn” Quran və itrət mədəni müəssisəsinin direktoru

Müqəddəs Qum şəhəri

2014.06.12

## Birinci hissə

## Etiqadi ayələr

Aşağıdakı fəsilləri ehtiva edir:

- Tövhid və Allahı tanımaq
- İlahi ədalət
- Ümumi və xüsusi peyğəmbərlik
- İmamət
- Məad

## Birinci fəsil

## Tövhid və Allahı tanımaq

Aşağıdakı mövzuları ehtiva edir:

- Allahın varlığının dəlilləri
- Allahın təkliyinin dəlilləri
- Tövhidin qisimləri
- Allahın adları və sifətləri
- Bəzi inkari sifətlər

-

# 1

## Allahın varlığının dəlilləri

### 1. İnsanların tövhid fitrəti

فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَتَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ذَٰلِكَ الدِّينُ الْقَيِّمُ وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

Sən üzünü hənif (xalis) dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi (şüurlu) məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu (bunu) bilmir (Rum, 30).

**İzah:** Quran Allahı tanıma yolları arasında hər şeydən daha çox insanların pak və fitrət tövhidi üzərində dayanır. Dini və ya ilahi fitrətdə məqsəd odur ki, Allah insan təbiətini Allahı qəbul edəcək və onu tanıyacaq şəkildə yaratmışdır. Yəni ruhu və psixikası sağlam olduqda Allaha inanır. Buna sübut odur ki, insanın ümidi bütün təbii səbəblərdən üzüləndə onu xilas etməyə qadir olan gerçək fövqəlbəşərə tapınır. Baxmayaraq ki, onu həqiqi atributları (sifətləri) ilə tanımır. Dinin fitri olmasına başqa bir dəlil isə budur ki, tarix boyu Allahı inkar edənlərin çox sayda şübhələrinin olmasına və bir çox elmi və ictimai inancların

dəyişməsinə baxmayaraq, Allahı tanıma bütün insanlarda və dünya xalqlarında mövcud olmuşdur.

**Hədis:** Peyğəmbər (s): "Hər bir körpə İslam fitrəti ilə dünyaya gəlir və bu, ata-anası onu yəhudi və ya xristian edənə qədər davam edir" (Şərhül-əxbar, c. 1, səh. 190).

2

## 2. Nəzm (kainatın hadisələri arasında ahəngdarlıq)

سَنُرِيهِمْ آيَاتِنَا فِي الْآفَاقِ وَفِي أَنْفُسِهِمْ حَتَّىٰ يَتَبَيَّنَ لَهُمْ أَنَّهُ الْحَقُّ ۗ أَوَلَمْ يَكْفِ بِرَبِّكَ أَنَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ شَهِيدٌ

(Allahın) haqq olduğu onlara aydın olana qədər, Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil? (Fussilət, 53).

**İzah:** Çox sayda Quran ayəsi insanları kainatda mövcud olan ahəngdarlığı araşdırmağa dəvət edir. Bu ayələr keçmişdən günümüzə qədər Allahın varlığını sübut etmək üçün ən geniş yayılmış Nəzm sübutu üçün müqəddimə ola bilər. Bu sübut iki müqəddimə üzərində qurulmuşdur: 1. Bütün dünyada intizam, qanunauyğunluq, dəqiqlik və məqsədyönlülük əlamətləri görürük. Göylərə, kəhkəşanlara, Günəşə, Aya, ulduzlara, yerə, dənizlərə, dağlara, heyvanlara, kainatdakı varlıqlara və s. hakim olan nizam və təbii qanunlar haqqında azacıq düşünmək bu iddianın doğruluğuna dəlildir. 2. Hər bir varlıqda mövcud olan qanunauyğunluq onu yaradanın elm və hikmətindən xəbər verir. Yəni Xaliq varlığı bir-birinə bağlayan əlaqələr ayrılmasın və yaradılışın nizamı mütənasib və uyğun olsun deyə belə yaratmışdır.

**Hədis:** "Allahın sübutu üçün ilk dəlil bu aləmi yaratması, aləmin hissələri arasındakı ahəngdarlıq və qanunauyğunluqdur" (Tövhidi-Müfəzzəl, səh. 47).

## 3

## Allahın təkliyinin sübutu

لَوْ كَانَ فِيهِمَا آلِهَةٌ إِلَّا اللَّهُ لَفَسَدَتَا فَسُبْحَانَ اللَّهِ رَبِّ الْعَرْشِ عَمَّا يَصِفُونَ

Əgər göydə və yerdə Allahdan başqa tanrılar olsaydı, onların hər ikisi fəsada uğrayardı. Ərşin sahibi olan Allah pakdır və (müşriklərin) (Ona) aid etdikləri sifətlərdən uzaqdır! (Ənbiya, 22).

**İzah:** Bu ayənin məzmunu və "Muminun" surəsinin 91-ci ayəsi Allahın tək olmasının ən mühüm dəlillərindən olan "Təmano" sübutuna işarə edir. Bu sübutun sadə izahı belədir: Əgər tək Allahdan başqa tanrı və ya tanrılar olsaydı, onların hər biri dünyanın idarəsində müstəqil olmalı və başqa bir tanrıya ehtiyacları olmamalı idi. Digər tərəfdən aydındır ki, iki nəfərin iradə və tədbiri bütün işlərdə heç vaxt bir ola bilməz. Odur ki çox sayda tanrının olması ya onların dünyanı idarə etməkdə ixtilaf və ziddiyyətə düşməsinə səbəb olur, ya da tanrılardan birinin acizliyi və zəifliyi ilə nəticələnir. Varlıq aləmini nəzərdən keçirdikdə anlayırıq ki, varlığın bütün hissələri müəyyən və sabit qanunlara tabedir və aləmə hakim nizam birdir (diqqət edin).

**Hədis:** İmam Sadiq (ə): "Aləmin düzgün idarə olunması və ardıcıllığı onu idarə edənin təkliyini göstərir" (Tövhidi-Səduq, səh. 250).

# 4

## Tövhidin qisimləri

### 1. Zatda və sifətlərdə tövhid

قُلْ هُوَ اللَّهُ أَحَدٌ اللَّهُ الصَّمَدُ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا أَحَدٌ

De: "O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğub, nə doğulub, Onun bənzəri də yoxdur" (İxlas surəsi).

**İzah:** Allahın zatında tövhid dedikdə məqsəd odur ki, Onun zat etibarilə bənzəri və misli yoxdur. Sifətlərdə tövhid iki mənada izah olunmuşdur: 1. Allahın sifətləri tam olaraq onun zatıdır. Yəni Allah zat və sifətlərdən ibarət mürəkkəb varlıq deyil. Başqa sözlə, Allahın zatı bir tərəfdən Alim, digər tərəfdən Qadir və Muxtar deyil. Əksinə, Onun elmi, ixtiyarı və digər sifətləri zatının özüdür. 2. Allah, sifətlərində bənzərsizdir. Oxşarı və misli yoxdur. Birinci ayə sifətlərdə tövhidin birinci izahına, ikinci ayə isə ikinci izahına işarə edir. Eyni zamanda hər iki ayə zatda tövhidi də ehtiva edir (diqqət edin).

**Hədis:** İmam Əli (ə): "İxlasın kamalı Onun zatına əlavə olunmuş sifətin təsəvvür edilməməsidir" (Nəhcül-bəlağə, xütbə: 1).

5

## 2. "Əfali" tövhid

قُلِ اللَّهُمَّ مَالِكَ الْمُلْكِ تُؤْتِي الْمُلْكَ مَنْ تَشَاءُ وَتَنْزِعُ الْمُلْكَ مِمَّنْ تَشَاءُ وَتُعِزُّ مَنْ تَشَاءُ وَتُذِلُّ مَنْ تَشَاءُ بِيَدِكَ الْخَيْرُ إِنَّكَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

De: "Ey mülkün sahibi Allahım! Sən istədiyin kəsə mülkü verir və istədiyindən də onu geri alırsan; istədiyin kimsəni yüksəldir və istədiyini də alçaldırsan. Xeyir (yalnız) Sənin Əlindədir. Həqiqətən, Sən hər şeyə qadirsən" (Ali-İmran, 26).

**İzah:** Allahın əfali tövhidi mübarək "La həvlə və la quvvətə illa billah" zikrinin real nümunəsidir. Yəni aləmdə yeganə təsir qüvvəsi Allahdır. Başqa sözlə, varlıq aləmində mövcud olan hər bir feil, hərəkət və əməl Allahın iradə və istəyindən mənşə alır. Heç bir mövcud müstəqil şəkildə və Onun iradəsinə dayanmadan bir iş görə bilməz. Əlbəttə, bu məsələ insanın iradə azadlığı ilə ziddiyyət təşkil etmir. Çünki bu azadlığı da bizə Allah vermişdir. Qeyd edək ki, əfali tövhidin çox sayda şaxələri var. Məsələn, ibadətdə tövhid, itaətdə tövhid, sevgidə tövhid, ruzi verməkdə tövhid və s. Ona inamın insan həyatında çox sayda mənəvi bərəkətləri və təsirləri vardır. Sözügedən ayələrdə əfali tövhidin nümunələri qeyd olunmuşdur.

**Hədis:** İmam Kazim (ə): "Allah iradə etmədikcə heç bir şey baş vermir" (Kafi, c. 1, səh. 88, hədis: 5).

**6**

## 3. İbadətdə və Allahdan yardım diləməkdə tövhid

إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ

Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik (Rum, 30).

**İzah:** İbadətdə tövhid o deməkdir ki, ibadətə və itaətə layiq olan yalnız Allahdır. Yalnız Ona ibadət edilməlidir. Yardım diləməkdə tövhid də odur ki, yardım istəməyə layiq olan yalnız Allahdır. Bu iki qisim tövhidin dəlili əfali tövhidin mənasına diqqət etməklə aydınlaşır. Çünki əfali tövhidi izah edərkən qeyd etdik ki, aləmdə yeganə təsir qüvvəsi Allahdır və heç bir iş Onun iradə və izni olmadan baş vermir. Demək, qanunvericilik hüququ yalnız Ona aiddir. Nəticə etibarilə Ondan başqa heç kimə tabe olmaq olmaz. Həmçinin, Ondan yardım dilənməlidir. Buna görə də bəziləri bu iki qisim tövhidi əfali tövhidin şaxələrindən hesab etmişlər. Qeyd edək ki, ilahi övliyalara təvəssül etmək və onlardan yardım diləmək tövhidlə ziddiyyət təşkil etmir. Çünki bu təvəssül də Allahın izni ilə və Onun mərhəmətini qazanmaq üçündür.

**Hədis:** "Xoş o insanın halına ki, ibadətini yalnız Allaha edir və istəyini yalnız Ondan diləyir" (Kafi, səh. 16, hədis: 3).

## 7

## Allahın ad və sifətləri

### Allahın bəzi gözəl sifətləri (Əsmaül-husna)

هُوَ اللَّهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ هُوَ الرَّحْمَٰنُ الرَّحِيمُهُوَ اللَّهُ الَّذِي لَا إِلَٰهَ إِلَّا هُوَ الْمَلِكُ الْقُدُّوسُ السَّلَامُ الْمُؤْمِنُ الْمُهَيْمِنُ الْعَزِيزُ الْجَبَّارُ الْمُتَكَبِّرُ سُبْحَانَ اللَّهِ عَمَّا يُشْرِكُونَهُوَ اللَّهُ الْخَالِقُ الْبَارِئُ الْمُصَوِّرُ لَهُ الْأَسْمَاءُ الْحُسْنَىٰ يُسَبِّحُ لَهُ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı Bilən Allahdır. O Mərhəmətlidir, Rəhmlidir. O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, (haqqı) təsdiq edən, (hər şeyi) müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Məğlubedilməzdir, Müdrikdir (Həşr, 22-24).

**İzah:** Allah-Taala ən üstün kamal sifətlərinə sahibdir və Onun zatında heç bir qüsur yoxdur. Yuxarıdakı ayə Allahın bəzi gözəl sifətlərini ehtiva edir.

**Hədis:** "Allahın doxsan doqquz gözəl adı var. Kim onları bilsə, Cənnətə daxil olacaqdır" (Xisal, səh. 593, hədis: 4).

## 8

## Həyat, bilik və sonsuz qüdrət (Ayətül-kürsi)

اللَّهُ لَا إِلَٰهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ لَا تَأْخُذُهُ سِنَةٌ وَلَا نَوْمٌ لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يُحِيطُونَ بِشَيْءٍ مِنْ عِلْمِهِ إِلَّا بِمَا شَاءَ وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالْأَرْضَ وَلَا يَئُودُهُ حِفْظُهُمَا وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ

Allah, Ondan başqa ilah yoxdur, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Rum, 30).

**İzah:** Allahın elm və qüdrəti mütləq və qeyri-məhduddur. Allahın yaşaması da inkişaf və artım yox, Onun zatının elm və qüdrətə malik olması deməkdir. Həmçinin, "Qəyyum" sifəti Allahın bütün feil sifətlərini ehtiva edir. Feil sifətlərdə məqsəd Allahın o sifətləridir ki, varlıq aləmindəki mövcudatın ona ehtiyacını göstərir. Məsələn, ruzi vermək, yaratmaq və s.

**Hədis:** İmam Sadiq (ə): "Allah cəhalətə yer olmayan bir elm, ölümə yer olmayan bir həyatdır" (Tövhidi-Səduq, səh. 137, hədis: 11).

## 9

## Allahın daxili niyyətlərdən xəbərdar olması

وَلَقَدْ خَلَقْنَا الْإِنْسَانَ وَنَعْلَمُ مَا تُوَسْوِسُ بِهِ نَفْسُهُ وَنَحْنُ أَقْرَبُ إِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ إِذْ يَتَلَقَّى الْمُتَلَقِّيَانِ عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ قَعِيدٌ مَا يَلْفِظُ مِنْ قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ

İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki (mələk) oturub (onun əməllərini qeydə alır.) Dediyi elə bir söz yoxdur ki, (onu yazmaq üçün) yanında hazır durmuş gözətçi olmasın (Qaf, 16-18).

**İzah:** Qeyd olunduğu kimi, Allahın elmi sonsuzdur və orada cəhalətə yer yoxdur. Allah bəndələrinin hətta qəlbindən keçənləri və onların fikirlərindən keçən ötəri vəsvəsələri də bilir. Yuxarıdakı ayədə Allah, bu elmi və əhatəni təsvir etmək üçün təkid etmişdir ki, bəndələrinə şah damarlarından da yaxındır. Bu ifadə həm Xaliq və məxluqun yaxınlığının dərinliyini göstərir, həm də insanın haramlardan daha çox uzaq olmasına zəmin yaradır. Bundan başqa, insanı müşayiət edən xüsusi mələklər də nəzərdə tutulmuşdur ki, onun bütün əməllərini qeyd etsinlər.

**Hədis:** İmam Baqir (ə): “Gizli və aşkar Onun (Allahın) yanında eynidir” (Təfsiri-Qumi, c. 1, səh. 36).

## 10

## İlahi elmin əhatəliliyi

وَعِنْدَهُ مَفَاتِحُ الْغَيْبِ لَا يَعْلَمُهَا إِلَّا هُوَ وَيَعْلَمُ مَا فِي الْبَرِّ وَالْبَحْرِ وَمَا تَسْقُطُ مِنْ وَرَقَةٍ
إِلَّا يَعْلَمُهَا وَلَا حَبَّةٍ فِي ظُلُمَاتِ الْأَرْضِ وَلَا رَطْبٍ وَلَا يَابِسٍ إِلَّا فِي كِتَابٍ مُبِينٍ

Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın kitabda olmasın (Rum, 30).

**İzah:** Yuxarıdakı ayə ilahi elmin əhatəsini bəyan edir və onda heç bir məhdudiyyət olmadığını, varlıq aləminin bütün böyük və kiçik, gizli və aşkar hadisələrini əhatə etdiyini bildirir. Allah Quranda dəfələrlə təkid etmişdir ki, qeybi bilmək Onun zatına xasdır və onun yalnız bir hissəsini xüsusi bəndələrinə vermişdir. Qeyb elmində məqsəd insan hiss və düşüncəsi ilə qavranılmayan hər bir şeyi bilməkdir. "Açıq-aydın kitab"da məqsəd də ilahi elmin səhifəsi və ya məlum "Ümmül-kitab"dır ki, orada dünyanın mövcudatının yaradılışdan öncəki və sonrakı əhvalı qeyd olunmuşdur.

**Hədis:** İmam Baqir (ə): "Allahın elə bir elmi var ki, ondan heç kimin xəbəri yoxdur və elə bir elmi var ki, yaxın mələklər, peyğəmbərlər və biz (imamlar) onu bilirik" (Tövhidi-Səduq, səh. 138, hədis: 15).

## 11

## Tövhidin qisimləri

## Aləm Allahın hüzurudur

أَلَمْ يَعْلَمْ بِأَنَّ اللَّهَ يَرَىٰ

Məgər o bilmir ki, Allah görür? (Ələq, 14).

**İzah:** İlahi sifətlərin hər birini tanımaq, onlara diqqət etmək çox sayda tərbiyəvi nəticələr verir. Bu sifətlərdən biri Allahın elmi və bəndələrinin əməllərini dəqiq bilməsidir. Bu həqiqətə diqqət etmək insanın özünü daim Allahın hüzurunda görməsinə, onun razı qalmayacağı işlərdən uzaq durmasına səbəb olur. Özünü Allahın dərgahında görən insan nəinki günah işləmir, hətta günah haqqında düşünmür. İlahi övliyalar aləmi Allahın hüzuru hesab edir və Onun hüzurunda günah işləmirlər.

**Hədis:** Peyğəmbər (s): "Ey Əbuzər! Allaha elə ibadət et, sanki O səni görür. Əgər sən onu görməsən də O səni görür" (İrşadül-qülub, c. 1, səh. 128).

## 12

## Allahın sonsuz qüdrəti

وَلِلَّهِ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاللَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

Göylərin və yerin hökmranlığı yalnız Allaha məxsusdur. Allah hər şeyə qadirdir (Ali-İmran, 189).

**İzah:** Çox sayda Quran ayəsi Allahın sonsuz qüdrətinə işarə edir. Varlıq hadisələrinin böyüklüyü, genişliyi, vüsəti və saysız olması Allahın sonsuz qüdrətinin aşkar nişanəsidir. Yuxarıdakı ayədə Allahın kainatdakı hökmranlığına işarə olunmuş və Onun mümkün olan hər şeyə qadir olması təkid olunmuşdur.

**Hədis:** İmam Sadiq (ə): "Allahın qüdrəti nə qədər vəsf olunsa da ondan daha yüksəkdir (Onun qüdrətinin sərhədi yoxdur)" (Kafi, c. 1, səh. 10, hədis: 11).

## 13

## Allahın hər şeyi əhatə edən ümumi rəhməti

وَرَحْمَتِي وَسِعَتْ كُلَّ شَيْءٍ

Mərhəmətim isə hər şeyi əhatə edir (Ali-İmran, 74).

**İzah:** Allahın iki növ rəhməti var: 1. Bütün məxluqata – mömin də, kafirə də; əməlisalehə də, günahkara da – şamil olan ümumi rəhməti. "Rəhman" sifəti bu növ rəhmətə işarədir. 2. Yalnız mömin və əməlisalehlərə məxsus xüsusi rəhməti. "Rəhim" sifəti bu növ rəhmətə işarədir. Ümumi rəhmətdə məqsəd Allahın bəndələrinə bəxş etdiyi müxtəlif və firavan nemətlərdir. Hansı ki həyatı onlar üçün asanlaşdırır. Məsələn, varlıq, ruzi, bəşəriyyətin maddi və ruhi ehtiyaclarının qarşılanması və s. Allah, Rəbb olmasının tələbi olaraq ümumi rəhmətini kafirlərdən də əsirgəməmişdir ki, hamının bəhanəsi kəsilsin və bəndələrinin inkişaf və səadətinə zəmin yaransın. Qeyd edək ki, dini mətnlərdə ilahi mərhəmətin təzahürləri haqqında düşünmək çox təkid olunmuşdur.

**Hədis:** Peyğəmbər (s): Allah Davuda (ə) vəhy etdi: "Ey Davud! Günəş öz işığını onun altında oturanlardan əsirgəmədiyi kimi mənim rəhmətim də ona daxil olan hər kəsi əhatə edir" (Əmali, Səduq, səh. 305, hədis: 12).

## 14

## Allahın möminlərə məxsus rəhməti

يَخْتَصُّ بِرَحْمَتِهِ مَنْ يَشَاءُ وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

O, Öz mərhəmətini istədiyi kəsə məxsus edir. Allah böyük lütf sahibidir (Ali-İmran, 74).

**İzah:** Qeyd olunduğu kimi Allahın rəhmət süfrəsi dünyanın bütün məxluqatı üçün açılmış, hamını qidalandırır və faydalandırır. Amma eyni zamanda Allahın möminlərə və ilahi övliyalara məxsus xüsusi lütf və rəhməti də vardır. Bu rəhmətin bariz nümunələri kimi daha çox ibadət və bəndəlikdə uğur qazanmağı, Əhli-beyt (ə) vilayətini, axirət mükafatına nail olmağı və s. göstərmək olar. Bu rəhmətin möminlərə məxsus olmasına səbəb odur ki, onlar ilahi rəhmətdən doğru yolda istifadə etmiş və buna görə də ilahi rəhmət və lütfə nail olmaq üçün daha çox qabiliyyət və istedada malikdirlər. Başqa sözlə, məhz kafirlər ilahi nemətlərin qarşılığında naşükürlük etməklə Allahın lütf qapılarını öz üzlərinə bağlayır və daha çox nemətdən məhrum olurlar.

**Hədis:** İmam Həsən Əsgəri (ə): “Allah bəndələrinə rəhm edən, hətta Ona itaət etməsələr də onlara ruzi verən Rəhmandır. O həm də Rəhimdir. Çünki möminlərin

ibadətlərini yüngülləşdirmişdir” (İmam Həsən Əsgəriyə (ə) isnad olunan təfsir, səh. 34, hədis: 12).

## 15

## Ruzi vermək

وَمَا مِنْ دَابَّةٍ فِي الْأَرْضِ إِلَّا عَلَى اللَّهِ رِزْقُهَا وَيَعْلَمُ مُسْتَقَرَّهَا وَمُسْتَوْدَعَهَا كُلٌّ فِي كِتَابٍ مُبِينٍ

Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. (Allah) onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. (Bunların) hamısı açıq-aydın kitabdadır (Hud, 6).

**İzah:** Yerdə və göydə olan hər şey Allaha məxsusdur. DeməK, yeganə ruzi verən Odur. Məxluqatın ruzisini sonsuz rəhmət xəzinəsindən ayırıb bölən tək Allahdır. Kimsə Onun iradəsi olmadan daha çox ruzi qazanmaq gücünə malik deyil. Verməsi və əsirgəməsi hamısı hikmətə dayanır. Əlbəttə, məlumdur ki, Allahın ruzi verməsinə inanmaq onu qazanmağa çalışmaqla ziddiyyət təşkil etmir. Çünki O Özü bəndələrinin halal ruzi qazanmaq üçün çalışmasını əmr etmişdir.

**Hədis:** Peyğəmbər (s): "Hər bir varlıq üçün göydən yağan yağış dənələri qədər Allahın təyin etdiyi ruzi nazil olur. Amma Allah o ruziyə əlavələr də etmişdir. Elə isə Onun lütfündən daha çox ruzi istəyin" (Qurbul-isnad, səh. 117, hədis: 411).

## 16

## Bəzi inkari sifətlər

### Allahın bənzərsizliyi

لَيْسَ كَمِثْلِهِ شَيْءٌ

Onun heç bir bənzəri yoxdur (Şura, 11).

**İzah:** Allah-Taala Quranda elm, qüdrət və s. kimi sifətləri özünə isnad etmişdir ki, onların nümunəsini insanlarda da görə bilirik. Amma diqqət etmək lazımdır ki, insan sifətləri ilə ilahi sifətlər arasında fərq var. Çünki insan sifətləri əksər hallarda bir növ qüsur və məhdudluqla birgə olur ki, Allahın zatında onlara yer yoxdur. Buna görə də Allah elə sifətlərə malikdir ki, Onun belə bənzətmə və vəsfdən pak olmasını göstərir. Allahla bağlı qüsur və çatışmazlığı inkar edən sifətlərə "inkari sifətlər" (səlbi sifətlər) deyilir. Məsələn, görünməmək, cisim olmamaq, şəriki olmamaq və s. Allahın bütün inkari sifətləri "bənzərsizlik"lə ifadə olunur. İnkari sifətlər Allahın "iqrari sifətləri"nin (sübuti sifətlər) müqabilində yer alır ki, Allahın xüsusi kamalını sübut edir. Məsələn, Alim, Həyy, Qadir və s. Qeyd etmək lazımdır ki, Allahın sübuti və səlbi sifətlərinə calal və camal sifətləri də deyilir.

**Hədis:** İmam Rza (ə) – Allahı tanımağın ən aşağı həddi haqqında suala cavab olaraq – : "Allahı tanımağın ən aşağı həddi Onun (zat və sifətlərdə) bənzəri və misli olmamasına inanmaqdır" (Kafi, c. 1, səh. 86, hədis: 1).

## 17

## Allahı görməyin mümkünsüzlüyü

فلَا تُدْرِكُهُ الْأَبْصَارُ وَهُوَ يُدْرِكُ الْأَبْصَارَ وَهُوَ اللَّطِيفُ الْخَبِيرُ

Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir. O, Lətifdir, (hər şeydən) Xəbərdardır (Ənam, 103).

**İzah:** Allahın inkari sifətlərindən biri görünməməkdir. Bildiyimiz kimi Allah cisim deyil. Çünki Allahın cisim olması Onun müəyyən zaman və məkanla məhdudlaşmasını tələb edir. Digər tərəfdən bilməliyik ki, hisslə müşahidə olunmaq yalnız cisimlər haqqında keçərlidir. Odur ki, Allahın pak zatı görülə bilməz və gözlə görülmür. Bu izaha uyğun olaraq bəzi ayə və rəvayətlərdə sözügedən "Liqaullah" (Allahla görüşmək) ifadəsinin də mənası qəlbən görmək və ya qəlb gözü ilə müşahidə etməkdir. Yuxarıdakı ayə sözügedən həqiqətdən başqa Allahın bəndələrin əməllərini tam dəqiqliyi ilə bilməsinə də işarə etmişdir.

**Hədis:** İmam Sadiq (ə): "Gözlər rəng və keyfiyyəti olmayan şeylərdən başqasını görmür. Bir halda ki Allah rəngləri və keyfiyyətləri yaradandır (Demək, görünmür)" (Əmali, Səduq, səh. 410, hədis: 3).

## 18

## Şərikin, yardımçının və övladın inkarı

وَقُلِ الْحَمْدُ لِلَّهِ الَّذِي لَمْ يَتَّخِذْ وَلَدًا وَلَمْ يَكُنْ لَهُ شَرِيكٌ فِي الْمُلْكِ وَلَمْ يَكُنْ لَهُ وَلِيٌّ مِنَ الذُّلِّ وَكَبِّرْهُ تَكْبِيرًا

De: "Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, aciz qalmamaqdan ötrü (Özünə kömək edəcək) heç bir dosta möhtac olmayan Allaha həmd olsun!" Onu tərifləyərək Uca tut (İsra, 11).

**İzah:** Yuxarıdakı ayə Allahın bir neçə inkari sifətini ehtiva edir. Öncə Allahın müqəddəs zatının övlad sahibi olmaqdan pak olduğunu bildirir. Bu təkid xristian və yəhudilərin Allahın övladı olduğuna inanan batil əqidəsini əks etdirir. Sonra Allahın şərik və bənzərinin olmasının Onun müqəddəs zatından uzaq olduğunu və müşrik ərəblərin inancının batil olduğunu bildirir. Sonra yaradılış məsələlərində və məxluqatın idarə olunmasında yardımçının olmasını rədd edir. Başqa sözlə, bu ayədə Allaha bənzər, Onunla eyni statusda olan bir varlıq inkar edilmişdir. İstər övlad kimi Ondan aşağı olsun, istər şərik kimi Onunla bərabər olsun, istərsə də qəyyum və himayədar kimi Ondan yuxarı olsun. Ayənin sonunda da Peyğəmbərə (s) əmr edir ki, daim Allahı məxluqatın hər vəsfindən uca bilsin.

**Hədis:** İmam Sadiq (ə): "Ən üstün ibadət Allahın yeganəliyinə inanmaq, ən böyük günah isə Allahı (məxluqata) bənzətməkdir" (Əmali, Tusi, səh. 687, hədis: 1458).

## İkinci fəsil

## İlahi ədalət və hikmət

Aşağıdakı mövzuları ehtiva edir:

- Allahın zülm etməsinin inkarı
- İnsanın azadlığı
- İlahi ədalət və fəlakətlər arasında əlaqə
- Dünyada kafirlərin asayişinin səbəbi

## 19

## Allahın zülm etməsinin inkarı

إِنَّ اللَّهَ لَا يَظْلِمُ مِثْقَالَ ذَرَّةٍ وَإِنْ تَكُ حَسَنَةً يُضَاعِفْهَا وَيُؤْتِ مِنْ لَدُنْهُ أَجْرًا عَظِيمًا

Həqiqətən, Allah zərrə qədər də olsa zülm etməz. Əgər (qulun gördüyü iş) yaxşı əməl olarsa, (Allah) bunu artırar və Öz tərəfindən böyük mükafat verər (Nisa, 40).

**İzah:** Allahın ədalətinə – kəlam kitablarında izah olunduğu şəkildə – inam şiə məzhəbinə xasdır. Bu inam insan ağlının müstəqil şəkildə pis və yaxşını (məsələn, ədalətin yaxşı olmasını və zülmün pis olmasını) ayırd etmək iqtidarında olması və bu kimi hallarda şəriət hökmünə ehtiyac olmaması prinsipinə dayanır. Buna görə də hökm edir ki, Allah hikmət və elm sahibi olduğu üçün əsla qəbahətli və pis iş görməz. Ədalətdə məqsəd odur ki, hər şey layiq olduğu şəkildə öz yerində işlənsin. Onun əksi zülmdür. Bu mənada bütün yaxşı işlər – öz yerlərində qərarlaşmaq baxımından - ədalətin nümunəsi, bütün pis işlər isə - öz layiqli yerindən çıxmaq baxımından – bir növ zülm hesab olunur. Allahın zülm etməməsinin sübutu odur ki, hər bir zülmün əsas mənşəyi ya acizlikdir, ya da cəhalət. Bir halda ki bu iki qüsurun heç biri Allahın zatında yoxdur. Deməli, Allahın zülm etməsinə bir səbəb qalmır.

**Hədis:** İmam Sadiq (ə): "Kim Allahın qəbahətli iş tutmasını güman etsə, Ona yalan isnad etmişdir" (Kafi, c. 1, səh. 156, hədis: 2).

## 20

## İnsanın azadlığı

إِنَّا خَلَقْنَا الْإِنْسَانَ مِنْ نُطْفَةٍ أَمْشَاجٍ نَبْتَلِيهِ فَجَعَلْنَاهُ سَمِيعًا بَصِيرًا إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik. Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun (İnsan, 2-3).

**İzah:** İlahi ədalətin nümunələrindən biri odur ki, Allah bəndələrinə xeyir və şər yolu göstərməklə yanaşı onlara yaxşı və ya pis yolu seçməkdə azadlıq vermişdir. Çünki Allah bəndələrini əməllərə məcbur edib, sonra onları günah etdikləri üçün cəzalandırsa, qəbahətli iş tutmuş və zülm etmiş olacaqdır. Buna görə də Allah ədalətli olduğu və pis iş (zülm) tutmadığı üçün insanlara əməllərini həyata keçirməkdə azadlıq vermişdir. Quranda çox sayda ayə var ki, insanın iradə azadlığına təkid edir. Qeyd edək ki, "zərurət və azadlıq" (cəbr və ixtiyar) keçmişdən günümüzə qədər İslam mütəkəllimlərinin diqqət mərkəzində olmuş və müxtəlif etiqadi sektaların yaranmasına yol açmışdır.

**Hədis:** İmam Kazım (ə) – Allahın ədalətini əsaslandırarkən – : "Allahın bəndəsinə etmədiyi bir şeyə görə əzab verməsi Ona yaraşmaz" (Üyuni-əxbari-Rza, c. 1, səh. 138, hədis: 37).

## 21

## İlahi ədalət və fəlakətlər arasında əlaqə

## (Fəlakət və bəlaların hikməti)

### 1. Bəla – ilahi imtahan

وَلَنَبْلُوَنَّكُمْ حَتَّىٰ نَعْلَمَ الْمُجَاهِدِينَ مِنْكُمْ وَالصَّابِرِينَ وَنَبْلُوَ أَخْبَارَكُمْ

Biz aranızdakı mücahidləri və səbir edənləri ayırd edib üzə çıxarmaq üçün sizi mütləq sınayacaq və barənizdəki xəbərləri də yoxlayacağıq (Məhəmməd, 31).

**İzah:** Allahın ədalətindən söz düşdükdə bəzi insanlar dünyadakı fəlakətlərə, bəlalara və ədalətsizliklərə etiraz edərək soruşurlar: "Əgər Allah ədalətlidirsə, nə üçün bəzi bəndələrinə çox nemət vermiş, bəzilərini isə növbənöv problemlərə və fəlakətlərə yuvarlamışdır?" Bu hissədə bu suala cavab verəcək və ilahi ədalətlə fəlakətlər arasındakı əlaqəni izah edəcəyik. Öncə bilməliyik ki, Allahın qəti və hikmətli ənənəsi odur ki, bəndələrini müxtəlif sınaqlarla və bəlalarla yoxlasın və nəticədə onların bəndəlik və itaət səviyyəsi ortaya çıxsın. Əlbəttə, məlumdur ki, Allah özü bəndələrinin doğru və ya yanlışlıq səviyyəsini bilir. Onları sınağa çəkməkdə məqsəd isə onların bəhanəsini kəsməkdir. Odur ki, bir çox bəla və müsibətlərin hikməti bəndələri yoxlamaq, onları sınağa çəkməkdir.

**Hədis:** İmam Əli (ə): “Elə bir insan yoxdur ki, Allah tərəfindən sınağa çəkilməsin” (Nəhcül-bəlağə, qısa kəlamlar: 93).

## 22

### 2. Bəzi bəlalar əməllərin cəzasıdır

وَمَا أَصَابَكُمْ مِنْ مُصِيبَةٍ فَبِمَا كَسَبَتْ أَيْدِيكُمْ وَيَعْفُو عَنْ كَثِيرٍ

Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız (günahlar) üzündəndir. (Allah) (günahların) çoxunu bağışlayır (Şura, 30).

**İzah:** İnsanın azad olmasının mənfi tərəflərindən biri odur ki, bəzi bəndələr başqalarına zülm edir, onlara qətl, qan tökmək, yoxsulluq və s. kimi heç də xoş olmayan müsibətlər yaşadırlar. Bəli! Əgər padşahlar və qaniçənlər öz dəhşətli cinayətlərindən əl çəksəydilər, sərvət sahibləri və zorakı insanlar başqalarının iqtisadi hüquqlarını tapdamasaydılar, yoxsullara qarşı öz dini vəzifələrinə əməl etsəydilər, həyatda bu qədər faciə və xoşagəlməz hallara şahid olmazdıq. Bununla yanaşı diqqət etmək lazımdır ki, Allahın qəti ənənəsi belədir: Əgər kimsə Ona bəndəlik və ibadət yolunda addımlasa, təbii səbəb və amillər də onun yardımına tələsərlər. Amma küfr və itaətsizlik etsə, Allahın təbii nemətlərindən məhrum qalacaqdır. Odur ki, bir çox xoşagəlməz təbii və qeyri-təbii hadisələrin amili fəsad və bəşəri cinayətlərin çoxalmasıdır və bu mövzu ilahi ədalətlə ziddiyyət təşkil etmir.

**Hədis:** Peyğəmbər (s): “İnsan bədəninin bir ağacla cızılması və ya ayağının büdrəməsi onun etdiyi günahın nəticəsidir” (Məcməül-bəyan, c. 9, səh. 47).

## 23

### 3. Bəla, Allah dərgahına əl açmağa səbəb olur

وَلَقَدْ أَرْسَلْنَا إِلَىٰ أُمَمٍ مِنْ قَبْلِكَ فَأَخَذْنَاهُمْ بِالْبَأْسَاءِ وَالضَّرَّاءِ لَعَلَّهُمْ يَتَضَرَّعُونَ

Səndən əvvəl də ümmətlərə (elçilər) göndərmişdik. Biz onları sıxıntıya və xəstəliyə düçar etdik ki, bəlkə boyun əyələr (Ənam, 42).

**İzah:** Allah-Taala Quranda bir çox bəlaların gəlmə səbəbi kimi bəndələrin qəflət yuxusundan oyanmasını, özünə gəlməsini və onlara xəbərdarlıq edilməsini göstərir. Belə ki, müxtəlif nemətlərə malik olmaq, dünya həzlərinə qərq olmaq bir çox bəndələrin qürur və təkəbbürünə səbəb olur və onlara Allahı unutdurur. Halbuki çətinlik və problemlərdə insan öz acizliyini və gücsüzlüyünü etiraf edir, sonsuz ilahi qüdrətdən yardım diləyir. Buna görə də Allah bəzi bəndələri bəla və müsibətə düçar edir ki, onların özlərinə qayıtmasına şərait yaratmış olsun. Bu həqiqət bir çox Quran ayəsində bəyan olunmuşdur.

**Hədis:** İmam Əli (ə): "Əgər insanlar başlarına bəla gələndə Allah dərgahına üz tutub yalvarsalar, Allah itirdikləri hər şeyi onlara geri qaytarar və dağılan hər şeyi düzəldər" (Nəhcül-bəlağə, xütbə: 178).

## 24

### 4. Bəla, möminlərin inkişafına səbəb olur

وَلَنَبْلُوَنَّكُمْ بِشَيْءٍ مِنَ الْخَوْفِ وَالْجُوعِ وَنَقْصٍ مِنَ الْأَمْوَالِ وَالْأَنْفُسِ وَالثَّمَرَاتِ وَبَشِّرِ الصَّابِرِينَ الَّذِينَ إِذَا أَصَابَتْهُمْ مُصِيبَةٌ قَالُوا إِنَّا لِلَّهِ وَإِنَّا إِلَيْهِ رَاجِعُونَ أُولَئِكَ عَلَيْهِمْ صَلَوَاتٌ مِنْ رَبِّهِمْ وَرَحْمَةٌ وَأُولَئِكَ هُمُ الْمُهْتَدُونَ

Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır (Bəqərə, 155-157).

**İzah:** Qeyd olunduğu kimi Allah-Taala bəndələrini həyatda müxtəlif bəla və çətinliklərə düçar edir ki, onların itaət və təslimçilik səviyyəsi hamıya məlum olsun və onların mükafatlanmasına zəmin yaransın. Buradan aydın olur ki, peyğəmbərlər və ilahi övliyalar da Allahın sınaq ənənəsindən istisna deyillər. Onlar da çox sayda çətinliklərlə üzləşirlər. Amma bu problem və bəlalar daha çox bəndəliyə və təvazöyə zəmin yaradır, dərəcələrinin artmasına səbəb olur. Odur ki, möminə bəla gəlməsinin hikməti onun Allaha bəndəlik yolunda yüksəlməsi və inkişafıdır.

**Hədis:** İmam Əli (ə): "Ən şiddətli bəlalar ilk növbədə peyğəmbərlərin, sonra onların vəsilərinin, daha sonra isə

onlara daha çox bənzəyən kəslərin başına gəlir" (Kafi, c. 2, səh. 151, hədis: 1).

**25**

## 5. Bəzi problemlər qəflətin qarşısını almaq üçündür

وَلَوْ بَسَطَ اللَّهُ الرِّزْقَ لِعِبَادِهِ لَبَغَوْا فِي الْأَرْضِ وَلَٰكِنْ يُنَزِّلُ بِقَدَرٍ مَا يَشَاءُ إِنَّهُ بِعِبَادِهِ خَبِيرٌ بَصِيرٌ

Əgər Allah Öz qullarına bolluca ruzi versəydi, onlar yer üzündə həddi aşardılar. Lakin O, istədiyi şeyi qədərincə göndərir. Həqiqətən, O Öz qullarından Xəbərdardır, Görəndir (Şura, 27).

**İzah:** Əksər insanlar rifah və zənginlik zamanı qəflət və qürura düçar olduqları üçün Allah bəzi bəndələrini dünya zinətlərindən və dəbdəbəsindən uzaq tutur ki, onların hidayət yolundan sapmasına mane olsun. Başqa sözlə, Allah-Taala bəndələrinin həyatın müxtəlif şəraitlərində əhval və tutumlarından xəbərdardır və bilir ki, əgər bəzi bəndələrinə bol nemət versə, onlar öz dini vəzifələrinə əməl etməyəcək, təkəbbür və asilik yolunu tutacaqlar. Buna görə də Öz rəhmətini onlara nazil edir və onları bu ağır sınaqdan uzaqlaşdırır. Baxmayaraq ki, yoxsulluq və kasıblıq özü də onlar üçün başqa bir sınaqdır.

**Hədis:** Qüdsi hədis: “Bəzi imanlı bəndələri yalnız ehtiyacsızlıq, bəzi imanlı bəndələri isə yalnız yoxsulluq islah edər” (Kafi, c. 2, səh. 352, hədis: 8).

## 26

### 6. Bəzi çətinliklər bəndələrin xeyrinədir

كُتِبَ عَلَيْكُمُ الْقِتَالُ وَهُوَ كُرْهٌ لَكُمْ وَعَسَىٰ أَنْ تَكْرَهُوا شَيْئًا وَهُوَ خَيْرٌ لَكُمْ وَعَسَىٰ أَنْ تُحِبُّوا شَيْئًا وَهُوَ شَرٌّ لَكُمْ وَاللَّهُ يَعْلَمُ وَأَنْتُمْ لَا تَعْلَمُونَ

Sizin xoşunuza gəlməsə də, cihad sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilir, siz isə (bunu) bilmirsiniz (Bəqərə, 216).

**İzah:** Məlumdur ki, insanın kainatın sirləri və onların öz taleyinə təsiri haqqında məlumatı çox azdır. Buna görə də bir çox hallarda nəticə etibarilə öz xeyrinə olan bu və ya digər hadisəni özü üçün bəla və müsibət sana bilər. Odur ki, həkimin dərmanı uşaq üçün acı və xoşagəlməz olsa da ondan çəkinməməlidir. Çünki o dərmandan istifadə etmək onun sağlamlığı ilə nəticələnəcək. Həyatda qarşılaşdığımız bir çox acı müsibətlərin və fəlakətlərin də nəticəsi yaxşıdır. Allah ondan xəbərdardır. Bəndələr isə öz elm və biliklərinin məhdud olduğuna görə onu acı və xoşagəlməz hadisə kimi görürlər. Yuxarıdakı ayə bu mühüm və təsirli həqiqəti təkid edir.

**Hədis:** İmam Əli (ə): "Allah Öz ərşindən səsləyir: "Ey bəndələrim! Dediyim hər şeyə əməl edin. Öz məsləhətlərinizi mənə deməyin. Mən Özüm sizin məsləhətinizdən xəbərdaram və onu sizdən əsirgəmərəm"

(İmam Həsən Əsgəriyə (ə) isnad olunan təfsir, səh. 327, hədis: 176).

## 27

## 7. Çətinlik və problemlər istedadların, bacarıqların üzə çıxmasına səbəb olur

فَإِنَّ مَعَ الْعُسْرِ يُسْرًا إِنَّ مَعَ الْعُسْرِ يُسْرًا

Sözsüz ki, hər çətinliklə yanaşı asanlıq gəlir. (Bəli) həqiqətən hər çətinliklə yanaşı asanlıq gəlir. (İnşirah, 5-6).

**İzah:** Həyatda bəla və problemlərin tərbiyəvi hikmət və faydalarından biri də bəndələrin istedad və bacarıqlarının üzə çıxmasına şərait yaradılmasıdır. İnsan məhz problemlərlə qarşılaşmaq nəticəsində əl-ayağa düşür, bütün potensial imkanlarından istifadə etməyə və problemləri həll etməyə çalışır. Tarixdə bu müddəanın doğruluğunu göstərən çox sayda nümunələr vardır. Əksər alimlər və ixtiraçılar məhrumluqlar və problemlər içində böyümüş və öz bacarıqlarına söykənmişlər. Quran insanları bu həqiqətə yönləndirir ki, rifah və rahatlıq, çətinlik və məşəqqətin altında yatmışdır və məşəqqət çəkmədən onu əldə etmək mümkün deyil.

**Hədis:** Peyğəmbər (s): "Bil ki, problemlərə qələbə çalmaq səbirlə əldə olunur və həyatda rahatlıq bəla ilə gerçəkləşir" (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 413, hədis: 5900).

## 28

## Kafirlərin dünyada asayişdə olmasının səbəbi

### 1. Kafirlərin sınanması

وَلَا تَمُدَّنَّ عَيْنَيْكَ إِلَىٰ مَا مَتَّعْنَا بِهِ أَزْوَاجًا مِنْهُمْ زَهْرَةَ الْحَيَاةِ الدُّنْيَا لِنَفْتِنَهُمْ فِيهِ وَرِزْقُ رَبِّكَ خَيْرٌ وَأَبْقَىٰ

(Kafirlərdən) bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin ruzisi daha xeyirli və daha davamlıdır (Taha, 131).

**İzah:** İlahi ədalət və bəlalar arasındakı əlaqə mövzusuna uyğun olaraq bu haqda başqa bir suala da cavab vermək yerinə düşərdi. Sual budur ki, kafirlərin və günahkarların firavan dünya nemətlərinə nail olmasının, möminlərin isə məhrum olmasının səbəbi nədir? Nə üçün dünyanın əksər rifah içində yaşayan insanları və sərvət sahibləri kafir və günahkarlar kəsiminə aiddir? Bu suala cavab olaraq bəzi Quran ayələrinə işarə edirik. Birincisi, dünyanın bütün eniş-yoxuşları, var və yoxları Allahın sınağıdır və bir qrup insanın daha çox pay almasını Allahın onlara daha çox diqqət etməsi kimi başa düşmək olmaz. Əksinə, bu nemətlər də ilahi sınaqdır. Qeyd edək ki, bu ayənin əxlaqi

göstərişi xalqın malına göz dikməkdən çəkinmək və möminlərdə qənaət əhvali-ruhiyyəsini inkişaf etdirməkdir.

**Hədis:** İmam Sadiq (ə): "Allahın ona verdiyinə qane olan kəs xalqın ən ehtiyacsızıdır" (Kafi, c. 2, səh. 139, hədis: 9).

**29**

## 2. Dünya rifahının keçici olması

لاَ يَغُرَّنَّكَ تَقَلُّبُ الَّذِينَ كَفَرُوا فِي الْبِلاَدِ مَتَاعٌ قَلِيلٌ ثُمَّ مَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمِهَادُ

Qoy kafirlərin diyarbədiyar gəzib dolaşması səni aldatmasın! Bu, az bir mənfəətdir. Sonra isə onların yeri Cəhənnəmdir. Ora nə pis yataqdır! (Ali-İmran, 196-197).

**İzah:** Kafirlərin dünyada daha çox rifah içində yaşamasında diqqət olunası mühüm bir məqam budur ki, Quran əsas etibarilə dünya həzlərini çox aşağı və dəyərsiz hesab edir. Belə ki, möminlərə layiq bilmir və böyük axirət nemətləri ilə müqayisə olunmamasını bildirir. Başqa sözlə, Quran möminləri bu həqiqətlə tanış edir ki, kafirlərin dünyadakı zahiri rifahı və şövkəti onların (möminlərin) axirətdə nail olacağı rifahla müqayisə olunacaq səviyyədə deyil. Bu maddi imkanlar onların əməllərinin mükafatı olmağa layiq deyil. Buna görə də onlar bu dünyada Axirət üçün azuqə yığmalı və dünya həzlərinə göz yummalıdırlar ki, vəsfəgəlməz Cənnət mükafatına nail olsunlar.

**Hədis:** İmam Səccad (ə): "Ey Allahın bəndələri! Bilin ki, Allah, övliyaları üçün keçici dünya zinətini sevmir" (Kafi, c. 8, səh. 29).

## 30

### 3. Dəyərsiz dünya zinətləri

وَلَوْلَا أَنْ يَكُونَ النَّاسُ أُمَّةً وَاحِدَةً لَجَعَلْنَا لِمَنْ يَكْفُرُ بِالرَّحْمَٰنِ لِبُيُوتِهِمْ سُقُفًا مِنْ فِضَّةٍ
وَمَعَارِجَ عَلَيْهَا يَظْهَرُونَ وَلِبُيُوتِهِمْ أَبْوَابًا وَسُرُرًا عَلَيْهَا يَتَّكِئُونَ وَزُخْرُفًا وَإِنْ كُلُّ ذَٰلِكَ لَمَّا
مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَالْآخِرَةُ عِنْدَ رَبِّكَ لِلْمُتَّقِينَ

Əgər insanların (kafirlik zəminində birləşmiş) vahid bir ümmətə (çevrilmək təhlükəsi) olmasaydı, Mərhəmətli (Allahı) inkar edənlərin evlərinin tavanlarını və çıxdıqları nərdivanları da gümüşdən edərdik; evlərinin qapılarını və söykəndikləri taxtları da. Üstəlik zinət də (verərdik). Bütün bunlar sadəcə dünya həyatının keçici zövqüdür. Axirət isə sənin Rəbbinin yanında ancaq (Allahdan) qorxanlar üçündür. (Zuxruf, 33-35).

**İzah:** Allah dünyanı – gözümüzdəki bütün gözəlliklərinə və dəbdəbəsinə baxmayaraq, – çox aşağı və dəyərsiz təqdim etmişdir. Belə ki, əgər bəzilərinin imanı zəif olmasaydı, onun hamısını kafirlərə verərdi. Çünki bu dəyərsiz mükafat möminlərə layiq deyil. Yuxarıdakı ayəni oxumağın və haqqında düşünməyin möminlər üçün çox tərbiyəvi nəticələri var.

**Hədis:** İmam Sadiq (ə): Allah deyir: "Əgər heç bir mömin bəndəm şəkk-şübhəyə düşməsəydi, kafirlərin başına dəmir keçirərdim ki, heç vaxt başları ağrımasın

(Yəni onlara bütün dünya asayişini bəxş edərdim)" (Kafi, c. 2, səh. 257, hədis: 24).

**31**

## 4. Kafirlərin nemətlərlə tədrici əzabı

وَالَّذِينَ كَذَّبُوا بِآيَاتِنَا سَنَسْتَدْرِجُهُمْ مِنْ حَيْثُ لَا يَعْلَمُونَ وَأُمْلِي لَهُمْ إِنَّ كَيْدِي مَتِينٌ

Ayələrimizi yalan sayanları özlərinin də bilməyəcəkləri bir yerdən tədricən tovlayıb (məhvə) aparacağıq. Mən onlara möhlət verəcəyəm. Şübhəsiz ki, Mənim hiyləm sarsılmazdır (Əraf, 182-183).

**İzah:** Kafirlərin dünya nemətlərinə malik olmasının və dərhal cəzalandırılmamasının ən mühüm hikmətlərindən birini anlamaq üçün Allahın iki ənənəsini – tədricilik (istidrac) və möhlət (imla) – izah etmək lazımdır. “Tədricilik” o deməkdir ki, Allah tədricən kafirlərə və günahkarlara verdiyi neməti artırır və onları tövbədən, əfv diləməkdən çəkindirir. Beləcə, şadyanalıq və sərxoşluğa qərq olur, dünyaya daha da bağlanırlar. Sonra ölüm zamanı bütün bu nemətləri birdəfəlik onlardan alır ki, dünya sevgisindən əl çəkmək əzabı da ölüm çətinliklərinə əlavə olunsun. Odur ki, dünya sərvəti və var-dövləti bəziləri üçün Allahın ağır əzabının müqəddiməsidir. Buna görə də dünya zinətlərinə könül vermək və bağlanmaq lazım deyil.

**Hədis:** İmam Əli (ə): “Ey Adəm övladı! Allaha asi olmana rəğmən hələ də sənə ardıcıl nemətlər bəxş etdiyini

görsən, Onun (əzabından) qorx” (Nəhcül-bəlağə, qısa kəlamlar: 25).

32

## 5. Kafirlərə günahlarını artırmaq üçün möhlət verilməsi

وَلَا يَحْسَبَنَّ الَّذِينَ كَفَرُوا أَنَّمَا نُمْلِي لَهُمْ خَيْرٌ لِأَنْفُسِهِمْ ۚ إِنَّمَا نُمْلِي لَهُمْ لِيَزْدَادُوا إِثْمًا ۚ وَلَهُمْ عَذَابٌ مُهِينٌ

Kafirlər elə güman etməsinlər ki, Bizim onlara möhlət verməyimiz xeyirlərinədir. Biz onlara ona görə möhlət veririk ki, günahlarını daha da artırsınlar. Onlar üçün alçaldıcı bir əzab hazırlanmışdır (Ali-İmran, 178).

**İzah:** Ötən mətləbdə kafirlərin dünya rifahından daha çox faydalanmasının dəlillərindən biri olaraq tədricilik ənənəsindən söhbət açdıq. Bu sahədə Allahın digər ənənəsi isə möhlət verməkdir. Belə ki, Allah bütün insanlara, o cümlədən kafirlərə möhlət verir ki, bəlkə yanlış yoldan dönər, tövbə edər və ya günahını artırar və daha çox azğınlığa qərq olar. Bu, Allahın rəhmət nümunələrindəndir. Bəndələrini – bəhanələri kəsilməsinə baxmayaraq, – dərhal cəzalandırmır. Amma bu mərhəmət kafirlər üçün əks nəticə verir. Çünki onlar bu fürsətdən yararlanmır və öz əzablarını daha da ağırlaşdırırlar. Sözügedən iki ənənəyə – tədricilik və möhlət vermək – nəzərən kafirlərin dünyada rifah içində yaşamasının hikməti müəyyən qədər aydın olur.

**Hədis:** İmam Rza (ə): "Allaha and olsun ki, O, (kafirlərin günahını artırmaq üçün) möhlət verməkdən daha ağır əzab verməmişdir" (Ricali-Kəşşi, səh. 554, hədis: 1045).

**33**

## 6. Kafirlərin çox sərvətlə əzab-əziyyət çəkməsi

فَلَا تُعْجِبْكَ أَمْوَالُهُمْ وَلَا أَوْلَادُهُمْ ۚ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُعَذِّبَهُمْ بِهَا فِي الْحَيَاةِ الدُّنْيَا وَتَزْهَقَ
أَنْفُسُهُمْ وَهُمْ كَافِرُونَ

Onların nə malları, nə də övladları səni heyrətləndirməsin. Allah bunlarla, dünya həyatında onlara əzab vermək və onların canlarının kafir kimi çıxmasını istəyir (Tövbə, 55).

**İzah:** Quran, rifahı və firavan maddi imkanlara sahib olmağı kafirlər üçün başağrısı və çətinlik hesab etmiş və onlar üçün bir növ dünyəvi əzab kimi təqdim etmişdir. Bu mətləb bir çox ayələrdə - o cümlədən yuxarıdakı ayədə - bəyan olunmuşdur. Yuxarıdakı mətləbin izahı odur ki, kafirlərə əzab verilmə yollarından biri elə dünyəvi imkanlardır. Çünki bir tərəfdən onları ömürlərinin sonuna qədər hərisliyə və tamaha vadar edir, bir tərəfdən var-dövlətlərini qorumaq üçün iztiraba və təhlükəyə salır, digər tərəfdən isə ölüm zamanı bütün bu nemətlərdən vaz keçmək xoşagəlməz və acı olur. Bundan başqa, belə insanların həyatı bir çox hallarda paxıllıq, yersiz rəqabətlər və deprsessiya, ruh düşkünlüyü kimi psixi xəstəliklərlə keçir. Belə ki, həzz və şirinliklər onlar üçün zəhər-zəqquma çevrilir.

**Hədis:** İmam Baqir (ə): "Dünyada həris insan baramaqurdu kimidir. O, nə qədər çalışırsa, daha çox barama hörür və xilası daha da çətinləşir. Nəticədə hərisliyin və kədərin şiddətindən ölür". (Kafi, c. 2, səh. 316, hədis: 7).

## 34

## 7. Allahın zülmkarların cəzasından qafil olmaması

وَلَا تَحْسَبَنَّ اللَّهَ غَافِلًا عَمَّا يَعْمَلُ الظَّالِمُونَ إِنَّمَا يُؤَخِّرُهُمْ لِيَوْمٍ تَشْخَصُ فِيهِ الْأَبْصَارُ

Zalımların etdikləri əməllərdən Allahın xəbərsiz olduğunu sanma. (Allah) sadəcə onları (cəzalandırmağı) gözlərin bərələ qalacağı günə saxlayır (İbrahim, 42).

**İzah:** Kafirlərin dünyada rifah içində yaşamasının bütün (sözügedən) hikmətləri ilə yanaşı bu məqamı da nəzərdən qaçırmaq lazım deyil ki, Allah heç zaman kafirlərin çirkin əməllərindən xəbərsiz olmamışdır və onları dünya əzablarından daha böyük əzablara düçar edəcəkdir. Bu, zahirən sadə və ibtidai məsələ olsa da dünyada ilahi ədalətin gerçəkləşməsi üçün bir çox şübhələrə cavab verir. Yəni hamıya təkid edir ki, ilahi ədalət Axirət dünyasında tam olaraq həyata keçəcəkdir. O zaman ki, hər kəsdən ona verilən fürsətlər, bacarıqlar və imkanlar qədər tələb olunacaq, möminlər həqiqi mükafatlarını, yaxşı əməllərinin layiq olduğu əvəzi alacaq, kafirlər isə əməllərinin gerçək cəzasına çatacaqlar.

**Hədis:** İmam Əli (ə) "Elə bir günə hazırlaşın ki, gözlər bərələcək və nigaran-nigaran baxacaq, ağıl və huş

qorxunun şiddətindən (başdan) çıxacaq” (Qürərul-hikəm, c. 2, səh. 269, hədis: 2573).

## Üçüncü fəsil

## Nübuvvət

Aşağıdakı mövzuları ehtiva edir:

- Peyğəmbərlərin göndərilmə zərurəti
- Peyğəmbərlərin məsumluğu
- Peyğəmbərlərin göndərilməsində məqsədlər
- Ulul-əzm peyğəmbərlər
- İslam peyğəmbərinin (s) özəllikləri
- Peyğəmbərin (s) əxlaqi xüsusiyyətləri
- Peyğəmbərin (s) məqamı
- Bizim Peyğəmbər (s) qarşısında vəzifəmiz
- Quran Peyğəmbərin (s) əbədi möcüzəsidir
- Quranın xüsusiyyətləri və vəsfləri
- Quran tilavətinin bəzi qaydaları

## 35

### Peyğəmbərlərin göndərilmə zərurəti

رُسُلًا مُبَشِّرِينَ وَمُنْذِرِينَ لِئَلَّا يَكُونَ لِلنَّاسِ عَلَى اللَّهِ حُجَّةٌ بَعْدَ الرُّسُلِ وَكَانَ اللَّهُ عَزِيزًا حَكِيمًا

(Biz) müjdə verən və qorxudan elçilər (göndərdik) ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah Qüdrətlidir, Müdrikdir (Nisa, 165).

**İzah:** Peyğəmbərlərin (ə) göndərilmə zərurəti dörd müqəddiməni yanaşı qoyduqda aydın olur: 1. Allah insanı azad (ixtiyar sahibi) yaratmışdır. 2. Xeyir və şər (yaxşı və pis) yolu tanımaq üçün bilik və məlumata ehtiyac var. 3. Allahın hikməti tələb edir ki, xeyir və şəri düzgün tanımağın yolunu insanın ixtiyarına versin və insan azad ikən bilmədən yolunu azmasın. 4. İnsanın zəka və hissi təkbaşına bütün yaxşı və pis işləri anlamaq qabiliyyətinə malik deyil. Nəticə: Allah bəndələri üçün başqa bir yol nəzərdə tutmalıdır ki, onun vasitəsilə yaxşı və məsələhətli işləri pis və xoşagəlməz işlərdən ayırd edib səadətə qovuşsunlar. Bu ikinci yol peyğəmbərlərin göndərilməsidir. Odur ki, peyğəmbərlərin göndərilməsinin ən mühüm səbəbi bütün idrak zəminlərini tədarük görmək və insanların bəhanəsini kəsməkdir.

**Hədis:** İmam Sadiq (ə): "Biz, (bəndələrin münasibət qura bilmədiyi) Uca və Ulu bir Tanrının olduğunu sübut etdikdə

aydın olur ki, onun elçiləri olmalı, Onun sözünü camaata çatdırmalı və bəndələri xeyir və ziyanlarına yönləndirməlidirlər" (Kafi, c. 1, səh. 68, hədis: 1).

## 36

## Peyğəmbərlərin məsumluğu

أُولَٰئِكَ الَّذِينَ هَدَى اللَّهُ فَبِهُدَاهُمُ اقْتَدِهْ قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِنْ هُوَ إِلَّا ذِكْرَىٰ لِلْعَالَمِينَ

Onlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Sən də onların haqq yoluna yönəl. De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Bu (kitab) aləmlər üçün yalnız bir xatırlatmadır" (Ənam, 90).

**İzah:** Peyğəmbərlərin (ə) məsumluğu (qüsursuzluğu) onların danışıq və davranışda günahdan və xətadan uzaq olması, qorunması deməkdir. Yəni onlar öz saleh əməlləri səbəbilə sarsılmaz nəfsani gücə yiyələnmişlər ki, günah və yanlışın çirkinliyini onlar üçün aydınlaşdırır, onları günah və xətadan uzaqlaşdırır. Peyğəmbərlərin (ə) məsumluğunun – vəhyi almaqda və çatdırmaqda məsumluq, danışıqda məsumluq, davranışda məsumluq kimi – müxtəlif yönləri var. Peyğəmbərlərin (ə) məsumluğunun əqli və nəqli dəlilləri qeyd olunmuşdur. Peyğəmbərlərin (ə) məsumluğunun ən mühüm əqli dəlili odur ki, onlar məsum olmadığı təqdirdə xalqın onlara etimadı sarsılar və onların peyğəmbərliyinin məqsədi – bəndələrin elmi və əməli yönləndirilməsi – aradan qalxmış olar. Yuxarıdakı ayə Quranın peyğəmbərlərin (ə) məsumluğu ilə bağlı dəlillərindən biridir. Çünki

Peyğəmbərə (s) bütün məsələlərdə keçmiş peyğəmbərlərin yolunu getməyi əmr edir. Bu, onların bütün məsələlərdə günah və xətadan məsum olmasını ifadə edir.

**Hədis:** İmam Rza (ə) – peyğəmbərlərin məsumluğunu əsaslandırarkən –: Allah insanlara onları yoldan çıxaran və aldadan kimsəyə itaət etməyi vacib etmir" (Tövhid, Səduq, səh. 407, hədis: 5).

37

## Peyğəmbərlərin göndərilməsində məqsədlər

### 1. Hidayət etmək

يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا وَدَاعِيًا إِلَى اللَّهِ بِإِذْنِهِ وَسِرَاجًا مُنِيرًا

Ey Peyğəmbər! Həqiqətən, Biz səni şahid, müjdəçi və xəbərdar edən olaraq göndərdik. (Səni) həm də Allahın izni ilə Ona tərəf çağıran və nur saçan bir çıraq kimi (göndərdik) (Əhzab, 45-46).

**İzah:** Peyğəmbərlərin (ə) göndərilməsinin ən mühüm hədəfi insanları cəhalət və savadsızlıq zülmətindən nur və kamala doğru hidayət etməkdir. Onlar, bəndələrin iki daxili hidayət nurunu – yəni zəka və fitrəti – çiçəkləndirməklə yanaşı özləri də onları yaxşılıqlara yönləndirirlər. Yuxarıdakı ayələrdə bu hədəfə işarə olunmuş və Peyğəmbər (s) bəşəriyyətin nur saçan hidayət çırağı kimi təqdim olunmuşdur. Qeyd etmək lazımdır ki, Allah elçilərinin mövcudluğunun digər elmi-tərbiyəvi hədəfləri də vardır ki, mövzunun davamında onların bəzisini diqqətinizə çatdıracağıq.

**Hədis:** İmam Sadiq (ə): “Allah peyğəmbərləri (ə) göndərdi ki, xalqı (etiqad və əməldə) Allaha inanmağa səsləsinlər” (İləlüş-şərai, səh. 121, hədis: 5).

**38**

## 2. Xatırlatma (İnsanların fitrətinin oyanması)

هَٰذَا بَلَاغٌ لِلنَّاسِ وَلِيُنْذَرُوا بِهِ وَلِيَعْلَمُوا أَنَّمَا هُوَ إِلَٰهٌ وَاحِدٌ وَلِيَذَّكَّرَ أُولُو الْأَلْبَابِ

Bu (Quran), insanlar üçün bir bildirişdir. Qoy onunla həm qorxsunlar, həm Allahın Tək İlah olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar (İbrahim, 52).

**İzah:** Bundan öncə Allahı tanımaq haqqında danışarkən qeyd etdik ki, bütün insanların fitrəti bu aləmin xalis həqiqətinə – yəni Allah-Taalaya – uyğun yaradılmışdır. Buna görə də peyğəmbərlərin əsas missiyası bu fitrəti oyatmaq, onu qəflət və vəsvəsədən qorumaqdır. Bir çox Quran ayəsində peyğəmbərlərin bu missiyası üzərində dayanılmış, xatırlatmaq onların göndərilmə məqsədlərindən biri kimi göstərilmişdir. Xatırlatma insanın öncədən bildiyi bir mətləb haqqında keçərlidir. Məsələn, Allahın tək olması məsələsini ağıl və fitrət anlayır. Amma bəzən qəflət və vəsvəsə onu unutdurur. Belə hallarda peyğəmbərlər insanların yatmış fitrətini oyadır və insanların hidayət olunmasından əlavə onların inanclarının gücləndirilməsinə də çalışırlar. Yuxarıdakı ayədə – Quranı həqiqətləri çatdırmaq və xatırlatmaq vasitəsi kimi təqdim etməklə yanaşı – bu mövzuya da işarə olunmuşdur.

**Hədis:** İmam Əli (ə): “Allah peyğəmbərləri ardıcıl olaraq göndərdi ki, onlardan (insanlardan) fitrət əhd-peymanına vəfa qılmağı tələb etsinlər. Unudulmuş nemətləri xatırlatsınlar. Allahın ismarışını çatdırmaqda dəlilləri tamamlasınlar və ağıl xəzinələrinin üstündən tozu silsinlər (Nəhcül-bəlağə, xütbə: 1).

39

## 3. Təlim-tərbiyə

كَمَا أَرْسَلْنَا فِيكُمْ رَسُولًا مِنْكُمْ يَتْلُو عَلَيْكُمْ آيَاتِنَا وَيُزَكِّيكُمْ وَيُعَلِّمُكُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَيُعَلِّمُكُمْ مَا لَمْ تَكُونُوا تَعْلَمُونَ

Həmçinin öz içərinizdən ayələrimizi sizə oxuyan, sizi (günahlardan) təmizləyən, kitabı və hikməti sizə öyrədən, habelə bilmədiklərinizi də sizə öyrədən bir elçi göndərdik (Bəqərə, 151).

**İzah:** Peyğəmbərlərin (ə) göndərilməsinin məqsədlərindən biri bəndələrin təlim-tərbiyəsidir. İnsanın varlıq baxımından təkamülü elm və əməl olmadan mümkün olmur. Peyğəmbərlər (ə) həm insanların zəka və ağlını inkişaf etdirirlər, həm də onların əməlini doğru yola yönəldir, düzgün və haqq baxışa uyğunlaşdırırlar. Bu ayələrdən də aydın olur ki, peyğəmbərlərin (ə) hidayətində ilk addım ilahi ayə və nişanələri bəndələrə göstərməkdir. Onlar ilahi nişanələri bəndələrə göstərirlər ki, onların əxlaqi tərbiyəsinə şərait yaransın və sonra onlara dini göstərişləri, müdriklik və hikmət yolunu öyrətsinlər. Ayənin son ibarəsi də bu həqiqəti ifadə edir ki, bir çox maarif və biliklər yalnız vəhy yolu ilə anlaşıla bilər və bəşər idrakı ona yol tapa bilməz.

**Hədis:** İmam Sadiq (ə): "Allah, peyğəmbərlərini (ə) müjdəçi və qorxudan olaraq göndərdi ki, bəndələri öz

Rəbbindən bilmədiklərini alsınlar, Onu inkar etdikdən sonra Rəbb olaraq tanısınlar" (Tövhid, Səduq, səh. 45).

**40**

### 4. Cəmiyyətin əxlaqının islah olunması

قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِنْ كُنْتُ عَلَىٰ بَيِّنَةٍ مِنْ رَبِّي وَرَزَقَنِي مِنْهُ رِزْقًا حَسَنًا وَمَا أُرِيدُ أَنْ
أُخَالِفَكُمْ إِلَىٰ مَا أَنْهَاكُمْ عَنْهُ إِنْ أُرِيدُ إِلَّا الْإِصْلَاحَ مَا اسْتَطَعْتُ وَمَا تَوْفِيقِي إِلَّا بِاللَّهِ عَلَيْهِ
تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ

O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözəl bir ruzi veribsə, onda necə olsun?" Sizə qadağan etdiyim şeyləri özüm etmək istəmirəm. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm. Mən ancaq Allahın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam (Hud, 88).

**İzah:** Quran ayələrində peyğəmbərlərin (ə) göndərilmə məqsədi kimi göstərilənlərdən biri də hər dönəmdə geniş yayılmış fəsadlarla əməli mübarizədir. Quranda peyğəmbərlərin (ə) əhvalatlarını oxuyarkən anlayırıq ki, onlar öz dövrlərində geniş yayılmış fəsadlarla qarşılaşmış və onlarla mübarizəyə öz təbliğat proqramlarının başında yer vermişlər. Bunun nümunələrini Nuhun (ə) qövmünün bəsirətsizliyi ilə, Salehin (ə) öz qövmünün dünyapərəstliyi və dəbdəbəsi ilə, Lutun (ə) öz qövmünün əxlaqi pozğunluğu ilə, Şüeybin (ə) öz qövmünün (yuxarıdakı ayədə də işarə olunduğu kimi) iqtisadi pozuntuları ilə, İslam peyğəmbərinin (ə) öz qövmünün cəhalət və xurafata meyilliliyi ilə və s. mübarizə aparmasında görmək olar.

**Hədis:** Peyğəmbər (s): “Mən əxlaqi fəzilətlərlə göndərildim (Bu fəzilətləri bərpa etmək üçün göndərildim)” (Əmali, Tusi, səh. 596, hədis: 1234).

**41**

## 5. Tağutla mübarizə

وَلَقَدْ بَعَثْنَا فِي كُلِّ أُمَّةٍ رَسُولًا أَنِ اعْبُدُوا اللَّهَ وَاجْتَنِبُوا الطَّاغُوتَ...

Biz hər ümmətə: "Allaha ibadət edin, Tağutdan çəkinin!" – deyən peyğəmbər göndərdik (Nəhl, 36).

**İzah:** Din məntiqinə görə, hakimiyyət və səltənət Allaha məxsusdur. Dünyada mövcud olan müxtəlif növ siyasi sistemlərin arasından yalnız Allahın xalqa hökmranlığı qəbul oluna bilər. Hakimiyyətin bu növü özünü peyğəmbərlərin (ə), imamların (ə) və onların həqiqi canişinlərinin rəhbərliyi altında göstərir. Odur ki, peyğəmbərlərin (ə) göndərilməsinin elmi və tərbiyəvi məqsədləri ilə yanaşı siyasi hədəflərini də nəzərə almaq lazımdır. Quran nəinki siyasəti dindən ayrı hesab etmir, əksinə peyğəmbərlərə (ə) siyasi məsələlərə müdaxilə etməyi, hökumət qurmağı və bəndələrə hərtərəfli rəhbərlik etməyi əmr edir. Buna səbəb odur ki, İslamın bir çox ictimai və hüquqi hökmlərinin icrası dini rəhbərlərin siyasi iqtidara malik olmasından asılıdır. Buna görə də bütün peyğəmbərlər (ə) öz dövrlərinin tağutuna qarşı mübarizəyə qalxmış, bəzən də bu yolda şəhid olmuşlar.

**Hədis:** İmam Əli (ə): "Allah-Taala həzrət Məhəmmədi peyğəmbər olaraq göndərdi ki, bəndələrini digər bəndələrə

(tağut hakimlərə) pərəstiş və itaətdən çəkindirsin və Ona ibadətə yönləndirsin” (Kafi, c. 8, səh. 386, hədis: 586).

## 42

### 6. Ədalətin bərpa edilməsi

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَأَنْزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ وَأَنْزَلْنَا الْحَدِيدَ فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ وَلِيَعْلَمَ اللَّهُ مَنْ يَنْصُرُهُ وَرُسُلَهُ بِالْغَيْبِ إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ

Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar. Biz özündə çox böyük qüvvə və insanlar üçün mənfəətlər olan dəmiri də endirdik ki, Allah, (Onu) görmədən Ona və elçilərinə kömək göstərənləri üzə çıxartsın. Həqiqətən, Allah Qüvvətlidir, Məğlubedilməzdir (Hədid, 25).

**İzah:** Ədalətin bərpa olunması bəşəri cəmiyyətlərin keçmiş arzusudur. Qurana görə, peyğəmbərlərin (ə) göndərilməsinin hədəflərindən biri ədalətin bütün sahələrdə – hüquqi, ictimai, siyasi və s. – reallaşdırılmasıdır. Peyğəmbərlər (ə) özləri ədalətli olduqları və ictimai ədalətin icrası zamanı gizli qalan tərəfləri bildikləri üçün bu dini amalın gerçəkləşməsində ən uyğun fərdlərdirlər. Doğrudur, bu hədəflərin böyük bir hissəsi hökumət qurmaqla mümkün olur. Amma hətta daim tağut hakimiyyəti altında yaşayan və dini hökumət qurmağa imkan tapa bilməyən peyğəmbərlər öz qövmləri arasında ədaləti yaratmağa çalışmışlar.

**Hədis:** İmam Kazim (ə): "Ədaləti o kəs icra edə bilər ki, onu yaxşı tanısın və özü də ədalətli olsun" (Kafi, c. 1, səh. 542, hədis: 4).

## 43

## Ulul-əzm peyğəmbərlər

وَإِذْ أَخَذْنَا مِنَ النَّبِيِّينَ مِيثَاقَهُمْ وَمِنْكَ وَمِنْ نُوحٍ وَإِبْرَاهِيمَ وَمُوسَىٰ وَعِيسَى ابْنِ مَرْيَمَ
وَأَخَذْنَا مِنْهُمْ مِيثَاقًا غَلِيظًا

Bir zaman Biz peyğəmbərlərdən əhd almışıq; səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışıq (Əhzab, 7).

**İzah:** "Ulul-əzm" ifadəsi "Əhqaf" surəsinin 35-ci ayəsində keçmişdir. Bu ifadə terminologiyada o peyğəmbərlərə aid edilir ki, cahanşümul missiyalara, xüsusi ilahi şəriət, din və kitaba sahib olmuşlar. "Ulul-əzm" peyğəmbərlər ardıcıllıqla aşağıdakılardır: Nuh (ə), İbrahim (ə), Musa (ə), İsa (ə) və Məhəmməd (s). Onların "Ülul-əzm" adlandırılmasına səbəb odur ki, onlar möhkəm əzm, sarsılmaz iradə və səmavi hökmlərə sahib olmuşlar. Qeyd edək ki, digər peyğəmbərlərin (ə) missiyası özlərindən öncəki "Ulul-əzm" peyğəmbərlərin şəriətini təbliğ etmək və açıqlamaq olmuşdur. Peyğəmbərlər silsiləsi həzrət Məhəmmədin (s) gəlişi ilə sona yetdi. Beləliklə, İslam dini Qiyamətə qədər qlobal və cahanşümul din olaraq qalacaqdır.

**Hədis:** İmam Rza (ə): "Ulul-əzm peyğəmbərlər sarsılmaz əzmə və müxtəlif şəriətlərə malik olduqları üçün belə adlandırılmışlar" (İləlüş-şərai, səh. 123, hədis: 2).

## 44

## İslam peyğəmbərinin (s) özəllikləri

### Peyğəmbərin (s) göndərilməsi Allahın bəndələrinə nemətidir

لَقَدْ مَنَّ اللَّهُ عَلَى الْمُؤْمِنِينَ إِذْ بَعَثَ فِيهِمْ رَسُولًا مِنْ أَنْفُسِهِمْ يَتْلُو عَلَيْهِمْ آيَاتِهِ وَيُزَكِّيهِمْ وَيُعَلِّمُهُمُ الْكِتَابَ وَالْحِكْمَةَ وَإِنْ كَانُوا مِنْ قَبْلُ لَفِي ضَلَالٍ مُبِينٍ

Allah möminlərə, öz aralarından onlara (Allahın) ayələrini oxuyan, onları (günahlardan) təmizləyən, onlara kitabı və hikməti öyrədən bir elçi göndərməklə mərhəmət göstərmişdir. Halbuki əvvəllər onlar açıq-aydın azğınlıqda idilər (Ali-İmran, 164).

**İzah:** Ötən hissədə işarə olunduğu kimi, Allahın elçilərinin insanların arasında olmasının bəşəri cəmiyyətə elmi və tərbiyəvi təsirləri vardır. Bunların arasında sonuncu peyğəmbər həzrət Məhəmmədin (s) vücudu insanlar üçün başdan-başa xeyir və rəhmət olmuşdur. Quran onun göndərilməsini möminlər üçün çox böyük nemət, cəhalət və qəflət zülmətindən çıxma vasitəsi hesab etmiş və onları o həzrətin (s) əməli davranışına mütləq mənada tabe olmağa səsləmişdir. Yuxarıdakı ayədə həzrət Peyğəmbərin (s) göndərilməsinin bəzi bərəkətlərinə işarə olunmuşdur.

**Hədis:** İmam Əli (ə): Allah insanları onun (Peyğəmbərin (s)) vasitəsilə azğınlıqdan hidayətə çatdırdı və onun məqamına görə cəhalət quyusundan çıxartdı" (Nəhcül-bəlağə, xütbə: 1).

## 45

### Peyğəmbərin (s) əməldə və sözdə məsum olması

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ وَالنَّجْمِ إِذَا هَوَىٰ مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَىٰ وَمَا يَنْطِقُ عَنِ الْهَوَىٰ إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَىٰ عَلَّمَهُ شَدِيدُ الْقُوَىٰ

And olsun batmaqda olan ulduza! Sizin yoldaşınız nə (haqdan) azmış, nə də (yoldan) çıxmışdır. O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir. Bunu ona çox qüvvətli olan öyrətdi (Nəcm, 1-5).

**İzah:** Ötən bəhslərdə bəyan olundu ki, ilahi peyğəmbərlərin hər növ günah və xətadan məsum olmasını göstərən çox sayda əqli (rasional) və nəqli (ənənəvi) dəlillər vardır. Burada İslam peyğəmbərinin (s) məsum olması ilə bağlı bəzi ayələrə işarə olunur. "Nəcm" surəsinin 2 və 3-cü ayələri bu mətləbi aydın ifadə edir. Çünki öncə Peyğəmbərin (s) hər növ azğınlıq və təmayüldən, ardınca isə o həzrətin (s) sözlərinin nəfsani istəklərdən və qeyri-ilahi məqsədlərdən uzaq olduğunu bildirir.

**Hədis:** İmam Əli (ə): "Allah həzrət Məhəmməddən (s) daha üstün varlıq yaratmamışdır" (Kafi, c. 1, səh. 440, hədis: 2).

## 46

### Peyğəmbərin (s) doğru yolda möhkəm dayanması

يس وَالْقُرْآنِ الْحَكِيمِ إِنَّكَ لَمِنَ الْمُرْسَلِينَ عَلَى صِرَاطٍ مُسْتَقِيمٍ

Ya. Sin. And olsun hikmətli Qurana! Həqiqətən, sən göndərilmiş elçilərdənsən, doğru yoldasan (Yasin, 1-4).

**İzah:** İslam peyğəmbərinin (s) məsum olmasını göstərən ayələrdən biri də “Yasin” surəsinin 4-cü ayəsidir. Allah bu ayədə – Qurana and içdikdən sonra – o həzrəti (s) öz elçisi adlandırmış və ona müraciətlə buyurmuşdur: “Sən doğru yoldasan”. Doğru yol dedikdə haqq din, (müxtəlif dərəcə və mərtəbələri olan) doğru ibadət və bəndəlik yolu nəzərdə tutulur. Odur ki, o həzrətin (s) bütün zamanlarda doğru yolda olması onun məsum olmasını göstərir.

**Hədis:** İmam Sadiq (ə): “Peyğəmbər (s) heç bir günah etmədi və günah fikrinə də düşmədi” (Təfsiri-Qumi, c. 2, səh. 314).

## 47

## Həzrət İsanın (ə) İslam peyğəmbərinin (s) gələcəyini müjdə verməsi

وَإِذْ قَالَ عِيسَى ابْنُ مَرْيَمَ يَا بَنِي إِسْرَائِيلَ إِنِّي رَسُولُ اللَّهِ إِلَيْكُمْ مُصَدِّقًا لِمَا بَيْنَ يَدَيَّ مِنَ التَّوْرَاةِ وَمُبَشِّرًا بِرَسُولٍ يَأْتِي مِنْ بَعْدِي اسْمُهُ أَحْمَدُ فَلَمَّا جَاءَهُمْ بِالْبَيِّنَاتِ قَالُوا هَٰذَا سِحْرٌ مُبِينٌ

Bir zaman Məryəm oğlu İsa demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən Allahın sizə göndərdiyi, məndən əvvəl (nazil edilmiş) Tövratı təsdiqləyən və məndən sonra gələcək Əhməd adlı elçisi ilə (sizi) müjdələyən bir elçisiyəm!" (Allahın elçisi) onlara açıq-aydın dəlillər gətirdikdə onlar: "Bu, aşkar bir sehrdir!" – dedilər (Saff, 6).

**İzah:** Peyğəmbərliyin ağıl və din baxımından müəyyən edilməsinin üç ən mühüm yolu var: 1. Möcüzə; 2. Peyğəmbərlik iddia edən şəxsin dəvətinin məzmunu və şəxsiyyəti; 3. Öncəki peyğəmbərlərin (onun gəlməsi haqqında) müjdə verməsi. Risalət və nübuvvətin əsas xətti bir olduğu, hamısı vahid ilahi feyz qaynağına bağlı olduğu üçün keçmiş peyğəmbərin gələcək peyğəmbəri təsdiq etməsi, gələcəyinə müjdə verməsi və öncədən bildirməsi nübuvvət iddiasının doğru olmasını göstərən aydın dəlildir. İslam peyğəmbərindən (s) öncə gəlmiş həzrət İsa (ə) öz ümmətinə onun (s) gələcəyi müjdəsini vermişdi. Bu ayə də sözügedən həqiqəti ifadə edir.

**Hədis:** İmam Baqir (ə): "Bütün peyğəmbərlər ardıcıl olaraq həzrət Məhəmmədin (s) gələcəyi müjdəsini vermişlər" (Kafi, c. 8, səh. 117, hədis: 92).

## 48

## Peyğəmbərin (s) dəvətinin cahanşümul olması

وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِلنَّاسِ بَشِيرًا وَنَذِيرًا وَلَٰكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ

Biz səni bütün insanlara müjdə verən və xəbərdarlıq edən (bir peyğəmbər) kimi göndərdik. Lakin insanların çoxu (bunu) bilmir (Səba, 28).

**İzah:** İslam dininin zərurətlərindən biri İslam peyğəmbərinin (s) dəvətinin cahanşümul olması və həmçinin o həzrətin (s) sonuncu peyğəmbər olmasıdır. Tarixi dəlillərdən başqa – məsələn, İslam peyğəmbərinin (s) dünya ölkələrinin başçılarına məktublar yazması, – bir çox Quran ayələri də bu məsələyə dəlalət edir. "Ey insanlar!", "Ey Adəm övladı!" kimi müraciətlər bunu təsdiq edir. Həmçinin, yəhudilik və xristianlıq kimi digər dinlərin ardıcıllarını dəvət etməsi o dinlərin qüvvədən düşməsini və hamının İslam dininə tapınması zərurətini göstərir. Bu dəlillərlə yanaşı bəzi ayələr də vardır ki, birbaşa o həzrətin (s) dəvətinin cahanşümul olmasını aydın ifadə edir. Bu ayələrdən biri yuxarıdakı ayədir ki, İslam peyğəmbərinin (s) nübuvvət məqsədinin bütün insanlara müjdə vermək və xəbərdarlıq etmək olduğunu bildirir. Qeyd edək ki, bu ayələr həm Peyğəmbərin (s) dəvətinin cahanşümul olmasına, həm də əbədi və bütün dövrlərə aid olmasına işarə edir.

**Hədis:** İslam peyğəmbəri (s): “Mən, mənimlə (eyni dövrdə) yaşayanların və məndən sonra dünyaya gələcək insanların peyğəmbəriyəm” (Kənzül-ümmal, c. 11, səh. 404, hədis: 31885).

## 49

## Peyğəmbərin (s) sonunculuğu

مَا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِنْ رِجَالِكُمْ وَلَٰكِنْ رَسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا

Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin o, Allahın elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir (Əhzab, 40).

**İzah:** İslam dininin əbədiliyi və ya başqa sözlə, İslam peyğəmbərinin (s) sonuncu peyğəmbər olması bir neçə məsələdən asılıdır: 1. O həzrətin (s) dəvətinin cahanşümul olması (Ötən mövzuda bu haqda danışdıq); 2. Quranın – bəşəriyyəti səadətə yönləndirən kitab olaraq – təhrif və dəyişiklikdən amanda qalması (Bu məsələ də Quranla bağlı mövzularda sübuta yetiriləcək); 3. İslam şəriətinin qayda-qanunlarının bəşəriyyətin gələcək ehtiyaclarına cavab verməsi. (Bu mətləbi sübuta yetirmək üçün nəzərə almaq lazımdır ki, bəşəriyyətin ümdə ehtiyacları fitridir və zaman keçdikcə bir o qədər də dəyişmir. Buna görə də bəşəriyyətin fitri ehtiyaclarına cavab vermiş və yeni meydana çıxan məsələlər üçün çıxış yolu göstərən şəriət əbədi olaraq onların ehtiyaclarına cavab verə bilər. İslam da müqəddəs Quranla, Peyğəmbərin (s) rəvayətləri və imamların (ə) varlığı ilə bu ehtiyaclara cavab vermişdir).

**Hədis:** İslam peyğəmbəri (s): "Mən sonuncuyam, yəni məndən sonra peyğəmbər yoxdur" (Biharul-ənvar, c. 16, səh. 114, hədis: 43).

## 50

## Peyğəmbərin (s) əxlaqi xüsusiyyətləri

### Peyğəmbərin (s) hamı üçün örnək olması

لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِمَنْ كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ وَذَكَرَ اللَّهَ كَثِيرًا

Allahın elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox yad edənlərə gözəl nümunədir (Əhzab, 21).

**İzah:** Burada İslam peyğəmbərinin (s) Quranda keçən bəzi gözəl vəsflərini diqqətinizə çatdıracağıq. Allah-Taala dəfələrlə möminləri İslam peyğəmbərinin (s) davranış və danışığını örnək almağa səsləmişdir. Yuxarıdakı ayəyə görə Peyğəmbər (s) bütün sahələrdə möminlər üçün ən yaxşı örnəkdir. Allaha ibadət və bəndəlik, ixlas və Allaha diqqət, problemlərə qarşı dözümlü və dayanıqlı olmaq, gözəl əxlaq və hamı ilə xoş münasibət, cəmiyyətə düzgün rəhbərlik etmək və o həzrətin (s) digər fərdi və ictimai xüsusiyyətlərinin hər biri bütün müsəlmanlar üçün nümunə və örnəkdir. Allah-Taala yuxarıdakı ayədə ən gözəl ifadələrlə o həzrəti (s) həqiqəti tam əks etdirən nümunə kimi təqdim etmiş və möminləri onun ilahi həyat tərzini örnək almağa və onun yolunu getməyə səsləmişdir.

**Hədis:** İmam Baqir (ə): "Həqiqətən, mən Məhəmmədin (s) kölələrindən (yolunu gedənlərdən) biriyəm" (Kafi, c. 1, səh. 90, hədis: 5).

## 51

## Peyğəmbərin (s) gözəl əxlaqı

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ ن وَالْقَلَمِ وَمَا يَسْطُرُونَ مَا أَنْتَ بِنِعْمَةِ رَبِّكَ بِمَجْنُونٍ وَإِنَّ لَكَ لَأَجْرًا غَيْرَ مَمْنُونٍ وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ

Nun. And olsun qələmə və qələmə alınanlara! Məhz Rəbbinin mərhəmətinə görə sən dəli deyilsən. Şübhəsiz ki, sənin üçün tükənməz bir mükafat hazırlanmışdır. Həqiqətən də, sən böyük əxlaq sahibisən! (Qələm, 1-4).

**İzah:** İslam peyğəmbərinin (s) əxlaqi xüsusiyyətləri o qədər yüksəkdir ki, Allah Quranda dəfələrlə onu mədh etmiş, dəyərləndirmişdir. Məhz bu gözəl xarakter sayəsində bir çox yatmış qəlbləri oyada və öz dininə səsləyə bildi. O həzrət (s) elə gözəl əxlaqa malik idi ki, onun radikal düşmənləri və müxalifləri də bunu etiraf edirdilər. Yuxarıdakı ayədə əxlaqi fəzilətlərin İslam peyğəmbərinin canına işləməsinə işarə olunmuşdur. Bəzi rəvayətlərdə isə "Böyük əxlaq" ifadəsi – başdan-başa gözəllik və yaxşılıq olan – İslam dini kimi izah olunmuşdur.

**Hədis:** İmam Sadiq (ə): "Allah, Peyğəmbərinə (s) ən yaxşı əxlaqi xüsusiyyətləri verdi. Bu, başa çatdıqda ona buyurdu: "Həqiqətən də, sən böyük əxlaq sahibisən!" (Kafi, c. 1, səh. 266, hədis: 4).

## 52

### Möminlərə can yandırmaq

لَقَدْ جَاءَكُمْ رَسُولٌ مِنْ أَنْفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُمْ بِالْمُؤْمِنِينَ رَءُوفٌ رَحِيمٌ

Sizə özünüzdən elə bir elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə (sizin hidayətinizə) qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhimlidir (Tövbə, 128).

**İzah:** İslam peyğəmbərinin (s) müxtəlif əxlaqi keyfiyyətlərinin arasında o həzrətin (s) xalqın hidayəti və öz missiyasını yerinə yetirməsi istiqamətində çox həvəsli olmasına və cidd-cəhdlə çalışmasına Quran tərəfindən daha çox təkid olunmuşdur. O həzrət (s) öz ümmətinin doğru yola yönəlməsi üçün nəinki heç bir səyi əsirgəmir, əksinə kafirlərin cəhalət və azğınlığından o qədər əziyyət çəkirdi ki, üzücü kədər onun bütün vücudunu çulğayır və Quranın (Şuəra, 3; Kəhf, 6) təbiri ilə desək, canını da təhlükəyə atırdı. Bu, din öndərlərinin və gerçək möminlərin xüsusiyyətidir. Belə ki onlar başqalarının azğınlıq və qəflətinə dözmürlər. Bütün varlıqları ilə onları hidayət etməyə, yol göstərməyə çalışırlar. Yuxarıdakı ayədə bu həqiqəti bəyan etməklə yanaşı Peyğəmbərin (s) möminlərə can yandırması və mehribanlıq göstərməsinə də işarə olunmuşdur.

**Hədis:** İslam peyğəmbəri (s): “Allah məni mərhəməti yaymaq üçün göndərmişdir” (Kafi, c. 2, səh. 159, hədis: 8).

## 53

## Xalqla mülayim və mehriban davranmaq

فَبِمَا رَحْمَةٍ مِنَ اللَّهِ لِنْتَ لَهُمْ وَلَوْ كُنْتَ فَظًّا غَلِيظَ الْقَلْبِ لَانْفَضُّوا مِنْ حَوْلِكَ فَاعْفُ عَنْهُمْ وَاسْتَغْفِرْ لَهُمْ وَشَاوِرْهُمْ فِي الْأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ إِنَّ اللَّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar. Sən onların günahından keç, (Allahdan) onların bağışlanmalarını dilə və görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir (Ali-İmran, 159).

**İzah:** Bu ayə dini hakimiyyətin bəzi göstərişlərini ehtiva edir. Allah-Taala sözügedən ayədə Peyğəmbərin (s) xalqa mehriban və mülayim olmasını Özü tərəfindən bir rəhmət hesab edir və bu məqama təkid edir ki, xalqa qarşı kobud və daş qəlbli olmaqla heç bir din ürəklərə nüfuz etməmiş, yayılmamışdır. "فَظ" (fəzz) sözü kobud və sərt danışan adama deyilir. "غَلِيظَ الْقَلْبِ" (ğəlizul-qəlb) də daş qəlbli və yekəxana adama deyilir. Yuxarıdakı ayədən cəmiyyəti idarə edərkən əfv və güzəşt etməyin, xalqla məsləhətləşməyin, ciddi əzm və iradənin, Allaha təvəkkül etməyin zərurəti də anlaşılır.

**Hədis:** İmam Əli (ə): "O (Peyğəmbər (s)), insanların ən bağışlayanı, ən doğru danışanı, əhdinə ən çox vəfa qılanı və ən mülayimi idi. Davranışında hamıdan daha alicənab idi. Onun kimisini nə keçmişdə, nə də indi görməmişəm" (Məkarimul-əxlaq, c. 1, səh. 51, hədis: 2).

## 54

## Peyğəmbərlik qarşılığında mükafat istəməmək

قُلْ مَا أَسْأَلُكُمْ عَلَيْهِ مِنْ أَجْرٍ إِلَّا مَنْ شَاءَ أَنْ يَتَّخِذَ إِلَىٰ رَبِّهِ سَبِيلًا

De: "Mən bunun əvəzinə sizdən heç bir mükafat istəmirəm. Təkcə onu istəyirəm ki, insanlar Rəbbinə tərəf aparan bir yol tutsunlar" (Furqan, 57).

**İzah:** Quranda peyğəmbərlərin təbliğat metoduna baxdıqda hər şeydən çox onların danışıqda ixlaslı olmasına və sırf Allahı nəzərə almasına rast gəlirik. Bu fəzilətin onların din ehkam və maarifini təbliğ etməsində müstəsna rolu olmuşdur. Çünki bu, onların dəvətinin doğru olmasına, düşüncə və proqramlarının pak olmasına ən aydın dəlildir. Yalançı iddiaçılar isə xalqı Allaha dəvət etmək üçün çoxlu maddi və mənəvi məqsədlər güdürlər. Buna görə də Allahın elçiləri dəfələrlə insanları Allaha doğru səsləyərkən bu mətləbi təkrar edirlər ki, xalqın hidayəti qarşılığında heç bir muzd və mükafat istəmirlər. Yuxarıdakı ayədə İslam peyğəmbərinin (s) risalətinin yeganə muzdu insanların hidayəti adlandırılmışdır. Qeyd edək ki, bu mətləbin Quranda təkrar olunmasından maddi məsələlərin insanların dinə meyl göstərməsinin ən böyük maneələrindən biri olduğu məlum olur.

**Hədis:** Nüdbə duasının sözügedən ayəyə işarə edən bir cümləsi: "Həqiqətən, imamlar Sənə tərəf aparan bir yoldur" (əl-Məzarul-kəbir, səh. 576).

## 55

## Peyğəmbərin (s) məqamı

### İslam peyğəmbəri (s) bütün bəşəriyyət üçün rəhmətdir

وَمَا أَرْسَلْنَاكَ إِلَّا رَحْمَةً لِلْعَالَمِينَ

Səni də aləmlərə (bəşəriyyətə) ancaq bir rəhmət olaraq göndərdik (Ənbiya, 107).

**İzah:** İslam peyğəmbəri (s) Allah yanında ən mükəmməl bəndə və ən üstün məxluqdur. Ötən bəhslərdə o həzrətin (s) bəzi əxlaqi keyfiyyətlərini diqqətinizə çatdırdıq. Burada da o həzrətin (s) xüsusi fəzilətlərini ehtiva edən, məqamını daha çox aydınlaşdıran ayələrə işarə edirik. Bu mövzu ilə bağlı ilk ayə yuxarıdakı ayədir. Bu ayə o həzrətin (s) bütün varlığını bəşəriyyət üçün böyük və vəsfəgəlməz rəhmət adlandırır. O həzrətin (s) rəhmət olması yalnız həyatda olduğu dönəmə xas deyil. Əksinə, onun əbədi möcüzəsi, yəni Quran və ondan (s) yadigar qalan hədislər də bəşəri cəmiyyətlər üçün başdan-başa rəhmət və xeyirdir. Həmçinin, onun (s) vücuduna təvəssül etmək duanın qəbul olunmasına və Allaha yaxınlaşmağa səbəb olur. Sözügdən ayədə "لِلْعَالَمِينَ" (lil-aləmin) ifadəsindən aydın olur ki, hətta kafirlər də onun (s) vücudunun bərəkətindən Allahın ümumi rəhmətindən faydalanır və ruzi alırlar.

**Hədis:** İslam peyğəmbəri (s): "Ey camaat! Mən Allah tərəfindən sizə hədiyyə verilən rəhmətəm" (Kəşfül-ğimmə, c. 1, səh. 8).

## 56

## Meraca getmək

سُبْحَانَ الَّذِي أَسْرَىٰ بِعَبْدِهِ لَيْلًا مِنَ الْمَسْجِدِ الْحَرَامِ إِلَى الْمَسْجِدِ الْأَقْصَى الَّذِي بَارَكْنَا حَوْلَهُ لِنُرِيَهُ مِنْ آيَاتِنَا إِنَّهُ هُوَ السَّمِيعُ الْبَصِيرُ

Dəlillərimizdən bəzisini ona (Peyğəmbərə) göstərmək üçün Öz qulunu gecə vaxtı Məscidül-haramdan ətrafına xeyir-bərəkət verdiyimiz Məscidül-əqsaya aparan (Allah) pak və müqəddəsdir. Həqiqətən, O, Eşidəndir, Görəndir (İsra, 1).

**İzah:** İslam Peyğəmbərinin (s) xüsusi fəzilətlərindən biri o həzrətin (s) səmavi yüksəlişidir ki, bu ayədə və "Nəcm" surəsinin ilk ayələrində ona işarə olunmuşdur. Bu hadisə hicrətdən bir il qabaq baş vermişdir. Bu müqəddəs səfər Məğrib namazından sonra baş verdi. O gecə öz əməlisaleh bəndəsini Məscidül-haramdan Məscidül-əqsaya və oradan da göylərə apardı ki, ona qüdrətinin əzəmət və nişanələrini göstərsin. Müsəlmanlar arasında məşhur olan budur ki, bu yer və göy səfəri həm cisim, həm də ruhla həyata keçmişdir.

**Hədis:** İmam Rza (ə): "Meracı təkzib edən kəs Allah rəsulunu təkzib etmişdir" (Sifatuş-şiə, səh. 129, hədis: 70).

## 57

## Allahın Peyğəmbərə (s) salamı

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

Doğrudan da, Allah və Onun mələkləri Peyğəmbərə salam və rəhmət göndərirlər. Ey iman gətirənlər! Siz də ona salam göndərin və layiqincə təslim olun (Əhzab, 56).

**İzah:** Peyğəmbərin (s) məqamı o qədər ucadır ki, Allah-Taala Özü ona salam göndərir və mələklər də Haqqın səsinə qoşulurlar. Odur ki, Allah möminlərdən də Onun və mələklərin səsinə qoşulmasını, əziz İslam peyğəmbərinin (s) uca məqamına salam göndərməsini və onun sözlərinə tam surətdə təslim olmasını istəyir. Allahın Peyğəmbərə (s) salam göndərməsində məqsəd o həzrətə (s) xüsusi rəhmətini göndərməsi və istəyini qəbul etməsidir. Mələklərin o həzrətə (s) salam göndərməsində məqsəd isə dua və ya məlum salavat zikridir ki, çox böyük savaba və bərəkətə malikdir.

**Hədis:** İmam Baqir (ə) və ya İmam Sadiq (ə): "Qiyamət günü əməl tərəzisinə qoyulacaq ən ağır əməl Məhəmməd (s) və Əhli-beytinə (ə) salavat göndərməkdir" (Qurəbul-isnad, səh. 14, hədis: 45).

## 58

## Peyğəmbərə (s) təvəssül etmək tövbənin qəbul olunma şərtidir

فوَمَا أَرْسَلْنَا مِنْ رَسُولٍ إِلَّا لِيُطَاعَ بِإِذْنِ اللَّهِ وَلَوْ أَنَّهُمْ إِذْ ظَلَمُوا أَنْفُسَهُمْ جَاءُوكَ فَاسْتَغْفَرُوا اللَّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللَّهَ تَوَّابًا رَحِيمًا

Biz hər bir elçini, Allahın izni ilə, ona məhz itaət edilsin deyə göndərdik. Əgər onlar özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanma diləsəydilər və Peyğəmbər də onlar üçün bağışlanma diləsəydi, əlbəttə ki, Allahın tövbələri qəbul edən və Rəhimli olduğunu görərdilər (Nisa, 64).

**İzah:** Peyğəmbərin (s) müqəddəs vücudu ilahi feyz və rəhmət vasitəsidir. Allah-Taala bu ayədə günahkarların tövbəsinin qəbul olunma şərti kimi onların Peyğəmbərə (s) təvəssül etməsini və o həzrətin (s) onlar üçün dua etməsini göstərmişdir. Bu, həm İslam peyğəmbərinin (s) Allah yanındakı məqamına dəlalət edir, həm onun ilahi feyz və rəhmət vasitəsi olmasını göstərir, həm də Əhli-beytə (ə) təvəssül etməyi bir növ şirk sananlara uyğun və tutarlı cavab verir. Bəli! Peyğəmbər (s) və Əhli-beyti (ə) Allahın rəhmət və əfv qapılarıdır. Allah onlara təvəssül etməyi bəndələrinin tövbə etməsi üçün şərt qoymuşdur.

**Hədis:** İmam Sadiq (ə) Peyğəmbərin (s) məzarını ziyarət etmə qaydası haqqında buyurmuşdur: O həzrətin (s)

məzarına çatanda yuxarıdakı ayəni oxu və de: "Mən də - göstərişinə uyğun olaraq, - Peyğəmbərinin (s) məzarına doğru gəlmişəm və günahlarımın bağışlanmasını diləyirəm" (Kafi, c. 4, səh. 551, hədis: 1).

## 59

## Peyğəmbər (s) hər kəsin əməllərinə şahiddir

فَكَيْفَ إِذَا جِئْنَا مِنْ كُلِّ أُمَّةٍ بِشَهِيدٍ وَجِئْنَا بِكَ عَلَىٰ هَٰؤُلَاءِ شَهِيدًا

Biz hər ümmətdən bir şahid gətirəcəyimiz və səni də onlara şahid gətirəcəyimiz zaman (onların halı) necə olacaq? (Nisa, 41).

**İzah:** Bu ayəyə görə İslam peyğəmbəri (s) başqa peyğəmbərlər kimi yalnız öz ümmətinə yox, həm də digər keçmiş peyğəmbərlərin əməllərinə şahiddir. ("هَٰؤُلَاءِ" (haulai) əvəzliyi rəvayətlərə görə keçmiş ümmətlərin şahidlərinə, yəni keçmiş peyğəmbərlərə aiddir.) Bu, o həzrət (s) üçün çox böyük bir fəzilətdir. Quranda əməllərə şahid olmaqda məqsəd əməllərin mahiyyətini və batinini bəyan etməkdir. Odur ki, ilahi peyğəmbərlər və övliyalar – hamısının başında isə kamil insan və ən üstün məxluq olaraq İslam peyğəmbəri (s) – elə bir məqama malikdirlər ki, bəndələrin həqiqətini və batinini müşahidə edə bilir, Qiyamətdə əməllərə şahidlik edənlər sırasında yer alır və onların yaxşı və ya pis insan olmasına şəhadət verirlər. Qiyamətdə əməllərin digər şahidləri yer, bədən üzvləri, mələklər və s.-dir. Qeyd edək ki, Qiyamət günü şahidlik etmək heç də dünyada əməllərdən xəbərdar olmaq, onları bilmək demək deyil.

**Hədis:** İmam Sadiq (ə): “Bəndələrin bütün əməlləri – istər yaxşılar olsun, istər pislər, – hər gün səhər Allah rəsuluna (s) məruzə edilir” (Kafi, c. 1, səh. 219, hədis: 1).

## 60

## Axirətdə Peyğəmbərin (s) razılığı

وَلَسَوْفَ يُعْطِيكَ رَبُّكَ فَتَرْضَىٰ

Tezliklə Rəbbin sənə (nemət) bəxş edəcək, sən də razı qalacaqsan (Zuha, 5).

**İzah:** Allahın Peyğəmbərə (s) – yuxarıdakı ayədə xəbər verdiyi – ən böyük bəxşişi dünya və axirətdə ona Öz lütf və mərhəmətini bəxş etməsidir. Öz lütf və rəhmətini ona o qədər verir ki, o razı qalır. Dünyada onun dinini cahanşümul və əbədi edir. Axirətdə isə xüsusi nemətlərini bəxş edəcəkdir. Bildiyimiz kimi, o həzrət (s) insanların ümmətinə ən can yandıranı idi. Bütün səyini onların hidayət olunmasına yönəltmişdi. Ən böyük arzusu onların səadəti idi. Buna görə də onun tam razı qalması ümmətinin hidayətindən asılıdır. Məhz bu səbəbdən də bəzi rəvayətlərdə bu ayə Quranın ən ümidverici ayəsi kimi dəyərləndirilmişdir. Çünki o həzrətin (s) günahkarları şəfaət etməsinin qəbul olunacağından xəbər verir. O günahkarlar ki, Allahın və peyğəmbərinin özləri üzərindəki qəyyumluğunu qəbul etmiş, amma nəfsani yanlışlara düşmüş, ehtirasların əsiri olmuşlar.

**Hədis:** İslam peyğəmbəri (s): "Hər bir peyğəmbər Allah dərgahına dua etmiş və Ondan bir şey istəmişdir. Amma

mən öz istəyimi Qiyamət günü ümmətimi şəfaət etmək üçün saxlamışam" (Xisal, səh. 29, hədis: 104).

## 61

## Bizim Peyğəmbər (s) qarşısında vəzifəmiz

### Peyğəmbərə (s) mütləq itaət

وَمَا آتَاكُمُ الرَّسُولُ فَخُذُوهُ وَمَا نَهَاكُمْ عَنْهُ فَانْتَهُوا وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir (Həşr, 7).

**İzah:** Allah-Taala Peyğəmbərin (s) gözəl əxlaqını mədh etmək və onun məsum olduğunu bildirməklə yanaşı möminlərə Öz elçisinin sözlərinə və davranışlarına heç bir qeyd-şərtsiz tabe olmağı əmr edir. Belə ki, Peyğəmbərə (s) itaət etməyi, ona tabe olmağı Özünə itaət hesab edir, ona asi olmağı, onun sözündən çıxmağı isə Özünə asi olmaq adlandırır. Yuxarıdakı ayə bu mətləbi aydın ifadə edir. Çünki ayənin sonunda hamını təqvaya, Allahdan qorxmağa səsləyir, Peyğəmbərin (s) əmrindən çıxanları şiddətli əzabla hədələyir. Qeyd edək ki, bu ayə də Peyğəmbərin (s) məsumluğuna dəlalət edən ayələrdən biridir. Çünki o kəsə mütləq mənada itaət edilməsi ağla müvafiq və yetərlidir ki, günah və xətadan uzaq olsun.

**Hədis:** İmam Baqir (ə): “Həqiqətən Allah məxluqatının işini Peyğəmbərə (s) həvalə etmişdir ki, onların itaətinin necə olduğunu görsün” (Kafi, c. 1, səh. 266, hədis: 3).

## 62

## Peyğəmbərə (s) itaət ürəklərin canlanmasına səbəb olur

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَجِيبُوا لِلَّهِ وَلِلرَّسُولِ إِذَا دَعَاكُمْ لِمَا يُحْيِيكُمْ وَاعْلَمُوا أَنَّ اللَّهَ يَحُولُ بَيْنَ الْمَرْءِ وَقَلْبِهِ وَأَنَّهُ إِلَيْهِ تُحْشَرُونَ

Ey iman gətirənlər! (Peyğəmbər) sizi, həyat verəcək şeylərə çağırdığı zaman Allahın və Peyğəmbərinin çağırışına cavab verin. Bilin ki, Allah (haqqı batil, batili də haqq sanmayasınız deyə) insanla onun qəlbi arasındadır və siz Onun hüzuruna toplanılacaqsınız (Ənfal, 24).

**İzah:** Qeyd etdiyimiz kimi Allah-Taala Peyğəmbərin (s) sözlərinə və əməllərinə tabe olmağı, ona itaət etməyi bütün möminlərə vacib etmişdir. Bu itaət nəinki onların inkişafına və təkmilləşməsinə səbəb olur, hətta onlara gerçək həyat bəxş edir və qəlblərini oyadır. Yuxarıdakı ayədən anlaşılır ki, birincisi, səmavi dinlərin əsas məqsədi insanlara hərtərəfli həyat bəxş etməkdir. İkincisi, Qurana görə, gerçək həyat ağlın inkişafı və qəlblərin oyanmasıdır və bu, yalnız Allaha bəndəlik və peyğəmbərlərə itaət etməklə gerçəkləşir. Üçüncüsü, Peyğəmbərin (s) dəvətinin məzmunu tam olaraq Allahın dəvətinə uyğundur ("دَعَاكُمْ" (dəakum) sözü tək formada işlənmişdir).

**Hədis:** İmam Əli (ə) – Peyğəmbəri (s) vəsf edərkən – buyurur: "O, müalicə etmək üçün xəstələrin dalınca düşən bir həkimdir" (Nəhcül-bəlağə, xütbə: 108).

## 63

### Peyğəmbərə (s) itaət Allah sevgisinə zəmin yaradır

قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

De: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhimlidir” (Ali-İmran, 31).

**İzah:** İnsanların yaradılışında məqsəd Allaha ibadət və bəndəlik etməkdir. Bu məqsəd Allaha tam diqqət, ibadətdə və digər həyat məsələlərində ixlas olmadan hasil olmur. İxlas qəlbə aid bir əməldir. Onun baş verdiyi yer qəlbdir. Odur ki, insanların yaradılışında məqsəd bəndələrin qəlbən Allaha diqqəti, yaxud başqa sözlə, ilahi sevgidir. Bu sevgi ikitərəflidir. Yəni Allah o kəsləri sevir ki, onlar da Allahı sevirlər. Yuxarıdakı ayə bu uca həqiqəti açıqlayır və bildirir ki, Allah-Taala yalnız Ona sevgisini Peyğəmbərə (s) itaət etməklə ifadə edən möminləri sevir. Buna görə də insan yaradılışının hədəfinə çatmaq o həzrətə (s) tabe olmaqla gerçəkləşir.

**Hədis:** İmam Sadiq (ə): “Kim Allahın onu sevməsini istəyirsə, Allaha itaət etməli, bizə tabe olmalıdır” (Kafi, c. 8, səh. 14, hədis: 1).

## 64

## Quran Peyğəmbərin (s) əbədi möcüzəsidir

### 1. Mübarizəyə çağırış

قُلْ لَئِنِ اجْتَمَعَتِ الْإِنْسُ وَالْجِنُّ عَلَىٰ أَنْ يَأْتُوا بِمِثْلِ هَٰذَا الْقُرْآنِ لَا يَأْتُونَ بِمِثْلِهِ وَلَوْ كَانَ بَعْضُهُمْ لِبَعْضٍ ظَهِيرًا

De: "Əgər insanlar və cinlər bu Qurana bənzər bir şey gətirmək üçün (bir yerə) toplaşıb, bir-birinə kömək etsələr də ona bənzərini gətirə bilməzlər" (İsra, 88).

**İzah:** Allah-Taala bu ayədə tam qətiyyətlə Quranı Allah kəlamı hesab etməyənlərdən və onun vəhy olduğunu qəbul etməyənlərdən onun kimi bir kitab gətirmələrini istəyir. Terminologiyada buna Quranın mübarizəyə çağırışı – təhəddi – deyilir ki, öz haqq olduğunu sübuta yetirmək üçün ənənəvi bir üsuldur. Bu dəvət və mübarizəyə çağırış üç mərhələdə baş tutmuşdur. Öncə bu ayədə kafir cinlərdən və insanlardan istənilmişdir ki, bacarırlarsa, onun kimi bir kitab gətirsinlər. Sonra bu istəyin həcmi azalır və heç olmasa Quran surələrinə bənzər on surə gətirilməsi istənilir (Hud, 13). "Bəqərə" surəsinin 23-cü ayəsində isə bu mübarizə şərtinin həcmi yenə də azaldılır və kafirlərdən Quran surələrinə bənzər yalnız bir surə gətirmək tələb olunur. İslam düşmənləri Quranla mübarizəyə sərf

etdikləri bütün imkanlara baxmayaraq, heç zaman bu çağırışa cavab verə bilmədilər. Əlbəttə, Quranın ecazkarlıq yönləri yalnız fəsahət və bəlağətlə bitmir.

**Hədis:** İslam peyğəmbəri (s): "Quranın zahiri gözəl və könüloxşayan, batini dərin maarif dəryasıdır. Onun ecazkarlıqları saya gəlməz, incəlikləri köhnəlməz" (Kafi, c. 2, səh. 599, hədis: 2).

65

## 2. Onu gətirənin təhsilsiz olması

وَمَا كُنْتَ تَتْلُو مِنْ قَبْلِهِ مِنْ كِتَابٍ وَلَا تَخُطُّهُ بِيَمِينِكَ إِذًا لَارْتَابَ الْمُبْطِلُونَ بَلْ هُوَ آيَاتٌ بَيِّنَاتٌ فِي صُدُورِ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَمَا يَجْحَدُ بِآيَاتِنَا إِلَّا الظَّالِمُونَ

Sən bundan əvvəl nə bir Kitab oxuya bilirdin, nə də onu əlinlə yaza bilirdin. Belə olsaydı, batilə uyanlar şübhəyə düşərdilər. Əksinə, bu (Quran) elm verilmiş kəslərin kökslərində olan açıq-aydın ayələrdir. Bizim ayələrimizi ancaq zalımlar inkar edirlər (Ənkəbut, 48-49).

**İzah:** Quranın ecaz yönlərindən biri odur ki, onu gətirən, yəni əzəmətli İslam peyğəmbəri (s) heç vaxt məktəbə getməmiş və təhsil almamışdır. Buna görə də bir çox elmi məsələləri də ehtiva edən, alimləri və ziyalıları öz süfrəsi ətrafına toplayan bir kitab gətirmək vəhydən başqa yolla mümkün deyildi. Qeyd edək ki, Peyğəmbərin (s) "ummi" olmasını onun savadsız olması kimi izah etmək yanlışdır. Çünki o, Allahın sonsuz elmindən faydalanmışdı. Hətta yazmağı və oxumağı da bu yolla öyrənmişdi. "Ummi" dedikdə məqsəd odur ki, o həzrət heç vaxt hamı kimi təhsil almamış, müəllim görməmişdir. Bu da o həzrət (s) üçün bir nöqsan deyildi. Çünki bunun hikməti var idi və bu hikmətə yuxarıdakı ayədə də işarə olunmuşdur.

**Hədis:** İmam Rza (ə) – Peyğəmbəri (s) vəsf edərkən – buyurur: "O, bir kitabı öyrənmədi, heç bir müəllim yanına

getmədi, amma elə bir kitab gətirdi ki, onda bütün peyğəmbərlərin əhvalatı var idi, keçmişdə yaşayanların və Qiyamətə qədər gələcəklərin əhvalatı qeyd olunmuşdu (Üyuni-əxbari-Rza, c. 1, səh. 167, hədis: 1).

## 66

### 3. Quranın ahəngdarlıq və ziddiyyətsizlik möcüzəsi

أَفَلَا يَتَدَبَّرُونَ الْقُرْآنَ وَلَوْ كَانَ مِنْ عِنْدِ غَيْرِ اللَّهِ لَوَجَدُوا فِيهِ اخْتِلَافًا كَثِيرًا

Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar (Nisa, 82).

**İzah:** İslam düşmənlərinin Peyğəmbərə (s) qarşı irəli sürdüyü ittihamlardan biri bu idi ki, Quran keçmiş İran və Rum miflərindən iqtibas olunmuşdur. Yaxud, Peyğəmbər (s) Şama səfərə gedərkən kitab-əhlinin alimlərindən öyrənmişdir (Nəhl, 103). Bu ayə onlara cavab olaraq nazil olmuş və Quranın ecaz yönlərindən birinə işarə edir. Əgər Quran bəşər yazısı və təlimləri kimi olsaydı, müəllifin əhvalının və şəraitinin dəyişməsi ilə dəyişməli idi. Amma Quran 23 il ərzində və müxtəlif şəraitlərdə – müharibə, sülh, qürbət, şöhrət, güc, zəiflik və s. eniş-yoxuşlarda nazil olmasına baxmayaraq, onun göstərişlərində heç bir ixtilaf və təzad yoxdur. Bu onu göstərir ki, bu kitab vahid bir qaynaqdan mənşə almışdır. Ecazın bu yönünə "ayələrin ahəngdarlığında ecaz" deyilir.

**Hədis:** İmam Əli (ə): "Quran ayələri bir-birini təsdiq edir və inkar etmir" (İhticac, səh. 259).

## 67

## Quranın xüsusiyyətləri

### Quran hidayət kitabıdır

هَٰذَا بَيَانٌ لِلنَّاسِ وَهُدًى وَمَوْعِظَةٌ لِلْمُتَّقِينَ

Bu, insanlar üçün bir açıqlama, pəhrizkarlar üçün doğru yolu göstərən rəhbər və öyüd-nəsihətdir (Ali-İmran, 138).

**İzah:** Quran insanları hidayət edən, ağrılı sinələrə şəfa verən və qaranlıqları yaran bir nurdur. Nə çox müdrik insanlar var ki, bu geniş ilahi ziyafət süfrəsinin başında əyləşmiş və onun sonsuz bilik və maarif xəzinəsindən qidalanırlar. Quranın axar suyu yalnız nazil olduğu dövrün insanlarını yox, həm də əbədiyyətə qədər bilik və nur təşnələrini doyuracaqdır. Məhz İslam peyğəmbərinin (s) bu əbədi möcüzəsinin mübarizəyə çağırış sədası hələ də müxaliflərin və inadkarların səsini boğazında qısmış və İslam dininin haqq olmasını sübuta yetirmişdir. Bu böyük ilahi kəlamı Allahın müqəddəs zatından qeyri kimsə vəsf edə bilməz. Odur ki, Quranın bir çox ayələri öz əzəmətini və vəsflərini bəyan etmişdir. Yuxarıdakı ayədə Quranın üç adına işarə olunmuşdur: 1. Bəyan: insanın bütün ehtiyaclarını açıqlayan və izah edən; 2. Hudən: pəhrizkarları hidayət edən, onlara doğru yolu göstərən; 3.

Moizə: yaxşılıqları və xeyir əməlləri nəsihət edən, öyüd verən.

**Hədis:** İslam peyğəmbəri (s): "Zamanın fitnələri sizi qaranlıq gecə parçaları kimi əhatə edəndə Quranın hidayət nuruna sığının" (Kafi, c. 2, səh. 599, hədis: 2).

## 68

## Quran möminlərə şəfadır

وَنُنَزِّلُ مِنَ الْقُرْآنِ مَا هُوَ شِفَاءٌ وَرَحْمَةٌ لِلْمُؤْمِنِينَ وَلَا يَزِيدُ الظَّالِمِينَ إِلَّا خَسَارًا

Biz Quranda möminlər üçün şəfa və mərhəmət (olan ayələr) nazil edirik. (Bu ayələr) zalımların ancaq ziyanını artırır (İsra, 82).

**İzah:** Quran insanı daxildən silkəyən bir öyüddür. Ürəkləri günaha aludəlikdən və şirkə bulaşmaqdan təmizləyən şəfaverici bir dərmandır. Cəhalət və xurafat zülmətlərini yaran parlaq bir çıraqdır. Möminlər üçün rəhmət səbəbi, kafir və könlü kor olanlar üçün daha çox uzaqlaşma vasitəsidir. Bəli, kim Quran ayələrinə əməl edib, onun məfhumlarına can-dildən inansa, Allahın mərhəməti ona nazil olacaq, ruhi və fiziki ağrıları dincələcəkdir. Digər tərəfdən, kim bu geniş nemət süfrəsindən faydalanmasa, onun hökmlərinə və maarifinə laqeyd yanaşsa, onun azğınlığı artacaqdır. Çünki artıq ona dəlillər tamamlanmış (bəhanəsi kəsilmiş), nemət əzaba çevrilmişdir.

**Hədis:** İmam Baqir (ə): "Quran qariləri (qiraətçiləri) üç dəstəyə ayrılır: Birinci dəstə Quranı peşə olaraq faydalanmaq, padşahlardan muzd almaq və xalq arasında fəxr etmək üçün oxuyanlardır; İkinci dəstə Quranı oxuyan, sözlərini əzbərləyən, amma ona əməl etməyənlərdir; Üçüncü dəstə (şəfa tapsınlar deyə) Quranın şəfaverici

məcununu xəstə qəlblərinə sürtənlərdir” (Kafi, c. 2, səh. 627, hədis: 1).

## 69

### Quran bəşəriyyətin bütün ehtiyaclarını bəyan edir

وَنَزَّلْنَا عَلَيْكَ الْكِتَابَ تِبْيَانًا لِكُلِّ شَيْءٍ وَهُدًى وَرَحْمَةً وَبُشْرَىٰ لِلْمُسْلِمِينَ

Biz kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara (Allah fərmanına təslim olanlara) da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik (Nəhl, 89).

**İzah:** Quran insanın inkişaf və təkamül yolunda ehtiyacı olan heç bir mətləbi əsirgəməmişdir. Elə bir mövzu yoxdur ki, Quranda onun üçün dini çıxış yolu göstərilməsin. Hərçənd, bu çıxış yolu ümumi şəkildə də bəyan oluna bilər. Həmçinin, Quran möminlər üçün böyük bir rəhmət, vəsfəgəlməz bir müjdədir. O kəslər ki, aləmlərin Rəbbinə tam təslim olur, Quran maarifindən qidalanırlar.

**Hədis:** İmam Sadiq (ə): "Həqiqətən, Allah Quranda hər şeyi aydın ifadə etmişdir. Allaha and olsun ki, bəndələrinin ehtiyacı olan heç bir şeyi əsirgəməmişdir. Elə bir məsələ yoxdur ki, bir bəndə bəhanə gətirsin və "əgər bu mətləb Quranda nazil olsaydı, (mən ona əməl edərdim)" – deyə bilsin" (Kafi, c. 1, səh. 59, hədis: 1).

## 70

## Quran ən üstün kəlamdır

اللَّهُ نَزَّلَ أَحْسَنَ الْحَدِيثِ كِتَابًا مُتَشَابِهًا مَثَانِيَ تَقْشَعِرُّ مِنْهُ جُلُودُ الَّذِينَ يَخْشَوْنَ رَبَّهُمْ ثُمَّ تَلِينُ جُلُودُهُمْ وَقُلُوبُهُمْ إِلَىٰ ذِكْرِ اللَّهِ ذَٰلِكَ هُدَى اللَّهِ يَهْدِي بِهِ مَنْ يَشَاءُ ۚ وَمَنْ يُضْلِلِ اللَّهُ فَمَا لَهُ مِنْ هَادٍ

Allah Sözün ən gözəlini – (ayələri) bir-birinə bənzəyən və təkrarlanan kitab kimi nazil etdi. Rəbbindən qorxanların ondan dəriləri ürpəşər. Sonra isə Allahı yad etməklə dəriləri və qəlbləri yumşalır. Bu, Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldir. Allahın zəlalətə saldığı şəxsə isə yol göstərən olmaz (Zumər, 23).

**İzah:** Qurani-kərim ən gözəl kəlamdır. Ayələri bir-birini təsdiq edir. Onda təzad və ziddiyyətdən heç bir əsər-əlamət yoxdur. Bənzərsiz fəsahət və valehediciliyə malikdir. Əzab ayələri möminləri qorxuya salar, könül oxşayan savab ayələri isə onları Allahın lütfünə ümidvar edər.

**Hədis:** İslam peyğəmbəri (s): "Quranın digər sözlərdən üstün olması, Allahın Öz məxluqatından üstün olması kimidir" (Camiul-əxbar, səh. 40).

**71**

## Quran haqq və batili ayırd edəndir

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ تَبَارَكَ الَّذِي نَزَّلَ الْفُرْقَانَ عَلَىٰ عَبْدِهِ لِيَكُونَ لِلْعَالَمِينَ نَذِيرًا

Aləmləri xəbərdar etməsindən ötrü Öz quluna Furqanı (Quranı) nazil edən (Allah) necə də xeyirxahdır! (Furqan, 1).

**İzah:** Quranın adlarından biri "Furqan"dır. Furqan haqq və batili ayıran deməkdir. Quran həqiqətin xüsusiyyətlərini bəyan etməklə və həqiqət əhlini vəsf etməklə hamının bəhanəsini kəsmişdir. Qeyd edək ki, "لِلْعَالَمِينَ" (lil-aləmin) ifadəsi Quranın dəvətinin cahanşümul olmasını və bu müqəddəs kitabın dövrlərin fövqündə olmasını göstərir.

**Hədis:** İmam Əli (ə): Allah rəsulunun (s) belə dediyini eşitdim: "Cəbrayıl mənim yanıma gəldi və bildirdi ki, sənin ümmətin böyük bir fitnəyə düçar olacaq". "Ondan çıxış yolu nədir?" – deyə soruşdum. "Allahın kitabı" – deyə cavab verdi". (Təfsiri-Əyyaşi, c. 1, səh. 3, hədis: 2).

## 72

## Dağın Quranın əzəmətindən parçalanması

لَوْ أَنْزَلْنَا هَٰذَا الْقُرْآنَ عَلَىٰ جَبَلٍ لَرَأَيْتَهُ خَاشِعًا مُتَصَدِّعًا مِنْ خَشْيَةِ اللَّهِ وَتِلْكَ الْأَمْثَالُ نَضْرِبُهَا لِلنَّاسِ لَعَلَّهُمْ يَتَفَكَّرُونَ

Əgər Biz bu Quranı dağa nazil etsəydik, sən onun Allahın qorxusundan boyun əyib parça-parça olduğunu görərdin. Biz bu misalları insanlar üçün çəkirik ki, bəlkə, fikirləşələr (Həşr, 21).

**İzah:** Yuxarıdakı ayə bəzi bəndələrin oyadıcı ayələr qarşısında daşürəkli olmasına təəccübünü bildirir və təsirli ifadələrlə bəyan edir ki, əgər Quran dağa nazil olsaydı, dağ bütün böyüklüyünə və möhkəmliyinə rəğmən Allahın qorxusundan parça-parça olar və titrəyərdi. Bəs necə olur ki, bu xəbərsiz insanların qəlbinə nüfuz etmir. Bəli, Quran Allahın təcəllasıdır. Əgər Allahın təcəllası bir məxluqa təqdim olunsa, ona tab gətirə bilməz və parça-parça olar. Bunun nümunəsini Bəni-İsrailin Allahı görmək tələbinə verilən cavabda görürük (Əraf, 143). Həqiqətən, belə bir həqiqət hər bir yatan insanı oyadar, hər bir qafili özünə gətirər.

**Hədis:** İmam Əli (ə): "Allah Quranda Öz sifətlərinin təcəllasını – bəndələri Onu görmədən – sərgiləmişdir. (Kafi, c. 8, səh. 387, hədis: 586).

## 73

### Quranın mahiyyətini anlamaq üçün təharətin zərurəti

فَلَا أُقْسِمُ بِمَوَاقِعِ النُّجُومِ وَإِنَّهُ لَقَسَمٌ لَوْ تَعْلَمُونَ عَظِيمٌ إِنَّهُ لَقُرْآنٌ كَرِيمٌ فِي كِتَابٍ مَكْنُونٍ لَا يَمَسُّهُ إِلَّا الْمُطَهَّرُونَ تَنْزِيلٌ مِنْ رَبِّ الْعَالَمِينَ

Ulduzların batdığı yerlərə and olsun! Kaş bunun, doğrudan da, böyük bir and olduğunu biləydiniz. Həqiqətən, bu, ehtirama layiq Qurandır, qorunub saxlanılan Yazıdadır (Lövhi-məhfuzdadır). Ona yalnız pak olanlar toxunur. O, aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir (Vaqiə, 75-80).

**İzah:** Quranın həqiqəti hamı üçün anlaşılan deyil. Onun dərin maarif və sirlərini yalnız o adamlar dərk edə bilər ki, batinlərini hər növ aludəlikdən təmizləmiş, etiqadda və əməldə pak olmuşlar. Bəzi rəvayətlərə görə, 79-cu ayədə məqsəd zahiri təharət (qüsl və dəstəmaz) olmadan Qurana toxunmağın haram olmasıdır.

**Hədis:** İmam Əli (ə) – yuxarıdakı ayəni oxuduqdan sonra – buyurmuşdur: "Ayədə məqsəd odur ki, bütün Quranı yalnız aludəliklərdən paklananlar anlayarlar. Məqsəd biz Əhli-beytik (ə). Çünki Allah bütün çirkinlikləri bizdən uzaq etmiş və bizi paklamışdır (Əhzab surəsinin 33-cü ayəsinə işarədir)" (Biharul-ənvar, c. 33, səh. 370).

## 74

## Quran yolu ən doğru yoldur

إِنَّ هَٰذَا الْقُرْآنَ يَهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ وَيُبَشِّرُ الْمُؤْمِنِينَ الَّذِينَ يَعْمَلُونَ الصَّالِحَاتِ أَنَّ لَهُمْ أَجْرًا كَبِيرًا

Həqiqətən, bu Quran (bütün bəşəriyyəti) ən doğru yola (İslama) yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir! (İsra, 9).

**İzah:** Quran doğru yolu bəyan edir. Yəni insanın kamilləşməsi üçün ən doğru və ən dayanıqlı yola dəvət edir. Quran batil sözün ona yol tapa bilmədiyi, sapma və təmayüldən uzaq olan bir kitabdır. Quran insan fitrətini Allaha doğru oyadan kitabdır. Odur ki, onun ismarışı insanın ehtiyacı ilə səsləşir. Qeyd edək ki, bəzi rəvayətlərdə Quranın hidayət etdiyi yol Əhli-beytin (ə) vilayət yolu olaraq göstərilmişdir. Bu mətləb Quran və Əhli-beytin (ə) tam uzlaşmasından xəbər verir.

**Hədis:** İmam Səccad (s): "Məsum imam (bəndələri) Qurana doğru yönləndirir, Quran isə imama doğru hidayət edir" (Məanil-əxbar, səh. 132, hədis: 1).

## 75

## Quranın əbədi olması

...وَأُوحِيَ إِلَيَّ هَٰذَا الْقُرْآنُ لِأُنْذِرَكُمْ بِهِ وَمَنْ بَلَغَ...

Bu Quran mənə vəhy olundu ki, onunla sizi və onun çatacağı hər kəsi xəbərdar edim (Ənam, 19).

**İzah:** Quran cahanşümul və əsrlərin fövqündə duran bir kitabdır. Quranın ismarışı bütün əsrlərdə insanların zəka və fitrətinə əsaslanır. Quranın dərin və zəngin məzmunu dünyanın elm adamlarını heyrətə gətirir. Sözlərinin təravəti və bəyanının təsiri onu oxumağın şirinliyini qoruyur. Yuxarıdakı ayə Peyğəmbərin (s) sonuncu olmasından əlavə həm də Quranın əbədi və əsrlərin fövqündə olmasına dəlalət edir. Bu mətləb, "وَمَنْ بَلَغَ" (və mən bələğə) – onun çatacağı hər kəsi – ifadəsinin geniş mənasından anlaşılır.

**Hədis:** İmam Sadiq (ə): "Allah Quranı müəyyən bir zaman və ya xalq üçün nazil etmədi. Buna görə də Qiyamətə qədər hər bir dövrdə yeni və hər bir qövm üçün təravətlidir" (Üyuni-əxbari-Rza, c. 2, səh. 87, hədis: 22).

## 76

## Quranın təhrif olunmaması

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu (təhrifdən) qoruyacağıq (Hicr, 90).

**İzah:** Müsəlmanların müqəddəs kitabı Quran yeganə səmavi kitabdır ki, bəşər ona toxuna (onu dəyişə) bilməmiş, ilahi kəlamı heç bir dəyişiklik olmadan, artırılıb-əskilmədən özündə toplamış və bəşəriyyətin ixtiyarına vermişdir. Təhrif iki növ olur: sözün təhrifi və mənanın təhrifi. Sözün təhrifi mətnin söz və ifadələrinin dəyişdirilməsi, mənanın təhrifi isə yanlış və şəxsi izahdır. Quranın təhrif olunmamasının dəlilləri həm əqlidir, həm də nəqli. Əqli dəlil odur ki, İslam dini sonuncu din, Quran isə sonuncu və Qiyamətə qədər bütün bəşəri ehtiyacları ehtiva edən səmavi kitabdır. Buna görə də mətni təhrifdən amanda qalmalıdır ki, hamı onun nurani mənbəyindən faydalana bilsin. Nəqli dəlil isə tarixi sübutdan və ayələrin hər birinin mütəvatir olmasından başqa, bu ayədir. Belə ki, Allah onda Özünü Quranın təhrifdən qoruyan kimi təqdim etmişdir. Quranın təhrif olunmamasının başqa bir dəlili isə Quranı Qiyamətə qədər bəşəriyyət üçün hidayət çırağı adlandıran rəvayətlərdir.

**Hədis:** İmam Əli (ə): "Allah-Taala Quran kitabını Peyğəmbərə (s) sönməyən nur və işığı kəsilməyən çıraq olaraq nazil etdi" (Nəhcül-bəlağə, xütbə: 198).

## 77

## Quranın Qədr gecəsində bir dəfədə nazil olması

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيم

إِنَّا أَنْزَلْنَاهُ فِی لَيْلَةِ الْقَدْرِ وَمَا أَدْرَاکَ مَا لَيْلَةُ الْقَدْرِ لَيْلَةُ الْقَدْرِ خَيْرٌ مِنْ أَلْفِ شَهْرٍ تَنَزَّلُ الْمَلائِكَةُ وَالرُّوحُ فِيهَا بِإِذْنِ رَبِّهِمْ مِنْ كُلِّ أَمْرٍ سَلامٌ هِیَ حَتَّى مَطْلَعِ الْفَجْرِ

Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsində nazil etdik! Sən haradan biləsən ki, Qədr gecəsi nədir? Qədr gecəsi min aydan xeyirlidir. O gecə Rəbbinin izni ilə mələklər və Ruh hər işə görə (yerə) enirlər. O gecə sübh açılanadək əmin-amanlıq olur. (Qədr surəsi).

**İzah:** Tarix şahiddir ki, Quran Peyğəmbərə (s) tədriclə və iyirmi üç il ərzində nazil olmuşdur. Digər tərəfdən, "Bəqərə" surəsinin 185-ci ayəsində və eləcə də "Qədr" və "Duxan" surələrinin ilk ayələrində bütöv Quranın Ramazan ayında və Qədr gecəsində nazil olduğu bildirilir. Bu iki mətləbdən anlaşılır ki, Quranın iki nazilolma prosesi olmuşdur: 1. Tədrici nazilolma. Quranda bu növ nazilolma adətən "تنزيل" (tənzil) ifadəsi ilə verilir (İsra, 106). 2. Birdəfəlik nazilolma. Quranda bu növ nazilolma "إنزال" (inzal) ifadəsi ilə verilir. Quranın bir dəfədə nazil olmasının mahiyyəti əlaqəli kitablarda izah olunmuşdur.

**Hədis:** İmam Baqir (ə): "Ey şiələr! Öz müxaliflərinizə "Qədr" surəsi ilə dəlil gətirin. Bu zaman qələbə

çalacaqsınız. Bu surə Allahın Peyğəmbərdən (s) sonra camaata höccətidir” (Kafi, c. 1, səh. 249, hədis: 6).

78

## Quran tilavətinin bəzi qaydaları

### 1. Daimi ünsiyyət

فَاقْرَءُوا مَا تَيَسَّرَ مِنْهُ

Qurandan sizə müyəssər olanı oxuyun (Muzzəmmil, 20).

**İzah:** İnsan heç zaman Quranla ünsiyyətdən ehtiyacsız olmayacaq. Çünki onun zəngin elmi və tərbiyəvi məzmunu insanın dünya və axirət həyatının ən mühüm ehtiyaclarının cavabıdır. Bu ayələrdə möminlərdən istənilir ki, Quranı bacardıqları qədər oxusunlar və bu müqəddəs kitabla ünsiyyətdə olmağa səhlənkarlıq etməsinlər. Məlumdur ki, Quranla ünsiyyət dedikdə onun təkcə zahiri oxunuşu və ya əzbərlənməsi ilə kifayətlənmək yox, həm də Quranın göstərdiyi əxlaq və ədəb normalarına riayət etmək nəzərdə tutulur. Məsumların (ə) və ilahi alimlərin davranışı da onların Quranla yaxın ünsiyyətdə olmasını və davamlı olaraq onu oxmasını göstərir. Qeyd edək ki, İslam rəvayətlərində uşaqların və yeniyetmələrin Quranla daim ünsiyyətdə olması çox təkid olunmuşdur. Beləcə, onların təmiz və pak qəlbi, canı-qanı Quranın könül oxşayan ayələri ilə yoğrulacaqdır.

**Hədis:** İmam Sadiq (ə): "Gənclikdə Quran öyrənənin qanı-canı onunla yoğrulmuş olur" (Kafi, c. 2, səh. 603, hədis: 4).

## 79

### 2. Xuzu və xuşu

قُلْ آمِنُوا بِهِ أَوْ لَا تُؤْمِنُوا إِنَّ الَّذِينَ أُوتُوا الْعِلْمَ مِنْ قَبْلِهِ إِذَا يُتْلَىٰ عَلَيْهِمْ يَخِرُّونَ لِلْأَذْقَانِ سُجَّدًا

De: "İstər ona inanın, istərsə də inanmayın. Doğrudan da, ondan əvvəl özlərinə elm verilmiş kimsələrə, (ayələr) oxunduğu zaman üzüstə səcdəyə qapanır" (İsra, 107).

**İzah:** Quranı oxumağın bəzi ədəb qaydaları var. Yaxşı olar ki, bütün müsəlmanlar ona diqqət etsinlər və Quranı oxumağın mənəvi təsirlərindən məhrum qalmasınlar. İlk mərhələdə Quran qarşısında xuzu və xuşuya riayət olunmalıdır. Xuşu və xuzuda məqsəd qəlbən təsirlənmək və bu təsirlənməninin nəticəsinin özünü bədən üzvlərində də göstərməsidir. Quranı oxuyan özünü Allahın hüzurunda hiss etməli və Quranı oxumaqla Allaha yaxınlaşma hissi keçirməlidir. O, könül oxşayan ilahi ayələri oxuyarkən elə təsirlənməli və (qəflətdən) oyanmalıdır ki, ayələrin məzmununa uyğun olaraq kədərlənməli, şadlanmalı və həqiqətən Quran ayələrindən faydalanmalıdır. Belə ki, tilavəti bitirdikdən sonra özündə mənəvi inkişaf hiss etməlidir.

**Hədis:** İslam peyğəmbəri (s): "Bu ürəklər də dəmir kimi paslanır". Soruşdular: "Ey Allahın rəsulu! Onu cilalayan

nədir?" Buyurdu: "Allahı yad etmək və Quran oxumaq" (Dəəvat, Ravəndi, səh. 273, hədis: 662).

**80**

## 3. Düşünmək

كِتَابٌ أَنْزَلْنَاهُ إِلَيْكَ مُبَارَكٌ لِيَدَّبَّرُوا آيَاتِهِ وَلِيَتَذَكَّرَ أُولُو الْأَلْبَابِ

(Bu) mübarək kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik (Sad, 29).

**İzah:** Bu ayədə Quranın nazil olmasında məqsəd onun ayələri haqqında düşünmək olduğu bəyan olunmuşdur. Quran haqqında düşünmək dedikdə ayələrdə işarə olunan məqsəd və hədəflər haqqında düşünmək nəzərdə tutulur. Ayələr haqqında düşünməklə birgə olmayan tilavətin faydası azdır. Sanki bir insan dəyərli qızıl və cavahirat xəzinəsi tapır, amma ona baxmaq və onu saymaqla kifayətlənir, ondan götürmür. "Məhəmməd" surəsinin 24-cü ayəsində ayələr haqqında düşünməmək qəlblərin qıfıllanması və qəflət nişanəsi kimi dəyərləndirilmişdir. Təəssüflər olsun ki, bəzi müsəlmanlar təcvid, avaz və s. müqəddimələrə tilavətin məqsədindən daha çox önəm verirlər. Başqa sözlə, tilavətin zəruri müqəddimələrini öyrənir, özlərini o mərhələdə də saxlayırlar.

**Hədis:** İmam Əli (ə): "Düşünmədən tilavət etməyin xeyri yoxdur" (Mişkatul-ənvar, səh. 138).

81

### 4. Quranı aramla oxumaq (tərtil)

وَرَتِّلِ الْقُرْآنَ تَرْتِيلًا

Quranı da aramla oxu! (Muzzəmmil, 4).

**İzah:** Quran qiraətinin ən mühüm qaydalarından biri tərtildir. Quranda yer alan bu ifadə bugünkü qarilərin (qiraətçilərin) qiraət fənnində işlətdiyi terminoloji məna ilə fərqlənir. "Tərtil" sözü əslində nəzmə çəkmək mənasını ifadə edir. Rəvayətlərdə Quranı aramla, lazımi ardıcıllıqla, hərfləri düzgün tələffüz edərək, gözəl, ürəyəyatan və həzin səslə, sözləri aydın ifadə edərək və daha önəmlisi ayələrin mənalarını düşünərək, onların qarşısında xuzu və xuşu göstərərək oxumaq kimi verilmişdir. Bizim din alimlərimiz və Quransevərlərimiz Quranı başdansovdu və diqqətsiz çox oxumaqdan çəkindirmiş, çox oxumağı təkidlə yanaşı qeyd etmişlər ki, tərtillə və düşünərək az oxumaq, tez-tez çox oxumaqdan daha yaxşı və Quranın məqsədinə daha uyğundur.

**Hədis:** İmam Əli (ə) – tərtilin mənasını izah edərkən – : "Onu yaxşı bəyan et, şeir kimi tələsik oxuma. Onu qum kimi səpələmə. Əksinə, daş qəlblərə onunla qorxu sal. Heç birinizin səyi yalnız surəni sona yetirmək olmasın" (Kafi, c. 2, səh. 61, hədis: 1).

**82**

## 5. Quranı əzbərləməyə çalışmaq

وَلَقَدْ يَسَّرْنَا الْقُرْآنَ لِلذِّكْرِ فَهَلْ مِنْ مُدَّكِرٍ

And olsun ki, Biz Quranı (ondan) ibrət almaq (öyüd-nəsihət qəbul etmək) üçün belə asanlaşdırdıq. Amma bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?! (Qəmər, 17).

**İzah:** Bu ayə "Qəmər" surəsində dörd dəfə qeyd olunmuş, bəndələri böyük Quran nemətindən faydalanmağa səsləmişdir. Quranın digər səmavi kitablara nisbətdə imtiyazı odur ki, yüksək və mürəkkəb həqiqətləri hamı üçün aydın və anlaşılan dillə ifadə etmişdir. Quran yalnız din alimlərinə xas kitab deyil. Əksinə, ümumi xalq öz müxtəlif düşüncə səviyyələrinə uyğun olaraq ondan faydalanırlar. Quranın dili (ifadə tərzi) cahanşümul fitrət dilidir. Asan, anlaşılan, özündə daxili və xarici dəlillərə yer verən dildir.

Yuxarıdakı ayədən Quranın başqa bir imtiyazı da aydın olur. O, budur ki, səmavi kitablar arasında yalnız Quran ifadəliliyi, ədəbi çəkiciliyi və məzmunu etibarilə əzbərlənilən və tilavət olunandır. Bir çox təfsirçilər "ذكر" (zikr)də məqsədin – ibrət və öyüd almaqdan başqa – əzbərləmək olduğunu da bildirmişlər.

**Hədis:** İmam Sadiq (ə): “Qurana əməl edən Quran hafizi Allahın əziz və əməlisaleh elçiləri ilə birgə olacaqdır” (Kafi, c. 2, səh. 603, hədis: 2).

83

## 6. Şeytandan Allaha sığınmaq (istiazə)

فَإِذَا قَرَأْتَ الْقُرْآنَ فَاسْتَعِذْ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ

Quran oxuduqda qovulmuş şeytandan Allaha sığın! (Nəhl, 97).

**İzah:** Quran oxumaq Allahla ünsiyyətdir. Məlumdur ki, Allahla ünsiyyətdə olmaq və dərin Quran ayələrinə qulaq vermək üçün ruhun təmizliyinə və nəfsani aludəliklərdən uzaq olmağa ehtiyac var. Digər tərəfdən əxlaqi qəbahətlərdən uzaq olmaq və Quran mənəviyyatını qəbul etməyə hazır olmaq üçün Allahın lütf və mərhəmətinə ehtiyac var. Buna görə də yaxşı olar ki, qiraətçi tilavətin başlanğıcından sonuna qədər Allaha sığınsın və bununla da nəfsin vəsvəsə hədəfindən, İblisin gizli və aşkar hiylələrindən amanda qalsın. Ucb, qürur, təkəbbür və qəflət insana Allahı və layiqli Quran tilavətini unutduran ən mühüm amillərdir.

**Hədis:** İmam Sadiq (ə): "Günah qapılarını istiazə ilə (Şeytandan Allaha sığınmaqla) bağlayın və itaət qapılarını Allahın adı ilə açın" (Dəəvat, Ravəndi, səh. 52, hədis: 130).

## 84

### 7. Qulaq asmaq və susmaq

وَإِذَا قُرِئَ الْقُرْآنُ فَاسْتَمِعُوا لَهُ وَأَنْصِتُوا لَعَلَّكُمْ تُرْحَمُونَ

Quran oxunduğu zaman onu dinləyin və susun ki, bəlkə sizə rəhm olunsun (Əraf, 204).

**İzah:** Quranla bağlı ədəb qaydalarından biri onu eşidərkən susmaq və dinləməkdir və bu, bəzən vacib olur. Ayədə sözügedən "استماع" (istima) ifadəsi qəlbən qəbul edərək qulaq asmaq deməkdir. "انصات" (insat) isə sükut sözünün sinonimidir və qulaq asmağın müqəddiməsidir. Demək, bu Quran ədəbinin mənası odur ki, Quran ayələrinə qulaq asıb, onun ismarışını almaq üçün diqqəti bir yerə toplamaq lazımdır. Quran bir çox ayələrdə bildirmişdir ki, həqiqi pəhrizkarlar və möminlər Quran ayələrini dinləyəndə ruhi və mənəvi dəyişiklik yaşayır, bəzən xuzu və xuşunun çoxluğundan səcdəyə düşürlər. Yaxşı olar ki, möminlər Quran məclislərində bu Quran ədəbinə riayət etsinlər. Qeyd edək ki, yuxarıdakı ayənin mənası məşhur mənadan daha geniş və əhatəlidir. Əslində bu ayə bütün müsəlmanların hər birinə müraciət edir ki, cəmiyyətdə meydana çıxan mövzu və məsələlərdə Quranın baxışını bütün baxışlara tərcih etsinlər, Qurana zidd bir söz deməsinlər.

**Hədis:** İslam peyğəmbəri (s): “Bilin ki, Allahın həsrətində olan Onun kəlamını (Quranı) dinləməlidir” (Kənzül-ümmal, c. 1, səh. 551, hədis: 2472).

## 85

## Peyğəmbərin (s) Quranın tərk edilməsindən şikayətlənməsi

وَقَالَ الرَّسُولُ يَا رَبِّ إِنَّ قَوْمِي اتَّخَذُوا هَٰذَا الْقُرْآنَ مَهْجُورًا

Peyğəmbər: "Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!" – deyəcək (Furqan, 30).

**İzah:** Quran müsəlmanların mənəvi sərmayəsi və İslam peyğəmbərinin (s) həmişəyaşar əmanətidir. Belə ki, dəfələrlə ümmətinə ona sarılmağı tövsiyə etmişdir. Amma təəssüflər olsun ki, İslam cəmiyyətləri bu önəmli hidayət dayağını tərk etmiş, onun hökmlərinə və maarifinə əməl etmirlər. Quran, həm tilavətdə, həm əzbərlənmədə, həm təfsirdə, həm düşünməkdə, həm də əməldə tərk edilmişdir. Təəssüflər olsun ki, ömründən günlər, aylar və hətta illər keçən, amma Qurandan bir ayə belə oxumayanlar az deyil. Yuxarıdakı ayə Peyğəmbərin (s) Quranı tərk edən bir qrup müsəlmandan şikayətini ifadə edir. Diqqət olunası məqam budur ki, ayəyə görə, Peyğəmbər (s) "Ümmətim Quranı tərk etdi", – demir. Əksinə, buyurur: "Ümmətim Quranı ixtiyarına aldı və tərk etdi". Yəni zahirdə Quran oxudu, Qurandan danışdı, amma onun göstərişlərinə əməl etmədi.

**Hədis:** İmam Sadiq (ə): "Üç şey var ki, (Qiyamətdə) Allaha şikayət edəcəkdir: 1. Namaz qılınmayan dağılmış

məscid; 2. Nadanlar arasında qalan alim; 3. Üstünü toz basan və oxunmayan Quran” (Kafi, c. 2, səh. 613, hədis: 3).

## Dördüncü fəsil

## İmamət

Aşağıdakı mövzuları ehtiva edir:

- İmamətin əqli və nəqli dəlilləri
- İmamların (ə) məsumluğunun dəlilləri
- Həzrət Əlinin (ə) imam olmasının dəlilləri
- Əhli-beytin (ə) fəzilətləri
- Mehdilik və İmam Zaman (ə)
- Təvəlla və təbərra

## 86

## İmamətin əqli və nəqli dəlilləri

### Ən layiqli fərdə tabe olmağın əqli zərurəti

قُلْ هَلْ مِنْ شُرَكَائِكُمْ مَنْ يَهْدِي إِلَى الْحَقِّ قُلِ اللَّهُ يَهْدِي لِلْحَقِّ أَفَمَنْ يَهْدِي إِلَى الْحَقِّ أَحَقُّ أَنْ يُتَّبَعَ أَمَّنْ لَا يَهِدِّي إِلَّا أَنْ يُهْدَىٰ فَمَا لَكُمْ كَيْفَ تَحْكُمُونَ

De: "(Allaha) qoşduğunuz şəriklər arasında haqqa yönəldən bir kimsə varmı?" De: "Yalnız Allah (Öz qullarını) haqqa yönəldir. Elə isə (deyin görək) haqqa yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa özünə doğru yol göstərilməyincə onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə edirsiniz?" (Yunus, 35).

**İzah:** Yuxarıdakı ayənin mövzusu bir növ Allahın yeganəliyini əsaslandırmaqdır. Allah bu ayədə müşriklərdən soruşur ki, Allah kimi özü hidayət yolunu tapmış, xeyir və ziyanları bilən birinə tabe olmaq ağla uyğun və layiqlidir, yoxsa özündən belə xəbəri olmayan, bəndələri öz xeyirlərinə yönəldə bilməyən bütlərə? Şiə alimləri imamların (əsaslandırma) yolunu tutaraq, yuxarıdakı ayənin əsaslandırmasından imamətin sübutu üçün də istifadə etmişlər. Belə ki, Peyğəmbərdən (s) sonra bəndələri hidayət etmək və doğru yola yönəltmək üçün ilahi elmə malik və bəndələri kamillik və inkişaf mənzilinə çatdıra bilən məsum imamlardan (ə) daha yaxşı kim var?

**Hədis:** İmam Rza (ə): Allah başqalarına verMədiyi elm və hikmət xəzinələrini imamlara verdi. İmamlar dönəmlərinin ən üstün və ən bilici insanları idilər. Allah buyurur: "Elə isə (deyin görək) haqqa yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, ..." (Kafi, c. 1, səh. 202, hədis: 1).

## 87

### İnsanların öz imamları ilə çağırılması

وْمَ نَدْعُو كُلَّ أُنَاسٍ بِإِمَامِهِمْ فَمَنْ أُوتِيَ كِتَابَهُ بِيَمِينِهِ فَأُولَٰئِكَ يَقْرَءُونَ كِتَابَهُمْ وَلَا يُظْلَمُونَ فَتِيلًا

O gün bütün insanları öz başçıları ilə birlikdə çağıracağıq. (O zaman) kitabı sağ əlinə verilən kimsələr öz kitablarını (sevinclə) oxuyacaq və onlara xurma çəyirdəyindəki tel qədər zülm edilməyəcəkdir (İsra, 71).

**İzah:** Biz şiələrin inancına görə, Allah-Taalanın lütf və hikməti tələb edir ki, hər dövrdə bəndələri hidayət etmək üçün bir fərd seçsin. Başqa sözlə, peyğəmbərlərin göndərilməsini zəruri edən hikmət, imamların da göndərilməsini zəruri edir. Yuxarıdakı ayədə bildirilir ki, Qiyamətdə hər bir fərd məhşərə öz rəhbəri ilə gələcək və hesab verəcəkdir. Bu, rəhbərliyin insanların taleyində oynadığı önəmli rolu ifadə edir. Belə olan halda ən üstün və ən mükəmməl dini öndəri seçməliyik ki, mümkün azğınlıq və sapmalardan amanda qalaq. Bu özü hər bir əsrdə məsum imama və ilahi höccətə ehtiyacın zərurətinə sübutdur.

**Hədis:** İmam Sadiq (ə): "Qiyamət olanda Allah tərəfindən bir səs gələcək: "Kim dünyada hansı rəhbərə tabe olmuşsa, (indi də) o hara gedirsə (Cənnətə və ya

Cəhənnəmə), onun ardınca getsin” (Əmali, Tusi, səh. 64, hədis: 92).

## 88

### Əmr sahiblərinə itaətin vacib olması

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللَّهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الْأَمْرِ مِنْكُمْ فَإِنْ تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللَّهِ وَالرَّسُولِ إِنْ كُنْتُمْ تُؤْمِنُونَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا

Ey iman gətirənlər! Allaha və elçisinə itaət edin, həm də özünüzdən olan əmr sahiblərinə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və (Onun) elçisinə müraciət edin. Bu, (sizin üçün) daha xeyirli və nəticə etibarilə daha yaxşıdır (Nisa, 49).

**İzah: "**Əmr sahibləri" ayəsi imamətin və şiə imamlarının (ə) məsumluğunun sübutu üçün ən mühüm ayələrdən biridir. Bu ayəyə görə, Allah "Əmr sahibləri"nə itaət etməyi Özünə və elçisinə itaət etməklə bir tutmuş və möminlərdən bütün həyat məsələlərində onlara itaət etmələrini istəmişdir. Şiə və əhli-sünnə məxəzlərində çox sayda rəvayətlər nəql olunmuşdur ki, hamısı "Əmr sahibləri"ndə məqsədin məsum imamlar (ə) olduğunu göstərir. Hətta onların bir çoxunda imamların adı aydın ifadə olunmuşdur. Qeyd edək ki, bu ayə imamət prinsipinin sübutu üçün nəqli bir dəlildir. Belə ki, həm nazil olma səbəbini göstərən rəvayətlərlə birgə şiə imamlarının (ə) imamətini sübut edir, həm də onların məsum olması

zərurətini ifadə edir. Çünki onlara mütləq itaət əmri onların bütün işlərinin və məsum olmalarının təsdiqidir.

**Hədis:** İmam Səccad (ə): "Həqiqətən, Allah Peyğəmbərin (s) nəslindən pak insanları bütün yetkinlər üçün imam və rəhbər seçdi və onlara itaəti vacib etdi" (İmam Həsən Əskəriyə (ə) isnad edilən təfsir, səh. 99, hədis: 356).

## 89

### Bütün zamanlar üçün hidayətçinin olması

وَيَقُولُ الَّذِينَ كَفَرُوا لَوْلَا أُنْزِلَ عَلَيْهِ آيَةٌ مِنْ رَبِّهِ إِنَّمَا أَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ

Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" Sən ancaq xəbərdar edənsən. Hər qövmün bir yolgöstərəni vardır (Rəd, 7).

**İzah:** İmamət prinsipini sübut edən ayələrdən biri də "Ümmətin hidayətçisi (yolgöstərəni)" ayəsidir. Bu ayədə Allah Peyğəmbərə (s) müşriklərin müxalifət etməsinə qarşı təskinlik verməklə yanaşı o həzrətə müraciətlə bildirir ki, sən yalnız xəbərdar edənsən və onların hidayət olmaması ilə bağlı məsuliyyət daşımırsan. Hər bir qövmün hidayət edəni, yol göstərəni vardır. Şiə və sünni (məxəzləri) İbn Abbasdan nəql etmişlər ki, ayə nazil olduqdan sonra Peyğəmbər (s) mübarək əlini sinəsinə qoydu və buyurdu: "Mən xəbərdar edənəm". Sonra İmam Əliyə (ə) işarə etdi və buyurdu: "Sən isə hidayətçisən və möminlər sənin vasitənlə doğru yola yönələcəklər". Həmçinin bu ayədən anlaşılır ki, yer üzü heç zaman hidayətçisiz olmayacaqdır.

**Hədis:** İmam Sadiq (ə): "Əgər yer üzündə imam olmasa, (yer üzü) darmadağın olar" (Kafi, c. 1, səh. 179, hədis: 10).

## 90

## Musa (ə) tərəfindən qısa müddətlik canişin təyin olunması

وَوَاعَدْنَا مُوسَىٰ ثَلَاثِينَ لَيْلَةً وَأَتْمَمْنَاهَا بِعَشْرٍ فَتَمَّ مِيقَاتُ رَبِّهِ أَرْبَعِينَ لَيْلَةً وَقَالَ مُوسَىٰ لِأَخِيهِ هَارُونَ اخْلُفْنِي فِي قَوْمِي وَأَصْلِحْ وَلَا تَتَّبِعْ سَبِيلَ الْمُفْسِدِينَ

Biz Musaya otuz gecəlik vədə verdik və buna on (gecə də) əlavə etdik. Beləliklə də Rəbbinin təyin etdiyi vaxt qırx gecə oldu. Musa qardaşı Haruna dedi: "Camaatımın içərisində məni əvəz et, (onları) islah et və fəsad törədənlərin yoluna uyma!" (Əraf, 142).

**İzah:** Nübuvvət bəhsində qeyd etdik ki, peyğəmbərlər (ə) hidayət missiyasını həyata keçirməkdə heç bir səyi əsirgəməmiş, bütün varlıqları ilə ümmətlərinin azğınlıq zəminləri ilə mübarizə aparmışlar. Digər tərəfdən hər bir ümmətin azğınlığının mənşəyi dini rəhbərin olmaması və dini məsələlərdə ləyaqətsiz insanların ardınca gedilməsidir. Buna görə də qəbul etmək olmaz ki, əziz İslam peyğəmbəri (s) ümmətinin yolunu azmasından çox nigaran olduğu və İslam dininə zərbə vurmaq üçün fürsət axtaran çoxlu düşmənlərin olduğu halda özü üçün layiqli canişin seçməkdən qafil olsun və ümməti başlı-başına buraxsın. Yuxarıdakı ayə də Harunun Musanın (ə) olmadığı qısa bir zamanda onun canişini olmasından xəbər verir.

**Hədis:** İslam peyğəmbəri (s) – həzrət Əliyə (ə) müraciətlə – : "Sən mənim üçün, Harunun Musa üçün olduğu kimi olmana razı deyilsənmi? Lakin məndən sonra peyğəmbər yoxdur" (Əmali, Mufid, səh. 57, hədis: 2).

## 91

## İmamların (ə) məsum olmasının dəlilləri

### 1. Təthir ayəsi

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

Ey Əhli-beyt! (Şiə və sünni rəvayətlərinə görə, Məhəmməd (s), Əli, Fatimə, Həsən və Hüseyn (ə) nəzərdə tutulur) Allah sizdən günahınızı silib aparmaq və sizi tərtəmiz etmək istəyir (Əhzab, 33).

**İzah:** Daha öncə imamların məsumluğu ilə bağlı Quranda keçən dəlillərdən biri olaraq "Əmr sahibləri" ayəsinə işarə olundu. Bu mövzu ilə bağlı başqa bir ayə Əhli-beytin (ə) hər növ çirkinlikdən və aludəlikdən pak və təmiz olduğunu ifadə edən "Təthir" ayəsidir. Sünni və şiə rəvayətlərinin etirafına görə, beş əba əhli (ə) – həzrət Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn haqında nazil olan – bu ayə Allahın onları günahdan uzaq tutmaqla bağlı təkvini iradəsindən xəbər verir. Bu, o demək deyil ki, onların məsumluğu məcburidir və heç bir ixtiyarları yoxdur. Xeyr, iradi və şüurludur. Amma ilahi təsdiqin də bəzi mərtəbələrinə ehtiyac var.

**Hədis:** Ənəs ibn Malik (səhabə): “İslam peyğəmbəri (s) altı ay müddətində sübh namazını qılmaq üçün evdən çıxarkən Fatimənin (ə) qapısına çatanda buyururdu: “Ey mənim Əhli-beytim! Namaza hazırlaşın”. Sonra “Təthir” ayəsini oxuyurdu” (Sünəni-Tirmizi, c. 5, səh. 31, hədis: 2359).

## 92

## 2. Sınaq ayəsi

وَإِذِ ابْتَلَىٰ إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِنْ ذُرِّيَّتِي قَالَ لَا يَنَالُ عَهْدِي الظَّالِمِينَ

Rəbbi İbrahimi (bəzi) kəlmələrlə sınadığı zaman o, bunları tamamilə yerinə yetirdi. (Allah:) "Mən səni insanlara imam edəcəyəm!" – dedi. (İbrahim:) "Nəslimdən də (imam et)!" – dedi. (Allah:) "Zalımlar Mənim (onlarla) əhd (bağlamağıma) nail olmazlar!" – dedi (Rum, 30).

**İzah:** Bu ayə həzrət İbrahimə (ə) ağır ilahi sınaqlardan başıuca çıxdıqdan sonra imamət məqamının verilməsindən xəbər verir. Həzrət İbrahim (ə) Allahdan öz nəsli üçün də imamət istədi. Amma Allah təkidlə bildirdi ki, imamət xüsusi bir məqamdır və onun nəslindən zalım olanlara verilməyəcəkdir. Bu ayə imamın məsum olmasını göstərən dəlillərdən biridir. Çünki hər növ zülm və ədalətsizliyin, harada olursa olsun, kimin etməsindən asılı olmayaraq, yüksək imamət məqamından məhrum olmağa səbəb olur. Digər tərəfdən bilirik ki, günah da Allaha və özünə zülm hesab olunur. Odur ki, imamət məqamının verilməsi üçün məsumluq zəruridir. Qeyd edək ki, bu ayədən imamət məqamının nübuvvət məqamından üstün olması da aydın olur. Çünki həzrət İbrahim (ə) nübuvvətdən sonra imamət məqamına yüksəldi.

**Hədis:** İmam Rza (ə): "Bu ayə Qiyamətə qədər hər bir zalımın imamət və xilafətini batil edir" (Kafi, c. 1, səh. 199, hədis: 1).

## 93

### 3. Doğruçular ayəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ

Ey iman gətirənlər! Allahdan qorxun və düz danışanlarla birlikdə olun (Tövbə, 119).

**İzah:** "صادِقِينَ" (sadiqin) danışığı və davranışı haqqa uyğun olanlara deyilir. "Bəqərə" surəsinin 177-ci ayəsində "صادِقِينَ" (sadiqin) ifadəsi iman gətirən və saleh əməllər edənlərə aid edilmişdir. "Nisa" surəsinin 69-cu ayəsində isə onlar peyğəmbərlərlə birgə və böyük ilahi nemətlər bəxş edilənlər sırasında verilmişdir. Bütün bunlardan aydın olur ki, həqiqi "doğruçular" bütün varlıqları ilə Allaha iman gətirənlər və can-dildən imanlarının doğru olduğunu sübut edənlərdir. Bu ayə möminləri doğru və düz danışanlarla birlikdə olmağa səsləyir. Allahın doğru danışanlara itaət etmək əmrində heç bir qeyd-şərt yoxdur. "صادِقِينَ" (sadiqin) dedikdə doğru danışdıqları məlum olan kəslər nəzərdə tutulur. Bütün bunlar göstərir ki, "doğruçular" sözləri və əməlləri dinə uyğun olan, doğruluqdan və dürüstlükdən başqa bir şey görünməyən məsumlardır (ə).

**Hədis:** İmam Rza (ə) – yuxarıdakı ayəni izah edərkən – : "Doğruçular"da məqsəd Allaha itaətdə söz və əməlləri doğru olan imamlardır" (Kafi, c. 1, səh. 208, hədis: 2).

94

## Həzrət Əlinin (ə) imam olmasının dəlilləri

### 1. Dinin təkmilləşməsi ayəsi

لْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُوا مِنْ دِينِكُمْ فَلَا تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا

Bu gün kafirlər (sizi) dininizdən (döndərməkdən) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun. Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim (Əhzab, 33).

**İzah:** Şiə alimlərinin yekdil rəyinə və əksər əhli-sünnə alimlərinin etirafına görə, bu ayə Qədir-Xum hadisəsi zamanı və Əli ibn Əbu Talib (ə) Peyğəmbər (s) tərəfindən canişin və imam təyin edildikdən sonra nazil olmuşdur. Allah bu ayədə möminlərə müjdə verir ki, bu təyinatla müsəlmanların hidayət nemətini tamamlamış və İslam dinini kamil etmişdir. Çünki İslam müxaliflərinin bu dinə zərbə endirməyə heç bir ümidi qalmamışdır. Onların yeganə arzusu Peyğəmbərin (s) dünyasını dəyişməsi idi ki, ondan sonra müsəlmanları İslam yolundan ayırsınlar. Həzrət Əlinin (ə) xəlifə təyin olunması müsəlmanların

yolunun davam etdirilməsinə zəmanət verir və İslam dinini kamilləşdirir.

**Hədis:** İmam Əli (ə): "İnsanlar o zaman həlak oldular ki, haqq və batil imamlar arasında fərq qoymadılar. Elə bildilər ki, xilafət kürsüsünü tutan hər kəsə itaət olunmalıdır" (Biharul-ənvar, c. 69, səh. 176).

**95**

## 2. Vilayət ayəsi

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ وَمَنْ يَتَوَلَّ اللَّهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُوا فَإِنَّ حِزْبَ اللَّهِ هُمُ الْغَالِبُونَ

Sizin himayədarınız yalnız Allah, Onun elçisi və iman gətirənlərdir. Onlar namaz qılır və rüku halında zəkat verirlər. Kim Allahı, Onun elçisini və iman gətirənləri (özünə) dost tutarsa, (Allah firqəsidir və bilsin ki,) qələbə çalanlar da məhz Allahın firqəsidir (Maidə, 55-56).

**İzah:** Bu ayə, həzrət Əlinin (ə) namaz qılarkən üzüyünü ehtiyaclı yoxsula verdiyi zaman nazil oldu. Burada "ولى" (vəli) dedikdə dost yox, qəyyum və rəhbər nəzərdə tutulur. Çünki dost mənasında verilsəydi, onun sözügedən üç nümunəyə (Allah, Peyğəmbər və məlum xüsusiyyətlərə malik möminlərə) həsr olunmasına ehtiyac yox idi. Qeyd edək ki, bir fərdin xüsusiyyətlərini bəyan etmək üçün cəm şəklinin işlənməsi ərəb ədəbiyyatında adi haldır. Qurandan da buna dəlillər var (Ali-İmran, 161 və 172; Maidə, 52 və s.). Həmçinin qeyd etmək lazımdır ki, rüku halında üzüyü vermək hüzuri-qəlblə (namazda diqqətli olmaqla) ziddiyyət təşkil etmir. Çünki bu iş Allahdan üz döndərmək, Ondan qafil olmaq yox, Allahın razılığı yolunda və ibadətdə ibadətdir.

**Hədis:** İslam peyğəmbəri (s) – yuxarıdakı ayəni oxuduqdan sonra – : “Bu ayədə məqsəd namaz qılan və rüku halında zəkat verən Əli ibn Əbu Talibdir. O, həmişə Allahın razılığının ardıncadır” (İhticac, səh. 59).

**96**

## 3. Təbliğ ayəsi

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Ey elçi! Rəbbindən sənə nazil ediləni təbliğ et! Əgər (belə) etməsən, Onun göstərişini (sənə tapşırdığı elçilik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyar. Şübhəsiz ki, Allah kafir tayfanı doğru yola yönəltməz (Maidə, 67).

**İzah:** Mütəvatir şiə və sünni rəvayətlərinə görə, bu ayə Qədir-Xum hadisəsindən öncə nazil olmuşdur. Ayənin məzmunu Peyğəmbərə (s) insanlara çatdırılması tapşırılan mövzunun nə qədər önəmli olduğunu göstərir. Çünki onu çatdırmaqda səhlənkarlıq etmək bütün təbliğatının faydasız olmasına bərabər tutulur. Bilirik ki, İslam peyğəmbərinin (s) ömrünün son ilində əsas dini maarif və hökmlər – ümumi şəkildə olsa da – bəyan olunmuşdu və bu qədər önəmli hökm yox idi ki, o həzrətin (s) təbliğatını bütünlüklə təhlükəyə salsın. Həmçinin, ayənin sonundan aydın olur ki, sözügedən hökm siyasi və hökumət məsələlərinə aiddir. Çünki kafirlər şiddətlə ona qarşı idilər. Bütün bunlar göstərir ki, bu ayədə Peyğəmbərə (s) çatdırılması tapşırılan mövzu həzrət Əlinin (ə) ondan sonra canişin və imam olması idi.

**Hədis:** İmam Baqir (ə): Bu ayə nazil olanda Peyğəmbər (s) Əli ibn Əbu Talibin (ə) əlini qaldırdı və buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" (Təfsiri-Furat, səh. 124, hədis: 134).

## 97

## Əhli-beytin (ə) fəzilətləri

### 1. Mübahələ ayəsi

فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَأَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَنِسَاءَكُمْ وَأَنْفُسَنَا وَأَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَلْ لَعْنَتَ اللَّهِ عَلَى الْكَاذِبِينَ

Sənə bilik gəldikdən sonra kim səninlə (İsanın) barəsində mübahisə edərsə, de: "Gəlin oğullarımızı və oğullarınızı, qadınlarımızı və qadınlarınızı, özümüzü və özünüzü çağıraq, sonra isə dua edib yalançılara Allahın lənət etməsini diləyək" (Ali-İmran, 61).

**İzah:** "Mubahələ" ayəsi Əhli-beytin (ə) fəziləti və üstünlüyü haqqında Quranda keçən ən mühüm dəlil və onların haqq olmasını göstərən ən aydın sənəddir. Belə ki, imamlar (ə) da bir çox elmi mübahisələrdə ona istinad etmişlər. Bu ayə Nəcran xristianları ilə İslam peyğəmbəri (s) arasında baş verən bir hadisə ilə bağlıdır. Qərara almışdılar ki, öz dinlərinin haqq olmasını sübuta yetirmək üçün bir-birlərinə nifrin etsinlər və Allahdan əzab diləsinlər. Peyğəmbər (s) Əli, Fatimə, Həsən və Hüseynlə (ə) birlikdə mübahələyə hazır oldu. Amma xristian rəhbərləri Peyğəmbərin (s) əminliklə ən əziz ətrafını mübahələ üçün gətirdiyini görüb mübahələ etməkdən

imtina etdilər. Bu ayə İmam Əli (ə) üçün ən üstün fəziləti sübuta yetirir. Çünki onu Peyğəmbərin (s) özü olaraq təqdim edir. Buna görə də o həzrətin (ə) məqamı (digər) peyğəmbərlərdən də üstündür.

**Hədis:** İmam Rza (ə): "Bu elə bir imtiyazdır ki, kimsə onda Əhli-beyti (ə) önləməmişdir. Elə bir fəzilət və şərəfdir ki, kimsə ona nail olmamışdır" (Üyuni-əxbari-Rza, c. 1, səh. 232, hədis: 1).

## 2. Əhli-beyt (ə) ilahi nurdur (Nur ayəsi)

اللَّهُ نُورُ السَّمَاوَاتِ وَالْأَرْضِ مَثَلُ نُورِهِ كَمِشْكَاةٍ فِيهَا مِصْبَاحٌ الْمِصْبَاحُ فِي زُجَاجَةٍ
الزُّجَاجَةُ كَأَنَّهَا كَوْكَبٌ دُرِّيٌّ يُوقَدُ مِنْ شَجَرَةٍ مُبَارَكَةٍ زَيْتُونَةٍ لَا شَرْقِيَّةٍ وَلَا غَرْبِيَّةٍ يَكَادُ
زَيْتُهَا يُضِيءُ وَلَوْ لَمْ تَمْسَسْهُ نَارٌ ۚ نُورٌ عَلَىٰ نُورٍ يَهْدِي اللَّهُ لِنُورِهِ مَنْ يَشَاءُ وَيَضْرِبُ اللَّهُ
الْأَمْثَالَ لِلنَّاسِ وَاللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمٌ

Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzəyir; o çıraq şüşənin içindədir, şüşə isə, sanki inci kimi bir ulduzdur. O (çıraq) təkcə şərqə və ya təkcə qərbə aid edilməyən mübarək zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. (Bu), nur üstündə nurdur. Allah dilədiyini Öz nuruna yönəldir. Allah insanlar üçün misallar çəkir (ki, həqiqətləri anlasınlar). Allah hər şeyi Biləndir (Nur, 35).

**İzah:** Nur ayəsi bir sıra təmsilləri ehtiva edir ki, Əhli-beyt (ə) rəvayətlərinə nəzərən məqsədin nə olduğu aydın olur.

**Hədis:** İmam Sadiq (ə) bu ayədə sözü gedən ifadələri belə izah etmişdir: "Taxça" Fatimədir (ə). "Çıraq" Həsəndir (ə). "Şüşə" Hüseyndir (ə). "Sanki inci kimi bir ulduzdur", yəni Fatimə (ə) dünya qadınları arasında inci kimi bir ulduzdur. "Mübarək ağac" həzrət İbrahimdir (ə). "Nə şərq və nə qərb", yəni nə xristianlıq, nə də yəhudilik. "Sanki işıq saçır", yəni sanki elm oradan qaynayacaq. "Nur üstündə

nurdur”, yəni imamlar bir-birinin ardınca ondan törəyəcək. “Allah dilədiyini Öz nuruna yönəldir”, yəni Allah istədiyini imamlara yönəldir” (Kafi, c. 1, səh. 115, hədis: 5).

**99**

### 3. Əhli-beytin (ə) Allaha inamının mədhi

فِي بُيُوتٍ أَذِنَ اللَّهُ أَنْ تُرْفَعَ وَيُذْكَرَ فِيهَا اسْمُهُ يُسَبِّحُ لَهُ فِيهَا بِالْغُدُوِّ وَالْآصَالِ رِجَالٌ لَا تُلْهِيهِمْ تِجَارَةٌ وَلَا بَيْعٌ عَنْ ذِكْرِ اللَّهِ وَإِقَامِ الصَّلَاةِ وَإِيتَاءِ الزَّكَاةِ ۙ يَخَافُونَ يَوْمًا تَتَقَلَّبُ فِيهِ الْقُلُوبُ وَالْأَبْصَارُ

(Bu nur) Allahın, tikilib ucaldılmasına və içində Öz adının zikr edilməsinə izn verdiyi evlərdədir. Orada səhər-axşam Ona təriflər deyirlər. O kişilər ki, nə ticarət, nə də alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmır. Onlar qəlblərin və gözlərin çevriləcəyi bir gündən qorxurlar (Rum, 30).

**İzah:** Bu ayələr "Nur" ayəsinin davamıdır. Bu ayələrdə Əhli-beyt (ə) Allahdan başqa heç bir şey düşünməyən və evləri Allaha tərif məkanı olan kəslər kimi təqdim olunmuşdur.

**Hədis:** İmam Baqir (ə) – yuxarıdakı ayəni izah edərkən – : "Bu evlərdə məqsəd peyğəmbərlərin evləridir və İmam Əlinin (ə) də evi buraya daxildir" (Təfsiri-Qumi, c. 2, səh. 104).

**100**

## 4. Qiyamətdə Əhli-beyt (ə) vilayəti haqqında sorğu

ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız (Təkasur, 8).

**İzah:** Əhli-beytin (ə) vilayəti Allahın ən böyük neməti və möminlərə xüsusi mərhəmətinin təzahürüdür. Bu müddəanı isbatlayacaq çox sayda nəqli dəlillər var. Yuxarıdakı ayə bu həqiqəti təkid edir ki, Qiyamət günü insanlar nemətlər barəsində sorğu-suala tutulacaqlar. "Maidə" surəsinin 3-cü ayəsinə və onun nazilolma səbəbinə nəzər saldıqda görürük ki, Qədir-Xum günü həzrət Əlinin (ə) imam təyin olunması ilə Allah möminlərə nemətini tamamlaması müjdəsini verir. Deməli, ən yüksək ilahi nemət imamların (ə) vilayətidir. İmam Rza (ə) bir qrup əhli-sünnə fəqihinin hüzurunda bu ayəyə istinad edərək öz imamətini sübuta yetirir.

**Hədis:** İmam Rza (ə): "Nemətlərdə məqsəd biz Əhli-beyt, bizə sevgi və itaətdir. Belə ki, Allah tövhid və nübuvvətdən sonra bəndələrindən onu soruşacaqdır" (Üyuni-əxbari-Rza, c. 2 səh. 129, hədis: 8).

## 101

## 5. Əhli-beyt (ə) sevgisi Peyğəmbərin (s) risalətinin haqqıdır

ذَٰلِكَ الَّذِي يُبَشِّرُ اللَّهُ عِبَادَهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

İman gətirib yaxşı işlər görən qullarına Allahın müjdə verdiyi (nemət) budur. De: “Mən sizdən bunun əvəzində qohumlarıma sevgidən başqa bir şey istəmirəm”. Kim bir yaxşılıq etsə, onun savabını artırarıq. Həqiqətən, Allah Bağışlayandır, şükrün əvəzini verəndir (Şura, 23).

**İzah:** Daha öncə qeyd etdik ki, peyğəmbərlər (ə) xalqa doğru yolu göstərmək və istiqamətləndirmək qarşılığında heç bir muzd və mükafat istəmirdilər. Allah-Taala – “Məvəddət” (Sevgi) ayəsi olaraq məşhurlaşan – bu ayədə elçisinə əmr edir ki, xalqa desin: “Mən sizdən bunun əvəzində qohumlarıma sevgidən başqa bir şey istəmirəm”. Bu istək öncəki mətləblə ziddiyyət təşkil etmir. Çünki Peyğəmbərin (s) yaxınlarına – Əhli-beytə (ə) – sevginin ona bir faydası toxunmur. Əksinə, insanın özünün kamilləşməsinə və inkişafına səbəb olur. Başqa sözlə, bu ayənin məzmunu daha öncə 54-cü mövzuda qeyd etdiyimiz kimi, “Furqan” surəsinin 57-ci ayəsi ilə tam üst-üstə düşür.

**Hədis:** İmam Baqir (ə) – ayənin mənasını izah edərkən – : "Yaxşı iş görməkdə məqsəd bizə təslim olmaq, sözlərimizi təsdiq etmək və bizim əleyhimizə yalan danışmaqdan çəkinməkdir" (Kafi, c. 1, səh. 291, hədis: 4).

**102**

## 6. Sıxıntıda olduqda Allah yolunda xərcləmək (İtam ayəsi)

إِنَّ الْأَبْرَارَ يَشْرَبُونَ مِنْ كَأْسٍ كَانَ مِزَاجُهَا كَافُورًا عَيْنًا يَشْرَبُ بِهَا عِبَادُ اللَّهِ
يُفَجِّرُونَهَا تَفْجِيرًا يُوفُونَ بِالنَّذْرِ وَيَخَافُونَ يَوْمًا كَانَ شَرُّهُ مُسْتَطِيرًا وَيُطْعِمُونَ الطَّعَامَ
عَلَىٰ حُبِّهِ مِسْكِينًا وَيَتِيمًا وَأَسِيرًا إِنَّمَا نُطْعِمُكُمْ لِوَجْهِ اللَّهِ لَا نُرِيدُ مِنْكُمْ جَزَاءً وَلَا شُكُورًا
إِنَّا نَخَافُ مِنْ رَبِّنَا يَوْمًا عَبُوسًا قَمْطَرِيرًا

Sözsüz ki, itaətkarlar kafur qatılmış (şərabla dolu) badələrdən nuş edəcəklər. (Bu elə) bir bulaqdır ki, Allahın qulları ondan (doyunca) içər və onun mənsəbini istədikləri səmtə yönəldərlər. Onlar vəd etdikləri nəziri verər və vəhşəti (hər yeri) sarsıdacaq Gündən qorxarlar. Onlar özlərinin istədikləri şeylərdən kasıba, yetimə və əsirə də verərlər (və deyərlər): "Biz sizi yalnız Allahın xatirinə yedirdirik və sizdən nə əvəzini, nə də minnətdarlıq gözləmirik! Əslində, biz, Rəbbimizdən çox kəskin və ağır bir gündə ehtiyat edirik!" (İnsan, 5-10).

**İzah:** Bu ayələr də Əhli-beyt (ə) fəzilətlərinin sahilsiz ümmanından bir damlanı, xüsusilə onların (öz malını) Allah yolunda xərcləməsini və Allahdan qorxmasını bəyan edir.

**Hədis:** İmam Əli və həzrət Fatimə, Həsən, Hüseyn (ə) və öz xidmətçiləri ilə birlikdə üç gün ardıcıl oruc tutdular. İftar zamanı ən ac və sıxıntılı anda öz yeməklərini birinci

gün yoxsula, ikinci gün yetimə, üçüncü gün isə əsirə verdilər. Bu, yuxarıdakı ayələrin nazil olmasına səbəb oldu. Bu hadisənin geniş izahı təfsir və rəvayət kitablarında öz əksini tapmışdır (Əmali, Səduq, səh. 257, hədis: 11).

**103**

## 7. Zikr əhli ayəsi

وَمَا أَرْسَلْنَا مِنْ قَبْلِكَ إِلَّا رِجَالًا نُوحِي إِلَيْهِمْ ۚ فَاسْأَلُوا أَهْلَ الذِّكْرِ إِنْ كُنْتُمْ لَا تَعْلَمُونَ

Biz səndən əvvəl də, özlərinə vəhy etdiyimiz məhz kişiləri (elçi) göndərmişdik. Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun (Nəhl, 43).

**İzah:** "ذكر" (zikr) dedikdə bir şeyi qəlb və dildə qoruyub saxlamaq nəzərdə tutulur. Qurana və digər səmavi kitablara "ذكر" (zikr) deyilir. Çünki dərin həqiqətləri və maarifi özlərində ehtiva edir, saxlayırlar. Buradan aydın olur ki, "اهل الذكر" – zikr əhlində məqsəd Quranın əhvalatını və mətləblərini bilməkdə mütəxəssis olanlardır. Çünki hər bir elm və fənnin mütəxəssisləri onun əhli adlanır. Deməli, "Zikr əhli"nin gerçək nümunələri Quranın həqiqi təfsirçiləri, yəni Əhli-beytdir (ə). Əlbəttə, suala uyğun olaraq digərləri də "zikr əhli"nin nümunəsi ola bilərlər. Necə ki, yuxarıdakı ayədə yəhudi alimləri onun nümunəsi kimi göstərilmişlər. Çünki Peyğəmbərin (s) Tövratda deyilən xüsusiyyətləri haqqında məlumatlı idilər. Yekun olaraq demək lazımdır ki, yuxarıdakı ayə "hər bir sahədə bilməyənin o sahədə bilənə müraciət etməsi" rasional prinsipinə işarə edir.

**Hədis:** İslam peyğəmbəri (s): "Zikr dedikdə mən, zikr əhli dedikdə isə imamlar (ə) nəzərdə tutulurlar (Kafi, c. 1, səh. 210, hədis: 1).

104

## 8. Əhli-beyt (ə) Allaha yaxınlaşmaq üçün vasitədir

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَابْتَغُوا إِلَيْهِ الْوَسِيلَةَ وَجَاهِدُوا فِي سَبِيلِهِ لَعَلَّكُمْ تُفْلِحُونَ

Ey iman gətirənlər! Allahdan qorxun, Ona (yaxınlaşmaq üçün) vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız (Maidə, 35).

**İzah:** "Vəsilə" və ya "Təvəssül" ayəsi kimi məşhurlaşan bu ayə təkid edir ki, əbədi nicata qovuşmaq və xüsusi ilahi lütflərdən faydalanmaq üçün Ona yaxınlaşma vasitələrindən istifadə etmək lazımdır. Allaha yaxınlaşmağın ən mühüm vasitələri Ona və Peyğəmbərə (s) inam, cihad, namaz, zəkat, oruc və həcc kimi ibadətlər, qohumlarla xoş münasibətdə olmaq və Allah yolunda xərcləməkdir. Əhli-beytə (ə) təvəssülün də ilahi lütf və sevginin cəlb olunmasına çox böyük təsiri var. Çünki onlar xalq və Allah arasında əlaqə vasitəsi, Allah yanında böyük məqam sahibidirlər. Bütün bunlar göstərir ki, təvəssül nəinki şirk deyil, əksinə Quranın tövsiyə etdiyi yolla Allahla əlaqə yaratmaqdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Hüseynin (ə) soyundan gələn imamlar – hansılar ki, kim onlara itaət etsə, Allaha itaət etmiş, kim onlara asi olsa, Allaha asi olmuşdur –

möhkəm (təqva) dəstəkləri və Allaha yaxınlaşmaq üçün vasitələrdirlər (Üyuni-əxbari-Rza, c. 2, səh. 58, hədis: 217).

**105**

## 9. Həzrət Əlinin (ə) fəziləti (Kitabı bilən ayəsi)

وَيَقُولُ الَّذِينَ كَفَرُوا لَسْتَ مُرْسَلًا قُلْ كَفَىٰ بِاللَّهِ شَهِيدًا بَيْنِي وَبَيْنَكُمْ وَمَنْ عِنْدَهُ عِلْمُ الْكِتَابِ

Kafirlər deyirlər: "Sən göndərilmiş elçi deyilsən!" De: "Mənimlə sizin aranızda Allahın və kitabı bilən kimsələrin şahid olması yetər" (Rəd, 43).

**İzah:** Bu ayədə İslam peyğəmbərinin (s) haqq olması ilə bağlı iki dəlil qeyd olunur: 1. Allah və o həzrətin (s) möcüzəsi olan Quran ayələri; 2. Kitabı bilən kimsə. Rəvayətlərdə bu fərdin İmam Əli (ə) olduğu bildirilmişdir. Qəribə burasıdır ki, "Nəml" surəsinin 40-cı ayəsində həzrət Süleymanın (ə) tərəfdarlarından biri haqqında heyrətamiz əhvalat qeyd olunmuşdur. O, Səba padşahının taxtını bir göz qırpımında Süleymanın (ə) yanına gətirmişdi. Quran onu "Kitabın bir hissəsini bilən kimsə" deyə yad edir. Buradan kitabın bütün elmini bilən İmam Əlinin (ə) biliyinin genişliyi və əzəməti aydın olur.

**Hədis:** İmam Baqir (ə) – "elmi bilən kimsə" ifadəsini izah edərkən – : "Biz Əhli-beyt (ə) nəzərdə tutuluruq. Əli ibn Əbu Talib (ə) Peyğəmbərdən (s) sonra bizim ilkimiz və ən üstünümüzdür (Kafi, c. 1, səh. 229, hədis: 6).

106

## 10. Həzrət Əlinin (ə) fəziləti (Nəcva ayəsi)

أَأَشْفَقْتُمْ أَنْ تُقَدِّمُوا بَيْنَ يَدَيْ نَجْوَاكُمْ صَدَقَاتٍ فَإِذْ لَمْ تَفْعَلُوا وَتَابَ اللَّهُ عَلَيْكُمْ فَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ وَاللَّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ

Siz gizli söhbətinizdən əvvəl sədəqə verməkdən qorxdunuzmu? Əgər siz (bunu) etməmisinizsə və Allah da tövbənizi qəbul edibsə, onda namaz qılıb zəkat verin, Allaha və Onun elçisinə itaət edin. Allah nə etdiklərinizdən xəbərdardır (Mucadələ, 13).

**İzah:** Bir qrup zəngin insan əksər vaxtlar Peyğəmbərə (s) mane olur və onunla pıçıldaşırdılar. Bu, başqalarının kədərlənməsinə və Peyğəmbərin (s) dəyərli vaxtının tələf olmasına səbəb olurdu. Allah onları sınağa çəkmək üçün hökm verdi ki, bundan sonra maddi imkanı olanlar Peyğəmbərlə (s) xüsusi söhbət etmək istəyirlərsə, öncə Allah yolunda sədəqə ödəməlidirlər. Bu ilahi sınaq onların hamısının Peyğəmbərlə (s) pıçıldaşmaqdan çəkinməsinə səbəb oldu. Şiə və sünni rəvayətlərinə görə, hələ də o həzrətin (s) yanına gedib-gələn və onunla görüşməzdən qabaq sədəqə ödəyən yeganə şəxs Əli (ə) idi. Allah, Peyğəmbər (s) səhabələrinin həddindən artıq dünyaya bağlı olduğunu və o həzrətə (s) sadiq və vəfalı insanın üzə çıxdığını görüb, bu hökmü qüvvədən saldı.

**Hədis:** İmam Əli (ə): “Quranda bir ayə var ki, məndən öncə və sonra kimsə ona əməl etməmiş və etməyəcəkdir. O, “Pıçıltı” ayəsidir” (Təfsiri-Qumi, c. 2, səh. 357).

**107**

## 11. Həzrət Əlinin (ə) fəziləti (İnfaq ayəsi)

الَّذِينَ يُنْفِقُونَ أَمْوَالَهُمْ بِاللَّيْلِ وَالنَّهَارِ سِرًّا وَعَلَانِيَةً فَلَهُمْ أَجْرُهُمْ عِنْدَ رَبِّهِمْ وَلَا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ

Mallarını gecə və gündüz, gizli və aşkar (Allah yolunda) xərcləyənlərin öz Rəbbi yanında mükafatı vardır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər (Bəqərə, 274).

**İzah:** Quranda İmam Əlinin (ə) fəzilətləri şərh edilməsi mümkün olmayacaq qədər çoxdur. O həzrət (ə) ən üstün fəzilətlərə malik idi və Quranda qeyd olunan gözəl xüsusiyyətlərin ən bariz nümunəsidir. Bu fəzilətlərdən biri yoxsullara sədəqə vermək, onlar üçün xərcləməkdir. Yuxarıdakı ayə o həzrət (ə) haqqında nazil olmuş və onun bütün hallarda (gecə və gündüz, gizli və aşkar və s.) Allah yolunda öz malından xərcləməsini təqdir edir. Rəvayətlərə görə, həzrətin (ə) yalnız dörd dirhəmi var idi. Onun bir dirhəmini gecə, bir dirhəmini gündüz, bir dirhəmini gizli, bir dirhəmini isə aşkar sədəqə verdi. Əlbəttə, bu ayənin vədi bu şəkildə əməl edən hər kəsə şamil olur. Amma ilk və bariz nümunəsi həzrət Əlidir (ə).

**Hədis:** İbn Abbas (Peyğəmbərin (s) səhabəsi): "Yuxarıdakı ayə İmam Əli (ə) haqqında nazil olmuşdur (Üyuni-əxbari-Rza, c. 2, səh. 67, hədis: 255).

108

## 12. Həzrət Əlinin (ə) fəziləti (Ləylətül-məbit)

وَمِنَ النَّاسِ مَنْ يَشْرِي نَفْسَهُ ابْتِغَاءَ مَرْضَاتِ اللَّهِ وَاللَّهُ رَءُوفٌ بِالْعِبَادِ

İnsanların eləsi də var ki, Allahın razılığını qazanmaq üçün canını da verər. Allah Öz qullarına qarşı Şəfqətlidir (Bəqərə, 207).

**İzah:** Bir çox şiə və sünni rəvayətlərində nəql olunmuşdur ki, bu ayə Əli ibn Əbu Talib (ə) haqqında nazil olmuşdur. Belə ki, o həzrət (ə) "Ləylətül-məbit"də peyğəmbərin (s) canını qorumaq üçün onun yatağında yatdı. "Ləylətül-məbit" müşriklərin Peyğəmbərin (s) canına qəsd etməyi planlaşdırdığı gecədir. Amma Allah elçisini onların hiyləsindən xəbərdar etdi və o həzrət (s) Məkkəni tərk edib, Mədinəyə hicrət etməyi qərara aldı. O gecə Peyğəmbər (s), müşriklər onun hicrət etməsindən xəbər tutmasınlar deyə əmisi oğlu Əlidən (ə) onun yerində gecələməsini istədi. O həzrət (ə) bu təklifi fədakarcasına qəbul etdi və beləcə Peyğəmbərin (s) canını qorumaq və Allahın razılığını qazanmaq üçün öz canını təhlükəyə atdı. İbn Əbu əl-Hədid yazır: "Bu məsələ o qədər mütəvatirdir (çox nəql olunmuşdur) ki, onu kafir və ya dəlidən başqa kimsə inkar etməz".

**Hədis:** İmam Səccad (ə): "Canını Allah yolunda satan ən üstün şəxs Əli ibn Əbu Talibdir (ə)" (Mənaqibi-İbn Şəhr Aşub, c. 2, səh. 64).

## 109

## 13. Həzrət Əlinin (ə) fəziləti (Dabbətul-ərz ayəsi)

وَإِذَا وَقَعَ الْقَوْلُ عَلَيْهِمْ أَخْرَجْنَا لَهُمْ دَابَّةً مِنَ الْأَرْضِ تُكَلِّمُهُمْ أَنَّ النَّاسَ كَانُوا بِآيَاتِنَا لَا يُوقِنُونَ وَيَوْمَ نَحْشُرُ مِنْ كُلِّ أُمَّةٍ فَوْجًا مِمَّنْ يُكَذِّبُ بِآيَاتِنَا فَهُمْ يُوزَعُونَ

O söz (Qiyamət) onların başlarının üstünü aldığı zaman onlar üçün yerdən elə bir canlı çıxardarıq ki, onlarla danışıb insanların ayələrimizə yəqinliklə inanmadıqlarını söyləyər. Həmin gün hər ümmətin ayələrimizi yalan sayanlarından bir dəstə toplayarıq. Sonra da onları (hərəkətdən) saxlayarıq (ki, digər qruplar da da onlara qatılsınlar) (Nəml, 82-83).

**İzah:** “Rəcət” şiə məzhəbinin danılmaz həqiqətlərindəndir və ona inam bu məzhəbin zərurətlərindən hesab olunur. “Rəcət” o deməkdir ki, Allah Qiyamətə yaxın bir zamanda bir qrup xalis möminləri və çox inadkar, təkəbbürlü insanları bu dünyaya qaytaracaq. Əməlisalehlərin dövlətini quracaq və zalımlardan elə bu dünyada qisas alacaq. “Nəml” surəsinin 83-cü ayəsi “Rəcət” haqqında Quranda keçən dəlillərdən biridir. Çünki bu ayədə Allah camaatın hamısını yox, məhz bir dəstəsini qaytarmaqdan xəbər verir. “Rəcət” zamanı geri dönən imamlardan (ə) biri həzrət Əli (ə) olacaqdır ki, 82-ci ayədə “Dabbətul-ərz” olaraq yad edilir.

**Hədis:** İmam Əli (ə): “Mən Cənnət və Cəhənnəmi bölən, ... və yer üzündə camaatla danışan canlıyam (Yuxarıdakı ayəyə işarə olunur)” (Kafi, c. 1, səh. 98, hədis: 3).

## 110

### 14. Həzrət Zəhranın (ə) fəziləti

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

Həqiqətən, Biz sənə çoxlu xeyir (Fatimədən (ə) gələn soyuna bərəkət) bəxş etdik. Sən də (bunun şükrü olaraq) Rəbbin üçün namaz qıl və dəvə qurban kəs! Doğrusu, sənə ədavət bəsləyənin özü sonsuzdur (bütün xeyir-bərəkətdən məhrumdur) (Kovsər surəsi).

**İzah:** Müştərək şəkildə Əhli-beytin (ə) və ya beş əba əhlinin (ə) fəzilətini göstərən ayələrdən əlavə bir sıra ayələr, xüsusilə həzrət Zəhranın (ə) mənəvi məqamına və fəzilətinə dəlalət edir. Bu ayələrin arasında “Kovsər” surəsinin xüsusi yeri var. Düşmənlər Peyğəmbərin (s) oğlu olmamasına çox sevinir və bunu ona irad tuturdular. Allah həzrət Zəhranın (ə) bərəkətli vücudunu ona bəxş etdi və onun nəslini tarixin ən davamlı soyu etdi. Bu surədə o həzrət (ə) “Kovsər” – bol bərəkət – olaraq yad edilmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): “Fatimə mənim canımın bir parçasıdır. Onu sevindirən məni sevindirmiş, onu incidən məni incitmişdir. Fatimə mənə ən əziz adamdır” (Əmali, Mufid, səh. 260, hədis: 2).

## 15. İmam Hüseynin (ə) fəziləti

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ ارْجِعِي إِلَىٰ رَبِّكِ رَاضِيَةً مَرْضِيَّةً فَادْخُلِي فِي عِبَادِي وَادْخُلِي جَنَّتِي

(O gün möminə deyiləcəkdir): "Ey arxayın olan nəfs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Mənim qullarımın (cərgəsinə) keç! Cənnətimə daxil ol!" (Fəcr, 27-30).

**İzah:** Müştərək şəkildə Əhli-beytin (ə) və ya beş əba əhlinin (ə) fəzilətini göstərən ayələrdən əlavə bir sıra ayələr, xüsusilə həzrət İmam Hüseynin (ə) mənəvi məqamına və fəzilətinə dəlalət edir. Buna misal olaraq, "İsra" surəsinin 33, "Məryəm" surəsinin 1, "Həcc" surəsinin 60, "Əhqaf" surəsinin 15-ci və bu qəbildən olan onlarla digər ayəni göstərmək olar. Bu ayələrin arasında "Fəcr" surəsi xüsusi yer tutur və o həzrətə (ə) məxsus surə adlanır. Bu surənin son ayələrində sözügedən "Arxayın nəfs" dedikdə İmam Hüseynin (ə) nəzərdə tutulduğu bildirilmişdir. Qeyd edək ki, "Arxayın nəfs"də məqsəd dünya bağlarından azad olan, Allahı yad edərək Ona təslim olan kəsdir. Allah, belə bir insanın ruhu alınanda onun pişvazına gəlir və ona hörmət dolu müraciətlə xüsusi Cənnətinə daxil olmaq müjdəsini verir.

**Hədis:** İmam Sadiq (ə): "(Ruh alınarkən) mömin üçün ruhunun bədənindən ayrılmasından və carçıya qoşulmasından sevimli şey yoxdur (Carçı dedikdə "Ey arxayın olan nəfs! ..." – deyə səslənən Allah nəzərdə tutulur)" (Kafi, c. 3, səh. 127, hədis: 2).

## 112

## İmam Zaman (ə)

### 1. Əməlisalehlərin yer üzündə varis olması

وَلَقَدْ كَتَبْنَا فِي الزَّبُورِ مِنْ بَعْدِ الذِّكْرِ أَنَّ الْأَرْضَ يَرِثُهَا عِبَادِيَ الصَّالِحُونَ

Biz Zikrdən (Tövratdan) sonra Zəburda da yazmışdıq ki, yer üzünə Mənim əməlisaleh qullarım varis olacaqlar (Ənbiya, 105).

**İzah:** Axırzamanda əməlisalehlərin hakimiyyətinə inam bütün səmavi dinlərin yekdil inancıdır. (Yaradılışın təkamül prosesinə də uyğun olan) bu inanc İslam dinində xilaskarın zühuru, şiə məzhəbində isə həzrət Mehdinin (ə) gəlişi ilə gerçəkləşir. Bütün peyğəmbərlər və ilahi övliyalar əməlisalehlərə o həzrətin gələcəyi müjdəsini vermişlər. Yuxarıdakı ayəyə görə, Allah-Taala Tövratda və (həzrət Davudun (ə) səmavi kitabı olan) Zəburda möminlərə müjdə vermişdir ki, əməlisalehlər yer üzünə varis olacaqlar. Yəni onlar hakimiyyəti digərlərindən miras alacaq, şövkət və məqam sahibi olacaqlar. Bu mətləb hələ də Müqəddəs kitabda – Əhdi-ətiqdə Davudun (ə) Zəburunda mövcuddur. Şiə rəvayətlərinə görə, əməlisalehlər dedikdə həzrət Mehdi (ə) və onun səhabələri nəzərdə tutulur.

**Hədis:** İslam peyğəmbəri (s): “Əgər dünyanın ömründən bir gün belə qalsa, Allah o günü o qədər uzadacaq ki, mənim soyumdan əməlisaleh bir kişi gəlsin və yer üzünü zülmlə dolduğu kimi ədalətlə doldursun” (Tusi, əl-Ğeybə, səh. 180).

**113**

## 2. Axırzamanda möminlərə hökumət vədi

وَعَدَ اللَّهُ الَّذِينَ آمَنُوا مِنْكُمْ وَعَمِلُوا الصَّالِحَاتِ لَيَسْتَخْلِفَنَّهُمْ فِي الْأَرْضِ كَمَا اسْتَخْلَفَ
الَّذِينَ مِنْ قَبْلِهِمْ وَلَيُمَكِّنَنَّ لَهُمْ دِينَهُمُ الَّذِي ارْتَضَىٰ لَهُمْ وَلَيُبَدِّلَنَّهُمْ مِنْ بَعْدِ خَوْفِهِمْ أَمْنًا
يَعْبُدُونَنِي لَا يُشْرِكُونَ بِي شَيْئًا وَمَنْ كَفَرَ بَعْدَ ذَٰلِكَ فَأُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ

Allah sizlərdən iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, özlərindən əvvəlkiləri varislər etdiyi kimi onları da yer üzünün varisləri edəcək, möminlər üçün Özünün bəyəndiyi dinini möhkəmləndirəcək və onların qorxusunu sonra arxayınçılıqla əvəz edəcəkdir. Onlar Mənə ibadət edir və heç nəyi Mənə şərik qoşmurlar. Bundan sonra küfr edənlər – məhz onlar fasiqlərdir (Nur, 55).

**İzah:** Quranın bir çox ayələri Axırzamanda qlobal dini hökumətin qurulacağına işarə edir. (Tövbə, 33; Fəth, 28; Səff, 9; Taha, 123; Əraf, 128 və s.) Bu ayələrdən biri sözügedən ayədir ki, Allahın bu mövzuda gözəl vədəsini aydın ifadə edir.

**Hədis:** İmam Səccad (ə): “Bu ayədə bizim şiələrimiz nəzərdə tutulurlar. Allah bu vədi bizim soyumuzdan gələn bir nəfərin əli ilə həyata keçirəcəkdir və o, bu ümmətin Mehdisidir (ə)” (Məcməül-bəyan, c. 7, səh. 249).

## 114

### 3. Müstəzəflərin cahanşümul hakimiyyəti

وَنُرِيدُ أَنْ نَمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ

Biz istədik ki, həmin yerdə aciz qalanlara mərhəmət göstərək, onları öndə gedənlər və varislər edək (Qəsəs, 5).

**İzah:** Quran bir çox ayələrdə möminləri yerdə aciz qalanlar – müstəzəflər adlandırır. Bu ifadə ehtimal ki, əksər möminlərin cəmiyyətin müstəzəf və zəif təbəqəsindən olması ilə əlaqədardır. Amma yaxşı olar ki, "müstəzəflər" sözünü məzlumlar və gücdən məhrum qalanlar mənasında başa düşək. Hər halda Allah bu ayədə də möminlərin üstünlüyündən və onların inadkar zalımların müqabilində gözəl aqibətindən xəbər verir və bunu Özünün mütləq baş verəcək ənənəsi kimi qələmə verir. Doğrudur, bu ayə Bəni-İsrail və onların Fironun zülmündən xilas olması haqqındadır. Amma rəvayətlərdə bu ilahi ənənənin tam gerçəkləşməsi həzrət Mehdinin (ə) zühur dönəminə uyğunlaşdırılmışdır.

**Hədis:** İmam Əli (ə): "Allaha and olsun ki, dünya tərslik etdikdən sonra öz balasına mehriban olan harın dişi dəvə kimi bizə doğru qayıdacaq". Sonra bu ayəni tilavət etdi (Nəhcül-bəlağə, qısa kəlamlar: 209).

**115**

## 4. İmam Zaman (ə) ilahi ehtiyatdır

بَقِيَّتُ اللَّهِ خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ مُؤْمِنِينَ وَمَا أَنَا عَلَيْكُمْ بِحَفِيظٍ

Əgər möminsinizsə, (bilin ki,) Allahın saxladığı sizin üçün daha xeyirlidir. Mən sizin üstünüzdə gözətçi deyiləm (Rum, 30).

**İzah:** Həzrət Mehdinin (ə) məşhur ləqəblərindən biri "بَقِيَّتُ اللَّهِ" (Bəqiyyətullahdır). Bu ləqəb yuxarıdakı ayədən götürülmüşdür. Bu ayə həzrət Şüeybə (ə) ümmətinin baha satanları ilə bağlı xəbərdarlıq edilməsinə işarə edir. Bu ayədə "Bəqiyyətullah" dedikdə halal və Allahın bəyəndiyi bir sərmayədən insana qalan gəlir və mənfəət nəzərdə tutulur. Bu ifadə bir çox rəvayətdə həzrət Mehdinin (ə) mübarək vücuduna uyğunlaşdırılmışdır. Çünki Allah onu bəşəriyyətin hidayəti üçün saxlamışdır.

**Hədis:** İmam Baqir (ə): "Həzrət Mehdinin (ə) öz qiyamından sonra ilk deyəcəyi ayə bu olacaq. Sonra deyəcək: "Mən Allahın saxladığıyam. Mən sizin aranızda Onun höccəti və xəlifəsiyəm". Bundan sonra hər kəs ona: "Salam olsun sənə, ey Allahın yer üzündə saxladığı!" – deyə salam verəcək" (Kəmalud-din, c. 1, səh. 331, hədis: 16).

## 116

## Təvəlla və təbərra

### 1. Allahın möminlər üzərində qəyyumluğu

اللَّهُ وَلِيُّ الَّذِينَ آمَنُوا يُخْرِجُهُمْ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَالَّذِينَ كَفَرُوا أَوْلِيَاؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُمْ مِنَ النُّورِ إِلَى الظُّلُمَاتِ أُولَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ

Allah iman gətirənlərin himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin hamiləri isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar (Bəqərə, 257).

**İzah:** Müqəddəs İslam dininin əsası və Allaha imanın mehvəri Allahın və dostlarının himayədarlığını qəbul etmək, düşmənlərinə qarşı isə nifrətini ifadə etməkdir. Fürui-dində təvəlla və təbərra kimi qeyd olunan bu mətləb bir çox ayə və hədislərdə işarə olunan bir həqiqətdir. Məlum olduğu üzrə, ilahi övliyalara sevgi o baxımdan şiə məzhəbinin əsası və İslam xeyməsinin sütunudur ki, onun sayəsində əməldə də onları örnək almağa zəmin yaranır.

**Hədis:** İmam Sadiq (ə): "Bu ayədə məqsəd odur ki, Allah ədalətli imamı hami olaraq seçənləri günahların zülmətindən tövbə və bağışlanma nuruna yönəldir. Yaxşı iş

görən, amma zalım imamı sevənləri küfr zülmətlərinə sürükləyir" (Kafi, c. 1, səh. 376, hədis: 3).

## 117

## 2. Peyğəmbərin (s) möminlər üzərində vilayəti

النَّبِيُّ أَوْلَىٰ بِالْمُؤْمِنِينَ مِنْ أَنْفُسِهِمْ ...

Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. ... (Əhzab, 6).

**İzah:** Qeyd etdiyimiz kimi, təvəllanın bir çox sıra boyu mərhələləri vardır. Yəni Allahın vilayətindən (hamiliyindən) və dostluğundan başlayır, Peyğəmbərin (s), imamların (ə) və övliyaların vilayətində (hamiliyində) sona yetir. Allah-Taala İslam peyğəmbərinin (s) müqəddəs vücudunu bizə örnək olaraq göstərmiş və təkid etmişdir ki, o, heç zaman nəfsani istəklərinin əsirinə çevrilmir. Buna görə də Peyğəmbərin (s) hamiliyini qəbul etmək Allahın hamiliyini qəbul etməyin, Ona itaətin sıra boyundadır. Yuxarıdakı ayə bu həqiqəti ifadə edir ki, İslam peyğəmbərinin (s) bütün fərdi və ictimai istək və iradəsi möminlərin istək və iradəsindən öndədir. Heç şübhəsiz, belə bir vilayəti qəbul etmək şəxsi mənafeyini başqalarına tərcih etmək demək deyil. Əksinə, bu ona görədir ki, Peyğəmbər (s) məsumdur və möminlərin məsləhətindən başqa bir şey düşünmür. Peyğəmbərin (s) vilayətinin qəbul olunmasının bariz nümunəsi dini hökumətin, elmi ideallığın, məhkəmə hökmlərində itaətin və s. qəbul olunmasıdır.

**Hədis:** İmam Baqir (ə): "Bu ayə müsəlmanların hökuməti və himayədarlığı haqqında nazil olunmuşdur. Bu himayədarlıq Peyğəmbərdən (s) sonra onun övladlarına aiddir. Deməsk, biz bu işə mühacir və ənsardan daha layiqik" (Kafi, c. 1, səh. 288, hədis: 2).

**118**

### 3. Əhli-beytin (ə) möminlər üzərində vilayəti

إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

Sizin himayədarınız yalnız Allah, Onun elçisi və iman gətirənlərdir. Onlar namaz qılır və rüku halında zəkat verirlər (Maidə, 55).

**İzah:** Daha öncə yuxarıdakı ayə və onun nazilolma səbəbi haqqında söhbət açmışdıq. Bu ayə Əhli-beytin (ə) möminlər üzərindəki vilayətindən xəbər verir. Ayədən aydın olur ki, Əhli-beytin (ə) vilayəti Allahın iradəsilə Peyğəmbərin (s) vilayətinin davamıdır. Hədislərdə imamların (ə) vilayətinin qəbul olunmasının və onlara sevginin dünya və axirət səadəti kimi nəticələri qeyd olunmuşdur.

**Hədis:** İmam Baqir (ə): "İslam beş əsas üzərində qurulmuşdur: Namaz, zəkat, oruc, həcc və vilayət. Heç birinə vilayət qədər tövsiyə olunmamışdır" (Kafi, c. 2, səh. 18, hədis: 1).

**119**

## 4. Peyğəmbər (s) və Əhli-beyt (ə) düşmənlərinə nifrət (təbərra)

إِنَّ الَّذِينَ يُؤْذُونَ اللَّهَ وَرَسُولَهُ لَعَنَهُمُ اللَّهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَأَعَدَّ لَهُمْ عَذَابًا مُهِينًا

Şübhə yoxdur ki, Allahı və Onun elçisini incidənləri Allah həm bu dünyada, həm də Axirətdə lənətləmiş və onlara alçaldıcı bir əzab hazırlamışdır. (Əhzab, 57).

**İzah:** Təbərra Allah düşmənlərinə nifrətini ifadə etmək və küfr öndərlərindən, onların ardıcıllarından uzaq olduğunu bildirməkdir. Məlumdur ki, bir nəfərə tam və sadiq sevgini ifadə etmək üçün onun düşmənlərinə nifrətini bildirmək və onlara qarşı çıxmaq lazımdır. Allah düşmənləri ilə dostluq və səmimiyyət, hətta onlara can yandırmaq Allaha inam və ilahi övliyalara sevgi ilə bir yerə sığmır. Allah-Taala Özü Quranda dəfələrlə kafirləri lənətləmiş və onu insanlıqdan xaric hesab etmişdir. Allah, "Mumtəhənə" surəsinin 4-cü ayəsində həzrət İbrahimin (ə) və ardıcıllarının kafirlərdən uzaq olduqlarını ifadə etmələrini möminlər üçün gözəl nümunə hesab etmiş, onları kafirlərlə hər növ dostluq və yaxın münasibətdən çəkindirmiş və bunu edənləri özünə, Allaha və müsəlman cəmiyyətinə həqiqi zülm edənlər adlandırmışdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Kimsə Səfa və Mərvə arasında Allaha min il, sonra yenə də min il və daha sonra yenə də min il ibadət etsə, nəticədə köhnə tuluq kimi olsa, amma bizə sevgisi olmasa, Allah onu üzü üstə oda atar" (Məcməül-bəyan, c. 9, səh. 43).

## Beşinci fəsil

## Məad

Aşağıdakı mövzuları ehtiva edir:

- Ölüm və ruhun alınması
- Bərzəx
- Cismani məad
- Qiyamət gününün vəsfləri və adları
- Əməllərin sorğulanması
- Şəfaət
- Cənnət və onun bəzi nemətləri
- Cəhənnəm və onun bəzi əzabları

## 120

## Ölüm və ruhun alınması

### Ölümün qaçılmazlığı

كُلُّ نَفْسٍ ذَائِقَةُ الْمَوْتِ وَإِنَّمَا تُوَفَّوْنَ أُجُورَكُمْ يَوْمَ الْقِيَامَةِ فَمَنْ زُحْزِحَ عَنِ النَّارِ وَأُدْخِلَ الْجَنَّةَ فَقَدْ فَازَ وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلَّا مَتَاعُ الْغُرُورِ

Hər bir kəs ölümü dadacaqdır. Lakin Qiyamət günü mükafatlarınız sizə tam veriləcəkdir. Kim Oddan uzaqlaşdırılıb, Cənnətə daxil edilərsə, o uğur qazanmış olar. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir (Ali-İmran, 185).

**İzah:** Məad və Axirət dünyası mövzusuna girməzdən öncə ölüm və onun özəllikləri haqqında söhbət açırıq. Din məntiqində ölüm yoxluq və məhv olmaq anlamını vermir. Əksinə, dinə görə, ölüm bir dünyadan başqa bir dünyaya köçməkdir. Ölüm Bərzəx aləminə giriş qapısı, Axirət mükafat və əzabının müqəddiməsidir. Hərçənd ki, əməllərin tam əvəzi Qiyamətdə olacaqdır. Yuxarıdakı ayə – bu mətləbi bəyan etməklə yanaşı – ölümün istisnasız və qaçılmaz olmasından söhbət açır. Bu ayənin məzmunu Quranda dəfələrlə təkrar olunmuşdur. Ölümü dadmaq ifadəsi onu tamamilə dərk etmək mənasını ifadə edir.

**Hədis:** İmam Əli (ə): "Ölüm sizə kölgənizdən daha yaxındır və ixtiyarınız özünüzdən daha çox onun əlindədir" (Qürər əl-hikəm, c. 2, səh. 91, hədis: 1961).

## 121

## Kafirlərin can verməsinin çətinliyi

كَلَّا إِذَا بَلَغَتِ التَّرَاقِيَ وَقِيلَ مَنْ رَاقٍ وَظَنَّ أَنَّهُ الْفِرَاقُ وَالْتَفَّتِ السَّاقُ بِالسَّاقِ إِلَىٰ رَبِّكَ يَوْمَئِذٍ الْمَسَاقُ

Xeyr, o (ruh) körpücük sümüklərinə yetişəcəyi zaman; "Ovsunu kim oxuyacaq? (Xəstəni kim müalicə edəcək?)" – deyiləcəkdir. (Can verən adam dünya həyatından) ayrıldığını yəqin edəcəyi və baldır baldıra dolaşacağı zaman – o gün (hər kəs) Rəbbinin hüzuruna gətiriləcəkdir (Qiyamət, 26-30).

**İzah:** Qeyd etdiyimiz kimi, ölüm əməllərin əvəzinin müşahidə olunmasının başlanğıcıdır. Buna görə də kafir və fasiqlərin ölümü möminlərin ölümündən fərqlənir. Birinci dəstə ölüm mələyini gördüyü zaman qorxuya düşər ki, artıq könül verdiklərindən ayrılmaq zamanı çatmışdır. Canı (ruhu) alan mələklər təhqir və hörmətsizliklə üzlərinə şillə vurarlar ki, ruhlarınızı çıxarın və özünüzü alçaldıcı əzaba hazırlayın (Ənam, 93). Bu ayələr də onların can verməsinin çətin keçməsindən, puç və xəyali güclərinin o an işə yaramamasından xəbər verir.

**Hədis:** İmam Səccad (ə): "Allaha and olsun ki, məzarlar ya Cənnət bağlarından biri, ya da yandırıcı Cəhənnəm quyularından biridir" (Xisal, c. 1, səh. 120, hədis: 108).

## 122

### Möminlərin ölüm zamanı aramlığı

الَّذِينَ تَتَوَفَّاهُمُ الْمَلَائِكَةُ طَيِّبِينَ يَقُولُونَ سَلَامٌ عَلَيْكُمُ ادْخُلُوا الْجَنَّةَ بِمَا كُنْتُمْ تَعْمَلُونَ

O kəslər ki, tərtəmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!" (Nəhl, 32).

**İzah:** Kafirə görə ölüm gözəl və nemət dolu bağdan çıxıb, ağır və qaranlıq zindana girməkdir. Amma mömінin gözündə dar dünya məhbəsindən çıxıb, nemət dolu Cənnətə daxil olmaqdır. Möminlər ölüm mələyini görəndə sevinir, şad olur və Allahın vədinə qovuşmaq anının çatması səbəbilə vəsfəgəlməz şövqə qərq olurlar. İlahi mələklər onlara müjdə verirlər ki, sizə salam olsun! Canlarını hörmətlə alır və bənzərsiz ilahi nemətlərə qovuşdururlar. Qeyd edək ki, ölüm günahkar möminlər üçün də ağır və çətin olur. Çünki bu, onlar üçün aludəliklərdən təmizlənmək və başqa bir aləmə daxil olmaqdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Mömin can verərkən ölüm mələyi onun qarşısında ağası qarşısında müti olan bir kölə kimidir" (Mən la yəhzuruhul-fəqih, c. 1, səh. 135, hədis: 365).

## 123

## Bərzəx

حَتَّىٰ إِذَا جَاءَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ كَلَّا إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا وَمِنْ وَرَائِهِمْ بَرْزَخٌ إِلَىٰ يَوْمِ يُبْعَثُونَ

Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri (indi) edəm". Xeyr! Onun bu dedikləri ancaq (boş) bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər Bərzəx vardır (Muminun, 99-100).

**İzah:** İnsan, ölümdən sonra Bərzəx aləminə daxil olur. Kafirlərə Bərzəxdə əzab verilir və ağır Qiyamət cəzasını gözləyirlər. Möminlər isə ilahi mükafat və mərhəməti müşahidə edirlər. Bərzəx aləminin mövcud olmasını göstərən çox sayda nəqli dəlillər – Quran ayələri və hədislər var. Quranda buna dəlil olaraq – yuxarıdakı ayədən əlavə – "Ali-İmran" surəsinin 169-cu, "Ğafir" surəsinin 46-cı, "Yasin" surəsinin 26-cı və s. ayələri göstərmək olar. Yuxarıdakı ayənin Bərzəx aləminə dəlalət etməsi aydındır. Çünki kafirlərin geri dönmə istəyi zamanı onların Qiyamətə qədər Bərzəxdə qalacaqlarını bildirir.

**Hədis:** İmam Sadiq (ə): "Allaha and olsun ki, sizin üçün Bərzəxdən qorxuram. Bərzəx ölümdən Qiyamətə qədər olan zamandır" (Kafi, c. 3, səh. 242, hədis: 3).

## 124

## Məadın dəlilləri

### Məad Allahın hikmətinin tələbidir

أَفَحَسِبْتُمْ أَنَّمَا خَلَقْنَاكُمْ عَبَثًا وَأَنَّكُمْ إِلَيْنَا لَا تُرْجَعُونَ

Yoxsa sizi əbəs yerə yaratdığımızı və (Qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz? (Muminun, 115).

**İzah:** Məad və Axirət dünyasına inam bütün dinlərdə yekdil inancdır. Belə ki, onu dünyanın ən məqbul – hətta tövhiddən daha çox məqbul – dini inancı hesab etmək olar. Məadın və ölümdən sonrakı həyatın baş verəcəyini göstərən çox sayda əqli və nəqli dəlillər vardır. Quranda məad haqqında təqribən 1200 ayə var ki, bütün Quranın beşdə birini təşkil edir. Bu, məada diqqətin xalqın tərbiyə və dindarlığındakı önəmini göstərir. Məadla bağlı əqli dəlillər çoxdur. Bu haqda ən mühüm əqli dəlil Allahın hikmət və ədalətinə əsaslanır. Çünki Allahın hikməti insanın yaradılışının məqsədyönlü olmasını zəruri edir. İnsanın yaradılış məqsədi də yalnız bəndələrin üzərinə düşən vəzifələr, məadın baş verməsi və mənəvi kamilliyə nail olmaqla gerçəkləşə bilər. Məada inam olmayan bir dünya təsəvvür etmək hamını həyatda puçluq və mənasızlığa sürükləyir.

**Hədis:** İmam Səccad (ə): “Ey Allahın bəndələri! Allahdan qorxun və yaradılış məqsədiniz haqqında düşünün. Allah sizi boşuna yaratmamış və özbaşına buraxmamışdır” (Tuhəfül-üqul, səh. 274).

**125**

**Məad ilahi ədalətin tələbidir**

أَفَنَجْعَلُ الْمُسْلِمِينَ كَالْمُجْرِمِينَ مَا لَكُمْ كَيْفَ تَحْكُمُونَ

Biz heç müsəlmanları günahkarlara tay tutarıqmı? Sizə nə olub, necə hökm verirsiniz? (Qələm, 35-36).

**İzah:** Allah-Taala müxtəlif dolğun və təsirli ifadələrlə bəndələrini Qiyamət günündən və Axirət haqq-hesabından qorxutmuşdur. Çünki bəndələri günahdan çəkindirən ən mühüm amil ölümü və Qiyamət sorğusunu xatırlamaqdır. Bu ayə də məadın zərurəti ilə bağlı başqa bir dəlilə işarə edir. Belə ki, məadı, onun mükafat və cəzasını nəzərə almadıqda ilahi ədalət də bütünlüklə şübhə doğuracaqdır. Çünki bu halda mömin və kafir arasında heç bir fərqi qoyulmayacaq. Başqa sözlə, əgər məad inancını insan həyatından çıxartsaq, yer üzündə zülm edən və fəsad törədənlər daha da çoxalacaq, zülm, qətl və qan tökmək halları insan növünün varlığını təhlükəyə atacaqdır. Digər tərəfdən, Allahın əmr və qadağalarına tabe olanlarla tabe olmayanlar, müti bəndələrlə asi bəndələr arasında fərq olmalıdır ki, hamı fəsad və zülmə meyl etməsin

**Hədis:** İmam Rza (ə): "İnsan növünün davamlılığı və məsləhəti mütləq mənada bilici olan, heç bir şeydən xəbərsiz qalmayan şəxsə inanması ilə şərtlənmişdir ki, pis

əməldən çəkinsin. (Dinə inam günahdan uzaq durmağa səbəb olur) (Üyuni-əxbari-Rza, c. 2, səh. 100, hədis: 1).

## 126

### Məadı inkar edənlərə cavab

وَهُوَ الَّذِي يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ وَهُوَ أَهْوَنُ عَلَيْهِ وَلَهُ الْمَثَلُ الْأَعْلَىٰ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

Məxluqatı ilk dəfə (yoxdan) yaradan, (ölümdən) sonra onu bir daha geri qaytaran Odur. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, Qüdrətlidir, Müdrikdir (Rum, 27).

**İzah:** Qədimdən bəri məadı inkar edənlərin ən mühüm dəstavüzü məadın mümkün olmamasıdır. Onlar daim bu inancı ələ salırlar ki, insanın çürümüş hissələri və dağılmış bədəni yenidən necə dirilə və hərəkətə gələ bilər. Quran dəfələrlə bu əbəs məntiqin batil olduğunu bildirmişdir. Bu şübhəni rədd etmə metodlarından biri ilk insanların yaradılmasını xatırlatmaqdır ki, bu ayədən başqa, "Yasin" surəsinin 79-cu, "Əhqaf" surəsinin 33-cü, "Qiyamət" surəsinin 40-cı və s. ayələrdə də söhbət açılmışdır. Bu ayədə Allah inkarçılara deyir ki, böyük kainatı heçdən yaradan Allah insanları yenidən yarada bilməzmi? Məlumdur ki, bir şeyi yenidən yaratmaq onu ilk dəfə düzəltməkdən və yaratmaqdan daha asandır. Əlbəttə, bu asanlıq insanların baxış bucağındandır. Yoxsa, Allah üçün asan və ya çətin iş (anlayışı) yoxdur.

**Hədis:** İmam Səccad (ə): "İlkin yaradılışı görən, digər yaradılışı isə inkar edənə təəccüb edirəm" (Kafi, c. 3, səh. 258, hədis: 28).

## 127

### Dünyada axirəti xatırladan nümunələr

فَانْظُرْ إِلَىٰ آثَارِ رَحْمَتِ اللَّهِ كَيْفَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا إِنَّ ذَٰلِكَ لَمُحْيِي الْمَوْتَىٰ وَهُوَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

Sən Allahın mərhəmətinin izlərinə bax ki, yeri öldükdən sonra necə diriltdir. Şübhəsiz ki, O, ölüləri də mütləq dirildəcəkdir. O, hər şeyə qadirdir (Rum, 50).

**İzah:** Quran məadı inkar edənlərin onun mümkünsüzlüyü ilə bağlı ortaya atdığı şübhələri rədd etmək üçün bu dünyada məadın nümunələrini onlara xatırladır ki, həm məadın, ölümdən sonrakı həyatın mümkünlüyünə nümunə olsun, həm də bu dünyada "Rəcət"ə (qayıdışa) sübut olsun. Bu nümunələrdən bəzisi bunlardır: Bəni-İsraildən qətlə yetirilmiş birinin dirilməsi (Bəqərə, 72), Üzeyr peyğəmbərin (ə) dirilməsi (Bəqərə, 259), Kəhf əshabının uzun illər sonra dirilməsi (Kəhf, 21), Bəni-İsraildən bir qrupun taun nəticəsində öldükdən sonra dirilməsi (Bəqərə, 243), yəhudilərin Tur dağında dirilməsi (Bəqərə, 55) və s. Bu insan nümunələri ilə yanaşı canlı varlıqların ölümdən sonrakı həyatı ilə bağlı başqa aydın nümunələr də vardır. Bu aşkar nümunə təbiətin ölüb-dilirlməsidir. Bəli, hər il ölü torpağa can verən, onda yamyaşıl bitkilər yaradan kəs, insanları da ölümdən sonra diriltməyə qadirdir.

**Hədis:** İslam peyğəmbəri (s): “Baharı gördükdə Qiyaməti çox yad edin. Çünki bahar Qiyamətə çox oxşayır” (Təfsiri-Fəxri-Razi, c. 17, səh. 18).

## 128

### Quşların İbrahim (ə) vasitəsilə dirilməsi

وَإِذْ قَالَ إِبْرَاهِيمُ رَبِّ أَرِنِي كَيْفَ تُحْيِي الْمَوْتَىٰ قَالَ أَوَلَمْ تُؤْمِنْ قَالَ بَلَىٰ وَلَٰكِنْ لِيَطْمَئِنَّ قَلْبِي قَالَ فَخُذْ أَرْبَعَةً مِنَ الطَّيْرِ فَصُرْهُنَّ إِلَيْكَ ثُمَّ اجْعَلْ عَلَىٰ كُلِّ جَبَلٍ مِنْهُنَّ جُزْءًا ثُمَّ ادْعُهُنَّ يَأْتِينَكَ سَعْيًا ۚ وَاعْلَمْ أَنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ

Bir zaman İbrahim: "Ey Rəbbim, ölüləri necə diriltdiyini mənə göstər!"– dedi. (Rəbbi ona): "Məgər sən inanmırsan?" – dedi. (İbrahim) dedi: "Əlbəttə (inanıram!) Amma (istəyirəm ki,) qəlbim rahat olsun". (Allah) buyurdu: "Quşlardan dördünü tut və onları özünə tərəf çəkib tikə-tikə et. Sonra hər dağın başına onlardan bir parça qoy, sonra da onları çağır, tez sənin yanına gələcəklər. Bil ki, Allah Qüdrətlidir, Müdrikdir!" (Bəqərə, 260).

**İzah:** Bir gün həzrət İbrahim (ə) parçalanmış və quşların yediyi bir leşi gördü. Bu səhnəni görüb, Allahdan ona ölüləri necə dirildəcəyini göstərməsini istədi. Allah onun istəyini qəbul etdi. Göstəriş verdi ki, dörd quş tutub tikə-tikə etsin və onları dağların başına yerləşdirsin. Sonra onları çağırsın və nəticədə onların necə bir yerə toplanacağını görsün.

**Hədis:** İmam Baqir (ə): Loğman oğluna dedi: "Oğlum, əgər ölümə şübhə edirsənsə, yuxunu özündən uzaqlaşdır (Bacarmadığını görəcəksən). Əgər məad və məhşərə

şübhən varsa, oyaqlığı özündən uzaqlaşdır (Bacarmadığını görəcəksən)" (Qəsəsül-ənbiya, səh. 190, hədis: 229).

## 129

## Cismani məad

### Barmaq uclarının yenidən bərpa edilməsi

أَيَحْسَبُ الْإِنْسَانُ أَلَّنْ نَجْمَعَ عِظَامَهُ بَلَىٰ قَادِرِينَ عَلَىٰ أَنْ نُسَوِّيَ بَنَانَهُ بَلْ يُرِيدُ الْإِنْسَانُ لِيَفْجُرَ أَمَامَهُ

İnsan elə düşünür ki, Biz onun sümüklərini yığa bilməyəcəyik. Mütləq (yığacağıq)! Biz onun barmaq uclarını bərpa etməyə qadirik. Lakin insan (bundan sonra da) günah etmək fikrindədir (Qiyamət, 3-5).

**İzah:** Cismani məad o deməkdir ki, Qiyamətdə həm insanın ruhu, həm cismi məhşərə gətiriləcək. Bu inanc məadın yalnız ruhən baş verəcəyini bildirən bəzi rasionalların düşüncəsinin əksidir. Quranda və rəvayətlərdə aydın ifadə edilmişdir ki, insanların Axirət həyatı cismani olacaqdır. Yəni insanın torpaqdan olan bu bədəni ilə gerçəkləşəcəkdir. Cismani məadın bəzi dəlilləri aşağıdakılardır: 1. Cənnət və Cəhənnəm əhlinin əksər nemət və əzabları maddidir. 2. Müşriklərin məada tutduğu irad növü ruhani məada yox, cismani məada uyğundur. 3. Quranda ölüb-dirilməklə bağlı göstərilən obyekiv dəlillər cismani ölüb-dirilmə nümunələridir. Yuxarıdakı ayə insanın torpaqdan formalaşan cisminin məhşər günü

yenidən yaradılacağını yüksək bir zərafətlə bəyan edir və açıq şəkildə məadın cismani olacağını sübut edir.

**Hədis:** İmam Sadiq (ə): "Ölünün heç bir bədən üzvü qalmır. Məzarda yalnız ilk gün yaradıldığı gil qalır ki, ilk dəfə olduğu kimi yenidən yaradılsın" (Kafi, c. 3, səh. 251, hədis: 7).

## 130

## Çürümüş sümüklərin dirildilməsi

وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ قُلْ يُحْيِيهَا الَّذِي أَنْشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ

O Bizə bir məsəl çəkdi, lakin yaradılışını unutdu. O dedi: "Çürümüş sümükləri kim dirildə bilər?" De: "Onları ilk dəfə yaradan Özü onları dirildəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir" (Yasin, 78-79).

**İzah:** Bu ayə həm məadın kafirlər tərəfindən inkar olunmasına bir cavabdır, həm də cismani məada sübutdur. Çünki çürümüş sümükləri diriltməkdən söhbət açır. Qeyd edək ki, bu ayə müşriklərdən birinə cavab olaraq nazil olmuşdur. O, məzarlıqdan çürümüş bir sümük tapdı və Peyğəmbərin (s) yanına gəldi. Sonra o sümüyü əlində əzib o həzrətə (s) dedi: "Bu parçalanmış sümüyü yenidən kim dirildəcək?" Yuxarıdakı ayə nazil oldu və ona cavab verdi.

**Hədis:** Materialist bir şəxs İmam Sadiqə (ə) dedi: "İnsan ölümdən sonra yenidən necə dirilir? Bir halda ki bədəni çürümüş, bədən üzvləri parçalanmışdır. Bir üzvü filan şəhərdə yırtıcılara yem olmuş, başqa bir üzvü başqa bir yerdə sürünənlərə yem olmuş, digər bir üzvü torpağa çevrilmiş və ondan hasar tikilmişdir". Həzrət (ə) buyurdu: "Bədəni yoxdan yaradan, ona heç bir nümunə və örnək

olmadan surət verən kəs ilk dəfə olduğu kimi bir daha geri qaytara bilər” (İhticac, səh. 350).

## 131

## Qiyamət gününün vəsfləri və adları

### 1. Haqq-hesab günü

مَالِكِ يَوْمِ الدِّينِ

Haqq-hesab gününün Hökmdarı yalnız Odur (Fatihə, 4).

**İzah:** Quranda Qiyamət gününün müxtəlif vəsfləri var. Bu vəsflərin hər biri o günün obyektiv təcəllalarından birinə işarə edir və insanları o aləmin həqiqətləri haqqında məlumatlandırır. Bu vəsflərdən biri o gün Allahın tam malik olmasının üzə çıxmasıdır. Qiyamət günü mütləq hökmdar Allahdır. O, bu dünyada hökmdar və dünyanın maliki olsa da bu həqiqət Qiyamətdə hamıya aşkar olacaq. Buna görə də Qiyamət günü "Onun mütləq hökmdar olduğu gün" adlandırılmışdır. "Ğafir" surəsinin 16-cı ayəsində qeyd olunduğuna görə, bu həqiqət Qiyamət günü o qədər aşkar olacaq ki, hər yerdən nida gələcək və hamı o gün mütləq hökmdarlığın Allaha məxsus olmasına şahidlik edəcək. Bəli, dünya malının, dəbdəbəli dünya sərvətinin və inad edən təkəbbürlülərin zəif gücünün o gün bir faydası olmayacaq. Hamı Allahın əzəmət və qüdrəti qarşısında səcdəyə düşəcək.

**Hədis:** Məhəmməd ibn Müslim deyir: "İmam Səccad (ə) bu ayəni oxuyanda o qədər təkrarlayırdı ki, az qalırdı can tapşırsın" (Kafi, c. 2, səh. 602, hədis: 13).

**132**

## 2. Peşmançılıq günü

وَأَنْذِرْهُمْ يَوْمَ الْحَسْرَةِ إِذْ قُضِيَ الْأَمْرُ وَهُمْ فِي غَفْلَةٍ وَهُمْ لَا يُؤْمِنُونَ

Sən onları işin bitmiş olacağı peşmançılıq çəkiləcək günlə qorxut! İndi onlar hələ qəflətdədirlər və iman gətirmirlər (Məryəm, 39).

**İzah:** "Peşmançılıq günü" Qiyamət günü insanların çoxunun peşmaçılıq və təəssüf içində olacağını göstərən ən ifadəli addır. Kafirlər öz küfr və azğınlıqlarından, günahkar möminlər bəzi əməllərində günah və Allaha asilikdən, hətta bəzi əməlisaleh möminlər ibadətlərinin az olmasından peşmançılıq duyacaq və təəssüf edəcəklər. Yuxarıdakı ayə ən gözəl ifadə ilə kafir və qafillərin o gün peşman olacağından xəbər verir.

**Hədis:** İmam Baqir (ə): "Peşmançılıq günü o gündür ki, ölüm insanların qarşısında bir qoyun surətində aşkar olacaq və kəsiləcək. Sonra Cənnət və Cəhənnəm əhlinə deyiləcək: "Burada əbədi olaraq qalın. Çünki artıq ölüm yoxdur". O zaman Cənnət əhli o qədər şad olacaq ki, o gün (aralarında) ölü olsaydı, dirilərdi. Cəhənnəm əhli elə peşmançılıq çəkəcək ki, əgər o gün ölmək mümkün olsaydı, hamısı ölərdi" (Biharul-ənvar, c. 8, səh. 345, hədis: 2).

## 133

### 3. Fəryad qopacağı gün

وَيَا قَوْمِ إِنِّي أَخَافُ عَلَيْكُمْ يَوْمَ التَّنَادِ يَوْمَ تُوَلُّونَ مُدْبِرِينَ مَا لَكُمْ مِنَ اللَّهِ مِنْ عَاصِمٍ وَمَنْ يُضْلِلِ اللَّهُ فَمَا لَهُ مِنْ هَادٍ

Ey xalqım! Mən başınıza gələcək fəryad qoparacağınız gündən qorxuram. Geriyə dönüb qaçacağınız gün sizi Allahdan qoruyan tapılmaz. Allahın azğınlığa saldığı kimsəyə isə yol göstərən olmaz (Ğafir, 32-33).

**İzah:** Qiyamət günü fəryad və nalələr ucalacaq. Cənnət və Cəhənnəm mələklərinin onların sakinlərinə səslənməsi, Cəhənnəm əhlinin nalələri, onların bir-biri ilə mübahisə etməsi, Cənnət əhlinin əməl dəftərlərini görərkən sevincdən çığırması və s. hamısı o günün fəryad və çığırtılarıdır.

**Hədis:** İmam Sadiq (ə): "Qiyamət günü insanların Allah qarşısındakı misalı oxun oxluqdakı misalıdır. Bir-birlərinə o qədər yaxın və sıx dayanarlar ki, hər birinin payına düşən yer yalnız ayaqlarının tutduğu qədər olar. Oxluqdakı ox kimi öz yerindən tərpənə bilməz(lər)" (Kafi, c. 8, səh. 143, hədis: 110).

**134**

## 4. Ziyan günü

يَوْمَ يَجْمَعُكُمْ لِيَوْمِ الْجَمْعِ ذَٰلِكَ يَوْمُ التَّغَابُنِ وَمَنْ يُؤْمِنْ بِاللَّهِ وَيَعْمَلْ صَالِحًا يُكَفِّرْ عَنْهُ سَيِّئَاتِهِ وَيُدْخِلْهُ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ذَٰلِكَ الْفَوْزُ الْعَظِيمُ

O gün (Allah) sizi Toplanma gününə cəm edəcək. Həmin gün qarşılıqlı aldanma günüdür. Hər kəs Allaha iman gətirib yaxşı işlər görsə, (Allah) onun günahlarını bağışlayar və onu (ağacları) altından çaylar axan Cənnət bağlarına daxil edər. Onlar orada əbədi qalacaqlar. Bu, böyük müvəffəqiyyətdir (Təğabun, 9).

**İzah:** Qiyamət gününün bu vəsfi də "Peşmançılıq günü" kimi o gün bir çoxlarının peşman olmasından və ziyana uğramasından xəbər verir. Bu ayədə o günlə bağlı başqa bir vəsf də qeyd olunmuşdur və o, "Toplanma günü"dür.

**Hədis:** Məsum (ə): Qiyamət günü məzardan çıxarılan hər kəs deyər: "İlahi, mənə rəhm et!" Onlara cavab verilər: "Əgər dünyada rəhm etmiş və bağışlamışsınızsa, sizə rəhm olunacaq" (Dəəvat, Ravəndi, c. 8, səh. 143, hədis: 110).

**135**

**A**

## 5. Görüş və Allahın mütləq hökmranlığı günü

رَفِيعُ الدَّرَجَاتِ ذُو الْعَرْشِ يُلْقِي الرُّوحَ مِنْ أَمْرِهِ عَلَىٰ مَنْ يَشَاءُ مِنْ عِبَادِهِ لِيُنْذِرَ يَوْمَ التَّلَاقِ يَوْمَ هُمْ بَارِزُونَ لَا يَخْفَىٰ عَلَى اللَّهِ مِنْهُمْ شَيْءٌ لِمَنِ الْمُلْكُ الْيَوْمَ لِلَّهِ الْوَاحِدِ الْقَهَّارِ الْيَوْمَ تُجْزَىٰ كُلُّ نَفْسٍ بِمَا كَسَبَتْ لَا ظُلْمَ الْيَوْمَ إِنَّ اللَّهَ سَرِيعُ الْحِسَابِ

Ən yüksək dərəcələrin və Ərşin sahibi Odur. O Öz əmri ilə Ruhu (vəhy mələyini) qullarından istədiyinə nazil edir ki, o, (insanları) Görüş günü ilə qorxutsun. O gün (insanlar yer üzünə) çıxacaq və onların heç bir şeyi Allahdan gizli qalmayacaqdır. (Allah deyəcək:) "Bu gün hökm kimə məxsusdur? Tək olan, (hər şeyə) qalib gələn Allaha!" Bu gün hər kəsə qazandığının əvəzi veriləcəkdir. Bu gün haqsızlıq olmaz. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir (Ğafir, 15-17).

**İzah:** Bu ayədə Axirət günü ilə bağlı bir neçə vəsf qeyd olunmuşdur: 1. Görüş günü, yəni insan öz əməlləri ilə üzləşəcək. Allahın mərhəmət və ya əzabı ilə qarşılaşacaq. Öz rəhbərlərini görəcək və s. 2. Hər şeyin aşkara çıxacağı gün.

**Hədis:** İmam Baqir (ə): "Həqiqətən, hakimiyyət və işlərin idarə olunması bu gün və həmişə Allahın əlindədir.

Amma Qiyamət günü bütün dünya hakimlərinin hakimiyyəti dağılacaq və Allahdan başqa kimsə hökmranlıq etməyəcək” (Məcməül-bəyan, c. 10, səh. 683).

**136**

## 6. Yaxınlaşan gün

وَأَنْذِرْهُمْ يَوْمَ الْآزِفَةِ إِذِ الْقُلُوبُ لَدَى الْحَنَاجِرِ كَاظِمِينَ مَا لِلظَّالِمِينَ مِنْ حَمِيمٍ وَلَا شَفِيعٍ يُطَاعُ يَعْلَمُ خَائِنَةَ الْأَعْيُنِ وَمَا تُخْفِي الصُّدُورُ

Onları ürəklərin xirtdəyə çatacağı, (özləri də) qəm-qüssə içində olacaqları Yaxınlaşan günlə qorxut. (O gün) zalımların nə bir yaxın dostu, nə də sözü keçən bir şəfaətçisi olar. (Allah) gözlərin xaincəsinə baxışını və kökslərin (nələr) gizlətdiyini bilir (Ğafir, 18-19).

**İzah:** Dünya həyatı – nə qədər uzun olsa da – əbədi Axirət həyatı qarşısında dəyərsizdir. Buna görə də Allah dəfələrlə Qiyamət gününün yaxın olmasını bildirmişdir. Bəli, insan məhşər səhrasına addım atıb, o uzun günü görəndə öz-özünə deyəcək ki, dünya necə də qısa, Qiyamət necə də yaxın imiş. Amma biz ondan qafil olmuşuq.

**Hədis:** İmam Səccad (ə): "Ey Adəm oğlu! Bil ki, bu gündən sonra daha böyük, daha qorxulu və ürəklər üçün daha ağrılı bir gün var və o, Qiyamət günüdür. O gün insanlar bir yerə toplanarlar, hamı orada olar və o gün yaxındır" (Kafi, c. 8, səh. 773, hədis: 29).

**137**

## 7. Sirlərin və gizlinlərin aşkara çıxacağı gün

يَوْمَ تُبْلَى السَّرَائِرُ

Sirlərin aşkar olacağı gün (Tariq, 9).

**İzah:** Qiyamət günü pərdələr çəkiləcək və insanın gizlinləri hər kəsə aşkar olacaq. Bu aşkara çıxmaq möminlər üçün fəxr, günahkarlar üçün isə utanc səbəbi olacaq.

**Hədis:** İslam peyğəmbəri (s): "Əməllərini islah et və daxilini təmizlə. Çünki Allah buyurur: "Əməl dəftərlərinin açılacağı və rüsvayçılıqların aşkara çıxacağı gündən qorxun" (Məkarimul-əxlaq, səh. 457).

138

## 8. Bütün münasibətlərin və bağların unudulması

فَإِذَا جَاءَتِ الصَّاخَّةُ يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ أَخِيهِ وَأُمِّهِ وَأَبِيهِ وَصَاحِبَتِهِ وَبَنِيهِ لِكُلِّ امْرِئٍ مِنْهُمْ يَوْمَئِذٍ شَأْنٌ يُغْنِيهِ

Qulaqbatırıcı bir səs gələndə, o gün insan öz qardaşından, anasından, atasından, arvadından və övladlarından qaçacaq. O gün onlardan hər birinin yetərincə işi olacaqdır (Əbəsə, 33-37).

**İzah:** Qiyamətin adlarının hər biri onun sifətlərindən birini ehtiva edir. Amma bu hissədə bu mühüm günün bəzi başqa vəsflərinə işarə olunmuşdur. Qiyamət günü o gündür ki, nəinki insanların bütün dünya bağları qırılacaq, hətta insan özü də qohumluq əlaqələrini bütünlüklə unudacaq və ən yaxın qohumlarından qaçacaq. Çünki başı öz aqibətinə qarışacaq və başqa şey haqqında düşünməyəcək.

**Hədis:** İslam peyğəmbəri (s): "Ey Fatimə! Qiyamət günü insanların başı özlərinə o qədər qarışacaq ki, heç kim başqasına baxmayacaq və heç bir ata oğluna baxmayacaq" (Camiul-əxbar, səh. 175).

139

## 9. Qorxunc zəlzələnin baş verməsi

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمْ إِنَّ زَلْزَلَةَ السَّاعَةِ شَيْءٌ عَظِيمٌ يَوْمَ تَرَوْنَهَا تَذْهَلُ كُلُّ مُرْضِعَةٍ عَمَّا أَرْضَعَتْ وَتَضَعُ كُلُّ ذَاتِ حَمْلٍ حَمْلَهَا وَتَرَى النَّاسَ سُكَارَىٰ وَمَا هُمْ بِسُكَارَىٰ وَلَٰكِنَّ عَذَابَ اللَّهِ شَدِيدٌ

Ey insanlar! Rəbbinizdən qorxun! Həqiqətən, o Saatın zəlzələsi müdhiş bir şey olacaqdır. Onu görəcəyiniz gün hər bir əmzikli (körpəsi olan) qadın əmizdirdiyini unudacaq, hər bir hamilə qadın bətnindəkini salacaqdır. İnsanları sərxoş görəcəksən, halbuki onlar sərxoş olmayacaqlar. Allahın əzabı hədsiz şiddətlidir (Həcc, 1-2).

**İzah:** Qiyamətdən öncə dünyada çox böyük hadisələr baş verəcəkdir ki, "Əşratus-saət" adlanır. Qiyamət ərəfəsində böyük və qorxunc bir zəlzələ baş verəcək, insanların canına qorxu və iztirab salacaq. Belə ki, hətta südəmər uşağına ən çox bağlı olan əmzikli qadın onu bütünlüklə unudacaq. Hamilə qadınlar bəntlərindəki uşaqlarını salacaqlar. İnsanlar – sərxoş və sərgərdan vəziyyətdə – ətrafa səpələnəcəklər.

**Hədis:** İmam Əli (ə): "Əməllərin sorğulanacağı gündən qorxun. O günün sarsıntısı çoxdur. Uşaqlar o gün qocalarlar" (Nəhcül-bəlağə, xütbə: 157).

## 140

### 10. Uşaqların qocalması

فَكَيْفَ تَتَّقُونَ إِنْ كَفَرْتُمْ يَوْمًا يَجْعَلُ الْوِلْدَانَ شِيبًا

Əgər küfr etsəniz, uşaqların saçlarının ağaracağı gündən necə yaxa qurtaracaqsınız? (Muzzəmmil, 17).

**İzah:** Qiyamət gününün çətinliyi və şiddəti o qədər böyükdür ki, bu ayənin təbiri ilə uşaqlar da qocalacaqlar. Bu dəyişiklik ya Qiyamət gününün çox uzun çəkməsindən, ya da o günün şiddətli və ağır olmasındandır. Bu növ ani dəyişiklikləri dünyanın dözülməz çətinliklərində və sıxıntılarında da görürük. Məlumdur ki, Quran ifadələri həqiqi və gerçəkdir. Onda zərrə qədər mübaliğə yoxdur.

**Hədis:** İmam Əli (ə): "Məzardan çıxarıldıqdan sonrakı zaman məzardan daha çətindir. O elə bir gündür ki, onda az yaşlı uşaqlar qocalır, yaşca böyüklər özündən gedir və bətnlərdəki uşaqlar düşür ... O günün dəhşəti hətta günahsız mələkləri də qorxuya salır. Ondan qala ki, qulağı, gözü, dili, əli, ayağı, cinsiyyət üzvü və qarnı ilə günah edənlər olsun. Əgər Allah onu bağışlamasa, o gün ona rəhm etməsə, (vay olsun ona!)" (Əmali, Tusi, 28).

**141**

## 11. Möminlərin ucalacağı, kafirlərin alçalacağı gün

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ إِذَا وَقَعَتِ الْوَاقِعَةُ لَيْسَ لِوَقْعَتِهَا كَاذِبَةٌ خَافِضَةٌ رَافِعَةٌ

Vaqiə qopacağı zaman onun qopduğunu heç kəs dana bilməz. O (kafirləri) alçaldacaq, (möminləri də) ucaldacaqdır (Vaqiə, 1-3).

**İzah:** Qiyamət elə bir gündür ki, zahiri dünya məqam və üstünlükləri sona çatacaq və hər kəs öz gerçək yerini görəcəkdir. (Dünyada təhqir olunan) möminlər əziz və hörmətli olacaq, (dünyada zahiri şövkət və cah-calal sahibi olan) kafirlər təkəbbür və qürur taxtından aşağı çəkiləcək, öz gerçək yerlərini anlayacaqlar.

**Hədis:** İmam Səccad (ə) – yuxarıdakı ayələrdə sözügedən Qiyamət vəsflərini izah edərkən – : "Qiyamət günü Allahın düşmənlərini Cəhənnəmə doğru aşağı çəkəcək, Allahın dostlarını isə Cənnətə doğru yuxarı çəkəcəkdir" (Biharul-ənvar, c. 70, səh. 92).

142

## 12. Qohumluqların və fəxrlərin fayda verməyəcəyi gün

فَإِذَا نُفِخَ فِي الصُّورِ فَلَا أَنْسَابَ بَيْنَهُمْ يَوْمَئِذٍ وَلَا يَتَسَاءَلُونَ

Sur üfürüləcəyi gün onların aralarında qohumluq əlaqəsi olmayacaq və onlar bir-birindən hal-əhval tutmayacaqlar (Muminun, 101).

**İzah:** Ümumilikdə dünyada təkəbbürlülər üçün iftixar səbəbi olan bütün şeylər Axirətdə onların işinə yaramayacaqdır. Bu baxımdan münasibətlər qəbilə-tayfa fəxrləri, qohumluq bağları aradan qalxacaq. Bu üfürülmədə məqsəd bütün ölülərin diriləcəyi ikinci üfürülmədir.

**Hədis:** İmam Səccad (ə): "Allah Cənnəti hətta Həbəşistan köləsi olsa da Öz fərmanına itaət edənlər və yaxşı iş görənlər üçün, Cəhənnəmi isə hətta Qüreyş övladı olsa da Ona asi olanlar üçün yaratmışdır" (Mənaqibi-İbn Şəhraşub, c. 4, səh. 151).

143

## 13. Dünya sərmayələrinin işə yaramayacağı gün

إِنَّ الَّذِينَ كَفَرُوا لَوْ أَنَّ لَهُمْ مَا فِي الْأَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لِيَفْتَدُوا بِهِ مِنْ عَذَابِ يَوْمِ الْقِيَامَةِ مَا تُقُبِّلَ مِنْهُمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ

Əgər yer üzündə olan hər şey, üstəlik bir o qədəri də kafirlərə məxsus olsaydı və onlar bunu Qiyamət gününün əzabından qurtarmaq üçün fidyə versəydilər, onlardan qəbul olunmazdı. Onlar üçün üzücü bir əzab hazırlanmışdır (Maidə, 36).

**İzah:** Bu ayənin gözəl bəyanı göstərir ki, dünyada çox böyük hərisliklə öz sərmayələrini artırmağa çalışan, onu canlarından da çox sevən kafirlər Qiyamətdə: "Kaş bütün dünyanı verəydik, əvəzində Allah bizi ağır Axirət əzabından xilas edəydi", – deyə arzu edəcəklər. Bu bəyan hər bir qafil insanı oyadır ki, dünya malı ilə könlünü xoş tutmasın və özü üçün daha qalıcı azuqə tədarükü haqqında düşünsün.

**Hədis:** İmam Səccad (ə): "Qiyamət günü elə bir gündür ki, heç bir günah və sapmadan keçilməyəcək, heç bir fidyə və qarşılıq alınmayacaq. O gün üzrxahlıq və tövbə qəbul olunmayacaq. Yeganə mükafat yaxşı əməllər, yeganə cəza isə günahlar olacaqdır" (Kafi, c. 8, səh. 72, hədis: 29).

## 144

## Əməllərin sorğulanması

### Əməllərin ölçülməsində diqqət və ədalət

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَإِنْ كَانَ مِثْقَالَ حَبَّةٍ مِنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا وَكَفَىٰ بِنَا حَاسِبِينَ

Biz Qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. (Görülmüş iş) bir xardal dənəsi mislində olsa belə, onu gətirib (tərəziyə) qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik (Ənbiya, 47).

**İzah:** Burada bəndələrin əməllərinin sorğulanması kimi çox önəmli mövzuya işarə edilir. Qiyamət günü ədalət tərəziləri qurulacaq və son dərəcə diqqət və ədalətlə bəndələrin əməlləri ölçülüb haqq-hesab çəkiləcək. “القسط” (əl-qist) burada “موازين” (məvazin) sözünün sifətidir. Yəni əsas etibarilə tərəzilər hətta ədalətə uyğun da yox, ədalətin özüdürlər. Bu ibarə Allahın Qiyamət günü çox ədalətli mühakiməsini ifadə edir. O gün heç kimə zülm olunmayacaq. İnsanın əməlləri – hətta əgər xardal dənəsi qədər kiçik və önəmsiz olsa da – sorğulanacaq, haqq-hesabı çəkiləcəkdir.

**Hədis:** İmam Sadiq (ə) – bu ayəni izah edərkən – : "Qiyamət gününün tərəziləri peyğəmbərlər və imamlardır). Belə ki, onlar bəndələrin əməllərinin qəbul olunma meyarı olacaqlar)" (Kafi, c. 1, səh. 419, hədis: 36).

**145**

## Ən kiçik yaxşı və pis əməllərin görünməsi

بسم الله الرحمن الرحيم. إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَهَا وَأَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَهَا وَقَالَ الْإِنسَانُ مَا لَهَا يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا بِأَنَّ رَبَّكَ أَوْحَى لَهَا يَوْمَئِذٍ يَصْدُرُ النَّاسُ أَشْتَاتاً لِّيُرَوْا أَعْمَالَهُمْ فَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ خَيْراً يَرَهُ وَمَن يَعْمَلْ مِثْقَالَ ذَرَّةٍ شَرّاً يَرَهُ

Yer titrəyib lərzəyə gələcəyi zaman; Yer öz yükünü bayıra atacağı və insan: "Ona nə olub?" – deyəcəyi zaman – həmin gün yer öz əhvalatlarını danışacaqdır. Çünki Rəbbin ona vəhy edəcəkdir. O gün insanlar əməllərinin onlara göstərilməsi üçün dəstə-dəstə gələcəklər. Zərrə qədər yaxşılıq edən (əvəzini) alacaqdır. Zərrə qədər pislik edən də (əvəzini) alacaqdır (Zilzal surəsi).

**İzah:** Mübarək "Zilzal" surəsi Qiyamət və əməllərin dəqiq haqq-hesabı haqqında təsirli ayələri ehtiva edir. Son iki ayə də əməllərin təcəssüm və təzahüründən xəbər verir.

**Hədis:** İslam peyğəmbəri (s): "İnsan öldükdən sonra yalnız üç xarakteri onu müşayiət edir: Qalıcı sədəqə, gözəl ənənə və onun üçün dua edən əməlisaleh övlad" (Kafi, c. 7, səh. 56, hədis: 3).

## 146

## İnsanın hesabın dəqiqliyindən heyrətlənməsi

وَوُضِعَ الْكِتَابُ فَتَرَى الْمُجْرِمِينَ مُشْفِقِينَ مِمَّا فِيهِ وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَالِ هَٰذَا الْكِتَابِ
لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصَاهَا وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا

(Hər kəsin əməl) kitabı (qarşısına) qoyulacaq və sən günahkarların orada (yazılmış) olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Kəhf, 49).

**İzah:** Qiyamət günü əməllərin sorğulanması simvollarından biri hər kəsin əməl dəftərinin özünə verilməsidir. O gün möminlərin əməl dəftəri sağ əlinə, günahkarların əməl dəftəri isə arxadan sol əlinə veriləcəkdir. Bu özü möminlərə hörmət, kafirlərə isə təhqirdir. Günahkarlar əməl dəftərlərini görəndə heyrətlənəcək və deyəcəklər: "Bu necə bir kitabdır ki, bütün kiçik və böyük əməlləri özündə əks etdirir". Onların əməlləri gözləri önündə hazır olacaq və onu ört-basdır edə bilməyəcəklər.

**Hədis:** İmam Sadiq (ə): "İnsan, öz əməllərini qovluğunda o qədər aydın görəcək ki, elə bil (o işləri) o saat görmüşdür" (Təfsiri-Əyyaşi, c. 2, səh. 328, hədis: 35).

## 147

## İnsanın öz əməllərini sorğulaması

وَكُلَّ إِنْسَانٍ أَلْزَمْنَاهُ طَائِرَهُ فِي عُنُقِهِ وَنُخْرِجُ لَهُ يَوْمَ الْقِيَامَةِ كِتَابًا يَلْقَاهُ مَنْشُورًا اقْرَأْ كِتَابَكَ كَفَىٰ بِنَفْسِكَ الْيَوْمَ عَلَيْكَ حَسِيبًا

Biz hər bir insanın əməlini öz boynundan asdıq. Qiyamət günü isə açıq vəziyyətdə qarşısına qoyulan kitabı ona göstərəcəyik. Kitabını oxu! Bu gün sənə öz-özünü hesaba çəkməyin yetər (İsra, 13-14).

**İzah:** İnsanın əməl dəftəri əlinə veriləndə ona müraciət olunar: "İlahi ədalət divanına gətirilmədən özün öz əməllərini hesaba çək". Bu o deməkdir ki, onun müqəddəratına şahidlik edən dəlillər çox aydın olacaq. Belə ki, hətta özü də iqrar və etiraf edəcək. Heç şübhəsiz, buna görə də bir çox rəvayətlərdə insanın dünyada öz əməllərini hesaba çəkməsi tövsiyə olunmuşdur.

**Hədis:** İmam Baqir (ə) – yuxarıdakı ayəni izah edərkən – : "İnsan harada olursa olsun, onun yaxşı və pisi də onunladır. Qiyamətdə əməl dəftəri ona verilənə qədər onlardan ayrıla bilməz" (Təfsiri-Qumi, c. 2, səh. 17).

## 148

### Bədən üzvlərinin insanın əleyhinə şahidlik etməsi

وَيَوْمَ يُحْشَرُ أَعْدَاءُ اللَّهِ إِلَى النَّارِ فَهُمْ يُوزَعُونَ حَتَّىٰ إِذَا مَا جَاءُوهَا شَهِدَ عَلَيْهِمْ
سَمْعُهُمْ وَأَبْصَارُهُمْ وَجُلُودُهُمْ بِمَا كَانُوا يَعْمَلُونَ

Allaha yağı kəsilənlər Cəhənnəmə (sürüklənib) toplanılacaqları günə qədər (bir yerdə) saxlanacaqlar. Nəhayət, onlar oraya gəldikləri zaman qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcəkdir (Fussilət, 19-20).

**İzah:** Qiyamət məhkəməsinin xüsusiyyətlərindən biri odur ki, günahkar həm məhkumdur, həm hakimdir, həm də öz əleyhinə şahiddir. Quran Qiyamət günü çox sayda şahidlərin olacağını bildirir. Onlara nümunə olaraq, başda İslam peyğəmbəri (s) olmaqla peyğəmbərləri, imamları, ilahi övliyaları, yeri, əməlləri yazan mələkləri göstərmək olar. Bu ayələrdə də bu mövzuda başqa bir şahiddən söhbət açılır və o insanın öz bədən üzvləridir. Bir gün günah etdiyi bədən üzvləri onun əleyhinə şahidlik edəcəklər. Günahkar heyrətlə onlardan soruşacaq ki, nə üçün onları əzaba düçar edəcək şeyə şahidlik edirlər? Bədən üzvləri cavab olaraq deyəcəklər: "Allah bizi danışmağa vadar edir və o hər şeyə qadir və hər şeydən xəbərdardır.

**Hədis:** İmam Əli (ə): "Ey Allahın bəndələri, bilin ki, sizə özünüzdən olan gözətçilər və əndamınızdan olan casuslar qoyulub. (Mələklərdən ibarət) qoruyucular var ki, sizin əməllərinizi və nəfəslərinizin sayını tam dəqiqliyi ilə qeydə alırlar (yazırlar)" (Nəhcül-bəlağə, xütbə: 157).

**149**

## Başqalarının günahını üzərinə almaq olmaz

وَقَالَ الَّذِينَ كَفَرُوا لِلَّذِينَ آمَنُوا اتَّبِعُوا سَبِيلَنَا وَلْنَحْمِلْ خَطَايَاكُمْ وَمَا هُمْ بِحَامِلِينَ مِنْ خَطَايَاهُمْ مِنْ شَيْءٍ إِنَّهُمْ لَكَاذِبُونَ وَلَيَحْمِلُنَّ أَثْقَالَهُمْ وَأَثْقَالًا مَعَ أَثْقَالِهِمْ وَلَيُسْأَلُنَّ يَوْمَ الْقِيَامَةِ عَمَّا كَانُوا يَفْتَرُونَ

Kafirlər möminlərə: "Bizim yolumuzla gedin, günahlarınızı öz üstümüzə götürək" – deyirlər. Halbuki onların heç biri heç kimin günahının altına girən deyillər. Şübhəsiz ki, onlar yalançıdırlar. Onlar həm öz (günah) yüklərini və həm də onlarla yanaşı neçə-neçə yükləri də daşıyacaqlar. Qiyamət günü onlar uydurduqları şeylər barəsində mütləq sorğu-suala çəkiləcəklər (Ənkəbut, 12-13).

**İzah:** Qiyamət gününün haqq-hesabının bariz xüsusiyyətlərindən biri budur ki, hər kəsin əməli öz hesabına yazılacaq və aldanmaq, üzürlü olmaq, məhrum və müstəzəf olmaq – zülmə məruz qalmaq – və s. kimi bəhanələr qəbul olunmayacaq. Hərçənd, pis bir ənənənin əsasını qoyan və ya cəmiyyətdə yaxşı bir əməli canlandıran kəs ardıcıllarının savab və ya əzabına da şərik olacaqdır. Amma bu da onun öz əməllərinin nəticəsidir. Sözügedən hər iki mətləb yuxarıdakı ayələrdə öz əksini tapmışdır.

**Hədis:** İmam Baqir (ə): "Kim pis bir ənənənin əsasını qoysa və (başqaları) onun yolunu getsə, ona da o ənənəyə

əməl edənlərin cəzası veriləcəkdir. Bir halda ki onların cəzası da azalmayacaqdır" (Səvabul-əmal, səh. 123).

## 150

## Şəfaət

### Şəfaət icazəsi yalnız Allaha məxsusdur

قُلْ لِلَّهِ الشَّفَاعَةُ جَمِيعًا لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالْأَرْضِ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ

De: "Şəfaət bütünlüklə Allaha məxsusdur. Göylərin və yerin hökmranlığı da Ona məxsusdur. Sonra siz Ona qaytarılacaqsınız" (Zumər, 44).

**İzah:** Şəfaət məsələsi şiə məzhəbinin danılmaz həqiqətlərindən və bir çox əhli-sünnə məzhəbləri tərəfindən məqbul hesab olunan məsələlərdəndir. Hərçənd ki, onun müxtəlif izahları var. Burada Quran ayələrindən mövzu ilə bağlı bir neçə qrupu diqqətinizə çatdırırıq. Şəfaətlə bağlı bir qrup ayələr onu mütləq şəkildə rədd edirlər (Bəqərə, 48). Digər bir qrup ayələr bu həqiqəti təkid edirlər ki, şəfaət yalnız Allaha məxsusdur və Qiyamət günü kimsə bir başqasını şəfaət edə bilməz. Bu iki qrup ayəni digər bir qrup ayəyə nəzərən izah etmək lazımdır. Hansı ki o ayələr şəfaətin Allahın icazəsindən asılı olduğunu ifadə edirlər. Bu halda bu ayələrdə məqsəd Qiyamət günü şəfaəti bütünlüklə rədd etmək deyil. Əksinə, bu o deməkdir ki, (o gün) şəfaət izni yalnız Allahın əlindədir və kimsə onun icazəsi olmadan başqa birinə zamin və şəfaətçi ola bilməz.

**Hədis:** İmam Sadiq (ə): "Qiyamət günü peyğəmbərlərin heç biri Allah icazə vermədikcə şəfaət etməyəcək. Yalnız İslam peyğəmbəri (s) bu ümumi qaydadan istisnadır. Çünki Allah Qiyamət günündən qabaq ona izn vermişdir" (Təfsiri-Qumi, c. 2, səh. 201).

## 151

### Allahın bəzi möminlərin şəfaətinə razı olması

يَوْمَئِذٍ لَا تَنْفَعُ الشَّفَاعَةُ إِلَّا مَنْ أَذِنَ لَهُ الرَّحْمَٰنُ وَرَضِيَ لَهُ قَوْلًا

O gün ər-Rəhmanın izn verdiyi və söz deməsinə razı olduğu şəxslərdən başqa heç kimin şəfaəti fayda verməyəcəkdir (Taha, 109).

**İzah:** Bu ayədə ötən mövzuda bəyan olunan mətləb aydın ifadə olunmuşdur. Belə ki, Allah Qiyamətdə bəzi həqiqi bəndələrinə şəfaət icazəsi verəcək və şəfaətlərini qəbul edəcəkdir. Bu mətləb şiə inancına uyğundur. Şiələr ilahi övliyaların şəfaətinin Allahın iradəsinin sıra boyunda olmasına və onun izni ilə gerçəkləşəcəyinə inanırlar. Rəvayətlərə görə, Qiyamətdə şəfaət izni veriləcək bəzi şəxslər bunlardır: Peyğəmbərlər, onların canişinləri, mələklər, şəhidlər, Allahın əməlisaleh bəndələri, hətta Quran hafizləri və s. Şəfaət edənlərin və şəfaət olunanların şərtləri haqqında gələcək mövzularda söhbət açacağıq.

**Hədis:** İmam Sadiq (ə) və İmam Baqir (ə): "Allaha and olsun ki, biz şəfaət edəcəyik. Allaha and olsun ki, biz günahkar şiələrimizə şəfaət edəcəyik. Belə ki, düşmənlərimiz onları görüb deycəklər: "Bizə nə şəfaət edən var, nə də mehriban bir dost" (Təfsiri-Qumi, c. 2, səh. 123).

## 152

## Şəfaət edənlərin şərti

وَلَا يَمْلِكُ الَّذِينَ يَدْعُونَ مِنْ دُونِهِ الشَّفَاعَةَ إِلَّا مَنْ شَهِدَ بِالْحَقِّ وَهُمْ يَعْلَمُونَ

(Müşriklərin) Onu qoyub yalvardıqları (tanrılar) şəfaət edə bilməzlər. (Mənasını) bilərək haqqa şəhadət verənlər isə istisnadır (Zuxruf, 86).

**İzah:** Yuxarıdakı ayəyə görə, yalnız iki əsas şərti özündə toplayan kəslərin şəfaət hüququ var. Bu iki şərt bunlardır: 1. Haqlı və düzgün şahidlik etsinlər. Yəni Allaha iman gətirib, iman və saleh əməllə Onun yeganəliyinə və öz bəndəliklərinə şahidlik etsinlər. 2. Kimlərin şəfaətə layiq olduğunu bilsinlər. Bu mətləb ötən ayədə də öz əksini tapmışdı ki, şəfaət istəyi Allahın razı olduğu və qəbul etdiyi sözlə birgə olsun. Bütün bunlardan aydın olur ki, şəfaət haqqı Allahın əməlisaleh bəndələrinə lütflərindəndir.

**Hədis:** İslam peyğəmbəri (s): "Şəfaət edənlər beşdir: Quran, mömin qohum, əmanət, Peyğəmbəriniz (s) və Peyğəmbərinizin (ə) Əhli-beyti (ə)" (Kənzul-ümmal, c. 14, səh. 390, hədis: 39041).

153

## Şəfaət olunanların şərti

يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ إِلَّا لِمَنِ ارْتَضَىٰ وَهُمْ مِنْ خَشْيَتِهِ مُشْفِقُونَ

(Allah) onların keçmişini və gələcəyini bilir. Onlar yalnız Onun razı qaldığı şəxslərdən ötrü şəfaət diləyir və Onun qorxusundan tir-tir əsirlər (Ənbiya, 28).

**İzah:** Bəziləri şəfaəti bir növ ayrı-seçkilik hesab edir və onu Allahın ədalətinə zidd görürlər. Bu şübhəyə cavab olaraq demək lazımdır ki, birincisi, şəfaətin leksik mənası uyğunluq və birgəlikdir. Bu məna şəfaətin terminoloji mənasında da nəzərdə tutulmuşdur. Şəfaət edənlə şəfaət olunan arasında uyğunluq olmalıdır. Buna görə də ilahi övliyaların şəfaəti yalnız o qrup günahkarlar haqqında keçərlidir ki, heç olmasa, şəfaət edənə iman və əməl baxımından bir az uyğun olsunlar. Yoxsa, dünyada onlardan tamamilə ayrı, Axirətdə isə şəfaət ardınca olmasınlar. Bu həqiqət yuxarıdakı ayədə bu şəkildə verilmişdir ki, mələklərin şəfaəti yalnız Allahın razı olduğu bəndələr haqqında keçərlidir. Odur ki, şəfaətə zəmin yaratmaq iradidir və orada heç bir ayrı-seçkilikdən, tərəfgirlikdən söhbət gedə bilməz.

**Hədis:** İmam Sadiq (ə): "Kim ona şəfaət edənlərin şəfaətinin Allah yanında keçərli olmasını istəyirsə,

Allahdan ondan razı olmasını istəsin" (Kafi, c. 8, səh. 11, hədis: 1).

## 154

## Cənnət və onun bəzi nemətləri

### Mələklərin Cənnət əhlinə salamı

جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا وَمَنْ صَلَحَ مِنْ آبَائِهِمْ وَأَزْوَاجِهِمْ وَذُرِّيَّاتِهِمْ وَالْمَلَائِكَةُ يَدْخُلُونَ عَلَيْهِمْ مِنْ كُلِّ بَابٍ سَلَامٌ عَلَيْكُمْ بِمَا صَبَرْتُمْ فَنِعْمَ عُقْبَى الدَّارِ

Əməlisaleh ataları, zövcələri və övladları ilə birlikdə daxil olacaqları Ədn bağları hazırlanmışdır. Mələklər bütün qapılardan onların yanına daxil olub (deyəcəklər): "Səbir etdiyinizə görə sizə salam olsun! Axirət yurdunuz necə də gözəldir!" (Rəd, 23-24).

**İzah:** Qiyamətdə sorğulanmanın sonu bu olacaq ki, möminlər nemətlərindən faydalanmaq üçün Cənnətə, kafirlər və günahkarlar isə Cəhənnəmə daxil olacaqlar. Quranda çox sayda ayələr Cənnət nemətlərini və Cəhənnəm əhlinin əzablarını, ağrı-acısını vəsf etmişdir. Belə ayələrin çox tərbiyəvi təsirləri var. Onları xatırlamaq və təkrar etmək nəfsin saflaşdırılmasına çox kömək edir. Cənnət əhlinin nemətlərindən biri odur ki, mələklər onların daxil olduğu andan onlarla xüsusi hörmətlə danışacaqlar. Bu ayələrdə sözügedən nemətə işarə olunmuşdur. Maraqlı burasıdır ki, bu ayələrdə mələklərin salamlamasının əsas səbəbi kimi möminlərin problemlərə qarşı səbirli olması göstərilmişdir.

**Hədis:** İmam Sadiq (ə): "Səbrin imana nisbəti başın bədənə nisbəti kimidir" (Kafi, c. 2, səh. 87, hədis: 2).

## 155

## Cənnət əhlinin təsəvvür etmədiyi nemətlərə sahib olması

فَلَا تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ

Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir (Səcdə, 17).

**İzah:** Cənnət nemətləri insanın məhdud düşüncə və vəsfinə sığmayacaq qədər üstündür. Allah Quranda bu nemətlərin bəzisinin vəsfəgəlməz olmasına işarə etmiş və yalnız üstüörtülü Cənnət əhlinə veriləcək gözaydınlığından kimsənin xəbəri olmadığını bildirmişdir. Qeyd edək ki, bu ayə gecələri oyaq qalıb ibadət edənlərin vəsfi ilə bağlı nazil olmuşdur.

**Hədis:** İslam peyğəmbəri (s): Allah-Taala buyurmuşdur: "Mən əməlisaleh bəndələrim üçün elə nemətlər hazırlamışam ki, heç bir göz görməmiş, heç bir qulaq eşitməmiş və kimsənin ağlına gəlməmişdir" (Əvaliil-ləali, c. 4, səh. 101, hədis: 148).

## 156

## Allah dərgahına yol tapmaq

إِنَّ الْمُتَّقِينَ فِي جَنَّاتٍ وَنَهَرٍ فِي مَقْعَدِ صِدْقٍ عِنْدَ مَلِيكٍ مُقْتَدِرٍ

Şübhəsiz ki, müttəqilər Cənnət bağlarında və çaylar kənarında qadir Hökmdarın hüzurundakı haqq məclisində olacaqlar! (Qamər, 54-55).

**İzah:** Allah Cənnət əhlinə növbənöv maddi nemətlər bəxş etmişdir. Amma Onun mənəvi lütflərinin dəyəri daha çoxdur. Bu rəhmani nemətlərdən biri Cənnət əhlinin haqq məclisində və Allahın hüzurunda olmasıdır. Elə bir yer ki, başdan-başa haqq və doğruluqdur və batil ona yol tapa bilməz. Bu ifadə pəhrizkarların Allaha nə qədər yaxın olacağını göstərir və məlumdur ki, bu bəndələr üçün ən böyük mükafatdır.

**Hədis:** İslam peyğəmbəri (s): "(Allah buyurmuşdur: ) Ey Əhməd! Həqiqətən, Cənnətdə bir saray var. ... (Bu saray) xüsusi bəndələrə aiddir. Belə ki, hər gün yetmiş dəfə onlara baxar və onlarla söhbət edərəm. ... Sonra Cənnət əhli yemək və içkidən həzz alarlar. Onlar məni xatırlamaqdan və mənim sözümdən zövq alarlar" (İrşadul-qülub, səh. 300).

## 157

## Allahın rəhmani təcəllasını görmək

وُجُوهٌ يَوْمَئِذٍ نَاضِرَةٌ إِلَىٰ رَبِّهَا نَاظِرَةٌ

O gün neçə-neçə üzlər sevinib güləcək, (könül gözü ilə) Öz Rəbbinə baxacaqdır! (Qiyamət 22-23).

**İzah:** Yuxarıdakı ayə də Cənnət əhlinə veriləcək ən üstün nemətlərdən söhbət açır. Bu ayələrdə Cənnət əhlinin siması şad və sevincli vəsf olunur. Çünki Allahın camal sifətlərinin təcəllasını müşahidə etməklə məşğul olurlar. Onlar zahiri gözlə Allahı görməsələr də könül gözü ilə Ona baxır, onun məftunedici təcəllalarına tamaşa etməkdən yorulmurlar. Bundan daha üstün nemət, bundan daha şirin həzz ola bilərmi?!

**Hədis:** İslam peyğəmbəri (s): "Cənnət əhli Cənnətə daxil olanda Allah buyurur: "Başqa bir şey əlavə etməmi istəyirsinizmi?" Onlar deyirlər: "(İlahi bizə hər şey vermisən) Üzümüzü ağ etməmisənmi? Bizi Cənnətə daxil etməmisənmi? Oddan xilas etməmisənmi?" Bu an pərdələr çəkilər (və Allahı könül gözü ilə müşahidə edərlər). Bu zaman onlar üçün Rəbbinə baxmaqdan daha sevimli şey yoxdur" (Şərhi-Nəhcül-bəlağə, İbn Əbu əl-Hədid, c. 90, səh. 280, ).

## 158

## Cəhənnəm və bəzi əzabları

### Günahkarların simasının aşkara çıxması

خُذُوهُ فَغُلُّوهُ ثُمَّ الْجَحِيمَ صَلُّوهُ ثُمَّ فِي سِلْسِلَةٍ ذَرْعُهَا سَبْعُونَ ذِرَاعاً فَاسْلُكُوهُ إِنَّهُ كَانَ لَا يُؤْمِنُ بِاللَّهِ الْعَظِيمِ وَلَا يَحُضُّ عَلَى طَعَامِ الْمِسْكِينِ فَلَيْسَ لَهُ الْيَوْمَ هَاهُنَا حَمِيمٌ وَلَا طَعَامٌ إِلَّا مِنْ غِسْلِينٍ لَا يَأْكُلُهُ إِلَّا الْخَاطِؤُونَ

(Mələklərə deyiləcək): "Onu yaxalayıb zəncirləyin! Sonra da Cəhənnəmə atın! Onu uzunluğu yetmiş dirsək olan zəncirə vurun! Çünki o, Böyük Allaha iman gətirmirdi və (heç kəsi) kasıbı yedirtməyə rəğbətləndirmirdi. Bu gün burada onun üçün bir dost tapılmaz. Qanlı irindən başqa yeməyi də yoxdur. Onu ancaq günahkarlar yeyər" (Haqqə, 30-37).

**İzah:** Möminlərin aqibəti ilə kafirlərin aqibətini müqayisə etmək Quranın tərbiyə üsullarından biridir. Buna görə də hər birinin taleyini qeyd edəndən sonra digəri haqqında söz açır və bəndələri digər zümrənin aqibəti ilə də tanış edir. Təhqir və başıaşağılıq Cəhənnəm əhlinin ilk əzabıdır. Qurana görə, Qiyamət günü günahkarların siması tanınacaqdır. Onları son dərəcə təhqir və zillətlə Cəhənnəmə doğru sürükləyəcək və oda atacaqlar.

**Hədis:** İmam Sadiq (ə): "Cəbrayıl Peyğəmbərə (s) xəbər vermişdir ki, əgər – Cəhənnəm əhlini bağladıqları – o yetmiş dirsək zəncirin bir halqası dünyaya qoyulsa, dünya onun istisindən əriyər" (Təfsiri-Qumi, c. 2, səh. 81).

**159**

## Kafirlərin əzabının yenilənməsi

إِنَّ الَّذِينَ كَفَرُوا بِآيَاتِنَا سَوْفَ نُصْلِيهِمْ نَارًا كُلَّمَا نَضِجَتْ جُلُودُهُمْ بَدَّلْنَاهُمْ جُلُودًا غَيْرَهَا لِيَذُوقُوا الْعَذَابَ إِنَّ اللَّهَ كَانَ عَزِيزًا حَكِيمًا

Şübhəsiz ki, ayələrimizi inkar edənləri (tezliklə) odda yandıracağıq. Hər dəfə onların dəriləri yandıqca, əzabı (daim) dadsınlar deyə, Biz o (dəriləri) başqa dərilərlə əvəz edəcəyik. Həqiqətən, Allah Qüdrətlidir, Müdrikdir (Nisa, 56).

**İzah:** Cəhənnəm əhlinin əzabının şiddəti və ağırlığı da Cənnət əhlinin rifah və asayişi kimi vəsfəgəlməzdir. Bu ayəyə görə, Cəhənnəm odu o qədər yandırıcıdır ki, əhlinin bədəninin dərisini qoparıb ayıracaqdır. Amma Allah kafirlərin bədəninə yeni dəri gətirəcək ki, yenidən bu əzabı dadsınlar.

**Hədis:** Bir nəfər İmam Sadiqdən (ə) soruşdu: "Yanan dəri başqası ilə necə əvəz oluna bilər?" İmam cavab verdi: "Əgər bir kərpici götürüb sındırsan və torpağa çevirsən, sonra qəlibə salıb başqa bir kərpic düzəldə bilməzsən? Bu yenə həmin kərpicdirmi? Bəli, həmin kərpicdir. Onda bir dəyişiklik yaranmışdır. Amma hər ikisi bir kərpicdir" (Təfsiri-Qumi, c. 1, səh. 141).

## 160

## Hər an gələ biləcək ölüm

مِنْ وَرَائِهِ جَهَنَّمُ وَيُسْقَىٰ مِنْ مَاءٍ صَدِيدٍ يَتَجَرَّعُهُ وَلَا يَكَادُ يُسِيغُهُ وَيَأْتِيهِ الْمَوْتُ مِنْ كُلِّ مَكَانٍ وَمَا هُوَ بِمَيِّتٍ وَمِنْ وَرَائِهِ عَذَابٌ غَلِيظٌ

Qabaqda onu Cəhənnəm gözləyir; (orada) ona irinli su içirdiləcək. O bunu qurtum-qurtum içəcək, amma onu uda bilməyəcəkdir. Ona hər yandan ölüm gələcək, lakin o, ölməyəcəkdir. Bunun ardınca da ağır bir əzab gələcəkdir (İbrahim, 16-17).

**İzah:** Cəhənnəm əhlinin əzabını təsvir etmək əbədi Axirət dünyası üçün azuqə hazırlanmasını yada salmağa səbəb olur. Cəhənnəm əhlinin əzabı bu ayədə belə vəsf olunur ki, onlar Allahdan su istəyirlər. Amma onlara irinli su verilir. Onu çətinliklə içəndə acı və odlu olduğu üçün uda bilmirlər. Həmçinin, ölüm hər tərəfdən onlara doğru gəlir. Lakin onlar ölmürlər ki, əzabları kəsilməsin. Beləcə, daim əzabda qalırlar.

**Hədis:** İmam Əli (ə): “O oda necə dözüm ki, onun bir qığılcımı Yerə düşsə, bütün bitkilər yanar. Kimsə bir dağa sığınsa, istiliyi onu oradaca bişirər” (Əmali, Səduq, səh. 620, hədis: 7).

## 161

## Əbədi Cəhənnəm

إِنَّ الَّذِينَ كَفَرُوا وَمَاتُوا وَهُمْ كُفَّارٌ أُولَٰئِكَ عَلَيْهِمْ لَعْنَةُ اللَّهِ وَالْمَلَائِكَةِ وَالنَّاسِ أَجْمَعِينَ خَالِدِينَ فِيهَا لَا يُخَفَّفُ عَنْهُمُ الْعَذَابُ وَلَا هُمْ يُنْظَرُونَ

Kafir olub kafir kimi də ölənlərə Allahın, mələklərin və bütün insanların lənəti olsun! Onlar bu lənətin içərisində həmişəlik qalarlar. Onların əzabı yüngülləşdirilməyəcək və onlara möhlət də verilməyəcəkdir (Bəqərə, 161-162).

**İzah:** Bəlkə də Cəhənnəm əhlinin ən böyük əzabı bu ayədə öz əksini tapmışdır. Çünki onda onların (Cəhənnəmdə) əbədi qalmasından və hər növ ilahi mərhəmət və lütfdən məhrum olmasından söhbət açılmışdır. Başqa sözlə, bu ayə ümid qapılarını Cəhənnəm əhlinin üzünə tamamilə qapayır və onları əbədi əzabla baş-başa qoyur. Əlbəttə, nəzərə almaq lazımdır ki, əbədi cəza yalnız bütün nicat qapılarını öz üzlərinə bağlayanlara, fəsada və azğınlığa qərq olanlara aiddir. Bu ağır ilahi əzabın əbədi olması Allahın mehribanlığı və rəhməti ilə bir yerə sığa bilər. Çünki kafirlər başqalarının hüquqlarını tapdayan, Allaha asilikdə israr edən insanlar idilər. Əgər onlar yüz illər də dirilsələr, bu zülmlərinə davam edəcəklər.

**Hədis:** İmam Sadiq (ə): "Cəhənnəm əhli ona görə odda əbədi qalacaq ki, onların dünyada niyyəti əbədi olaraq sağ

qalsalar da Allaha asi olmaqdır. Cənnət əhli isə ona görə Cənnətdə əbədi qalacaq ki, onların dünyada niyyəti əbədi olaraq sağ qalsalar da Allaha ibadət etmək idi” (Kafi, c. 2, səh. 85, hədis: 5).

## İkinci hissə

## Əxlaqi ayələr

Fəsillər

- Əxlaqi inkişaf amilləri
- Əxlaqi fəzilətlər və kamilliklər
- Əxlaqi qəbahətlər və günahlar
- Davranış qaydaları (həyat tərzi)

### Birinci fəsil

### Əxlaqi inkişaf amilləri

Aşağıdakı mövzuları ehtiva edir:

- Özünü (insanı) tanıma
- İman və Allaha inam
- Təqva və Allah qorxusu
- Tövbə və günahlardan paklanmaq
- Özünütərbiyə və nəfsin saflaşdırılması

- Zikr və Allahı xatırlamaq

## 162

## Özünü (insanı) tanıma

### İnsanın yer üzündə ilahi xilafəti

وَإِذْ قَالَ رَبُّكَ لِلْمَلَائِكَةِ إِنِّي جَاعِلٌ فِي الْأَرْضِ خَلِيفَةً قَالُوا أَتَجْعَلُ فِيهَا مَنْ يُفْسِدُ فِيهَا وَيَسْفِكُ الدِّمَاءَ وَنَحْنُ نُسَبِّحُ بِحَمْدِكَ وَنُقَدِّسُ لَكَ قَالَ إِنِّي أَعْلَمُ مَا لَا تَعْلَمُونَ

Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir canişin bərqərar edəcəyəm!" – dedikdə, onlar: "Biz Səni həmd-səna ilə təriflədiyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada fəsad törədib qan salacaq bir kəsmi yerləşdirəcəksən?" – söylədilər. O dedi: "Şübhəsiz ki, Mən sizin bilmədiklərinizi bilirəm!" (Bəqərə, 30).

**İzah:** Heç şübhəsiz, insan üçün təkamül yolunda atacağı ilk addım özünü tanımasıdır. Yəni insan haradan gəldiyi, haraya gedəcəyi və nə üçün yaradıldığı haqqında düşünməlidir. Öz varlıq yönlərini tam tanıyaraq məqsədə çatmaq yolunda addımlamalıdır. Allah çox sayda Quran ayəsini bu mövzuya həsr etmişdir. Bu ayə insanın yer üzündə xəlifə (canişin) olmasından söhbət açan mühüm ayələrdən biridir. (İnsanın çox önəmli yaradılış hadisəsini nağıl edən) bu ayə insanın yaradılış məqsədinin Allahın yer üzündə xəlifə və canişini olmaq olduğunu bildirir. Bu o deməkdir ki, insan ilahi sifətlərin nişanəsi və təzahürü olmalıdır.

**Hədis:** İmam Əli (ə): “Sizə Allahdan qorxmaq (təqvalı olmaq) əmr olunmuş və yaxşı işlər görmək, Allahın əmrinə tabe olmaq üçün yaradılmışsınız” (Biharul-ənvar, c. 32, səh. 356).

## 163

## İnsanın digər məxluqatdan üstün olması

وَلَقَدْ كَرَّمْنَا بَنِي آدَمَ وَحَمَلْنَاهُمْ فِي الْبَرِّ وَالْبَحْرِ وَرَزَقْنَاهُمْ مِنَ الطَّيِّبَاتِ وَفَضَّلْنَاهُمْ عَلَىٰ كَثِيرٍ مِمَّنْ خَلَقْنَا تَفْضِيلًا

Biz, Adəm oğullarını hörmətli etdik, onları quruda və dənizdə (minik üstündə) daşıdıq, onlara pak ruzilər verdik və onları yaratdıqlarımızın çoxundan xeyli üstün elədik (İsra, 70).

**İzah:** Allah-Taala insanı yaratdığı ilk gündən Yerdəki digər məxluqatdan fərqli yaratdı. Ona ixtiyar və iradə verdi ki, şüurlu şəkildə Allaha yaxınlaşmağa nail olsun. Bu ayə insanın Allahın yaratdığı başqa bir çox məxluqatdan üstün və hörmətli olmasını göstərir. İnsanın digər məxluqatdan şərafətli olmasına səbəb onun ağıl və iradə nemətinə sahib olması ilə əlaqədardır. Əgər bir insan bu nemətdən faydalanmasa, heyvani instinktlərini gücləndirsə, nəinki heyvanlardan və cinlərdən üstün olmayacaq, əksinə onlardan daha aşağı olacaq. Bu ayədən aydın olur ki, İslam, daim insanın hörmətini nəzərə almış və bütün ilahi hökmlərin məqsədinin insanı gerçək məqamına çatdırmaq olduğunu bildirmişdir. Elə bir məqam ki, Allaha bəndəlik etməkdən başqa bir vasitə ilə hasil olmur.

**Hədis:** İslam peyğəmbəri (s): "Allah yanında heç bir şey Adəm övladından əziz deyil". Soruşdular: "Ey Peyğəmbər

(s)! Hətta mələklərdəmi?" Buyurdu: "Mələklər, Günəş və Ay kimi məcburdurlar" (Şuəb əl-iman, c. 1, səh. 174, hədis: 153).

164

## İnsan ilahi əmanətin daşıyıcısıdır

إِنَّا عَرَضْنَا الْأَمَانَةَ عَلَى السَّمَاوَاتِ وَالْأَرْضِ وَالْجِبَالِ فَأَبَيْنَ أَنْ يَحْمِلْنَهَا وَأَشْفَقْنَ مِنْهَا وَحَمَلَهَا الْإِنْسَانُ إِنَّهُ كَانَ ظَلُومًا جَهُولًا

Biz əmanəti göylərə, yerə və dağlara təklif etdik. Onlar onu daşımaqdan (qorxub) imtina etdilər. Lakin insan onu boynuna götürdü. Doğrudan da, o, zalım və cahildir (Əhzab, 72).

**İzah:** Quranda ən mühüm insanı tanıma əsaslarından biri Allahın insanın üzərinə qoyduğu missiya və vəzifələrə diqqət etməkdir. Allah insanı muxtar və azad varlıq olaraq yaratdı. Ona yaxşı və pisi ayırd etmək gücünü bəxş etdi. Onu xarici (peyğəmbərlər) və daxili (zəka) hidayətlərlə yönləndirdi. Onun nəfsani qüvvələrinə və fitrətinə də haqqı və doğrunu qəbul etmək istedadı verdi. Beləliklə, lazımi istedadları insan daxilinə yerləşdirdi ki, üzərinə düşən vəzifənin ağır yükünü çiyninə ala bilsin. Yuxarıdakı ayə bu həqiqətə işarə edir ki, insan Tək Allah tərəfindən çox böyük bir əmanətin daşıyıcısıdır. Elə bir əmanət ki, ən böyük məxluqat – lazımi istedad və qabiliyyətə malik olmadıqları üçün – onu qəbul etməkdən imtina etmişlər. Bu əmanətdə məqsəd Allahın vilayəti (hamiliyi) və dini vəzifələrdir. Ayənin davamında Allah insanı çox zülmkar və nadan adlandırır. Bu cümlədə məqsəd bu böyük

əmanətə xəyanət edən və (bununla da) özünə zülm edən insanların pislənməsi və məzəmmət olunmasıdır.

**Hədis:** İmam Rza (ə): "Əmanət dedikdə Əhli-beyt (ə) nəzərdə tutulur. Kim onu haqsız olaraq iddia etsə, kafir olmuşdur" (Üyuni-əxbari-Rza, c. 1, səh. 306, hədis: 66).

## 165

## Yaradılışın hədəfi: ibadət və bəndəlik

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلَّا لِيَعْبُدُونِ

Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım (Zariyat, 56).

**İzah:** Ötən mövzularda insanın yaradılış məqsədinə işarə olundu. Yer üzündə canişinlik və xəlifəlik, böyük ilahi əmanəti çiyinlərinə almaq hamısı bir həqiqətə işarə edən müxtəlif ibarələrdir və o, Allaha ibadət və bəndəlikdir. Allaha ibadət etməkdə məqsəd Onun qarşısında son dərəcə itaətkar və təvazökar olmaqdır. Məlumdur ki, Allah-Taala mütləq mənada zəngin və ehtiyacsızdır. Sözügedən məqsəd də Onun ehtiyacsız zatı ilə əlaqəli deyil. Əksinə, Rəbbi qarşısında xuzu və xuşu ilə öz yaradılışının təkamül nöqtəsinə çatmalı və Onun dərgahına yaxınlaşmalı olan insandır. Başqa sözlə, dünyanı yaratmaq Allaha hər hansı bir mənfəət vermir. Əksinə, bu hədəf bəndələrin özünə aiddir.

**Hədis:** İmam Əli (ə): Allah-Taala buyurmuşdur: "Ey Adəm övladı! Səni mənfəət əldə etmək üçün yaratmadım. Əksinə, səni yaratdım ki, məndən faydalanasan. Elə isə hər şeyin əvəzinə Məni seç. Çünki Mən hər şeyin əvəzinə sənin haminəm" (Şərhi-Nəhcül-bəlağə, c. 2, səh. 319, hədis: 665).

## 166

## İman və Allaha inam

### İmanın mənası

قَالَتِ الْأَعْرَابُ آمَنَّا قُلْ لَمْ تُؤْمِنُوا وَلَٰكِنْ قُولُوا أَسْلَمْنَا وَلَمَّا يَدْخُلِ الْإِيمَانُ فِي قُلُوبِكُمْ
وَإِنْ تُطِيعُوا اللَّهَ وَرَسُولَهُ لَا يَلِتْكُمْ مِنْ أَعْمَالِكُمْ شَيْئًا إِنَّ اللَّهَ غَفُورٌ رَحِيمٌ

Bədəvilər - "Biz iman gətirdik!" – dedilər. De: "Siz (qəlbən) iman gətirmədiniz! Ancaq: "Biz müsəlman olduq!" – deyin. İman sizin qəlblərinizə hələ daxil olmamışdır. Əgər Allaha və Onun elçisinə itaət etsəniz, O sizin əməllərinizdən heç bir şey əskiltməz. Şübhəsiz ki, Allah Bağışlayandır, Rəhimlidir!" (Hucurat, 14).

**İzah:** Əxlaqi inkişaf amillərindən biri iman və Allaha inamdır. İman Haqq qarşısında təslimçilik və xuzu ilə müşayiət olunan qəti bilikdən ibarətdir. Buna görə də imanı etiqadla qarışdırmaq olmaz. Çünki iman hər bir fərdin etiqadlarının əməli yönüdür. Başqa sözlə, etiqadlar düşüncə və fikir mərhələsi ilə əlaqəlidir. İman isə o etiqadların əməldə özünü göstərməsidir. Bu baxımdan, iman və ya Allaha inamı əxlaqi inkişaf amillərindən biri hesab etmək lazımdır. Allah-Taala imanı xüsusi bəndələri üçün böyük nemət hesab etmiş və onun məqamının boş iddialardan daha yüksək olduğunu bildirmişdir.

**Hədis:** İmam Baqir (ə): "İman, iqrar və əməldir. İslam isə əməl (şərti) olmayan iqrardır" (Kafi, c. 2, səh. 24, hədis: 2).

## 167

### Qəlbin imana fitri meyli

وَاعْلَمُوا أَنَّ فِيكُمْ رَسُولَ اللَّهِ لَوْ يُطِيعُكُمْ فِي كَثِيرٍ مِنَ الْأَمْرِ لَعَنِتُّمْ وَلَٰكِنَّ اللَّهَ حَبَّبَ إِلَيْكُمُ الْإِيمَانَ وَزَيَّنَهُ فِي قُلُوبِكُمْ وَكَرَّهَ إِلَيْكُمُ الْكُفْرَ وَالْفُسُوقَ وَالْعِصْيَانَ أُولَٰئِكَ هُمُ الرَّاشِدُونَ

Bilin ki, Allahın elçisi aranızdadır. Əgər o, bir çox işlərdə sizə tabe olsaydı (güzəştə getsəydi), çətinliyə düşərdiniz. Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır. Doğru yolda olanlar da bunlardır (Hucurat, 7).

**İzah:** Qeyd olunduğu kimi, iman ilahi bir nemətdir. Belə ki, Allah onu bəndələrinin ləyaqətinə uyğun olaraq onlara bəxş etmişdir. Yuxarıdakı ayəyə görə, Allah Öz lütf və hikmətinin tələbi olaraq insanı elə yaratmışdır ki, - Vahid Allahın varlığına etiqaddan əlavə - Allahın varlığına inam da onun daxilində yer almış və sevimlisinə çevrilmişdir. Beləliklə, əgər fitrət nurunu öz vücudlarında söndürməmişlərsə, bütün insanların fitrəti Allahı axtarır və Allaha inanır. Həmçinin, insan təbiəti küfrü, fəsadı və günahı sevmir.

**Hədis:** İmam Sadiqdən (ə) sevgi və nifrət haqqında soruşduqda buyurdu: "İman (Allah adına) dostluq və düşmənçilikdən başqa bir şeydirmi?" Sonra yuxarıdakı ayəni oxudu (Kafi, c. 2, səh. 125, hədis: 5).

## 168

## İmanın qisimləri

### 1. Həqiqi imanın vəsfi

إِنَّمَا الْمُؤْمِنُونَ الَّذِينَ آمَنُوا بِاللَّهِ وَرَسُولِهِ ثُمَّ لَمْ يَرْتَابُوا وَجَاهَدُوا بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ فِي سَبِيلِ اللَّهِ أُولَئِكَ هُمُ الصَّادِقُونَ

Möminlər ancaq Allaha və Onun elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! (İmanlarında) sadiq olanlar da məhz onlardır (Hucurat, 15).

**İzah:** Burada imanın qisimlərinə işarə olunur. Həqiqi iman odur ki, Allahın bəndəsi öz dini inanclarında zərrəcə şübhəyə düşməsin və bütün varlığı ilə Allah yolunda cidd-cəhd etsin.

**Hədis:** İmam Əli (ə): "Bəndə o zaman imanı dada bilər ki, ona çatanın çatmaya və çatmayanın çata biləcəyini bilsin" (Kafi, c. 2, səh. 58, hədis: 4).

**169**

## 2. Müvəqqəti (mövsümi) iman

وَمِنَ النَّاسِ مَنْ يَعْبُدُ اللَّهَ عَلَىٰ حَرْفٍ فَإِنْ أَصَابَهُ خَيْرٌ اطْمَأَنَّ بِهِ وَإِنْ أَصَابَتْهُ فِتْنَةٌ انْقَلَبَ عَلَىٰ وَجْهِهِ خَسِرَ الدُّنْيَا وَالْآخِرَةَ ذَٰلِكَ هُوَ الْخُسْرَانُ الْمُبِينُ

İnsanlardan eləsi də vardır ki, Allaha şübhə ilə ibadət edir. Əgər ona bir xeyir çatsa, onunla rahatlıq tapar. Yox, əgər başına bir iş gəlsə, üz döndərib (küfrə) qayıdar. O (şəxs) dünyanı da itirər, axirəti də. Gerçək zərər də elə budur (Həcc, 11).

**İzah:** İmanın qınanan qisimləri də var. Bu qisimlərdən biri mövsümi imandır. Yəni yalnız bəzi vaxtlar (asayiş və rifah zamanı) mövcud olan, çətinlik və bəla zamanı aradan qalxan imandır. Yaxud, yalnız dil mərhələsində qalan, əməl mərhələsinə keçməyən imandır. Əksər insanlar bu növ imanın müştərisidir. Çünki ağır sınaqlarla üzləşəndə Rəbbin mərhəmətinə, qüdrətinə, ədalətinə və ya hikmətinə inamı itirir və səbirsizlik edirlər. Əslində, onların imanı asayiş və rifah ətrafında fırlanır. İmam Hüseyn (ə) gözəl bir rəvayətdə öz dönəminin insanlarını belə vəsf etmişdir (Tuhəful-üqul, səh. 245).

**Hədis:** İmam Əli (ə): “Bəndə dinini ehtirasına tərcih etməsə, imanın həqiqətini kamilləşdirməz” (Kənzül-fəvaid, c. 1, səh. 350).

**170**

### 3. Seçmə iman

...أَفَتُؤْمِنُونَ بِبَعْضِ الْكِتَابِ وَتَكْفُرُونَ بِبَعْضٍ فَمَا جَزَاءُ مَنْ يَفْعَلُ ذَٰلِكَ مِنْكُمْ إِلَّا خِزْيٌ فِي الْحَيَاةِ الدُّنْيَا وَيَوْمَ الْقِيَامَةِ يُرَدُّونَ إِلَىٰ أَشَدِّ الْعَذَابِ وَمَا اللَّهُ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ

... Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir (Bəqərə, 85).

**İzah:** (Quranın məzəmmət etdiyi) iman qisimlərindən biri seçmə imandır. Təəssüflər olsun ki, hazırki dövrdə də buna mübtəla olanlar çoxdur. Bəzi insanlar hökmlərin və etiqadların yalnız o qisminə iman gətirirlər ki, istəklərinə uyğun olsun və onlara zərəri dəyməsin. Əgər bunun əksi olarsa, müxtəlif bəhanələrlə Allahın hökmünə dözümsüzlük göstərirlər. Bəzən Allahın hökmünü öz ağıllarına zidd, bəzənsə ədalətə qarşı adlandırırlar. Yuxarıdakı ayəyə əsasən din hökmlərində ayrı-seçkilik etmək dünya və axirətdə xar olmaqdan başqa bir nəticə verməyəcək.

**Hədis:** İmam Sadiqdən (ə) soruşdular: "Fərdin mömin olması nədən bilinir?" Buyurdu: "Fərdin mömin olması

Allaha təslim olaraq, baş verən hər bir sevinc və kədərə razı olması ilə bəlli olur" (Kafi, c. 2, səh. 63, hədis: 12).

## 171

## İman və saleh əməl işığında pak həyat

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ
بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq (Nəhl, 97).

**İzah:** Qurani-kərimdə - 70-dən çox ayədə - iman və saleh əməl birgə qeyd olunmuşdur. Quranda bu iki ifadənin bir çox hallarda birgə işlənməsi onların insan səadətindəki rolunun önəmini göstərir. Saleh əməldə məqsəd o əməldir ki, iman və Allaha inam nuru onda təcəlla etsin. Bu tərifdən aydın olur ki, imanın mərtəbələrini ölçmək üçün fərdlərin əməldə ona nə qədər bağlı olduqlarına baxmaq lazımdır. Çünki həqiqi imana yalnız o adamlar sahibdir ki, əməllərində də Allaha diqqət və Onun razılığını qazanmaq başlıca yer tutur. Quran iman və saleh əməli insan təkamülünün iki əsas dayağı hesab edir və təkid edir ki, insan yalnız hər iki dayağa diqqət nəticəsində sağlam və pak həyat yaşaya bilər.

**Hədis:** İslam peyğəmbəri (s): "İman və əməl iki qardaşdır" (Məanil-əxbar, səh. 187, hədis: 4).

## 172

### İman və saleh əməlin qarşılıqlı əlaqəsi

... إِلَيْهِ يَصْعَدُ الْكَلِمُ الطَّيِّبُ وَالْعَمَلُ الصَّالِحُ يَرْفَعُهُ ...

Gözəl sözlər (düzgün düşüncə və inanc kimi pak həqiqətlər) Ona tərəf yüksəlir və onu ucaldan yaxşı əməldir (Fatir, 10).

**İzah:** Daha öncə qeyd olundu ki, iman və saleh əməl insan səadətinin iki mühüm qanadıdır. Hər biri digəri olmadan faydasız olacaqdır. Burada ötən mətləblərə bunu da əlavə edirik ki, iman və saleh əməl arasında qarşılıqlı əlaqə vardır. Yəni hər birinin az və ya çox olması digərinə təsir göstərir. İmanın çoxalması saleh əməlin çoxalması ilə nəticələnir. Saleh əməl insanın vücudunda iman nurunu gücləndirir və günah onun imanını da tədriclə sıradan çıxarır. Bu mətləb yuxarıdakı ayədən anlaşılır. "Gözəl sözlər" dedikdə məzmunu tamamilə paklıq və həqiqət olan sözlər nəzərdə tutulur. Buna görə də onu tövhid kimi düzgün etiqadlar mənasında izah etmişlər. Demək, ayənin mənası belədir: "Pak və düzgün etiqadlar Allaha doğru yüksəlir. Saleh əməllər o etiqadları inkişaf etdirir və yüksəlməsinə yardım edir. İnsanın yaxşı əməli təkrarlandıqca imanı daha möhkəm və təsirli olur".

**Hədis:** İmam Əli (ə): "Həqiqi həyat dindən başqa şeylə əldə olunmur" (İrşad, Mufid, c. 1, səh. 296).

## 173

## İmanda sabitqədəm olmaq

إِنَّ الَّذِينَ قَالُوا رَبُّنَا اللَّهُ ثُمَّ اسْتَقَامُوا تَتَنَزَّلُ عَلَيْهِمُ الْمَلَائِكَةُ أَلَّا تَخَافُوا وَلَا تَحْزَنُوا وَأَبْشِرُوا بِالْجَنَّةِ الَّتِي كُنْتُمْ تُوعَدُونَ

Həqiqətən də: "Rəbbimiz Allahdır!" – deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub (deyirlər:) "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin!" (Fussilət, 30).

**İzah:** Nəfsani keyfiyyətlərin insan vücuduna yer etməsi üçün iman və ona əməldə davamlılığa, sabitqədəmliyə ehtiyac var. Buna görə də iman və Allah yolunda səbir etmək bəndələrin davranışında uğur açarıdır. Quranda peyğəmbərlərin və ilahi övliyaların həyatına baxanda görürük ki, onların müvəffəqiyyət rəmzi etiqadda möhkəm olmaq, maneələrlə və problemlərlə üzləşdikdə sarsılmamaqdır. Burada Kəhf əshabı, Yusif peyğəmbər (ə), (Fironun həyat yoldaşı) Asiyə kimi çətinliklərdə və həyat müsibətlərində öz dini inanclarını itirməyən bariz nümunələrə işarə etmək olar.

**Hədis:** İmam Sadiq (ə): "Mömin dəmir parçalarından daha möhkəmdir. Dəmir parçaları oda atıldıqda dəyişir. Amma mömin dəfələrlə ölüdürülüb-dirilsə də ürəyi dəyişməz" (Sifatuş-şiə, səh. 32, hədis: 47).

## 174

## Təqva və Allah qorxusu

### A) Təqvanın önəmi

### Təqva – üstünlük meyarı

يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُمْ مِنْ ذَكَرٍ وَأُنْثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا إِنَّ أَكْرَمَكُمْ عِنْدَ اللَّهِ أَتْقَاكُمْ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ

Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız ən çox təqvalı olanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır (Hucurat, 13).

**İzah:** "تقوا" (təqva) sözü "وقاية" (viqayə) kökündəndir. Lüğəvi mənası qorumaq və saxlamaqdır. Terminologiyada nəfsi mənəvi aludəliklərdən qorumaq mənasını ifadə edir. Təqvanın önəmi, təsirləri, təqvalıların özəllikləri, təqvanın mərtəbələri və təqva ilə bağlı digər bir çox məsələlər dini mətnlərin nəzərə çarpacaq dərəcədə çox bir hissəsini özünə ayırmışdır. Təqva insanın əxlaqi şəxsiyyətinin təkamülündə çox böyük təsirə malikdir. Çünki əxlaqi fəzilətlərə yiyələnmək istiqamətində ilk addım nəfsi qəbahətlərdən və günahlardan təmizləməkdir. Bu

baxımdan təqvanı İslam ümmətinin bütün fərdi və ictimai əməllərinin təməli hesab etmək olar. Buna görə də yuxarıdakı ayə insanlara xatırladır ki, onların bir-birinə nisbətdə üstünlük və fəzilət meyarı güc, sərvət, rəng, irq və s. kimi zahiri və maddi imtiyazlar yox, təqva və Allah qorxusudur.

**Hədis:** İmam Əli (ə): "Təvadan daha əziz hörmət yoxdur" (Kafi, c. 8, səh. 19, hədis: 4).

## 175

### B) Fərdi təqvanın təsirləri

### 1. Bəsirət və aydın baxışlılıq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا وَيُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir (Ənfal, 29).

**İzah:** Təqvanın bir çox fərdi və ictimai nəticələri vardır. Bu nəticələrin ən önəmlisi haqqı batildən ayrıd etmək bacarığıdır. Pəhrizkar insanlar elə bir gücə malik olurlar ki, özlərində doğrunu yanlışdan ayırmaq bacarığını tapırlar. Buna səbəb odur ki, onlar özlərində azğınlıq köklərini aradan qaldırırlar və bəsirət gözləri aydınlanır. Buna görə də nəfsani ehtirasların əsirinə çevrilmir, nəfsani sapmalara düçar olmurlar. Qeyd edək ki, yuxarıdakı ayədə günahların üstünün örtülməsi və onların bağışlanması da təqvanın nəticələri sırasında sayılmışdır.

**Hədis:** İmam Baqir (ə): “Allah, bəndəni təqva vasitəsilə ağlı kəsməyən şeydən qoruyur, nadanlığını aradan qaldırır” (Kafi, c. 8, səh. 52, hədis: 16).

## 176

### 2. Problemlərin həlli

...وَمَنْ يَتَّقِ اللَّهَ يَجْعَلْ لَهُ مَخْرَجًا وَيَرْزُقْهُ مِنْ حَيْثُ لَا يَحْتَسِبُ...

... Allahdan qorxana, (Allah) çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. ... (Talaq, 2-3).

**İzah:** Təqva və Allahdan qorxmağın mənəvi nəticələrdən əlavə nəzərə çarpan dünyəvi nəticələri də vardır. Bu nəticələrdən biri odur ki, Allah Öz mərhəmət qapılarını pəhrizkarların özünün də güman etmədiyi yoldan onların üzünə açır, sıxıntılarını aradan qaldırır. Belə ki, kainatın bütün varlıqları və ümumilikdə yaradılış aləmi haqqa əsasən (Allahın fərmanının qəbul olunması və Ona itaət əsasında) yaradılmışdır (Hicr, 85). Pəhrizkarlar yaradılış sisteminə uyğun istiqamətdə addımladıqları üçün onun bərəkətlərindən faydalanır və problemlərlə üzləşmirlər.

**Hədis:** İmam Əli (ə): "Kim Allahdan qorxsa, Allah onun üçün hər bir kədərdə bir çıxış yolu, hər bir sıxıntıda bir rahatlıq yaradacaqdır" (Qürərul-hikəm, c. 5, səh. 380, hədis: 8847).

## 177

### 3. İşlərin asanlaşması

...وَمَنْ يَتَّقِ اللَّهَ يَجْعَلْ لَهُ مِنْ أَمْرِهِ يُسْرًا

Kim Allahdan qorxarsa, (Allah) onun işini asanlaşdırar (Talaq, 4).

**İzah:** Təqvanın – həm dünyadakı, həm də axirətdəki – nəticələrindən biri də işlərin asanlaşması və sürətli inkişafıdır. Bənzər mətləbə "Leyl" surəsinin 7-ci ayəsində də rast gəlirik. Məsələnin mahiyyəti bundan ibarətdir ki, Allah təqva vasitəsilə fərdin fitrətini və daxilini aydınladır və onu daim ən asan yolu – haqq yolunu – seçməyə sövq edir. Həmçinin, onun ixtiyarına lazımi vasitələri verir ki, bu növ əməlləri həyata keçirmək onun üçün asan olsun.

**Hədis:** İmam Əli (ə): "Əgər göylər və yer bir bəndənin qarşısına səd çəksələr və o bəndə təqva yolunu tutsa, Allah mütləq o ikisinin arasından onun üçün bir çıxış yolu açacaqdır" (Nəhcül-bəlağə, xütbə: 13).

## 178

### 4. Günahları örtmək

ذَٰلِكَ أَمْرُ اللَّهِ أَنْزَلَهُ إِلَيْكُمْ ۚ وَمَنْ يَتَّقِ اللَّهَ يُكَفِّرْ عَنْهُ سَيِّئَاتِهِ وَيُعْظِمْ لَهُ أَجْرًا

Bu, Allahın sizə nazil etdiyi əmridir. Kim Allahdan qorxarsa, (Allah) onun (günahlarından) keçər və onun mükafatını artırar (Talaq, 5).

**İzah:** Təqva və pəhrizkarlıq sayəsində insanın günahları bağışlanır, silinir və o, Allahdan böyük bir mükafat alır. Bu ayədə "سَيِّئَات" (səyyiat) dedikdə böyük günahlardan çəkinməklə bağışlanılan kiçik günahlar nəzərdə tutulur. Bu mətləbin bənzəri "Nisa" surəsinin 31 və "Nəcm" surəsinin 32-ci ayəsində də keçmişdir.

**Hədis:** İmam Əli (ə): "Agah olun, pəhrizkarlıq (insanı) günahların zəhərli dişindən uzaqlaşdırar" (Nəhcül-bəlağə, xütbə 157).

179

## 5. Bol ruzi verilməsi

وَلَوْ أَنَّ أَهْلَ الْكِتَابِ آمَنُوا وَاتَّقَوْا لَكَفَّرْنَا عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلَأَدْخَلْنَاهُمْ جَنَّاتِ النَّعِيمِ وَلَوْ أَنَّهُمْ أَقَامُوا التَّوْرَاةَ وَالْإِنْجِيلَ وَمَا أُنْزِلَ إِلَيْهِمْ مِنْ رَبِّهِمْ لَأَكَلُوا مِنْ فَوْقِهِمْ وَمِنْ تَحْتِ أَرْجُلِهِمْ مِنْهُمْ أُمَّةٌ مُقْتَصِدَةٌ وَكَثِيرٌ مِنْهُمْ سَاءَ مَا يَعْمَلُونَ

Əgər Kitab əhli iman gətirib (Allahdan) qorxsaydı, əlbəttə, Biz, onların təqsirlərindən keçər və onları nemət dolu bağlara (Cənnətə) daxil edərdik. Əgər onlar Tövrata, İncilə və Rəbbindən özlərinə nazil edilənə düzgün əməl etsəydilər, onlar başları üstündə və ayaqları altında (olan nemətlərdən) yeyərdilər. Onların arasında haqqı etiraf edən bir camaat vardır. Lakin onların çoxunun etdiyi əməllər necə də pisdir (Maidə, 65-66).

**İzah:** Bu ayədə də ötən ayə kimi kitab əhli cəmiyyətlərinin – səmavi kitablara etinasızlıqla bağlı – ümumi hərəkətini tənqid edərək müsəlmanlara xəbərdarlıq edir ki, əgər onlar Allaha və elçisinə iman gətirib, Quran və digər səmavi kitabları cəmiyyətdə hakim etsəydilər, ən üstün maddi və mənəvi nemətlərdən nəsiblərini alardılar. Bu ayə bir növ müsəlmanlara da aiddir. Yəni onlar da yalnız təqva hakimiyyəti və Quran sayəsində dünya və axirət səadətinə çata bilərlər.

**Hədis:** İslam peyğəmbəri (s): "Ey camaat! Təqvanı ticarət sanın ki, heç bir sərmayə və ticarətsiz sizə ruzi verilsin" (Kənzül-ümmal, c. 3, səh. 96, hədis: 5666).

## 180

## 6. Kollektiv təqva nəticəsində növbənöv bərəkətlərin nazil olması

وَلَوْ أَنَّ أَهْلَ الْقُرَىٰ آمَنُوا وَاتَّقَوْا لَفَتَحْنَا عَلَيْهِمْ بَرَكَاتٍ مِنَ السَّمَاءِ وَالْأَرْضِ وَلَٰكِنْ كَذَّبُوا فَأَخَذْنَاهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ

Əgər o ölkələrin əhalisi iman gətirib (Allahdan) qorxsaydı, əlbəttə, Biz onların üstünə göydən və yerdən bərəkət (qapılarını) açardıq. Lakin onlar (peyğəmbərləri) yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə (əzabla) yaxaladıq (Əraf, 96).

**İzah:** Quran təlimləri göstərir ki, təqva ona riayət edənlər baxımından iki şaxəyə – fərdi və kollektiv təqvaya ayrılır. Kollektiv təqva odur ki, ümumi insanlar özlərinin keşiyində dayanır və cəmiyyətin ümumi istiqamətinin haqq yoldan sapmasına icazə vermirlər. Başqa sözlə, kollektiv təqva cəmiyyətin ümumi hərəkətinin tanrımərkəzli olmasıdır. Quran bu həqiqəti bütün insanlara xatırladır ki, kollektiv təqva sayəsində Allahın xüsusi lütflərinə layiq görülər, göylərin və yerin bərəkət qapıları üzərinizə açılar.

**Hədis:** İmam Sadiq (ə): "Allahın şiddətli qəzəbindən Ona (Allahın Özünə) sığının". Soruşdum: "O nədir?" Buyurdu: "Bəndələri günahlarına görə cəzalandırmasıdır" (Kafi, c. 2, səh. 269, hədis: 6).

**181**

## Tövbə və günahlardan paklanmaq

### Rəbbin firavan rəhməti və əfvi

وَإِنِّي لَغَفَّارٌ لِمَنْ تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا ثُمَّ اهْتَدَىٰ

Mən, həqiqətən də, tövbə edib, iman gətirib yaxşı işlər görən, sonra da doğru yolu tutanları bağışlayıram (Taha, 82).

**İzah:** Əxlaqi inkişaf amillərindən biri də tövbə və Allaha qayıtmaqdır. Tövbənin həqiqi mənası nəfsdən Allaha doğru hicrət etməkdir. Əxlaq alimləri tövbəni nəfsi saflaşdırmaq istiqamətində ilk addım hesab etmişlər. Çünki qəlbi şeytani düşüncələrdən təmizləmək nəfsi ruhani fəzilətlərlə bəzəməkdən öndə gəlir. Bəzilərinin inancının əksinə olaraq, tövbə yalnız günahdan qayıtmaq deyil. Hətta peyğəmbərlər və Allahın xüsusi övliyaları da tövbənin və Allaha qayıdışın ən yüksək mərtəbəsinə sahib olmuşlar. Allah-Taala Quranda bəndələrini dəfələrlə tövbə etməyə və qayıtmağa dəvət etmiş, Öz rəhmət və məğfirət sifətlərini qeyd etməklə onların qəlbində ümid nurunu aydınlatmışdır. Bu sifətlərdən biri Qəffar sifətidir. Qəffar başqalarının yanlışından çox keçən və günahları çox bağışlayan deməkdir.

**Hədis:** İslam peyğəmbəri (s): “Allah bağışlayandır. O, yalnız dəvənin sahibindən qaçdığı kimi Onun itaətindən qaçanları bağışlamaz” (Kənzül-ümmal, c. 16, səh. 12, hədis: 43717).

## 182

## Tövbənin Allah tərəfindən qəbul olunması

وَإِذَا جَاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلَامٌ عَلَيْكُمْ كَتَبَ رَبُّكُمْ عَلَىٰ نَفْسِهِ الرَّحْمَةَ ۖ أَنَّهُ مَنْ عَمِلَ مِنْكُمْ سُوءًا بِجَهَالَةٍ ثُمَّ تَابَ مِنْ بَعْدِهِ وَأَصْلَحَ فَأَنَّهُ غَفُورٌ رَحِيمٌ

Ayələrimizə iman gətirənlər sənin yanına gəldikdə (onlara) de: "Sizə salam olsun! Rəbbiniz Özünə rəhimli olmağı əzəldən yazmışdır; sizlərdən hər kəs avamlığı üzündən pis iş görsə, sonra tövbə edib (əməllərini) islah etsə, (Allah onu bağışlayar). Həqiqətən, O, Bağışlayandır, Rəhimlidir" (Ənam, 54).

**İzah:** Allahın aydın sifətlərindən biri Onun bəndələrinə geniş mərhəmətidir. Bu mərhəmətin ən gözəl təzahürlərindən biri bəndələrin tövbəsini qəbul etməsidir. Allah Öz rəhmət qapılarını daim bəndələrinin üzünə açıq saxlamışdır ki, əgər cəhalət və nadanlıq üzündən bir yanlış iş görsələr, məyus olmayıb, Allah dərgahına üz tutsunlar. Sonra onların tövbəsini qəbul etməklə səhvlərindən keçər və onlarla dərgahının yaxşıları kimi davranar. Yuxarıdakı ayə Quranın ümidverici ayələrindəndir. Belə ki, Allah, mərhəmətin Özünə vacib olduğunu və tövbəni mütləq qəbul edəcəyini bildirmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): "Allah yaratdığı hər bir hadisəni üstələyən bir hadisə də yaratdı. Öz rəhmətini də

qəzəbini üstələsin deyə yaratdı" (Kənzül-ümmal, hədis: 10390).

## 183

## Allahın rəhmətinin qəzəbini önləməsi

غَافِرِ الذَّنْبِ وَقَابِلِ التَّوْبِ شَدِيدِ الْعِقَابِ ذِي الطَّوْلِ لَا إِلَٰهَ إِلَّا هُوَ إِلَيْهِ الْمَصِيرُ

(Bu), günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli olan lütf sahibindəndir! Ondan başqa məbud yoxdur. Dönüş də Onadır (Ğafir, 3).

**İzah:** Bildiyimiz kimi Allah-Taala bir sıra sifətlərə malikdir ki, onun bəşəri nümunələri ziddiyyətli görünür. Misal üçün, Allah rəhmət və qəzəb sifətlərinə malikdir. Buna baxmayaraq, Allahın rəhməti daim qəzəbindən öndədir. Hətta dəqiq yanaşarsaq, Allahın qəzəbi də Onun ümumi mərhəmətinin nümunələrindəndir. Çünki o olmadan yaradılış sistemi pozular və zalımlar yeri tamamilə fəsada sürükləyərlər. Yuxarıdakı ayədə Allahın rəhmət və qəzəb sifəti yanaşı qeyd olunmuşdur ki, bəndələri ümid və qorxu arasında saxlasın. Bu sifətlərin arasında Allahın qəzəb sifəti (شَدِيدِ الْعِقَاب) Onun bir neçə rəhmət sifətinin arasında verilmişdir və bu da dünyanın əsas etibarilə Allahın mərhəməti üzərində qurulmasına bir dəlildir.

**Hədis:** İmam Səccaddan (ə) soruşdular: "Həsən Bəsri deyir ki, Qiyamətdə kimsə həlak olarsa, təəccüblənməyin. Kiminsə nicat tapması təəccüblüdür". Buyurdu: "Mən isə deyirəm ki, kimsənin nicat tapmasına təəccüblənməyin.

Ona təəccüblənin ki, Allahın rəhməti bu qədər geniş olduğu halda necə həlak olmuşdur?” (Əmali, Mürtəza, c. 1, səh. 162).

## 184

### Allah tərəfindən tövbə fürsəti verilməsi

وَعَلَى الثَّلاَثَةِ الَّذِينَ خُلِّفُوا حَتَّىٰ إِذَا ضَاقَتْ عَلَيْهِمُ الْأَرْضُ بِمَا رَحُبَتْ وَضَاقَتْ عَلَيْهِمْ أَنْفُسُهُمْ وَظَنُّوا أَنْ لَا مَلْجَأَ مِنَ اللَّهِ إِلَّا إِلَيْهِ ثُمَّ تَابَ عَلَيْهِمْ لِيَتُوبُوا إِنَّ اللَّهَ هُوَ التَّوَّابُ الرَّحِيمُ

Geri qalmış üç nəfəri də (bağışladı). Hətta yer üzü öz genişliyinə baxmayaraq onlara dar gəlmiş, ürəkləri (kədərdən) sıxılmış və yəqin bilmişdilər ki, Allahdan (Onun əzabından), ancaq Onun Özünə sığınmaqdan başqa çarələri yoxdur. Sonra (Allah) peşman olsunlar deyə onların tövbəsini qəbul etdi. Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhimlidir (Tövbə, 118).

**İzah:** Tövbənin üç mərhələsi vardır: 1. Allah tərəfindən tövbə imkanı verilməsi; Birinci mərhələdə Allah bəndələrinin bəzi ləyaqətlərini müşahidə edərək onları tövbəyə və Özünə tərəf qayıtmağa hazırlayır. “تَابَ عَلَيْهِمْ” ibarəsi bu mənaya işarə edir. 2. Bəndənin tövbəsi; Bu mərhələ günahı tərk etməyə və keçmişi düzəltməyə ciddi qərar vermək mərhələsidir. Bu mərhələdə “تاب” (tabə) feili “إلى” (ilə) önqoşması ilə təsirli feilə çevrilmişdir. 3. Allah tərəfindən tövbənin qəbul olunması. Deməli, bəndənin tövbəsi hər zaman Allahın iki tövbəsinin arasındadır.

**Hədis:** İslam peyğəmbəri (s): “Allahın bəndəsinin tövbəsinə sevinməsi sonsuzun dünyaya uşaq gətirmə sevincindən, bir şey itirənin itiyini tapma sevincindən və

susuzun su tapma sevincindən daha çoxdur” (Kənzül-ümmal, c. 4, səh. 205, hədis: 10165).

## 185

## Allahın rəhmətindən məyus olmağın pislənməsi

قُلْ يَا عِبَادِيَ الَّذِينَ أَسْرَفُوا عَلَىٰ أَنْفُسِهِمْ لَا تَقْنَطُوا مِنْ رَحْمَةِ اللَّهِ إِنَّ اللَّهَ يَغْفِرُ الذُّنُوبَ جَمِيعًا إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ

(Qullarıma) de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhimlidir!' (Zumər, 53).

**İzah:** Allahın bəndələrinə mehribanlığı və lütfü o qədər genişdir ki, Öz rəhmətindən naümid və məyus olmağı ən böyük günahlardan biri hesab edir. Bəli, günahları göylər qədər olsa da tövbə qapısı bəndələrin üzünə əsla bağlanmır (Misbah, Kəfəmi, səh. 376). Allahın mərhəmətindən məyus olmaq günahkar bəndənin keçmişi düzəltmək ümidini əlindən alır və çox ola bilsin ki, o, günahlarını da artırır. Buna görə də Rəbbin rəhmətindən məyus olmaq böyük günahlardandır və din öndərləri tərəfindən pislənmişdir. Yuxarıdakı ayə bəndələri mümkün olan ən gözəl ifadə ilə ümidsizlikdən çəkindirir və Allahın geniş mərhəmət və əfvini xatırladır.

**Hədis:** İmam Əli (ə): "Ən böyük bəla ümidsizlikdir" (Qürərul-hikəm, c. 2, səh. 373, hədis: 286).

## 186

### Şirkdən başqa bütün günahların bağışlanması

إِنَّ اللَّهَ لَا يَغْفِرُ أَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَنْ يَشَاءُ وَمَنْ يُشْرِكْ بِاللَّهِ فَقَدِ افْتَرَىٰ إِثْمًا عَظِيمًا

Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa (günahları) isə dilədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur (Nisa, 48).

**İzah:** Bu ayə şirkdən başqa bütün günahların bağışlanacağından xəbər verir. Buna görə də İmam Əli (ə) bu ayəni Quranın ən ümidverici ayəsi adlandırmışdır. Çünki yuxarıdakı ayə yeganə ayədir ki, Allahın bağışlaması üçün heç bir şərt qoymur və yalnız Allahın geniş rəhmətinin tələbi olaraq, əlbəttə, hikmətinə əsasən bəzilərinin günahlarını, hətta tövbə etməsələr belə bağışlayacağını bildirir. Əlbəttə, bu xüsusi rəhmət o kəslərə aiddir ki, Allaha bəndəlik təzahürlərini öz həyatlarında sərgiləmişlər. Yoxsa, özlərini Allahın mərhəmət çevrəsindən çıxaran kafir və müşriklərə aid deyil. Qeyd edək ki, sözügedən ayə bəndələri qorxu və ümid arasında saxlayır. Çünki bir tərəfdən ayənin əvvəlində ürəklərində ümid yaradır, digər tərəfdən isə "لِمَنْ يَشَاءُ" – dilədiyi kimsəyə – ifadəsi ilə onlarda qürur hissini və tam arxayınlığı aradan qaldırır.

**Hədis:** İmam Baqir (ə): “Elə bir mömin yoxdur ki, ürəyində iki nur olmasın. Allahdan qorxu nuru və Ona ümid nuru. Hansını digəri ilə müqayisə etsələr, üstün gəlməyəcək” (Kafi, c. 2, səh. 71, hədis: 13).

## 187

## Böyük günahları tərk etmək kiçik günahların məhvinə səbəb olur

إِنْ تَجْتَنِبُوا كَبَائِرَ مَا تُنْهَوْنَ عَنْهُ نُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَنُدْخِلْكُمْ مُدْخَلًا كَرِيمًا

Sizə qadağan olunmuş böyük günahlardan çəkinsəniz, Biz sizin təqsirlərinizdən keçər və sizi şərəfli bir keçidə (Cənnətə) daxil edərik (Nisa, 31).

**İzah:** Yuxarıdakı ayə günahkar bəndələrə bu müjdəni verir ki, böyük günahlardan çəkindikləri halda onların kiçik günahları da bağışlanacaqdır. Böyük günahlarda məqsəd – məşhur versiyaya görə, – Quranda əzab vəd edilən günahlardır. Allahın bu gözəl vədi bəndələrin böyük günahlardan çəkinməyə daha çox diqqət etməsinə, özünütərbiyə və nəfsi saflaşdırmaq istiqamətində naümid olmamasına səbəb olur. Diqqət etmək lazımdır ki, sözügedən ayə heç bir vəchlə kiçik günahları etmək icazəsi deyil. Çünki birincisi, kiçik günahlar israr və təkrarla böyük günaha çevrilir. İkincisi, bilərəkdən kiçik günah etmək insanda böyük günah etməyə də cəsarət yaradır. Üçüncüsü, günahı kiçik sanmaq və ona laqeyd yanaşmaq özü də böyük bir günahdır.

**Hədis:** İmam Sadiq (ə): "Qiyamət günü günahkar mömin gətiriləcək və Allah onu sorğulayacaq. ... Belə ki, onu bütün günahlarından xəbərdar edəcək. O isə davamlı

olaraq deyəcək: “Bilirəm”. Sonra ona buyuracaq: “Dünyada sənin günahlarının üstünü örtdüm. Bu gün isə onları bağışlayıram. Bəndəmin günahlarını yaxşılığa çevirin” (Məhasin, səh. 170, hədis: 136).

**188**

## Tövbə edənlərin fəziləti

## (Allah yanında sevimli olmaq)

... اللَّهُ إِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ

Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da (Bəqərə, 222).

**İzah:** Qeyd olunduğu kimi, tövbə Allaha yaxınlaşmağın başlanğıcıdır. Quran və rəvayətlərdə tövbənin fəziləti və onun nəticələri haqqında çox söhbət açılmışdır. Bu nəticələrin ən önəmlisi və ən üstünü Allah yanında sevimli olmaqdır. Allah tövbəkarları nəinki qınamır, onlara minnət qoymur, əksinə onları Özünə ən yaxın bəndələr sırasında yer verir və başlarına Özü ilə dostluq tacı qoyur. Tövbəkarlar Allahın nemət dolu süfrəsi ətrafında əyləşib, Onun gizli və aşkar lütflərindən faydalanırlar. Xoşbəxt insan odur ki, bu nemət dolu süfrədən qidalansın və binəsib olmasın. Qəribə burasıdır ki, yuxarıdakı ayəyə görə, Allahın xüsusi lütfü çox tövbə edənlərə aid edilmişdir. Bu da o deməkdir ki, tövbə və günahdan dönmək üçün heç bir sərhəd yoxdur və insan tövbəsini pozduqda da məyus olmamalıdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Allah yanında tövbəkar qadın və kişidən sevimli heç nə yoxdur" (Üyuni-əxbari-Rza, c. 2, səh. 33).

## 189

## İstiğfarın nəticələri

### 1. İlahi mərhəmətə və əfvə nail olmaq

وَمَنْ يَعْمَلْ سُوءًا أَوْ يَظْلِمْ نَفْسَهُ ثُمَّ يَسْتَغْفِرِ اللَّهَ يَجِدِ اللَّهَ غَفُورًا رَحِيمًا

Kim pis bir iş görərsə və ya özü özünə zülm edərsə, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın Bağışlayan, Rəhimli olduğunu görər (110).

**İzah:** İstiğfar günahların bağışlanmasını istəmək deməkdir. "Hud" surəsinin 3, 52 və 90-cı ayələrindən aydın olur ki, tövbə və istiğfar arasında fərq vardır. İstiğfar tövbənin ibtidai mərhələsi və Allahdan günahların bağışlanmasını istəməkdir. Tövbə isə əməldə Allaha dönməkdir. Buna baxmayaraq, istiğfar və tövbənin bir çox nəticələri müştərəkdir. Ən üstün istiğfar zikri məşhur "Əstəğfirullah" zikridir. İmam Sadiqdən (ə) nəql olunan bir rəvayətə görə həm də ən əhatəli duadır (Kafi, c. 2, səh. 550, hədis: 12). Yuxarıdakı ayə bu həqiqətə işarə edir ki, bəndələr tərəfindən həqiqi istiğfar Allahın əfv və rəhməti ilə müşayiət olunur. Bu rəhmət fərdin vücudunda elə dərin iz buraxır ki, onu daxilində və ruhunda hiss edir. Tarixdə bəndələrin tövbəsinin qəbul olunması ilə bağlı çox sayda nümunələr vardır. Misal üçün, Yunus peyğəmbərin (ə)

qövmünün tövbəsini göstərmək olar ki, Allahın əzabını onlardan uzaqlaşdırdı.

**Hədis:** İmam Baqir (ə): "Günahdan tövbə edən şəxs əsla günah etməmiş kimidir" (Kafi, c. 4, səh. 232, hədis: 10).

## 190

## 2. Növbənöv nemətlərin nazil olması

فَقُلْتُ اسْتَغْفِرُوا رَبَّكُمْ إِنَّهُ كَانَ غَفَّارًا يُرْسِلِ السَّمَاءَ عَلَيْكُمْ مِدْرَارًا وَيُمْدِدْكُمْ بِأَمْوَالٍ
وَبَنِينَ وَيَجْعَلْ لَكُمْ جَنَّاتٍ وَيَجْعَلْ لَكُمْ أَنْهَارًا

Dedim: "Rəbbinizdən bağışlanmağınızı diləyin! Həqiqətən, O, çox Bağışlayandır! O, sizin üzərinizə bol-bol yağış göndərər, var-dövlət və oğul-uşaqla sizin imdadınıza çatar, sizin üçün bağlar salar və çaylar yaradar" (Nuh, 10-12).

**İzah:** İstiğfarın çox sayda dünya və axirətə aid nəticələri vardır. Həzrət Nuhun (ə) dilindən hekayət olunan bu ayələrdə sözügedən nəticələrin bəzisinə işarə olunmuşdur ki, hətta maddi nemətləri əldə etməyin də ilahi rəhmət və əfvdən asılı olmasını hamı bilsin. Ardıcıl səmavi bərəkətlərin nazil olması, çoxlu var-dövlət və oğul-uşaq sahibi olmaq, digər maddi və mənəvi imkanlardan faydalanmaq istiğfar və günahlardan dönmək sayəsində gerçəkləşir. Bu ayədən aydın olur ki, istiğfar müsibətlərin və problemlərin dəf olunmasında, səmavi nemətlərin enməsində çox təsirlidir. Daha öncə də – kollektiv təqva mövzusunda – bu mətləbə toxunduq. İmam Əli (ə) "Nəhcül-bəlağə"nin – "İstisqa" adı ilə məşhurlaşan – 133-cü xütbəsində bu həqiqəti açıqlamışdır.

**Hədis:** İmam Əli (ə): "Çox istiğfar et (Allahdan çox əfv dilə) ki, ruzini özünə çəkəsən" (Xisal, səh. 615, hədis: 10).

## 191

### 3. Əzabdan amanda qalmaq

وَمَا كَانَ اللَّهُ لِيُعَذِّبَهُمْ وَأَنْتَ فِيهِمْ وَمَا كَانَ اللَّهُ مُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ

Sən onların arasında olduğun halda Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir (Ənfal, 33).

**İzah:** Quran ayələrinin böyük bir hissəsi keçmiş qövmlərin asi olmasına və Allahın onları cəzalandırmasına həsr olunmuşdur. Bu, müsəlmanlara və bütün bəşəri cəmiyyətlərə xatırlatmadır ki, əgər günah və pozğunluq cəmiyyətə hakim kəsilsə, təqva tərk olunsa, Allahın gizli və aşkar əzabları onlara da nazil olacaqdır. Deməк, bəşəri cəmiyyətlər yalnız Allaha qayıtdıqları və həqiqi mənada tövbə və istiğfar etdikləri zaman ilahi rəhmət altına alınarlar. Yuxarıdakı ayə bu həqiqəti təkid edir ki, müşrikləri Allahın səmavi əzabından yalnız iki şey xilas edə bilər: 1. İlahi rəhmətin bariz nümunəsi olan İslam peyğəmbərinin (s) onların arasında olması. 2. Onların istiğfar etməsi və Allaha doğru qayıtması. Məlumdur ki, müsəlmanlar İslam peyğəmbərinin (s) dünyasını dəyişməsindən sonra onun rəhmani və bərəkətli vücudundan məhrum oldular. Ona görə də onların xilas yolu yalnız istiğfardır.

**Hədis:** İmam Əli (ə): "Yerdə Allah əzabından amanda saxlayan iki şey var idi. Onlardan biri (Peyğəmbər) götürüldü. Elə isə ikincisindən (istiğfardan) yapışın" (Nəhcül-bəlağə, qısa kəlamlar: 88).

## 192

## Tövbənin şərtləri

### 1. Günaha israr etməmək

وَالَّذِينَ إِذَا فَعَلُوا فَاحِشَةً أَوْ ظَلَمُوا أَنْفُسَهُمْ ذَكَرُوا اللَّهَ فَاسْتَغْفَرُوا لِذُنُوبِهِمْ وَمَنْ يَغْفِرُ الذُّنُوبَ إِلَّا اللَّهُ وَلَمْ يُصِرُّوا عَلَىٰ مَا فَعَلُوا وَهُمْ يَعْلَمُونَ أُولَٰئِكَ جَزَاؤُهُمْ مَغْفِرَةٌ مِنْ رَبِّهِمْ وَجَنَّاتٌ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا وَنِعْمَ أَجْرُ الْعَامِلِينَ

O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər, – günahları Allahdan başqa kim bağışlaya bilər? – onlar bilə-bilə etdiklərinə israr etməzlər. Onların mükafatı, Rəbbindən bağışlanma və (ağacları) altından çaylar axan Cənnət bağlarıdır ki, orada əbədi qalacaqlar. (Yaxşı) əməl sahiblərinin mükafatı necə də gözəldir! (Ali-İmran, 135-136).

**İzah:** Tövbənin də digər bir çox ayinlər kimi bir sıra şərtləri və qaydaları var. Tövbənin şərtlərindən biri günaha israr etməməkdir. Tövbənin qəbul olunma şərti odur ki, tövbəkar günah işlədiyinə görə həqiqətən peşmançılıq duysun, dil və qəlb dairəsindən kənara çıxsın. Yuxarıdakı ayə tövbə edənləri mədh etməklə yanaşı sözügedən mətləbə də işarə edir.

**Hədis:** İslam peyğəmbəri (s): "Əgər tövbəkarda tövbə əlaməti görünməsə, tövbə etməmişdir. Tövbə əlaməti şikayətçiləri razı salmaq, namazların qəzasını qılmaq, camaatla təvazökar olmaq, özünü nəfsani istəklərdən uzaq tutmaq, oruc tutmaqla özünü (Allaha) tabe etməkdir" (Camiul-əxbar, səh. 87).

**193**

## 2. Allaha inad etməmək

إِنَّمَا التَّوْبَةُ عَلَى اللَّهِ لِلَّذِينَ يَعْمَلُونَ السُّوءَ بِجَهَالَةٍ ثُمَّ يَتُوبُونَ مِنْ قَرِيبٍ فَأُولَٰئِكَ يَتُوبُ اللَّهُ عَلَيْهِمْ وَكَانَ اللَّهُ عَلِيمًا حَكِيمًا

Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir (Nisa, 17).

**İzah:** Yuxarıdakı ayədə Allah bəndələrinin tövbəsini qəbul etməyi özünə vacib etmişdir. Amma bir şərtlə ki, günahı nadanlıq və cəhalət üzündən işləmiş və dərhal tövbə etmiş olsunlar. "بِجَهَالَة" (bicəhalə) qeydində məqsəd bilmədən günah işləmək deyil. Çünki bildiyimiz kimi, insan bir işi hökmünü bilmədən etsə və onu öyrənməyə səhlənkarlıq etməsə, günah işləməmişdir. Bundan başqa, dini ifadələrdə cəhalət sözü ağıl sözünün ziddi kimi işlənir. Hərçənd, adi danışıqda elmin əksidir. Buna nəzərən, ayədə "cəhalət" dedikdə ağılsızlıq nəzərdə tutulur. Yəni ehtirasın və ya qəzəbin ağlı üstələməsi nəticəsində edilən günah nəzərdə tutulur. Belə bir günah Allah tərəfindən bağışlanır və əfv edilir. Amma Haqqa inad üzündən və şüurlu şəkildə olunan günah heç zaman bağışlanmaz.

**Hədis:** İmam Səccad (ə) – Əbu Həmzə duasında – : "İlahi! Mən Sənə nə Rəbb olmanı inkar edərək, nə də

əmrini önəmsiz sanaraq asi olmadım. ... Bu baş verən bir yanlış idi. Nəfsim məni öz gözümdə süslədi” (Misbahul-müctəhid, səh. 589).

194

### 3. Tövbəni təxirə salmamaq

وَلَيْسَتِ التَّوْبَةُ لِلَّذِينَ يَعْمَلُونَ السَّيِّئَاتِ حَتَّىٰ إِذَا حَضَرَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ إِنِّي تُبْتُ
الْآنَ وَلَا الَّذِينَ يَمُوتُونَ وَهُمْ كُفَّارٌ أُولَٰئِكَ أَعْتَدْنَا لَهُمْ عَذَابًا أَلِيمًا

Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün üzücü bir əzab hazırlamışıq (Nisa, 18).

**İzah:** Tövbənin şərtlərindən biri də vaxtlı olmasıdır. Ölüm zamanı və Rəbbin əzabını müşahidə edərkən tövbə etməyin bir faydası olmayacaqdır. Çünki o zaman Allaha dönmək məcburidir. Hətta o zaman əksər kafirlər də dünyaya geri dönməyi və keçmiş əməllərini islah etməyi arzu edirlər. Bu faydasız tövbələrin nümunəsi Fironun tövbəsidir. O, Nil çayında boğulanda imanını izhar etdi. Bu, Şeytanın hiylələrindən biridir. O, peşman bəndələri dərhal tövbə etməkdən yayındırır. Onlara təlqin edir ki, ömrün sonunda tövbə etməyə və paklanmağa fürsət olacaqdır. Halbuki mömin özünü heç zaman Allahın əzabından amanda görmür və ölümü daim öz yaxınlığında hiss edir. Şeytanın bu vəsvəsələrinə "Təsvif" – tövbəni gələcəyə saxlamaq (təxirə salmaq) – deyilir.

**Hədis:** İmam Əli (ə): "Günah edəndə onu tövbə ilə silməyə tələs" (Tuhəful-üqul, səh. 81).

**195**

## 4. Keçmişi düzəltmək

ثُمَّ إِنَّ رَبَّكَ لِلَّذِينَ عَمِلُوا السُّوءَ بِجَهَالَةٍ ثُمَّ تَابُوا مِنْ بَعْدِ ذَٰلِكَ وَأَصْلَحُوا إِنَّ رَبَّكَ مِنْ بَعْدِهَا لَغَفُورٌ رَحِيمٌ

Şübhəsiz ki, Rəbbin, avamlıqları üzündən pis iş görən, ondan sonra tövbə edib özlərini islah edənləri, (bütün) bunlardan sonra, əlbəttə ki, Rəbbin bağışlayacaq və rəhm edəcək (Nəhl, 119).

**İzah:** Bəzilərinin yanlış inancı odur ki, tövbə yalnız istiğfar zikrini demək və ya əməldə günahı tərk etməyə qərar verməkdir. Halbuki tövbənin əsas şərtlərindən biri keçmiş əməlləri islah etməkdir. Başqa sözlə, hər bir günahın tövbəsi onun növündən asılıdır. İnsan haqqı olan bir günahın tövbəsi odur ki, peşmançılıqdan və əməldə günahı tərk etmək qərarından başqa insanların haqqı da geri qaytarılsın və ya onlardan razılıq alınsın. Həmçinin, bir çoxlarının yolunu azmasına səbəb olan günahların tövbəsi yalnız istiğfar və peşmançılıq deyil. Əksinə, mümkün qədər başqalarını da öz səhvin haqqında məlumatlandırmalı və yaranan azğınlıqları islah etməlisən. Yuxarıdakı ayə münafiqlərin tövbəsinə işarə edir ki, onun şərtlərindən biri cəmiyyətdə meydana gələn fəsadları islah etməkdir.

**Hədis:** İslam peyğəmbəri (s): “Hər bir günah üçün tövbə et. Gizli günah üçün gizli, aşkar günah üçün aşkar tövbə et” (Tuhəful-üqul, səh. 26).

## 196

## Ən yaxşı tövbə üsulu

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللَّهِ تَوْبَةً نَصُوحًا عَسَىٰ رَبُّكُمْ أَنْ يُكَفِّرَ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيُدْخِلَكُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الْأَنْهَارُ يَوْمَ لَا يُخْزِي اللَّهُ النَّبِيَّ وَالَّذِينَ آمَنُوا مَعَهُ نُورُهُمْ يَسْعَىٰ بَيْنَ أَيْدِيهِمْ وَبِأَيْمَانِهِمْ يَقُولُونَ رَبَّنَا أَتْمِمْ لَنَا نُورَنَا وَاغْفِرْ لَنَا إِنَّكَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

Ey iman gətirənlər! Allaha səmimi olaraq tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızdan keçsin və sizi, Allah o Peyğəmbəri və onunla birlikdə iman gətirənləri utandırmayacağı gündə, (ağacları) altından çaylar axan Cənnət bağlarına daxil etsin. Onların nuru önlərindən və sağ tərəflərindən ətrafa yayılacaqdır. Onlar deyəcəklər: “Ey Rəbbimiz! Nurumuzu bizim üçün tamamla və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!” (Təhrim, 8).

**İzah:** Qeyd edildiyi kimi, tövbənin mərhələləri və mərtəbələri vardır. Onların ən üstünü peyğəmbərlərə və Allahın saleh övliyalarına aiddir. Tövbənin ən yaxşı metodu bu ayədə işarə olunan “Nəsuh” tövbədir. Nəsuh tövbə o tövbədir ki, bəndə bir daha günah haqqında düşünmür, onun zahiri və batini günaha nifrətinə şahid oluruq.

**Hədis:** İmam Əlidən (ə) soruşdular: “Nəsuh tövbə nədir?” Buyurdu: “Qəlblə peşman olmaq, dillə istiğfar etmək və bir daha günah etməməyi qət etmək” (Tuhəful-üqul, səh. 210).

## 197

## Özünütərbiyə və nəfsin saflaşdırılması

### Nəfsə və onun sapmalarına diqqət etməyin zərurəti

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ لَا يَضُرُّكُمْ مَنْ ضَلَّ إِذَا اهْتَدَيْتُمْ إِلَى اللَّهِ مَرْجِعُكُمْ جَمِيعًا فَيُنَبِّئُكُمْ بِمَا كُنْتُمْ تَعْمَلُونَ

Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, (haqq yoldan) azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir (Maidə, 105).

**İzah:** İnsan maddi və Ruhani (mənəvi) yönə malikdir. Ruhani və ağıl yönü cismani və heyvani yönünü üstələsə, onu öz hökmranlığı altına alsa, yüksək insani zirvəyə yüksələcək və Allah dərgahına yaxınlıq məqamına nail olacaqdır. Amma əgər cismani və ya maddi yönü ruhani və mənəvi güclərini üstələsə, heyvanlıq uçurumuna yuvarlanacaqdır. Buna görə də nəfsə – heyvani və ruhani güclərin çəkişmə mərkəzi olaraq – diqqət etmək çox zəruridir. Bu, Quran və din öndərləri tərəfindən çox təkid olunmuşdur. Çünki yüyənini qırma və özbaşına buraxılma halında zəka nurunun üstü örtülür və ya sönür.

**Hədis:** İmam Əli (ə): "Nəfslərinizə macal verməyin. Çünki macal versəniz, sizi zalımların yoluna aparacaq.

Süstlük etməyin. Çünki bu süstlük sizi günaha sürükləyəcək” (Nəhcül-bəlağə, xütbə: 86).

## 198

## Nəfsi sorğulamaq və nəzarət etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَلْتَنْظُرْ نَفْسٌ مَا قَدَّمَتْ لِغَدٍ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا تَعْمَلُونَ وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنْسَاهُمْ أَنْفُسَهُمْ أُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ

Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. Allahı unudan, buna görə də (Allahın) onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir (Həşr, 18-19).

**İzah:** Şübhəsiz, nəfsə diqqət etməyin özünütərbiyə və əxlaqi təkmilləşmədə ciddi rolu var. (Əxlaq elmində nəfsi "mühasəbə" – nəfsi sorğulamaq və "müraqəbə" – nəfsin keşiyini çəkmək deyə ifadə olunan) nəfsə diqqət o deməkdir ki, insan həyatın bütün anlarında öz nəfsinin keşiyində dayansın və onu sorğuya çəksin. Nəticədə yaxşı əməllərə üz tutsun və yolunu azmasın. Sonra öz yaxşı və pis əməllərini saysın, yaxşı əməllərə görə şükür, günahlara görə isə istiğfar etsin. Sonra gündəlik əməllərini ötən günlə müqayisə etsin və inkişaf səviyyəsini müəyyənləşdirsin. Mühasəbə və müraqəbə nəfsani istəkləri cilovlamaq, sapmaları önləmək baxımından çox təsirlidir. O olmadan əxlaqi fəzilətlərə nail olmaq mümkün deyil.

**Hədis:** İmam Sadiq (ə): "Sizi sorğulamadan öncə özünüzü sorğulayın" (Kafi, c. 8, səh. 143, hədis: 108).

## 199

### Yaxşılıqların və pisliklərin nəfsə ilham olunması

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ وَالشَّمْسِ وَضُحَاهَا وَالْقَمَرِ إِذَا تَلَاهَا وَالنَّهَارِ إِذَا جَلَّاهَا
وَاللَّيْلِ إِذَا يَغْشَاهَا وَالسَّمَاءِ وَمَا بَنَاهَا وَالْأَرْضِ وَمَا طَحَاهَا وَنَفْسٍ وَمَا سَوَّاهَا فَأَلْهَمَهَا
فُجُورَهَا وَتَقْوَاهَا قَدْ أَفْلَحَ مَن زَكَّاهَا وَقَدْ خَابَ مَن دَسَّاهَا

Mərhəmətli və Rəhimli Allahın adı ilə! And olsun günəşə və onun saçdığı şəfəqə! And olsun ondan sonra zühur edən aya! And olsun (günəşi) açıqlığa çıxardan gündüzə! And olsun (günəşi) bürüyən gecəyə! And olsun göyə və onu qurana! And olsun yerə və onu döşəyənə! And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və (Allahdan) qorxmağı təlqin edənə! Nəfsini (günahdan) təmizləyən uğur qazanmışdır. Onu (günaha) batıran isə ziyana uğramışdır (Şəms, 1-10).

**İzah:** Hikmət və elm sahibi olan Allah bütün yaxşılıqları və pislikləri insan nəfsinə təlqin etdi ki, öz iradəsi ilə nicat yoluna üz tutsun, günah və təqvasızlıqdan çəkinsin.

**Hədis:** İmam Əli (ə): "Nəfslər yüyənlərini qırmışlar. Amma ağıllar onların yüyənini tutmuş, bədbəxtliyə sürüklənməyə qoymurlar" (Qürərul-hikəm, c. 2, səh. 119, hədis: 2048).

## 200

## İlahi rəhmət və lütfün özünütərbiyədə rolu

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَتَّبِعُوا خُطُوَاتِ الشَّيْطَانِ وَمَنْ يَتَّبِعْ خُطُوَاتِ الشَّيْطَانِ فَإِنَّهُ يَأْمُرُ بِالْفَحْشَاءِ وَالْمُنْكَرِ وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ مَا زَكَىٰ مِنْكُمْ مِنْ أَحَدٍ أَبَدًا وَلَٰكِنَّ اللَّهَ يُزَكِّي مَنْ يَشَاءُ وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ

Ey iman gətirənlər! Şeytanın izi ilə getməyin. Kim şeytanın izi ilə getsə, (bilsin ki,) o (Şeytan) iyrənc və yaramaz işlər görməyi əmr edir. Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt təmizə çıxmazdı. Lakin Allah dilədiyini təmizə çıxardır. Allah Eşidəndir, Biləndir (Nur, 21).

**İzah:** Daha öncə də qeyd etdik ki, ilahi lütf və rəhmət özünütərbiyə və nəfsi saflaşdırmağın zəruri şərtidir. Nəfs tərbiyəsinin ağır keçidlərini keçmək, aşılmaz yollarını aşmaq üçün sürüşmə və yıxılma zamanı insanın əlini tutacaq birinin lütf və yardımına ehtiyac var. Elə birinə ehtiyac var ki, öz lütfündən binəsib etməsin, mehribanlığını əsirgəməsin. Buna görə də əxlaq alimləri insanların əxlaqi seyri-sülukunda və nəfsani riyazətlərində ən böyük düşmənlərdən birini onların ucb və qüruru hesab edirlər.

**Hədis:** İslam peyğəmbəri (s) Haqqı tanımağın yolu nədir? – sualına cavab olaraq buyurdu: "Nəfsi tanımaq". Soruşdular: "Nəfsi tanımağın yolu nədir?" Buyurdu:

“Nəfsə qarşı Haqdan yardım diləmək” (Əvaliil-ləali, c. 1, səh. 246, hədis: 1).

## 201

## Nəfsin qisimləri

### 1. Əmmarə nəfs

وَمَا أُبَرِّئُ نَفْسِي إِنَّ النَّفْسَ لَأَمَّارَةٌ بِالسُّوءِ إِلَّا مَا رَحِمَ رَبِّي إِنَّ رَبِّي غَفُورٌ رَحِيمٌ

Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi (şəhvətə uymağı) əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir! (Yusif, 53).

**İzah:** İnsanın nəfsində məqsəd onun ruhudur. Nəfsin Quran ifadələrində müxtəlif qisimləri var. Bu qisimlərdən biri "Əmmarə nəfs"dir. Əmmarə nəfsdə məqsəd insanı pisliklərə və çirkinliklərə əmr edən nəfsdir. Bu nəfs insanın başını dünyada həzlərə qatır və onu qəflət və qürura sürükləyir. (Məşhur versiyaya görə həzrət Yusifin (ə) dilindən nəql olunan) yuxarıdakı ayədən aydın olur ki, Allahın rəhmət və lütfü insana bu nəfsin şərindən xilas olmağa yardım edir. Odur ki, ciddi şəkildə günaha aludə olan nəfsani istəklərin keşiyində dayanmaq lazımdır. Çünki insanın ixtiyarı Əmmarə nəfsin əlinə düşdükdə onu əbədi bədbəxtlik uçurumuna atmadan əl çəkmir.

**Hədis:** İmam Əli (ə): “Nəfs daim pis və çirkin işlərə əmr edir. Odur ki kim öz nəfsinə etimad etsə, ona xəyanət edər və kim ona ürək qızdırsa, (nəfs) onu həlak edər” (Qurərül-hikəm, c. 2, səh. 521, hədis: 3491).

## 202

### 2. Musəvvilə nəfs

قَالَ بَلْ سَوَّلَتْ لَكُمْ أَنْفُسُكُمْ أَمْرًا فَصَبْرٌ جَمِيلٌ ...

(Yaqub) dedi: "Xeyr, sizin nəfsiniz sizi (bu) işə sövq etdi. (Mənə isə) yaxşı səbir (gərəkdir)" (Yusif, 83).

**İzah:** Nəfsin halətlərindən biri odur ki, nəfs insanın fikrində günaha meyli gücləndirir və onu dünya həzlərinə doğru rəğbətləndirir. Bu nəfsə "Musəvvilə nəfs" və ya Zinətləndirən nəfs deyilir. Musəvvilə nəfsin Əmmarə nəfslə fərqi odur ki, fərd bu növ nəfsani halətdə baxış dəyişikliyinə və hiss olunmayan mənəvi sapmalara düçar olur. Başqa sözlə, Musəvvilə nəfs Əmmarə nəfs kimi insanı pisliyə əmr etmir. Əksinə, pisliyi onun gözündə yaxşı göstərir ki, özü onun ardınca getsin. Musəvvilə nəfsə tabe olmağın bariz nümunəsi Yusifin (ə) qardaşlarıdır. Belə ki, Yusifi (ə) quyuya atmaq onların gözünə adi və bağışlanacaq kiçik bir xəta olaraq görünürdü. Bir çox insanlar özləri də bilmədən belə bir nəfsin əsirinə çevrilir, pisliklərin qəbahəti gözlərində adiləşir.

**Hədis:** İmam Əli (ə): "Əmmarə Musəvvilə nəfs münafiq kimi yaltaqlıq edir. Özünü uyğun və qayğıkeş dost kimi göstərir. Elə ki aldatdı və insanı ələ keçirtdi, düşmən kimi hakim kəsilir. Eqoist və quldurcasına əmr edir. (İnsanı)

həlak olmağa sürükləyir" (Qürərul-hikəm, c. 2, səh. 139, hədis: 2106).

203

## 3. Ləvvamə nəfs

وَلَا أُقْسِمُ بِالنَّفْسِ اللَّوَّامَةِ

And içirəm peşmançılıq çəkən nəfsə! (Qiyamət, 2).

**İzah:** Ola bilər ki, insan bəzən instinktlərin coşması nəticəsində yanlış işlərə bulaşsın. Amma dərhal peşman olsun, özünü qınasın, danlasın və günahını düzəltməyi qət etsin. Bu halda insanın nəfsini "Ləvvamə nəfs" – Danlayan nəfs – adlandırırlar. Ləvvamə nəfs insanın oyadıcı vicdanı kimi də yad edilir. Nəfsin bu mərtəbəsi başlanğıcda hamıda olur. Amma ona laqeydlik edildikdə, Əmmarə və Musəvvilə nəfsə tabeçilik tamamlandıqda sönükür və bütünlüklə sıradan çıxır. Bu nəfs Allah yanında fəzilət və dəyər sahibi olduğuna və bir çox günahkarların ayılmasına, tövbə etməsinə səbəb olduğuna görə Allah "Qiyamət" surəsində ona and içmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): "Ey Məsudun oğlu! Çox layiqli və yaxşı işlər gör. Çünki yaxşı iş görən də, pis iş görən də peşman olacaq. Yaxşı iş görən deyəcək: "Kaş daha çox yaxşı işlər görəydim". Pis iş görən isə deyəcək: "Səhlənkarlıq etdim". Bunun sübutu Allahın kəlamıdır. Belə ki, buyurur: "And içirəm peşmançılıq çəkən nəfsə!" (Məkarimul-əxlaq, səh. 454).

## 204

### 4. Mutməinnə nəfs

يَا أَيَّتُهَا النَّفْسُ الْمُطْمَئِنَّةُ ارْجِعِي إِلَىٰ رَبِّكِ رَاضِيَةً مَرْضِيَّةً فَادْخُلِي فِي عِبَادِي وَادْخُلِي جَنَّتِي

(O gün möminə deyiləcəkdir): "Ey arxayın olan nəfs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Mənim qullarımın (cərgəsinə) keç! Cənnətimə daxil ol!" (Fəcr, 27-30).

**İzah:** İnsan nəfsinin ən yüksək mərtəbəsi "Mutməinnə nəfs"dir. İnsan tam tərbiyədən və saflaşdıqdan sonra elə bir mərhələyə çatır ki, harın instinktlər onun qarşısında ram olur, özündə onun iman və ağlı ilə savaşmaq gücü görmür. Çünki ağıl və iman o qədər güclənir ki, nəfsani instinktlər onun qarşısında bir o qədər də gücə malik olmur. Arxayınlıq mərhələsinə çatan və həqiqətlərə qəlbən əmin olan belə bir nəfsə "Mutməinnə nəfs" deyilir. Quran ayələrinə əsasən bu nəfs Allah yanında xüsusi hörmət və məqama malikdir. O elə bir nəfsdir ki, Allah dərgahına yaxın bir məkanda qərarlaşmışdır. Elə bir nəfsdir ki, Allah ondan tam razıdır. Onu xüsusi bəndələri sırasında və Öz xüsusi Cənnətində yerləşdirmişdir. İnsan Arxayın nəfsə çatmaq üçün özünütərbiyəni və nəfsi saflaşdırmanı öz əməllərinin və davranışının sərlövhəsi etməlidir.

**Hədis:** İmam Əli (ə): "Çətinliklər və müsibətlər dəyərli (Arxayın) nəfsə təsir etmir" (Qürərul-hikəm, c. 2, səh. 1, hədis: 1555).

## 205

## Zikr və Allahı yad etmək

### Çox zikr etməyə dəvət

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللَّهَ ذِكْرًا كَثِيرًا وَسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا هُوَ الَّذِي يُصَلِّي عَلَيْكُمْ وَمَلَائِكَتُهُ لِيُخْرِجَكُمْ مِنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَكَانَ بِالْمُؤْمِنِينَ رَحِيمًا

Ey iman gətirənlər! Allahı tez-tez yada salın! Səhər-axşam Onun şəninə təriflər deyin! Sizi zülmətlərdən nura çıxartmaq üçün sizə rəhm edən Odur. Onun mələkləri də (sizin üçün bağışlanma diləyərlər). (Allah) möminlərə qarşı Rəhimlidir (Əhzab, 41-43).

**İzah:** Daha öncə insanın əxlaqi yüksəlişinin və inkişafının bəzi mühüm amillərinə işarə olundu. Zikr və Allahı yad etmək də bu amillərdən biridir. Əksər əxlaq alimləri seyri-sülukun əsas addımını "yəqzə" – qəflət yuxusundan oyanmaq və Allahı xatırlamaq hesab etmişlər. Bütün ibadətlərin arasında heç bir sərhəd tanımayan və ifratın anlamsız olduğu yeganə ibadət Allahı yad etməkdir. Məlumdur ki, zikr və Allahı yad etməkdə məqsəd yalnız dillə zikr etmək, Allaha tərif demək deyil. Əksinə, qəlbən zikr etmək və ya bütün diqqətini can-dildən Allaha yönəltmək Onu dillə zikr etməkdən daha mühümdür. Yuxarıdakı ayəyə görə, Allah ən üstün ilahi nemətlərini zikr edənlərə nəsib etmişdir.

**Hədis:** İmam Sadiq (ə): “Hər şeyin sona yetdiyi bir hədd vardır. Allahı yad etməyin isə heç bir həddi və sonu yoxdur” (Kafi, c. 2, səh. 498, hədis: 1).

**206**

## Zikr Allahın bəndələri yad etməsinə səbəb olur

فَاذْكُرُونِي أَذْكُرْكُمْ وَاشْكُرُوا لِي وَلَا تَكْفُرُونِ

Siz Məni yad edin ki, Mən də sizi yad edim! Mənə şükür edin, Mənə nankorluq etməyin! (Bəqərə, 152).

**İzah:** Zikrin həqiqi mənası Yaradana tam qəlbi ilə diqqət etməkdir. Allahı yad etməyin birbaşa nəticəsi Onun da Öz bəndəsini yad etməsi və ona Öz lütfünü nazil etməsidir. Buna görə də zikrin ən mühüm faydası Allah sevgisi, Allah sevgisinin də nəticəsi Onun nemətlərinin insanın üzərinə yağmasıdır. Yuxarıdakı ayədə Allahın qarşılıqlı olaraq zikr edən bəndələrini yad etməsinə işarə olunmuşdur.

**Hədis:** İmam Sadiq (ə): Allah-Taala buyurmuşdur: "Ey Adəm övladı! Öz daxilində məni yad et ki, Mən də daxilən səni yad edim. Ey Adəm övladı! Məni xəlvətdə yad et ki, Mən də səni xəlvətdə yad edim. Məni cəmiyyət arasında yad et ki, səni sənin cəmiyyətindən daha yaxşı cəmiyyət arasında yad edim" (Məhasin, səh. 39, hədis: 34).

## 207

## Allahı yad etmək qəlblərin rahatlıq tapmasına səbəb olur

الَّذِينَ آمَنُوا وَتَطْمَئِنُّ قُلُوبُهُمْ بِذِكْرِ اللَّهِ أَلَا بِذِكْرِ اللَّهِ تَطْمَئِنُّ الْقُلُوبُ

Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır. Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır (Rəd, 28).

**İzah:** İnsanın həyatda dayanmadan çalışmasının məqsədi davamlı aramlığa və əmin-amanlığa çıxmaqdır. Bəziləri bu məqsədə çatmağı var-dövlətdə və dünyəvi vəzifələrdə görürlər. Amma tarix göstərmişdir ki, nemətlərin əllərindən çıxma qorxusu rifah içində yaşayanların da həqiqi rahatlığa nail olmasına mane olmuşdur. İnsanın varlıq yönlərinə və aləmlə əlaqəsinə baxdıqda görürük ki, insan həyatının daha çox iztirab və nigarançılığı iman zəifliyindən, Allahın qüdrətinə, hikmətinə və ədalətinə inamsızlıqdandır. Buna görə də Allahı yad etmək insanın həyatın sərt üzünü gördükdə vahid qüdrət sahibi olan Allaha söykənməsinə və dövranın hadisələr dənizində qərq olmamasına səbəb olur. Həmçinin, Allahı yad etmək insanda əxlaqi fəzilətlərin inkişafına və günahdan uzaqlaşmasına gətirib çıxarır. Qeyd edək ki, zikr və Allahı yad etməkdə məqsəd Allahın müqəddəs zatına qəlbən diqqət etməkdir. Dillə zikr etmək də onun qisimlərindən biridir.

**Hədis:** İmam Əli (ə): "Allah yad etmək qəlbləri aydınlaşdırır və könülləri rahatladır" (Qürərul-hikəm, c. 4, səh. 29, hədis: 5165).

## 208

### Qafillər ən rəzil varlıqlardır

وَلَقَدْ ذَرَأْنَا لِجَهَنَّمَ كَثِيرًا مِنَ الْجِنِّ وَالْإِنْسِ لَهُمْ قُلُوبٌ لَا يَفْقَهُونَ بِهَا وَلَهُمْ أَعْيُنٌ لَا
يُبْصِرُونَ بِهَا وَلَهُمْ آذَانٌ لَا يَسْمَعُونَ بِهَا أُولَٰئِكَ كَالْأَنْعَامِ بَلْ هُمْ أَضَلُّ ۚ أُولَٰئِكَ هُمُ الْغَافِلُونَ

Biz Cəhənnəm üçün bir çox cinlər və insanlar yaratdıq. Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır (Əraf, 179).

**İzah:** İnsanın yaradılış məqsədi Allaha bəndəlik yolu ilə kamal və səadətə çatmaqdır. Allah bu məqsədlə insanın bütün hidayət vasitələrini onun ixtiyarına vermişdir. Belə ki, bəndələrinə həm batini höccət (ağıl) və zahiri hisslər vermişdir ki, aləmin və özlərinin yaranması haqqında düşünsünlər və onun hikmətini anlasınlar, həm də zahiri höccətlərə, yəni peyğəmbərlərə onları hidayət etməyi əmr etmişdir ki, sözlərini eşitməklə hidayət yolunu tapsınlar. Bir qrup insan da vardır ki, onlar (ağıl, göz və qulaq kimi) hidayət vasitələrinə malik olduqları halda ondan faydalanmır və qəflətə düçar olurlar. Onlar heyvan kimi, hətta ondan da aşağıdırlar. Çünki insanlıq həqiqətindən uzaqlaşmışlar.

**Hədis:** İmam Əli (ə): "Qəflət kimə hakim kəsilsə, ürəyi ölər" (Qürərul-hikəm, c. 5, səh. 339, hədis: 8430).

209

## Qəflət və Allahı xatırlamaqdan uzaq olma amilləri

### 1. Dünya təzahürlərinə könül vermək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُلْهِكُمْ أَمْوَالُكُمْ وَلَا أَوْلَادُكُمْ عَنْ ذِكْرِ اللَّهِ وَمَنْ يَفْعَلْ ذَٰلِكَ فَأُولَٰئِكَ هُمُ الْخَاسِرُونَ

Ey iman gətirənlər! Nə mallarınız, nə də övladlarınız sizi Allahın zikrindən yayındırmasın! Bunu edənlər ziyana uğrayanlardır (Munafiqun, 9).

**İzah:** Qəflət və Allahı xatırlamaqdan uzaq olmanın ən mühüm amili dünya və ona aid olanlara könül verməkdir. Şeytan və insanın harın nəfsi daim çalışır ki, dünya dəbdəbəsinə həddindən çox məftunluq yaradaraq onu dünyanın keçiciliyi həqiqətindən uzaq tutsun və başını yalançı məhbublara qatsın. Amma mömin – dünyanın halal həzlərindən faydalanmaqla yanaşı – əsla dünyaya bağlanmır. Çünki bu həzlərin – ilahi rəngə boyanmadıqda – keçici və ziyanlı olduğunu bilir. Bu ayənin məzmunu insana xəbərdarlıq edir ki, bəzən mübah dünyəvi maraqlar da insanı Allahı xatırlamaqdan yayındırır. Buna görə də daim Allahı həqiqi məhbub olaraq seçmək və ona könül vermək lazımdır.

**Hədis:** İmam Əli (ə): “Dünya səni aldadır, qəflətə salır, sənə sehr və cadu edir” (Əmali, Tusi, səh. 652, hədis: 1353).

**210**

## 2. Qafillərlə dostluq

لَقَدْ أَضَلَّنِي عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءَنِي وَكَانَ الشَّيْطَانُ لِلْإِنْسَانِ خَذُولًا

Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o, məni ondan uzaqlaşdırdı. Həqiqətən, Şeytan insanı tənha qoyub qaçandır (Furqan, 29).

**İzah:** (Rəvayətlərdə də işarə olunan) qəflət amillərindən biri qafillərlə ünsiyyətdə olmaq, yoldaşlıq etməkdir. Din öndərlərinə görə, ən yaxşı dost və yoldaş insana Allahı xatırladan, onun əxlaqi təkamülünə və mənəvi inkişafına yardım edən dostdur. Qəflət əhli ilə dostluğu kəsmək o baxımdan önəmlidir ki, insan ruhunu ətrafındakı aludə mühitdən qoruyur. Qurani-kərim dəfələrlə möminlərə xəbərdarlıq edir ki, qəflət məclislərindən uzaq durun və iman əhli ilə yoldaşlıq edin. Bu mətləb dördüncü fəslin əxlaqi ayələrinin "Dostluq qaydaları" bölməsində daha çox izah olunacaqdır.

**Hədis:** İmam Əli (ə): "Pislərlə yoldaşlıq etmək pislik qazanmağa səbəb olur. Necə ki, külək pis qoxulu bir şeyin üstündən əsəndə onun pis iyini özüylə aparır" (Qürərul-hikəm, c. 4, səh. 205, hədis: 5839).

**211**

## 3. Fisq

وَلَا تَكُونُوا كَالَّذِينَ نَسُوا اللَّهَ فَأَنْسَاهُمْ أَنْفُسَهُمْ أُولَٰئِكَ هُمُ الْفَاسِقُونَ

Allahı unudan, buna görə də (Allahın) onları özlərinə unutdurduğu kəslər kimi olmayın! Onlar fasiqlərdir (Həşr, 19).

**İzah:** "Fisq" Allaha bəndəlik yolundan çıxmaq mənasını ifadə edir. Bu söz dini terminologiyada ədalətin əksi olaraq işlənir. Fasiq o adamdır ki, Allaha bəndəlik və itaət libasını bütünlüklə əynindən çıxarmış, nəfsani həzlərə və şeytani hiylələrə üz tutmuşdur. Belə bir insan Allahı xatırlamaq imkanını tədriclə əldən verir. Bu mətləblərin nəticəsi odur ki, qəflət amillərindən biri çox günah etməkdir. Belə ki, artıq (günah nəticəsində) qəlbin həqiqəti göstərən aynası üzərinə pərdə çəkilir və fitrət nuru sönür. Qeyd edək ki, rəvayətlərdə qəflətin başqa amillərinə də işarə olunmuşdur ki, nümunə üçün aşağıdakı hədisi göstərmək olar.

**Hədis:** İmam Əli (ə): "Göz yaşları yalnız qəlbin daşlaşmasına görə quruyar, ürəklər yalnız günahların çoxluğuna görə sərtləşər" (İləlüş-şərai, səh. 81, hədis: 1).

**212**

## 4. Uzun arzular

أَلَمْ يَأْنِ لِلَّذِينَ آمَنُوا أَنْ تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللَّهِ وَمَا نَزَلَ مِنَ الْحَقِّ وَلَا يَكُونُوا كَالَّذِينَ أُوتُوا الْكِتَابَ مِنْ قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْأَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ وَكَثِيرٌ مِنْهُمْ فَاسِقُونَ

Möminlərin qəlbinin Allahın zikri və haqdan nazil olan (ayələr) üçün yumşalması, daha öncə özlərinə kitab verilmiş, uzun bir müddət keçdikdən sonra isə qəlbləri sərtləşmiş, çoxusu da fasiq olmuş kimsələr kimi olmaması vaxtı gəlib çatmadımı? (Hədid, 16).

**İzah:** Quranda və rəvayətlərdə arzularla yaşamaq yasaqlanmışdır. Əlbəttə, ümid və gələcəyə baxış müsbət haldır. Amma həyatı arzu üzərində qurmaq və həyatın sürətlə ötən fürsətlərini diqqətə almamaq dağıdıcı və ziyanlı nəticələr doğurur. Buna görə də Şeytan başlanğıcdan insanın bu mühüm sapma amili üzərində dayanır. "Nisa" surəsinin 119-cu ayəsində ondan belə nəql olunmuşdur: "Onları hökmən (doğru yoldan) sapdıracaq, (puç) xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm!" Bu əxlaqi qəbahət insanların qəfləti üçün çox mühüm amildir. Yuxarıdakı ayədə Allah gözəl və könül oxşayan ifadə ilə bəndələri Özünə tərəf səsləmiş və onlardan Öz qarşısında xuzu və xuşu tələb etmişdir.

**Hədis:** İmam Əli (ə): “Ey insanlar! Sizin üçün ən çox qorxduğum iki şey var: nəfsani istəklərə tabe olmaq və uzun-uzadı arzular” (Nəhcül-bəlağə, xütbə: 42).

**213**

## Allahı xatırlamaqdan uzaq düşməyin sonu

### 1. Cəhənnəm əzabı

... وَمَنْ يُعْرِضْ عَنْ ذِكْرِ رَبِّهِ يَسْلُكْهُ عَذَابًا صَعَدًا

Kim öz Rəbbinin zikrindən üz döndərərsə, O, həmin şəxsi şiddətli bir əzaba məruz qoyar (Cinn, 17).

**İzah:** Allahın zikrindən uzaq düşmək və qafil olmaq ziyanlı nəticələr doğurur. Bu nəticələrdən biri dünya və axirətdə ağır həyatdır. Allahın zikrindən üz döndərənlər daim sıxıntı, iztirab, nigarançılıq və bir çox cismani və ruhani çətinliklərlə üzləşirlər. Odur ki, ayədə sözügedən şiddətli əzab yalnız axirət əzabı deyil. Əksinə, dünyəvi əzaba və dünyada maddi mənfəətlərdən məhrum olmağa da şamil olur. Allah Öz rəhmət və lütf üzünü bir bəndədən çevirəndə aləmin qapıları onun üzünə bağlanır, dünya, genişliyinə baxmayaraq, onun üçün dar olur və onu sıxır.

**Hədis:** İmam Əli (ə): "Qəfləti uzun çəkənin həlak olması sürətlənər" (Qürərul-hikəm, c. 5, səh. 272, hədis: 8318).

214

## 2. Ağır həyat və Axirətdə unudulmaq

وَمَنْ أَعْرَضَ عَنْ ذِكْرِي فَإِنَّ لَهُ مَعِيشَةً ضَنْكًا وَنَحْشُرُهُ يَوْمَ الْقِيَامَةِ أَعْمَىٰ قَالَ رَبِّ لِمَ
حَشَرْتَنِي أَعْمَىٰ وَقَدْ كُنْتُ بَصِيرًاقَالَ كَذَٰلِكَ أَتَتْكَ آيَاتُنَا فَنَسِيتَهَا ۖوَكَذَٰلِكَ الْيَوْمَ تُنْسَىٰ وَكَذَٰلِكَ
نَجْزِي مَنْ أَسْرَفَ وَلَمْ يُؤْمِنْ بِآيَاتِ رَبِّهِ وَلَعَذَابُ الْآخِرَةِ أَشَدُّ وَأَبْقَىٰ

Kim Mənim zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik. O deyəcək: "Ey Rəbbim! Mən (dünyada) görürdümsə, indi nə üçün məni kor olaraq gətirdin?" (Allah) deyəcək: "Elədir! Çünki sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gün də sən beləcə unudulacaqsan!" Biz həddi aşanı və Rəbbinin ayələrinə inanmayanı belə cəzalandırırıq. Axirət əzabı isə, daha şiddətli və daha sürəklidir (Taha, 124-127).

**İzah:** Allahı yad etməkdən qafil olmağın nəticələrindən biri Allahın qarşılıqlı olaraq bəndələrini unutmasıdır. Necə ki, Allahı yad etmək Onun da bəndələrini yad etməsinə səbəb olur (Bəqərə, 152). Bu ayələrə uyğun olaraq, qafil şəxs Axirətdə də (Allahın hüzuruna) kor gətiriləcək. Çünki dünyada öz gözünü həqiqətə bağlamış və özünü Allahın nişanələrini görməzliyə vurmuşdur.

**Hədis:** İmam Əli (ə): "Kim Allahı unutsa, Allah ona özünü unutdurar və qəlbini kor edər" (Qürərul-hikəm, c. 5, səh. 387, hədis: 8875).

## 215

### 3. Şeytanla yoldaşlıq

وَمَنْ يَعْشُ عَنْ ذِكْرِ الرَّحْمَٰنِ نُقَيِّضْ لَهُ شَيْطَانًا فَهُوَ لَهُ قَرِينٌ

Kim Mərhəmətli (Allahın) zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar (Zuxruf, 36).

**İzah:** Allahın zikrindən üz döndərməyin və qəflətin nəticələri o qədər qabarır ki, Şeytan onun bütün nəfsani güclərini öz ixtiyarına alır və ona hökmran olur. Daim Allahı yad etməkdən uzaq qalan, Onunla üns və zikr məclislərində işirak etməyən, əxlaqi sözlərdən, öyüd-nəsihətdən qaçan, digər tərəfdən, eyş-işrət məclislərinə tələsən birinin bundan başqa sonu olmayacaqdır. Öz ixtiyarını bəşəriyyətin ən böyük və ən rəhimsiz düşməninə tapşıracaq və ram heyvan kimi onun əmrinə uyğun davranacaq. Bəli, o, (rəhmət nümunələri aləmdə təzahür edən) Rəhman Allah üz döndərdi, özünü görməzliyə və anlamazlığa vurdu. Elə isə Şeytanla həmdəm olmağa, onun alçaldıcı əsgəri olmağa layiqdir.

**Hədis:** İmam Əli (ə): "(İnsana) Allahı unutduran hər şey İblisdir" (Tənbihul-xəvatir, c. 2, səh. 170).

## İkinci fəsil

## Əxlaqi fəzilətlər

Aşağıdakı mövzuları ehtiva edir:

1. Şükür
2. İxlas
3. Səbir
4. Təvəkkül
5. Elm öyrənmək
6. Dinşünaslıq
7. Cidd-cəhd
8. Ədalətmərkəzlilik
9. Valideynə yaxşılıq
10. Ehsan və xeyirxahlıq
11. Qohumlarla əlaqə
12. Təvazö
13. Əfv və güzəşt
14. Əmanətdarlıq və əhdə vəfa
15. Ədalətli mühakimə (mehakimədə insaf)
16. Fədakarlıq və canından keçmək

17. Həmkarlıq
18. Dua və Allahı çağırmaq

## 216

### 1. Şükür

وَإِذْ تَأَذَّنَ رَبُّكُمْ لَئِنْ شَكَرْتُمْ لَأَزِيدَنَّكُمْ وَلَئِنْ كَفَرْتُمْ إِنَّ عَذَابِي لَشَدِيدٌ وَقَالَ مُوسَىٰ إِنْ تَكْفُرُوا أَنْتُمْ وَمَنْ فِي الْأَرْضِ جَمِيعًا فَإِنَّ اللَّهَ لَغَنِيٌّ حَمِيدٌ

O zaman Rəbbiniz bildirmişdi: “Əgər şükür etsəniz, sizə (olan nemətimi) artıraram, yox əgər nankorluq etsəniz, (bilin ki,) Mənim əzabım şiddətlidir” Musa dedi: “Əgər siz və yer üzündə olanların hamısı kafir olsanız, (Allaha heç bir zərər yetirə bilməzsiniz). Çünki Allah, həqiqətən də, Zəngindir, Tərifəlayiqdir' (İbrahim, 7-8).

**İzah:** Əxlaqi inkişaf amillərini qeyd etdikdən sonra burada ən mühüm fərdi və ictimai əxlaqi fəzilətlərə işarə edirik. Bu fəzilətlərdən biri Allaha şükür etməkdir. Şükrün insan ruhunun tərbiyəsində inikası olduqca çoxdur. Çünki bir tərəfdən insanın xatirində Rəbbin əzəmətini gücləndirir, digər tərəfdən isə onu nemətlərdən düzgün istifadə etməyə səsləyir. Şükür əslində Allahı dil ilə sitayiş etmək və Onun nemətlərindən düzgün istifadə etməyin tərkibidir. Allahın qəti ənənəsi odur ki, şükür edənlərə dünyada daha çox nemətlər bəxş etsin. Növbəti ayə də bəyan edir ki, şükrün faydası yalnız bəndələrin özünə aiddir və Allahın ona ehtiyacı yoxdur.

**Hədis:** İmam Əli (ə): “Hər bir nemətin şükrü Allahın haramlarından çəkinməkdir” (Mişkatul-ənvar, səh. 35).

**217**

## 2. İxlas

قُلْ إِنَّمَا أَنَا بَشَرٌ مِثْلُكُمْ يُوحَىٰ إِلَيَّ أَنَّمَا إِلَٰهُكُمْ إِلَٰهٌ وَاحِدٌ فَمَنْ كَانَ يَرْجُو لِقَاءَ رَبِّهِ
فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا وَلَا يُشْرِكْ بِعِبَادَةِ رَبِّهِ أَحَدًا

De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin ilahınız Tək olan İlahdır. Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!" (Kəhf, 110).

**İzah:** Hər bir əməlin dəyəri – onun icrasının keyfiyyətindən – daha çox onun niyyətindən asılıdır. Buna görə də əməli qeyri-ilahi niyyətlərdən təmizləmək çox önəmlidir. Rəvayətlərdə ixlasın ən mühüm nəticələri kimi ilahi yardım, müvəffəqiyyət, hikmətin qəlbə və dilə axması və xalq yanında sevimli olmaq qeyd olunmuşdur. İxlasın əksi riya və özünü göstərməkdir ki, daxili zəiflik və həqarətdən mənşə alır. İxlas, yalnız namaz və oruc kimi ibadətlərdə xülasə olmur. Əksinə, insanın bütün gündəlik həyat məsələlərini – paltar geyinmək və s. – də əhatə edir. Qeyd edək ki, ixlasın mərtəbələri var. Ən yüksək mərtəbəsi ilahi övliyalara xasdır. Belə ki, onlar ibadəti Cənnətə girmək və ya Cəhənnəmdən xilas olmaq üçün yox, yalnız Allahın Özü üçün edirlər.

**Hədis:** İslam peyğəmbəri (s): "Kim qırx gün Allah üçün ixlaslı oldusa, hikmət bulaqları qəlbindən dilinə axdı" (Üyuni-əxbari-Rza, c. 2, səh. 69, hədis: 321).

## 218

## 3. Səbir

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلَاةِ إِنَّ اللَّهَ مَعَ الصَّابِرِينَ

Ey iman gətirənlər! Səbir etmək və namaz qılmaqla (Allahdan) kömək diləyin. Həqiqətən, Allah səbir edənlərlədir! (Bəqərə, 153).

**İzah:** Səbir ən mühüm əxlaqi fəzilətlərdən biridir. Belə ki, onu imanın kökü və əsası adlandırmışlar (Kafi, c. 2, səh. 87). Allah, Quranda dəfələrlə səbir edənlərlə birgə olduğunu bildirmiş və səbri problemlərdən xilas olma və qələbə açarı hesab etmişdir. Səbir və dözüm nəticəsində tövhid inancı insanın vücuduna yer edir və ruhu kamilləşir. Qeyd edək ki, dini düşüncədə səbir sözü leksikonumuzdakından – bəla və problemlərə dözmək – daha geniş mənada işlənmişdir. Belə ki, dini mətnlərdə səbrin ibadətdə səbir, günahdan çəkinməkdə səbir, müsibətlərə qarşı səbir kimi bir çox qisimləri var və bu, onun əxlaqi mənasının da geniş olmasına səbəb olmuşdur. Həmçinin, qeyd etmək lazımdır ki, itaətdə səbrin bariz nümunələrindən biri oruc tutmaqdır. Ona görə də bəzi rəvayətlərdə yuxarıdakı ayədə sözükeçən səbir ifadəsi oruc mənasında izah olunmuşdur.

**Hədis:** İmam Əli (ə): “Səbir, problemlərin həllinin açarıdır” (Şərhi-Nəhcül-bəlağə, İbn Əbu əl-Hədid, c. 2, səh. 307, hədis: 514).

**219**

## 4. Təvəkkül

... وَمَنْ يَتَوَكَّلْ عَلَى اللَّهِ فَهُوَ حَسْبُهُ إِنَّ اللَّهَ بَالِغُ أَمْرِهِ

Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər. Allah Öz əmrini (dilədiyinə) çatdırır (Talaq, 3).

**İzah:** Quranın bir çox ayəsi təvəkkülün fəzilətinə və möminlərin təvəkkül etməsinə həsr edilmişdir. Təvəkkül o deməkdir ki, insan bütün həyat məsələlərində Allaha dayanır və Onu öz vəkili edir. Bu səbəbdən də təvəkkül ilahi övliyaların ən yüksək məqamlarındandır. Quranda dəfələrlə bəyan olunmuşdur ki, möminlər yalnız Allahı özlərinə hami və qəyyum seçirlər. Təvəkkül əslində əfali tövhidə inamın praktiki nəticəsidir. Əfali tövhid o deməkdir ki, aləmdə yeganə təsiredici qüvvə Allahdır. Onun heç bir yardımçısı və köməyi yoxdur. Həmçinin, heç kim onunla mübarizə apara bilməz. Əlbəttə, məlumdur ki, təvəkkül heç də insanın qazanc əldə etmək üçün təbii səbəbləri nəzərə almaması, Allah yardım edəcək deyə səy göstərməməsi demək deyil. Əksinə, təvəkkül Allahın yardımına əmin olmaq deməkdir. Onun nişanəsi uğur və uğursuzluqlarda Allahın təqdirinə razı olmaqdır.

**Hədis:** İmam Cavad (ə): "Allaha etimad (və təvəkkül) hər bir dəyərli şeyin qiyməti, hər bir yüksəkliyə qalxmaq üçün nərdivandır" (əd-Durrətül-bahirə, səh. 40, hədis: 131).

**220**

## 5. Elm öyrənmək

أَمَّنْ هُوَ قَانِتٌ آنَاءَ اللَّيْلِ سَاجِدًا وَقَائِمًا يَحْذَرُ الْآخِرَةَ وَيَرْجُو رَحْمَةَ رَبِّهِ قُلْ هَلْ يَسْتَوِي الَّذِينَ يَعْلَمُونَ وَالَّذِينَ لَا يَعْلَمُونَ إِنَّمَا يَتَذَكَّرُ أُولُو الْأَلْبَابِ

Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadətlə keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə (kafirlə eynidirmi?) De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? (Bundan) ancaq ağıl sahibləri düşünüb ibrət alarlar" (Zumər, 9).

**İzah:** İslam dini ilk gündən elmə və savadlanmağa təkid etmişdir. Keçmiş ümmətlərin doğru yoldan sapma səbəblərindən biri onların cahilliyi və axmaqlığı idi. Belə ki, kortəbii təqliddən çəkinmir, özlərini hər növ düşüncə və fikirdən məhrum edirdilər. Buna görə də İslam dini elm öyrənmək və savadlanmaq üzərində dayanmış, dinin təməl prinsiplərində təqlid etməyi doğru saymamışdır. Bundan başqa, dəfələrlə hər növ faydalı biliyi – hətta kafirdən belə – öyrənməyi tövsiyə etmiş və onu böyük bir fəzilət hesab etmişdir. Qeyd edək ki, ayənin əvvəlinə nəzər saldıqda aydın olur ki, elm əməl və təqva ilə birgə olmalıdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Elm öyrənmək hər bir müsəlmana vacibdir. Bilin ki, Allah elm ardınca gedənləri sevir" (Kafi, c. 1, səh. 30, hədis: 1).

**221**

## 6. Dinşünaslıq

وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنْفِرُوا كَافَّةً فَلَوْلَا نَفَرَ مِنْ كُلِّ فِرْقَةٍ مِنْهُمْ طَائِفَةٌ لِيَتَفَقَّهُوا فِي الدِّينِ وَلِيُنْذِرُوا قَوْمَهُمْ إِذَا رَجَعُوا إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

Möminlərin hamısı eyni vaxtda döyüşə çıxmamalıdır. Hər qəbilədən bir dəstə qalmalıdır ki, dini (dərindən) öyrənsinlər və öz camaatı döyüşdən geri qayıtdıqları zaman onları xəbərdar etsinlər. Bəlkə, onlar (pis işlərdən) çəkinələr (Tövbə, 122).

**İzah:** İslam dini müxtəlif elmi sahələrdə savadlanmağa təşviq etməklə yanaşı İslam biliklərini və dini dərindən öyrənməyə xüsusi önəm vermişdir. Belə ki, onu bütün müsəlmanlar üçün kifai vacib etmişdir. "Təfəqquh fid-din" dini, etiqadları və İslam hökmlərini dərindən öyrənməyə çalışmaq deməkdir. Yuxarıdakı ayədən aydın olur ki, bütün müsəlmanlar istedadlı uşaqlarının bəzisini dini elmləri öyrənmək məqsədilə dini elm mərkəzlərinə göndərməli və geri qayıtdıqda xalqı məlumatlandırmaqla, dini təbliğ etməklə məşğul olmalıdırlar. Bəzi İslam alimləri yuxarıdakı ayədən din müctəhidlərinə təqlid etməyin icazəli olduğunu anlamışlar.

**Hədis:** İslam peyğəmbəri (s): "Allah bir bəndənin yaxşılığını istəsə, onu dində fəqih (dinşünas) edər" (Kafi, c. 1, səh. 22, hədis: 4).

**222**

## 7. Cidd-cəhd

وَأَنْ لَيْسَ لِلْإِنْسَانِ إِلَّا مَا سَعَىٰ وَأَنَّ سَعْيَهُ سَوْفَ يُرَىٰ ثُمَّ يُجْزَاهُ الْجَزَاءَ الْأَوْفَىٰ

İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar! Şübhəsiz ki, (Qiyamət günü) onun zəhməti (səyi, əməli) görünəcəkdir! Sonra da ona (zəhmətinin, əməlinin) tam əvəzi veriləcəkdir! (Nəcm, 39-41).

**İzah:** Şübhəsiz, hər bir yolda uğur qazanmaq üçün o yolda çalışmaq və səy göstərmək lazımdır. Cidd-cəhd, bir işi görmək üçün maneələrə və problemlərə rəğmən ciddi qərar verməkdir. Cidd-cəhdin və səyin olmaması, başqa sözlə, tənbəllik və laqeydlik bir çox dindarların süstlüyünün ən mühüm amili hesab oluna bilər. Nəfsi saflaşdırmaq və özünütərbiyə aşılmaz bir dağ keçidini aşmaq kimidir ki, Allahın lütfü ilə asanlaşır. Amma Allahın lütfü və mərhəməti o zaman insana doğru gəlir ki, bir tərəfdən öz məqsədində möhkəm olsun, digər tərəfdən isə yüksək cidd-cəhdə sahib olsun. Cidd-cəhd və səyin ən bariz nümunəsi peyğəmbərlər (ə) və imamlardır (ə). Onlar dini yaşatmaq və canlandırmaq uğrunda zərrəcə yorulmamışlar. Necə ki, həzrət Nuh (ə) doqquz yüz əlli il qövmünün hidayət olunmasından məyus olmadı.

**Hədis:** İmam Əli (ə): "Bir iş görmək istədikdə, usanmadan çalış" (Qürərul-hikəm, c. 4, səh. 605, hədis: 7161).

**223**

## 8. Ədalətmərkəzlilik

إِنَّ اللَّهَ يَأْمُرُ بِالْعَدْلِ وَالْإِحْسَانِ وَإِيتَاءِ ذِي الْقُرْبَىٰ وَيَنْهَىٰ عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ
وَالْبَغْيِ يَعِظُكُمْ لَعَلَّكُمْ تَذَكَّرُونَ

Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara yaxşılıq etməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və zülm etməyi isə qadağan edir. O sizə öyüd-nəsihət verir ki, bəlkə düşünüb ibrət alasınız (Nəhl, 90).

**İzah:** Yuxarıdakı ayə dini cəmiyyət üçün ən əhatəli əxlaqi göstərişləri ehtiva edir. Bu ayədə söhbət açılan altı mühüm (əxlaqi) prinsip aşağıdakılardır: ədalət, yaxşılıq, qohumlara yaxşılıq, iyrənc işlər görməmək, pis əməllərdən çəkinmək və zülm etməmək. Ədalət hər şeyi öz yerində, öz məqsədi istiqamətində yerləşdirməkdir. Ədalətin həm fərdi yönü var, həm də ictimai. Yuxarıdakı ayə ictimai ədalətə, yəni cəmiyyətdə insanlara ləyaqətinə görə önəm verilməsinə işarə edir. Yaxşılıqda məqsəd başqasına yaxşılıq etməkdir. Bu, dini cəmiyyətin problemlərinin həlli istiqamətində mühüm bir ehtiyacdır. Bu yaxşılığın bariz nümunələrindən biri qohumlara yaxşılıqdır və böyük önəminə görə xüsusi qeyd edilmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): "Təqva, Allahın bu kəlamında xülasə olunmuşdur: "Həqiqətən, Allah ədalətli

olmağı, yaxşılıq etməyi və qohumlara yaxşılıq etməyi əmr edir ...” (Məcməül-bəyan, c. 1, səh. 118).

## 224

### 9. Validelnlərə yaxşılıq

وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوا إِلَّا إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا إِمَّا يَبْلُغَنَّ عِنْدَكَ الْكِبَرَ أَحَدُهُمَا أَوْ كِلَاهُمَا فَلَا تَقُلْ لَهُمَا أُفٍّ وَلَا تَنْهَرْهُمَا وَقُلْ لَهُمَا قَوْلًا كَرِيمًا وَاخْفِضْ لَهُمَا جَنَاحَ الذُّلِّ مِنَ الرَّحْمَةِ وَقُلْ رَبِّ ارْحَمْهُمَا كَمَا رَبَّيَانِي صَغِيرًا

Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: "Uf!" belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə! Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: “Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!” – de (İsra, 23-24).

**İzah:** Qurani-kərimin üç ayəsində tövhid və Allaha pərəstiş əmrindən sonra ata-anaya yaxşılığa əmr edilmişdir. Bu, sözügedən əxlaqi fəzilətin böyük önəmini göstərir. Allah-Taala bəndələrini ata-anaya ən kiçik hörmətsizlikdən çəkindirir və təkid edir ki, övladlar hər halda, xüsusilə valideynlər qocalıb əldən düşdükdə onlarla təvazökarcasına davranmalıdırlar.

**Hədis:** İmam Əli (ə): “Ata-anaya yaxşılıq etmək ən böyük ilahi vəzifədir” (Qürərul-hikəm, c. 3, səh. 259, hədis: 4423).

**225**

## 10. Qohumlarla əlaqə

وَالَّذِينَ يَصِلُونَ مَا أَمَرَ اللَّهُ بِهِ أَنْ يُوصَلَ وَيَخْشَوْنَ رَبَّهُمْ وَيَخَافُونَ سُوءَ الْحِسَابِ

O kəslər ki, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşdurur (qohumluq əlaqələrini möhkəmlədir), Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər (Rəd, 21).

**İzah:** "Sileyi-rəhim"in (qohumlarla əlaqənin) fəziləti və bənzərsiz nəticələri haqqında nəql olunan hədislər və rəvayətlər o qədər heyrətamizdir ki, hər bir mömini qohumlarla xoş münasibətə daha çox diqqət ayırmağa sövq edir. Bu rəvayətlərdə qohumlarla əlaqə ömrün uzanmasının, ruzinin artmasının, yoxsulluğun aradan qalxmasının və bəlanın dəf olmasının başlıca amili hesab olunmuşdur. Qohumlarla xoş münasibət tək dinin tövsiyəsi deyil. Hətta bir çox məşhur Qərb psixoloqları da onun həyata ümidin çoxalmasına və insanın ömrünün uzanmasına bənzərsiz təsirini etiraf etmişlər. Qohumlarla əlaqə insani duyğuların artmasına, ictimai dəstək qazanmağa, mənəvi inkişafa, dindar nəslin tərbiyəsinə, insanların psixi təzyiqlərə qarşı müqavimətinin yüksəlməsinə və xəstəliklərin azalmasına səbəb olur. Bizim din öndərlərimizin həyat tərzi buna sübutdur. Din

rəhbərlərimiz hətta onlara düşmən münasibət bəsləyən qohumları ilə də münasibətlərini kəsmirdilər.

**Hədis:** İslam peyğəmbəri (s): "Sileyi-rəhimin savabı başqa hər bir işin savabından daha tez çatır" (Kafi, c. 2, səh. 152, hədis: 15).

**226**

## 11. Yaxşılıq və xeyirxahlıq

وَاعْبُدُوا اللَّهَ وَلَا تُشْرِكُوا بِهِ شَيْئًا وَبِالْوَالِدَيْنِ إِحْسَانًا وَبِذِي الْقُرْبَىٰ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينِ وَالْجَارِ ذِي الْقُرْبَىٰ وَالْجَارِ الْجُنُبِ وَالصَّاحِبِ بِالْجَنْبِ وَابْنِ السَّبِيلِ وَمَا مَلَكَتْ أَيْمَانُكُمْ إِنَّ اللَّهَ لَا يُحِبُّ مَنْ كَانَ مُخْتَالًا فَخُورًا

Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara, yaxın və uzaq qonum-qonşuya, yol yoldaşına, müsafirə və sahib olduğunuz (kölə və kənizlərə) yaxşılıq edin! Həqiqətən, Allah özünü öyənləri və lovğalıq edənləri sevmir (Nisa, 36).

**İzah:** Dinin ictimai əxlaq sahəsində ən əsas göstərişlərindən biri "ehsan" – yaxşılıq və xeyirxahlıqdır. Buna görə də bir çox Quran ayəsi başqalarına yaxşılıq etməyin fəzilətinə həsr olunmuşdur. Bu ayələrin bəzisində hamıya, hətta kafirlərə də yaxşılıq etmək təkid olunmuşdur. Bəziləri yaxşılığın qaydaları və şərtləri haqqında söhbət açmışdır. Bəziləri isə yaxşılıq edənlərin məqamını və mükafatını təsvir etmişdir. "إحسان" (ihsan) sözünün dini mətnlərdə işlənməsindən anlayırıq ki, onun anlamı maddi yaxşılıqdan daha genişdir və hər növ xeyirxahlığı ehtiva edir. Belə ki, "ehsan" məqamını təqvalıların və möminlərin ən üstün fəzilətlərindən hesab etmək olar.

**Hədis:** İmam Əli (ə): "İmanın başında insanlara yaxşılıq etmək dayanır" (Qürərul-hikəm, c. 4, səh. 52, hədis: 5253).

## 227

### Pisliyə yaxşılıqla cavab vermək

وَلَا تَسْتَوِي الْحَسَنَةُ وَلَا السَّيِّئَةُ ادْفَعْ بِالَّتِي هِيَ أَحْسَنُ فَإِذَا الَّذِي بَيْنَكَ وَبَيْنَهُ عَدَاوَةٌ كَأَنَّهُ وَلِيٌّ حَمِيمٌ

Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) ən yaxşı üsulla dəf et! O zaman səninlə ədavət aparan kimsə sanki yaxın bir dost olar (Fussilət, 34).

**İzah:** Yuxarıdakı ayə yaxşılığın önəmini və onun faydasını təsvir edir. Çünki hətta başqalarının pisliyinin qarşısında da – eyni qarşılığı vermək əvəzinə - ən yaxşı şəkildə davranılması tövsiyə olunur. Bu iş onun qəlbindən kinin getməsinə və düşmənçiliklərin dostluğa çevrilməsinə səbəb olur. Heç şübhəsiz, bu ayəyə əməl etmək bir çox ictimai ixtilafların, yersiz kin-küdurətlərin aradan qalxmasına səbəb olacaqdır. Din öndərlərinin təbliğat metodu öz düşmənləri ilə təmkinli və dözümlü davranmaqla onların qəlbini ələ almaq və özlərinə məftun etmək nümunələri ilə doludur.

**Hədis:** İmam Əli (ə): "Kim ona pislik edənə yaxşılıq etsə, bütün əxlaqi fəzilətləri özündə toplamışdır" (Qürərul-hikəm, c. 5, səh. 394, 8905).

## 228

## 12. Təvazö

وَعِبَادُ الرَّحْمَٰنِ الَّذِينَ يَمْشُونَ عَلَى الْأَرْضِ هَوْنًا وَإِذَا خَاطَبَهُمُ الْجَاهِلُونَ قَالُوا سَلَامًا

Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: "Salam!" (xoş sözlər) – deyərlər (Rum, 30).

**İzah:** Möminlərin bariz xüsusiyyətlərindən biri odur ki, möminlərə qarşı təvazökar, kafirlərə qarşı güclü və barışmazdırlar (Fəth, 29). Onlar özlərini başqalarından üstün görmür, qürur və təkəbbürə qapılmırlar. Bu ayədə Rəhmanın bəndələrinin ilk nişanəsinin təvazökarlıq olduğu bildirilmişdir. Yuxarıdakı ayədə yol gedərkən təvazökar olmaqdan söhbət getsə də məlumdur ki, bu bir nümunədir və təvazö sifətinin onların canına işləməsindən xəbər verir. Allah-Taala özünü başqalarından üstün bilənlərə və xüsusi imtiyaz sahibi hesab edənlərə kəskin qəzəbini ifadə etmişdir. Digər tərəfdən isə insanlarla təvazökar və mülayim davrananlar Onun yanında xüsusi məqam sahibidirlər.

**Hədis:** İslam peyğəmbəri (s) – səhabələrinə müraciətlə buyurdu – : "Nə üçün sizdə ibadətin şirinliyini görmürəm?" Soruşdular: "İbadətin şirinliyi nədir?" Buyurdu: "Təvazö" (Tənbihul-xəvatir, c. 1, səh. 201).

**229**

## 13. Əfv və güzəşt

الَّذِينَ يُنْفِقُونَ فِي السَّرَّاءِ وَالضَّرَّاءِ وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ

O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevər (Ali-İmran, 134).

**İzah:** Ən yüksək əxlaqi fəzilət qəzəbləndikdə qəzəbini udmaq, başqalarının səhvlərini bağışlamaqdır. Möminlərə bu əxlaqi fəziləti tövsiyə edən ayə və rəvayətlər bu fəzilətin önəminə aydın sübutdur. Quran intiqam və xeyirxahca göz yummaq arasında ikincini təqvaya yaxın hesab edir və onu yaxşıların xüsusiyyətləri sırasında sayır. Din rəhbərlərinin həyat tərzinə nəzər saldıqda da anlayırıq ki, bu xoşagələn xasiyyət bir çox insanların onlara üz tutmasına zəmin yaratmışdır. Əlbəttə, məlumdur ki, əfv və güzəştin də digər bir çox əxlaqi xüsusiyyətlər kimi xüsusi şərtləri və qaydaları vardır və onlara riayət etmək fərdi və ictimai nəticələrindən faydalanmağa, bu sahədə ifratın acı nəticələrindən uzaq qalmağa səbəb olur.

**Hədis:** "Kim (başqalarının günahından) keçsə, Allah onun günahından keçər. Kim qəzəbini udsa, Allah onu mükafatlandırar" (Təfsiri-Qumi, c. 1, səh. 291).

230

## 14. Əmanətdarlıq və əhdə vəfa

وَالَّذِينَ هُمْ لِأَمَانَاتِهِمْ وَعَهْدِهِمْ رَاعُونَ

O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar (onlara tapşırılmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər) (Muminun, 8).

**İzah:** Yuxarıdakı ayə möminlərin üstün xüsusiyyətlərini vəsf edir. Odur ki əhdə vəfa və əmanətdarlıqdan da söhbət açır. İslam dini etimadı və ictimai əlaqələri gücləndirmək məqsədilə müsəlmanları bu iki prinsipə əməl etməyə səsləyir və ona hətta düşmənlərə qarşı əməl etməyi də zəruri hesab edir. Bu iki əxlaqi fəzilətin əhəmiyyəti üçün rəvayətlərdə dindarlıq şərti və müsəlmanlıq nişanəsi kimi göstərilməsi kifayətdir. Hətta bir çox hədislərdə əmanətdarlıq doğruçuluqla yanaşı peyğəmbərlərin risalətinin şərti hesab olunmuşdur. Qeyd etmək lazımdır ki, əhdə vəfa anlayışının əhatəsi Allaha bəndəlik və peyğəmbərlərə itaət fitri əhdinə də şamil olur. Həmçinin, ilahi dünyagörüşə görə bütün ilahi nemətlər əmanətdir və insan onlara görə məsuliyyət daşıyır. Buna görə də rəvayətlərdə əmanəti sahibinə qaytarmağın bariz nümunəsi cəmiyyətə rəhbərlikdir ki, sahibinə (məsum imamlara (ə) və onların haqlı canişinlərinə) qaytarılmalıdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Əhdinə vəfa qılmayanın dini, əmanətə xəyanət edənin imanı yoxdur" (Nəvadir, Ravəndi, səh. 5).

231

## 15. Ədalətli mühakimə (mühakimədə insaf)

إِنَّ اللَّهَ يَأْمُرُكُمْ أَنْ تُؤَدُّوا الْأَمَانَاتِ إِلَىٰ أَهْلِهَا وَإِذَا حَكَمْتُمْ بَيْنَ النَّاسِ أَنْ تَحْكُمُوا بِالْعَدْلِ إِنَّ اللَّهَ نِعِمَّا يَعِظُكُمْ بِهِ إِنَّ اللَّهَ كَانَ سَمِيعًا بَصِيرًا

Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir (Nisa, 58).

**İzah:** Yuxarıdakı ayə möminləri iki böyük fəzilətə - əmanətdarlığa və ədalətli mühakiməyə səsləyir. Birinci fəzilət haqqında söhbət edildi. Ədalətli mühakimə haqqında isə demək lazımdır ki, ona əməl etmək məhkəmə və ya ədliyyə sistemi ilə məhdudlaşmır. Əksinə, bir çox hallarda ictimai münasibətlərdə və gündəlik söhbətlərdə müəyyən bir şəxs və ya hadisə haqqında fikir bildirmək lazım gəlir. Bəzən bu fikirlər diqqətsizlikdən və kifayət qədər məlumatı olmamaqdan irəli gəlir. Belə ki, başqaları haqqında bir növ insafsızlıq və ədalətsiz mühakiməyə gəlib çıxır. Odur ki, fərdlərə və şəxsiyyətlərə münasibətdə hər növ tələsik mühakimədən çəkinmək və bütün mövqelərdə insafı nəzərə almaq lazımdır.

**Hədis:** İmam Əli (ə): "Dilin (kimsə ilə bağlı) pisliyi və ya yaxşılığı yaymaqda insaflı davranması çox az baş verir" (Qürərul-hikəm, c. 4, səh. 495, hədis: 6724).

**232**

## 16. Fədakarlıq və canından keçmək

وَالَّذِينَ تَبَوَّءُوا الدَّارَ وَالْإِيمَانَ مِنْ قَبْلِهِمْ يُحِبُّونَ مَنْ هَاجَرَ إِلَيْهِمْ وَلَا يَجِدُونَ فِي
صُدُورِهِمْ حَاجَةً مِمَّا أُوتُوا وَيُؤْثِرُونَ عَلَىٰ أَنْفُسِهِمْ وَلَوْ كَانَ بِهِمْ خَصَاصَةٌ وَمَنْ يُوقَ شُحَّ
نَفْسِهِ فَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ

(Mühacirlərdən Mədinədə) əvvəl (orada) yurd salmış və iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır (Həşr, 9).

**İzah:** Fədakarlıq və canından keçməyin dini mətnlərdəki önəmi aydındır. Malından, övladından, canından keçmək, Allah yolunda çalışmaq, nəfs və nəfsani istəklərlə mübarizə aparmaq hamısı fədakarlıq nümunələridir. Onun zirvə nöqtəsi "Bəqərə" surəsinin 207-ci ayəsidir. Bu ayədə həzrət Əlinin (ə) Ləylətul-məbitdə İslam peyğəmbərinin (s) yatağında yatmasına işarə olunmuşdur. Yuxarıdakı ayə (fədakarcasına mühacirləri qarşılayan və Mədinədə yerləşdirən) ənsarın (yerli mədinəlilərin) mədhi ilə bağlı nazil olmuşdur.

**Hədis:** İmam Əli (ə): "Fədakarlıq edən kəs mürüvvətin son həddinə yüksəlmişdir (Qürərul-hikəm, c. 4, səh. 459, hədis: 6724).

**233**

## 17. Yaxşı işlərdə həmkarlıq etmək

... وَتَعَاوَنُوا عَلَى الْبِرِّ وَالتَّقْوَىٰ وَلَا تَعَاوَنُوا عَلَى الْإِثْمِ وَالْعُدْوَانِ ...

Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın (Maidə, 2).

**İzah:** Yaxşı işləri görməkdə həmkarlıq etmək və bir olmaq İslam cəmiyyətinin zati inkişaf ünsürlərindəndir. Buna görə də ayə və rəvayətlərdə onu böyük və həyati bir vəzifə hesab etmişlər. Qurana görə, möminlər bir-birlərini yaxşılığa dəvət etməli və pisliklərdən çəkindirməlidirlər. Hər bir fərdin cəmiyyətə münasibətdə məsuliyyətli olması o cəmiyyətin dini funksiyasını yüksəldir. Bir çox dini vaciblər həmkarlıq və birlik olmadan gerçəkləşə bilməz. Əlbəttə, yuxarıdakı ayədə də işarə olunduğu kimi birlik, vəhdət və s. anlayışlar yalnız o zaman həqiqi və dini dəyər qazanır ki, günah və başqalarına zülm istiqamətində yox, təqva və yaxşılıq yönündə olsun. İqtisadi, mədəni, elmi və s. işlərdə həmkarlıq və vəhdət prinsipi dövlətin xalqla və xalqın dövlətlə qarşılıqlı əlaqəsi haqqında düzgün baxış formalaşdırır və bu, cəmiyyətin hərtərəfli inkişafında heyrətamiz təsirə malik olur.

**Hədis:** İslam peyğəmbəri (s): "Camaat yaxşılığa əmr, pisliyi qadağa etdikcə, yaxşı işlərdə bir-birlərinə yardım etdikcə yaxşılıqdadır" (Təhzibul-əhkam, c. 6, səh. 181, hədis: 373).

**234**

## 18. Dua və minacat

### A) Duanın önəmi

### Dua bəndələrin inkişaf səbəbidir

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ فَلْيَسْتَجِيبُوا لِي
وَلْيُؤْمِنُوا بِي لَعَلَّهُمْ يَرْشُدُونَ

Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər (Bəqərə, 186).

**İzah:** Dua, – insanın inkişaf və yüksəlişində çox təsirli olduğu üçün – bütün ilahi dinlərin diqqət mərkəzində olmuşdur. Allahla əlaqə yaratmaq tək qarşılıqlı Xaliq və məxluq əlaqəsinə, ilahi feyz və lütfə zəmin yaratmır, həm də dini inancları gücləndirir və bəndələrin ruhi acılarını dinlədir. Dua əslində bir növ ibadət, Allah qarşısında xuşu və insanın öz zəifliyinin, acizliyinin etirafıdır. Yuxarıdakı ayədə Allah-Taala ən zərif ifadələrlə bəndələrə yaxın olmasından söhbət açmış və onları özü ilə minacat etməyə səsləmişdir. Duanın ən mühüm faydası – yəni bəndələrin

mənəvi təkamülü və inkişafı – da ayənin sonunda bəyan olunmuşdur.

**Hədis:** İslam peyğəmbəri (s): "Dua ibadətin məğzi və ruhudur" (İddətud-dai, səh. 29).

## 235

### Dua ilahi mərhəmətin qazanılmasına səbəb olur

قُلْ مَا يَعْبَأُ بِكُمْ رَبِّي لَوْلَا دُعَاؤُكُمْ فَقَدْ كَذَّبْتُمْ فَسَوْفَ يَكُونُ لِزَامًا

De: "Əgər yalvarmağınız olmasaydı, Rəbbim sizə diqqət yetirməzdi. Siz (haqqı) yalan saydınız. Ona görə də (əzab sizi) rahat buraxmayacaqdır!" (Furqan, 77).

**İzah:** Əgər insanın dəyəri ibadət və bəndəlikdədirsə, deməк, əslində Allaha ehtiyacın təzahürü olan dua insanların dəyərini göstərir. Buradan da yuxarıdakı ayənin mənası aydın olur. Allah bu ayədə bildirir ki, əgər sizin dua və yalvarışlarınız olmasaydı, sizə etina olunmazdı. Dua, həm insanı Allahı həqiqətən tanımağa, Onun əfv və mərhəmət sifətləri haqqında düşünməyə səsləyir, həm də Allaha münasibətdə bir növ təvazökarlıqdır. Bu izahdan aydın olur ki, hətta dua edildikdə hacətin qəbul olunmasını nəzərə almasaq belə yenə də dua fəzilətli ibadətdir və insanın (mənəvi) inkişaf və təkamülünə səbəb olur.

**Hədis:** İmam Baqirdən (ə) soruşdular: "Çox Quran oxumaq daha yaxşıdır, yoxsa çox dua etmək?" İmam (ə) buyurdu: "Çox dua etmək daha yaxşıdır". Daha sonra yuxarıdakı ayəni oxudu" (Biharul-ənvar, c. 9, səh. 229).

## 236

## Duanın mütləq qəbul olunması

وَقَالَ رَبُّكُمُ ادْعُونِي أَسْتَجِبْ لَكُمْ إِنَّ الَّذِينَ يَسْتَكْبِرُونَ عَنْ عِبَادَتِي سَيَدْخُلُونَ جَهَنَّمَ دَاخِرِينَ

Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər" (Ğafir, 60).

**İzah:** Yuxarıdakı ayədə dua ibadətin bariz nümunəsi kimi verilmiş və ondan uzaq olmaq Allaha qarşı təkəbbür hesab olunmuşdur. Allahın duaya mütləq cavab verməsi (qəbul etməsi) bir çox Quran ayəsində öz əksini tapmışdır. Duaya cavab vermək tək bəndələrin hacətinin həyata keçməsi yox, həm də onu qəbul etmək və müsbət cavab vermək deməkdir. Odur ki, dua zahirdə qəbul olunmursa, qəbul olunmadığını demək olmaz. Çünki o hacət bəndənin xeyrinə olmaya və Allahın ona cavabı daha layiqli və daha yaxşı ola bilər. Həmçinin, dua dərhal qəbul olunur. Amma onun həyata keçməsi – bəzi məsləhətlərə uyğun olaraq – illər çəkə bilər. Əlbəttə, nəzərə almaq lazımdır ki, duanın bir sıra qaydaları və şərtləri var ki, onlara riayət etmək fərdin duanın faydalarından və nəticələrindən daha çox faydalanmasına səbəb olur. Quranda qeyd olunan bəzi dua qaydaları bunlardır: Allaha həmd-səna etmək, Onun Rəbb olmasına inam, yalvarış və çarəsizlik, qorxu və ümid arasında olmaq, günahları etiraf etmək və s.

**Hədis:** İmam Əli (ə): "Bil ki, göylərin və yerin xəzinələri (qüdrətli və bacarıqlı) əllərində olan Allah sənə dua etmək və istəmək icazəsi vermiş və (onların) qəbul edilməsinə zəmanət vermişdir. Sənə (istədiyini) vermək üçün istəməyini, mehribanlıq etmək üçün rəhmət və mehribanlıq diləməyini əmr etmişdir" (Nəhcül-bəlağə, məktub: 31).

## 237

### B) Dua qaydaları

### 1. Çarəsizlik

أَمَّنْ يُجِيبُ الْمُضْطَرَّ إِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ وَيَجْعَلُكُمْ خُلَفَاءَ الْأَرْضِ أَإِلَٰهٌ مَعَ اللَّهِ قَلِيلًا مَا تَذَكَّرُونَ

Darda qalan kimsə yalvardığı zaman ona cavab verən, şəri sovuşduran və sizi yer üzünün varisləri edən kimdir? Heç Allahla yanaşı başqa bir məbudmu var? Siz necə də az düşünürsünüz? (Nəml, 62).

**İzah:** Duanın bir sıra qaydaları və şətləri vardır ki, onlara diqqət etmək zəruridir. Onlardan biri budur ki, insan özünü çarəsiz və Allaha möhtac görsün. Ehtiyacının aradan qalxması üçün kimsəni Ona şərik qoşmasın. Başqa sözlə, Allahı problemlərini aradan qaldıran yeganə varlıq olaraq görsün və Onun sonsuz qüdrətinə inansın. Əksər insanlar Allahı yalnız o zaman çağırırlar ki, zahirdə heç bir başqa nicat vasitəsi qalmır. Amma mömin daim özünü Allahdan qeyrisindən tam ehtiyacsız bilir. Təbii səbəb və vasitələri yalnız Allahın iradəsindən asılı görür və onlara könül verir. Allah, yuxarıdakı ayədə Öz təkliyinin nişanələrindən birini çarəsiz və darda qalanların duasına cavab vermək hesab edir.

**Hədis:** İmam Sadiq (ə): "Dua qaydalarına riayət et. ... Dua, bütün zahiri və batini məsələlərin hamısını Allaha həvalə etməkdir. ... Əgər dua qaydalarına riayət etməsən qəbul olunmasını gözləmə" (Misbahuş-şəriə, səh. 132).

**238**

## 2. Yalvarış və gizlilik

ادْعُوا رَبَّكُمْ تَضَرُّعًا وَخُفْيَةً إِنَّهُ لَا يُحِبُّ الْمُعْتَدِينَ وَلَا تُفْسِدُوا فِي الْأَرْضِ بَعْدَ
إِصْلَاحِهَا وَادْعُوهُ خَوْفًا وَطَمَعًا إِنَّ رَحْمَتَ اللَّهِ قَرِيبٌ مِنَ الْمُحْسِنِينَ

Rəbbinizə yalvararaq, həm də gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevmir. Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır (Əraf, 55-56).

**İzah:** Bu ayələr dua qaydalarının dörd nümunəsinə işarə edir: 1. Yalvarış; 2. Gizlilik; 3. Duada həddi aşmamaq; 4. Duanın qorxu və ümidlə olması. Yəni bəndə özünü qorxu və ümid arasında bir vəziyyətdə görməlidir. Çünki nə istəyinin gerçəkləşməsindən məyusdur, nə də ona əmindir. Ona görə ki, günahlarının duasının qəbul olunmasına mane olmasından qorxur. Dua qaydalarından biri onun gizli olmasıdır. Bu, onun ixlasla olunmasına kömək edir. Bu qayda, rəvayətlərdə qeyd olunan duanın kollektiv olunması ilə ziddiyyət təşkil etmir. Çünki kollektiv dua o zaman müstəhəbdir ki, hacət bütün cəmiyyətlə əlaqəli olsun. Yaxud, dua mədəniyyətini yaymaq və həyatda bəndəlik ruhunu yaşatmaq üçün olsun. Hər iki halda riya və özünü göstərməkdən uzaq olmalıdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Bəndənin bir gizli duası aşkarda olunan yetmiş duasına bərabərdir" (Kafi, c. 2, səh. 476, hədis: 1).

## 239

## Quranda yer alan bəzi dualar

### Dünya və Axirətdə yaxşılıq istəmək

...رَبَّنَا آتِنَا فِي الدُّنْيَا حَسَنَةً وَفِي الْآخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ

Onlardan: "Ey Rəbbimiz! Bizə həm (bu) dünyada, həm də axirətdə yaxşılıq ver və bizi Od əzabından qoru!" – deyənləri də vardır (Bəqərə, 201).

**İzah:** Burada Quranda yer alan bəzi duaları diqqətinizə çatdırırıq. Bu dualar həm bizə dua zamanı ilk növbədə nələri nəzərə almağı öyrədir, həm də duanın qaydalarını, Allahı necə səsləmək lazım olduğunu bəyan edir. Bunu da qeyd etmək lazımdır ki, namazın qunutunda Quran dualarını oxumaq müstəhəbdir. Ən məşhur Quran duası yuxarıdakı duadır. Bu dua mənaca bütün maddi və mənəvi hacətləri ehtiva edən geniş bir duadır. Dua qaydalarından biri də Allahın bağışlayan və rəhmət sifətlərini qeyd etmək, xüsusilə əvvəlində "ربنا" (rəbbəna) ifadəsindən istifadə etməkdir. Əksər Quran duaları bu müraciətlə başlayır. Çünki Rəbb sifəti üzərində dayanmaq, onu iqrar etmək özü bir növ duanın məqsədini ifadə edir və ehtiyacı bildirir. Təbii ki, bəndələrin zəruri ehtiyaclarını aradan qaldırmaq Rəbbin üzərinə düşən işlərdən biridir.

**Hədis:** İmam Sadiq (ə): "Dünyada yaxşılıq dedikdə ruzinin çoxalması, həyatın yaxşılaşması və gözəl əxlaq nəzərdə tutulur. Axirətdə yaxşılıq dedikdə isə Allahın razılığı və Cənnət nəzərdə tutulur" (Məanil-əxbar, səh. 175).

## 240

## Ağıl sahiblərinin əhatəli duası

...رَبَّنَا مَا خَلَقْتَ هَٰذَا بَاطِلًا سُبْحَانَكَ فَقِنَا عَذَابَ النَّارِرَبَّنَا إِنَّكَ مَنْ تُدْخِلِ النَّارَ فَقَدْ
أَخْزَيْتَهُ وَمَا لِلظَّالِمِينَ مِنْ أَنْصَارٍرَبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِيًا يُنَادِي لِلْإِيمَانِ أَنْ آمِنُوا بِرَبِّكُمْ
فَآمَنَّا رَبَّنَا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّئَاتِنَا وَتَوَفَّنَا مَعَ الْأَبْرَارِرَبَّنَا وَآتِنَا مَا وَعَدْتَنَا عَلَىٰ
رُسُلِكَ وَلَا تُخْزِنَا يَوْمَ الْقِيَامَةِ إِنَّكَ لَا تُخْلِفُ الْمِيعَادَ

“Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru! Ey Rəbbimiz! Sən Oda saldığın kəsi rüsvay edərsən. Zalımların köməkçiləri olmaz. Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!” – deyə imana çağıran bir kimsənin çağırışını eşidib iman gətirdik. Ey Rəbbimiz! Günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç və canımızı itaətkarlarla bir yerdə al! Ey Rəbbimiz! Öz elçilərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və Qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədindən dönməzsən!” (Ali-İmran, 191-194).

**İzah:** Yuxarıdakı ayə ağıl sahiblərinin duasıdır ki, yüksək məna və məzmunları ehtiva edir. Bu ayələr ağıl sahiblərinin idrak dəryasından qaynayan bulağı təsvir edir.

**Hədis:** İslam peyğəmbəri (s) “Ali-İmran” surəsinin 190-195-ci ayələri nazil olandan sonra buyurdu: “Vay olsun bu ayələri dilində fırladan, amma haqqında düşünməyənlərə!” (Məcməül-bəyan, c. 2, səh. 908).

**241**

## Haqq-hesabın asanlaşmasını istəmək

رَبَّنَا لَا تُؤَاخِذْنَا إِنْ نَسِينَا أَوْ أَخْطَأْنَا رَبَّنَا وَلَا تَحْمِلْ عَلَيْنَا إِصْرًا كَمَا حَمَلْتَهُ عَلَى الَّذِينَ مِنْ قَبْلِنَا رَبَّنَا وَلَا تُحَمِّلْنَا مَا لَا طَاقَةَ لَنَا بِهِ وَاعْفُ عَنَّا وَاغْفِرْ لَنَا وَارْحَمْنَا أَنْتَ مَوْلَانَا فَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

"Ey Rəbbimiz, unutsaq və ya xəta etsək, bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkilərə yüklədiyin kimi, bizə də ağır yük yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi daşımağa bizi vadar etmə! Bizi əfv et, bizi bağışla və bizə rəhm et! Sən bizim himayədarımızsan! Kafirləri məğlub etməkdə bizə yardım et!" (Bəqərə, 286).

**İzah:** Yuxarıdakı dualar da möminlərin dilindən nəql olunmuşdur ki, insan səadəti üçün çox önəmli məzmunları və maarifi ehtiva edir. Bu duada Allahdan istənilmişdir ki, diqqətsizlik və qəflət üzündən baş verən günahları bağışlasın. Onların üzərinə ağır və dözülməz sınaqlar, vəzifələr qoymasın. Onlara mərhəmət qılsın. Qeyd edək ki, bu duada lütfün bütün mərhələləri qeyd olunmuşdur: 1. Əzab verməmək mənasını ifadə edən əfv; 2. Günahın izlərini ruhdan aparan məğfirət; 3. İlahi mərhəmət və yardım.

**Hədis:** Peyğəmbər (s) merac gecəsi bu duanı oxudu, mələklər isə: "Amin!" – dedilər. O həzrət (s) buyurdu: "Allah-Taala bu duanın hər bir hissəsindən sonra buyurur: "Qəbul etdim və yerinə yetirdim" (Məcməül-bəyan, c. 2, səh. 692).

## 242

## Düşmənlərə qarşı səbir və möhkəmlik istəmək

...رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْرًا وَثَبِّتْ أَقْدَامَنَا وَانْصُرْنَا عَلَى الْقَوْمِ الْكَافِرِينَ

... "Ey Rəbbimiz! Bizə səbir ver, qədəmlərimizi möhkəmlət və kafir qövmə qələbə çalmaqda bizə yardım et!" (Bəqərə, 250).

**İzah:** Yuxarıdakı dua da insanın son taleyi və müvəffəqiyyəti ilə bağlı dərin və həlledici məzmuna malikdir. Düşmənlərə qarşı səbirli və möhkəm olmaq, din yolunda sabitqədəm olmaq imanın əsas rüknüdür. Belə bir nemət Allahın lütfü olmadan əldə olunmur. Ona görə də yaxşı olar ki, Allahdan bizə səbir verməsini, addımlarımızı möhkəmlətməsini və düşmənlərimizi nakam qoymasını istəyək.

**Hədis:** İmam Sadiq (ə): "Tezliklə elə şübhələrlə üzləşəcəksiniz ki, sizi yönləndirəcək elm və rəhbər olmayacaq. Bu şübhədən yalnız o adam nicat tapacaq ki, "Qəriq duası"nı oxusun". Həzrətdən (s) soruşdum ki, "Qəriq duası" necə olur? Buyurdu: "Ya Allah, ya Rəhman, ya Rəhim! Ey ürəklərin və düşüncələrin gərdişi əlində olan! Qəlbimi öz dinində sabitqədəm et!" (Kəmalud-din, səh. 532, hədis: 50).

243

## Xətaların bağışlanmasını istəmək

رَبَّنَا لَا تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِنْ لَدُنْكَ رَحْمَةً إِنَّكَ أَنْتَ الْوَهَّابُ رَبَّنَا إِنَّكَ جَامِعُ النَّاسِ لِيَوْمٍ لَا رَيْبَ فِيهِ إِنَّ اللَّهَ لَا يُخْلِفُ الْمِيعَادَ

"Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma və bizə Öz tərəfindən mərhəmət bəxş et. Həqiqətən, Sən Bəxşedənsən. Ey Rəbbimiz! Həqiqətən, (gerçəkləşəcəyinə) şübhə edilməyən bir gündə insanları (bir yerə) Sən yığacaqsan. Həqiqətən, Allah vədinə xilaf çıxmaz!" (Ali-İmran, 8-9).

**İzah:** Şübhəsiz, qürur və təkəbbür afəti bütün möminləri pusur. Mömin insan heç zaman özünü günah və xətadan amanda görmür. Daim Allahdan onu Şeytanın vəsvəsələrindən və qeyri-iradi yanlışlardan qorumasını istəyir. Yuxarıdakı ayə elmdə qüvvətli olanların dilindən nəql olunmuşdur. Onlar Allahdan imanlarını hidayət yolundan çıxmaqdan qorumasını və onlara Öz xüsusi uğurlarını bəxş etməsini istəyirlər. Onlar duanın davamında Qiyamət gününə inamı və ondan qorxduqlarını izhar edirlər ki, o gün gəldikdə möminlərin əlindən xüsusi ilahi rəhmətdən savayı tutan olmayacaq.

**Hədis:** İmam Sadiq (ə): "Ey Rəbbimiz! Bizi hidayət yoluna yönəltdikdən sonra qəlbimizi sapdırma..." duasını

çox oxuyun. Qəlbinizin sapmayacağına əmin olmayın" (Təfsiri-Əyyaşi, c. 1, səh. 164, hədis: 9).

## 244

## Günahları etiraf etmək və əfv diləmək

قَالَا رَبَّنَا ظَلَمْنَا أَنْفُسَنَا وَإِنْ لَمْ تَغْفِرْ لَنَا وَتَرْحَمْنَا لَنَكُونَنَّ مِنَ الْخَاسِرِينَ

Hər ikisi: "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq" – dedilər (Əraf, 23).

**İzah:** Dua qaydalarından biri günahı etiraf etməkdir. Günahı iqrar etmək tövbə etməyə və günahdan qayıtmağa zəmin yaradır, insanın təkəbbür və qürurunun, eləcə də Allaha cəsarət etməsinin kökünü kəsir. Nəql olunan əksər dualarda da buna rast gəlirik. Bu dua həzrət Adəm (ə) və Həvvanın dilindən nəql olunmuş və onların tövbəsinin Allah tərəfindən qəbul olunmasına səbəb olmuşdur. Bəzi rəvayətlərdə yuxarıdakı ifadələrin Adəmin tövbəsinin qəbul olunması üçün Allahdan əxz etdiyi kəlmələr olduğu bildirilmişdir.

**Hədis:** İmam Sadiq (ə): "Allaha həmd-səna etmədən, Peyğəmbərinə (s) və ailəsinə (ə) salam göndərmədən, günahlarınızı iqrar etmədən Ona dua etməkdən çəkinin" (Dəəvat, Ravəndi, səh. 23, hədis: 27).

## 245

## Səbir və xoş son

...رَبَّنَا أَفْرِغْ عَلَيْنَا صَبْرًا وَتَوَفَّنَا

Ey Rəbbimiz! Bizə çoxlu səbr ver və bizi müsəlman olaraq öldür (Əraf, 126).

**İzah:** Hər bir fərdin ən üstün hacətlərindən biri sonunun xeyirli olmasıdır. Sehrbazlar həzrət Musaya (ə) iman gətirib, Fironun ağır işgəncəsinə məruz qaldıqda Allahdan istədilər ki, işgəncə zamanı onların səbrini çoxaltsın və imanlarını ölüm anına qədər qorusun. Yenicə iman gətirən sehirbazlar ürəklərin anidən dəyişilməsindən xəbərdar idilər və bu imanın da cüzi diqqətsizlik və qəflətlə birdən küfrə dönə biləcəyini bilirdilər. Buna görə də əbədi feyz mənbəyindən yardım diləyirdilər. Bu bəsirət və dindarlıq necə də gözəldir! Ucb və xudpəsəndliyə əsla yol vermir və daim özünü sapma təhlükəsi ilə üz-üzə görür.

**Hədis:** İmam Səccad (ə) – "Məkarimul-əxlaq" duasında – : "İlahi ömrümü Sənin itaətin yolunda sərf olunana qədər uzat. Əgər ömrüm Şeytanın otlağına çevrilərsə, canımı al" (Səhifeyi-Səccadiyyə, səh. 94, dua: 20).

**246**

## Bütün möminlərin doğru yola yönəlməsini və günahlarının bağışlanmasını istəmək

رَبِّ اجْعَلْنِي مُقِيمَ الصَّلَاةِ وَمِنْ ذُرِّيَّتِي رَبَّنَا وَتَقَبَّلْ دُعَاءِ رَبَّنَا اغْفِرْ لِي وَلِوَالِدَيَّ وَلِلْمُؤْمِنِينَ يَوْمَ يَقُومُ الْحِسَابُ

"Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə! Ey Rəbbimiz! Haqq-hesab günü məni, valideynlərimi və möminləri bağışla!" (İbrahim, 40-41).

**İzah:** Quranda nəql olunan ən məşhur dualardan biri yuxarıdakı duadır. Həzrət İbrahim (ə) bu duada həm özü və nəsli üçün namaz qılmağa uğur istəyir, həm də yaradılışın başlanğıcından sonuna qədər bütün möminlər üçün ilahi əfv və bağışlanmaq diləyir. Əlbəttə, bunların arasında valideynlər üçün əfv diləməyin xüsusi yeri var və buna görə də onu ayrıca qeyd etmişdir. Bu duadan bir neçə mətləb anlaşılır: 1. Duanı həm ümumi və geniş mənada etmək, həm də xüsusi fərdləri xüsusi qeyd etmək lazımdır. 2. Kafirlər üçün dua etmək ədəb qaydalarına ziddir. Çünki onlar Rəhman Allaha cəsarət göstərmiş və Onun Rəbb olmasını danmışlar. Buna görə də bəzi dualarda – məsələn, ramazan ayında namazdan sonra oxunan duada – bütün xəstələr və yoxsullar üçün dua oxunur. Amma onda məqsəd inadkarlar və kafirlər deyillər.

**Hədis:** İslam peyğəmbəri (s): “Bir zalımın qalması üçün dua edən yer üzündə Allaha itaətsizlik olunmasını sevir (İrşadul-qülub, səh. 76).

## 247

## İşlərin başlanğıcında və sonunda hidayət istəmək

وَقُلْ رَبِّ أَدْخِلْنِي مُدْخَلَ صِدْقٍ وَأَخْرِجْنِي مُخْرَجَ صِدْقٍ وَاجْعَلْ لِي مِنْ لَدُنْكَ سُلْطَانًا نَصِيرًا

De: "Ey Rəbbim! Məni daxil olacağım yerə (işə, peşəyə) yaxşılıqla daxil et; məni çıxacağım yerdən də yaxşılıqla çıxart. Öz tərəfindən mənə yardım edən bir dəlil ver" (İsra, 80).

**İzah:** Daha öncə qeyd olundu ki, əməli qeyri-ilahi niyyətlərdən təmizləmək və ya ixlaslı olmaq insan üçün çox çətindir. Buna görə də bu yolda Allahdan yardım istəmək zəruridir. Yuxarıdakı dua bu hacəti bəyan edir. Bu duada Allahdan istənilir ki, hər bir işə giriş-çıxışı yaxşı və ixlaslı etsin. Ehtiyaclı bəndəsini öz yardımından binəsib etməsin. Əksər ibadətlər və dini addımlar ilk başda müsbət və yaxşı niyyətlərlə başlayır. Amma davamında Şeytanın hiyləsi ilə üzləşir və doğru yoldan yayınır. Ona görə də Allah-Taala əziz elçisinə (s) əmr edir ki, bu duanı daim öz qəlbindən keçirsin və dilinə gətirsin.

**Hədis:** İmam Sadiq (ə): "Əgər qorxduğun bir yerə girsən, bu ayəni oxu" (Məhasin, səh. 367, hədis: 118).

## 248

### Köksün genişlənməsini və sözün təsirini istəmək

قَالَ رَبِّ اشْرَحْ لِي صَدْرِي وَيَسِّرْ لِي أَمْرِي وَاحْلُلْ عُقْدَةً مِنْ لِسَانِي يَفْقَهُوا قَوْلِي

(Musa) dedi: "Ey Rəbbim! Köksümü (bu ağır vəzifəyə dözmək üçün) açıb genişlət! İşimi yüngülləşdir! Dilimdəki düyünü aç ki, sözümü anlasınlar! (Taha, 25-28).

**İzah:** Ürəyi geniş olmaq, xüsusilə din rəhbərləri üçün həlledici və zəruri əxlaqi fəzilətlərdəndir. Ürəyin geniş olması problemlər və düşmənlər qarşısında dözümlülük, tutumluluq və mülayimlik deməkdir. Mülayimlik, güzəşt, eyibləri örtmək, helm, vüqarlılıq, qəzəbini udmaq və s. kimi bir çox xüsusiyyətlər insanın genişürəkli olmasının nəticəsidir. İlahi peyğəmbərlərin (ə) din maarifini təbliğ etmək və camaatı doğru yola yönəltmək üçün hər şeydən daha çox geniş ürəyə ehtiyacı olmuşdur və Allah "İnşirah" surəsində onu Peyğəmbərə (s) xüsusi neməti adlandırmışdır. Yuxarıdakı dua həzrət Musaya (ə) aiddir. O, missiyasının başlanğıcında Allahdan geniş ürək və işlərinin asanlaşmasını istəyir.

**Hədis:** Həzrət Mehdinin (ə) duasından: "İlahi, bizə (Sənə) itaət etməyi, günahlardan uzaq qalmağı, niyyətimizin xalis və düzgün olmasını, haramları tanımağı nəsib et! Bizi doğru yola yönəldərək və (o yolda)

sabitqədəm edərək hörmət et! Dilimizi doğru və hikmətli danışmaqda davamlı et!" (Şərhül-əxbar).

## 249

### Şeytanın vəsvəsələrindən uzaq olmağı istəmək

وَقُلْ رَبِّ أَعُوذُ بِكَ مِنْ هَمَزَاتِ الشَّيَاطِينِ وَأَعُوذُ بِكَ رَبِّ أَنْ يَحْضُرُونِ

De: "Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Onların mənə yaxınlaşmalarından Sənə sığınıram, ey Rəbbim!" (Muminun, 97-98).

**İzah:** Şeytanın vəsvəsələrindən xilas olmaq üçün Allaha sığınmaqdan başqa bir yol yoxdur. Şeytan insanların aşkar düşmənidir və onları doğru yoldan azdırmağa and içmişdir. Bu qatı düşmən həm güclü vasitələrə və orduya, həm görünməmək və s. kimi xüsusi bacarığa malikdir, həm də hamını aldatmaq yollarını mükəmməl bilir. Bütün bunlara nəzərən insanın belə bir düşmənə məğlub olması mütləqdir. Ona bir halda aldanmaya bilər ki, Şeytanın insana təsirinə mane olacaq və onu həlak olmaqdan xilas edəcək bir gücə sığınsın. Bu zaman Şeytanın şərindən Allaha sığınmaq mövzusu açılır. Yuxarıdakı ayə bu məzmuna malik bir duadır.

**Hədis:** İmam Səccad (ə): "İlahi, məni azdıran bir düşməndən, yoldan çıxaran, ürəyimi vəsvəsələrlə dolduran, zəhərli təhrikləri qəlbimi əhatə edən, nəfsani istəklərimə yardım edən Şeytandan Sənə şikayət edirəm" (Biharul-ənvar, c. 94, səh. 143, hədis: 21).

**250**

## Hikmət, bəsirət və yaxşı ad istəmək

رَبِّ هَبْ لِي حُكْمًا وَأَلْحِقْنِي بِالصَّالِحِينَ وَاجْعَلْ لِي لِسَانَ صِدْقٍ فِي الْآخِرِينَ وَاجْعَلْنِي مِنْ وَرَثَةِ جَنَّةِ النَّعِيمِ

Ey Rəbbim! Mənə hikmət ver və məni əməlisalehlərə qovuşdur! Sonra gələnlər arasında (həmişə yad edilim deyə) mənə yaxşı ad qismət elə! Məni nemət dolu bağının varislərindən et! (Şuəra, 83-85).

**İzah:** Yuxarıdakı duada bir neçə mühüm istək görürük: 1. Allahdan hikmət və bəsirət istəmək; 2. Gələcək nəsillər arasında yaxşı ad (Belə bir istək nəinki pis deyil və məzəmmət olunmur, əksinə instinktiv məsələdir və Quran tərəfindən təsdiq olunur); 3. Allahın nemət dolu Cənnətinə daxil olmaq.

**Hədis:** İmam Əli (ə): "Bir nəfər üçün xalqın dilində yaxşı ad yediyi və miras aldığı var-dövlətdən yaxşıdır" (Kafi, c. 2, səh. 154, hədis: 19).

## 251

### Məsləhət və xeyirə ehtiyacını izhar etmək

...رَبِّ إِنِّي لِمَا أَنْزَلْتَ إِلَيَّ مِنْ خَيْرٍ فَقِيرٌ

"Ey Rəbbim! Sənin mənə nazil edəcəyin xeyrə ehtiyacım var!" (Qəsəs, 24).

**İzah:** Bu dua həzrət Musanın (ə) dilindən nəql olunmuşdur. O, bu duanı Firon məmurlarının qorxusundan Mədain şəhərinə gedəndə və son dərəcə ehtiyac və sıxıntı içində olduqda etmişdir. Sözügedən dua qısa olsa da çox ibrətli və zərif məsələləri ehtiva edir: 1. O həzrət öz hacətini dilə gətirməkdən çəkinir. Yalnız ehtiyaclı olduğunu deyir. Bu xoşagələn ədəb qaydasıdır. Belə ki, insan onun xeyrinə olub-olmadığını bilmədiyi müəyyən bir hacəti dilinə gətirmir və yalnız Allahdan öz xeyir və məsləhətini istəyir. 2. Bəndənin Allaha ehtiyacını izhar etməsi. 3. Duanın geniş və əhatəli olmasına diqqət. Yuxarıdakı duanı mümkün olan ən əhatəli dua hesab etmək olar. Çünki bəndənin xeyrinə olan hər şey orada qeyd olunmuşdur. Maraqlı burasıdır ki, həzrət Musa (ə) bu duanı ehtiyac və yoxsulluğun son həddində dilə gətirmiş və Allah dərhal onu ev, həyat yoldaşı və işlə təmin etmiş, ona asayiş və rifah bəxş etmişdir. Beləcə, insanların bir çoxunun ehtiyacı olan üç istək bir dua və Allah dərgahına həqiqi ehtiyacı izhar etməklə həyata keçmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): Allah buyurdu: “Mənim zikrimin hacətindən qafil etdiyi kəsə ehtiyaclılara verdiyim ən üstün şeyi verəcəyəm” (Şərhi-Nəhcül-bəlağə, İbn Əbu əl-Hədid, c. 11, səh. 229).

## 252

## Möminlərə kinin aradan qalxmasını istəmək

رَبَّنَا اغْفِرْ لَنَا وَلِإِخْوَانِنَا الَّذِينَ سَبَقُونَا بِالْإِيمَانِ وَلَا تَجْعَلْ فِي قُلُوبِنَا غِلًّا لِلَّذِينَ آمَنُوا رَبَّنَا إِنَّكَ رَءُوفٌ رَحِيمٌ

"Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla. Bizim qəlbimizdə iman gətirənlərə qarşı nifrət və həsədə yer vermə. Ey Rəbbimiz! Həqiqətən də, Sən Şəfqətlisən, Rəhimlisən!" (Həşr, 10).

**İzah:** Allah-Taala bu ayədə həqiqi möminlərin dilindən bir dua hekayət edir. Onlar özləri və keçmiş möminlər üçün ilahi əfv diləyir, Ondan vücudlarında olan kin-küdurəti və xəyanəti aradan qaldırmasını istəyirlər. Bu dua da bir neçə dua qaydasına işarə edir: 1. Din qardaşları üçün dua etmək və başqalarının doğru yola yönəlməsinə önəm vermək; 2. Qəbahətlərdən və çirkinliklərdən uzaq olmaq üçün Allahdan yardım diləmək; Mömin, qəlbin günahlarından və şeytani vəsvəsələrdən uzaq qalmaq üçün Allah dərgahına üz tutur və O Müqəddəs Zatdan vücudundan günahın köklərini silməsini və onu yaxşı xüsusiyyətlərlə süsləməsini istəyir. 3. Duada Allahın mehribanlıq və mərhəmət sifətlərini qeyd etmək.

**Hədis:** İslam peyğəmbəri (s): "Bir nəfər dua edəndə hamı üçün etsin. Çünki bu dua qəbul olunmağa daha yaxındır. Kim özü üçün dua etməzdən qabaq

qardaşlarından qırx nəfəri üçün dua etsə, o dua həm özü, həm də onlar üçün qəbul olar” (Dəəvat, Ravəndi, səh. 36, hədis: 40).

## 253

### Pak və əməlisaleh nəsil istəmək

رَبِّ هَبْ لِي مِنْ لَدُنْكَ ذُرِّيَّةً طَيِّبَةً ۖ إِنَّكَ سَمِيعُ الدُّعَاءِ

“Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən” (Ali-İmran, 38).

**İzah:** İnsanın xatirəsini yaşadan övlad və nəsil sahibi olmaq yaxşı və xoşagələn işdir. Övlad sahibi olmaq üçün dua etmək də ən üstün hacətlərdəndir. Amma din məktəbində hər şeydən qabaq övladların və nəslin hidayət yolunda və pak olması önəmlidir. Buna görə də möminlər Allahdan övlad və nəsil istəyəndə onun saleh və pak olmasına xüsusi önəm vermişlər. Yuxarıdakı dua həzrət Zəkəriyyə peyğəmbərin (ə) dilindən ömrünün ahıl çağında bəyan olunmuşdur. Onun zövcəsi uzun illər idi ki, sonsuz idi. Amma Allah dərgahından ümidini kəsməyib, Allahdan yaxşı övlad istəyir ki, onun üçün yaxşı yadigar olsun. Bu duadan bir neçə incə məqam aydınlaşır: 1. Bir məsələnin öz fikrincə qeyri-mümkün olmasına görə duadan çəkinmək olmaz. Qüdrət və hikmət sahibi olan Allah qeyri-mümkünü mümkün etməyə qadirdir. Allahı hacətinə uyğun sifətləri ilə səsləyib, mərhəmət və mehribanlığını cəlb etmək lazımdır.

**Hədis:** İslam peyğəmbəri (s): “Allahı cavab verəcəyinə əmin halda çağırın” (Uddətud-dai, səh. 144).

## 254

### Həyat yoldaşı və övladların hidayətini istəmək

رَبَّنَا هَبْ لَنَا مِنْ أَزْوَاجِنَا وَذُرِّيَّاتِنَا قُرَّةَ أَعْيُنٍ وَاجْعَلْنَا لِلْمُتَّقِينَ إِمَامًا

"Ey Rəbbimiz! Bizə gözümüzün aydınlığı olan zövcələr və övladlar bəxş et və bizi müttəqilərə imam et!" (Furqan, 74).

**İzah:** Müsəlmanın vəzifələrindən biri öz ailəsini doğru yola yönəltməkdir. Buna görə də möminlər daim özlərinin, həyat yoldaşlarının və övladlarının doğru yola yönəlməsini və hidayət olunmasını Allahdan istəmişlər. Bu mühüm hacətə peyğəmbərlərin (ə) duasında çox rast gəlirik. Nümunə üçün "Bəqərə" surəsinin 128, "Ali-İmran" surəsinin 38, "İbrahim" surəsinin 38-40 və "Əhqaf" surəsinin 15-ci ayələrini göstərmək olar. Bu ayədə bəyan olunan ikinci hacət möminlərin və pəhrizkarların rəhbərliyidir. Bu istək möminlərin yüksək ruhundan və əhvali-ruhiyyəsindən xəbər verir. Belə ki, onlar imanın aşağı mərhələləri ilə kifayətlənmir, Allahdan onları xüsusi övliyaları cərgəsinə qoşmasını və başqalarına dini örnək etməsini istəyirlər. Bu ayələrdə dua qaydalarından iki nümunə qeyd olunmuşdur: 1. Başqaları, xüsusilə yaxınlar və ailə üçün dua etmək; 2. Yüksək əhvali-ruhiyyə ilə dua etmək və ən üstün hacətləri istəmək.

**Hədis:** İslam peyğəmbəri (s): "Dörd nəfərin duası rədd olunmur: Ədalətli rəhbər, atanın övladı üçün etdiyi dua, insanın qardaşı yanında olmadıqda onun üçün etdiyi dua və məzlumun duası" (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 355, hədis: 5762).

## 255

### Cəhənnəm əzabından uzaq olmağı istəmək

رَبَّنَا اصْرِفْ عَنَّا عَذَابَ جَهَنَّمَ إِنَّ عَذَابَهَا كَانَ غَرَامًا إِنَّهَا سَاءَتْ مُسْتَقَرًّا وَمُقَامًا

Onlar deyərlər: "Ey Rəbbimiz! Cəhənnəm əzabını bizdən uzaq elə. Doğrusu, onun əzabı həmişəlikdir. Həqiqətən, o, nə pis məskən, necə də pis iqamətgahdır!" (Furqan, 65-66).

**İzah:** Bu dua Rəhmanın bəndələrinin daimi istəyidir. Onlar daim Allahdan istəyirlər ki, onları Cəhənnəm əzabından uzaq tutsun. Bu duadan öyrənirik ki, bizim ən böyük istəyimiz Cəhənnəm əzabından uzaq qalmaq olmalıdır.

**Hədis:** İmam Səccad (ə): – Xaifin minacatında –: "İlahi, mənə şiddətli qəzəbindən pənah ver. Ey Mehriban, ey Bağışlayan, ... Səni mərhəmətinə and verirəm, məni Cəhənnəm əzabından və (Qiyamətin) rüsvayçılığından xilas et!" (Biharul-ənvar, c. 94, səh. 144, hədis: 21).

## 256

## Əyyubun (ə) problemlə üzləşdikdə etdiyi dua

وَأَيُّوبَ إِذْ نَادَىٰ رَبَّهُ أَنِّي مَسَّنِيَ الضُّرُّ وَأَنْتَ أَرْحَمُ الرَّاحِمِينَ فَاسْتَجَبْنَا لَهُ فَكَشَفْنَا مَا بِهِ مِنْ ضُرٍّ وَآتَيْنَاهُ أَهْلَهُ وَمِثْلَهُمْ مَعَهُمْ رَحْمَةً مِنْ عِنْدِنَا وَذِكْرَىٰ لِلْعَابِدِينَ

Əyyubu da (yada sal!) Bir zaman o, Rəbbinə yalvarıb demişdi: "Mənə, həqiqətən də, bəla gəlibdir. Sən rəhimlilərin ən rəhimlisisən!" Biz onun duasını qəbul etdik və ona gəlmiş bəlanı aradan qaldırdıq. Öz tərəfimizdən bir mərhəmət və ibadət edənlərə bir ibrət olsun deyə, ailəsini ona qaytardıq, üstəlik bir o qədər də əlavə etdik (Ənbiya, 83-84).

**İzah:** Həzrət Əyyub (ə) Allahın müxtəlif bəlalarla sınağa çəkdiyi peyğəmbərlərdəndir. Amma o, səbir etdi və dilinə şikayət, dözümsüzlük iyi verən heç bir söz gətirmədi. O, möminlər üçün səbir örnəyidir. Allahın bu xalis bəndəsinin duası başdan-başa Allah qarşısında ədəb və təvazödür. Birincisi, o, müsibətləri Allaha isnad etmədi və: "Mənə bəla gəlmişdir" – dedi ki, Allahın Müqəddəs şənini özünə zülmdən pak sansın. İkincisi, öz hacətini ifadə etməkdən də çəkindi və yalnız Allahı rəhmət sifəti ilə səslədi. Çünki Allahın onun hacətini bilməsinə inanırdı.

**Hədis:** İslam peyğəmbəri (s) "Ya Ərhəmər-rahimin" – deyən bir kişini gördü. Ona buyurdu: "Allahdan hacətini

istə. Çünki O, sənə nəzər salmışdır” (Biharul-ənvar, c. 9, səh. 234, hədis: 7).

**257**

## Həzrət Yunusun (ə) duası

...لَا إِلٰهَ إِلَّا أَنْتَ سُبْحَانَكَ إِنِّي كُنْتُ مِنَ الظَّالِمِينَ

"Səndən başqa heç bir ilah yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!" (Ənbiya, 87).

**İzah:** Yuxarıdakı dua həzrət Yunusdan (ə) nəql olunmuşdur. O, ən çətin şəraitdə Allahdan problemlərin aradan qalxmasını və kədərinin dağılmasını istədi. Allah da onun duasını qəbul etdi və onu bu bəlalardan xilas etdi. Bu duanın din böyükləri və ariflər arasında özünəməxsus yeri var və onu "Zikri-Yunisiyyə" adlandırırlar. İslam peyğəmbərindən (s) nəql olunan bir rəvayətdə bu zikr Allahın "İsmi-əzəm"i adlandırılmışdır. Duanın əvvəlində Allahın ilahlığını etiraf etmək və Onun pak və müqəddəs olduğunu dilə gətirmək, həmçinin, keçmiş günahlarını iqrar etmək bu duada müşahidə etdiyimiz iki dua qaydasıdır.

**Hədis:** İmam Sadiq (ə): "Kədərli olan, amma bu duanı – La ilahə illa əntə subhanəkə inni kuntu minəz-zalimin – oxumayana təəccüb edirəm" (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 393, hədis: 5835).

**Üçüncü fəsil**

**Günahlar və əxlaqi qəbahətlər**

Aşağıdakı mövzuları ehtiva edir:

1. Dünyapərəstlik
2. Yalan
3. Qeybət
4. Başqalarını məsxərə və təhqir etmək
5. Çirkin və təhqiramiz ləqəblər işlətmək
6. İftira
7. Fəsad törətmək (pozğunluğu yaymaq)
8. Bədgümanlıq və (eyib, sirr) axtarmaq
9. Xəyanət
10. Xəsislik
11. Təkəbbür və xudbinlik
12. Ucb və xudpəsəndlik
13. Həsəd
14. Yetimi incitmək
15. İsraf
16. Qohumlarla əlaqəni kəsmək
17. Məkr və hiylə

**258**

## 1. Dünyapərəstlik

زُيِّنَ لِلنَّاسِ حُبُّ الشَّهَوَاتِ مِنَ النِّسَاءِ وَالْبَنِينَ وَالْقَنَاطِيرِ الْمُقَنْطَرَةِ مِنَ الذَّهَبِ وَالْفِضَّةِ
وَالْخَيْلِ الْمُسَوَّمَةِ وَالْأَنْعَامِ وَالْحَرْثِ ذَٰلِكَ مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَاللَّهُ عِنْدَهُ حُسْنُ الْمَآبِ

Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. (Lakin bütün) bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır (Ali-İmran, 14).

**İzah:** Bir çox ayə və rəvayətlərdən bəlli olduğu kimi, insanın ən başlıca mənəvi çöküş amili dünyapərəstlikdir. Şeytan və Əmmarə nəfs dünya sevgisini insan vücudunda süsləyir və onu Axirət nemətlərindən qafil edir. Allah dəfələrlə bəndələrini keçici dünya həzlərinə bağlanmaqdan çəkindirmiş və onları Şeytanın hiyləsindən xəbərdar etmişdir. Quran dünyanı keçici və dəyərsiz hesab etmiş, onun dəbdəbəsini görüb məst və qafil olanları şiddətlə qınamışdır.

**Hədis:** İmam Sadiq (ə): "Dünya sevgisi hər bir yanlışın mənşəyidir" (Kafi, c. 2, səh. 315, hədis: 1).

259

## Dünyanın aldadıcı təzahürləri

اعْلَمُوا أَنَّمَا الْحَيَاةُ الدُّنْيَا لَعِبٌ وَلَهْوٌ وَزِينَةٌ وَتَفَاخُرٌ بَيْنَكُمْ وَتَكَاثُرٌ فِي الْأَمْوَالِ وَالْأَوْلَادِ كَمَثَلِ غَيْثٍ أَعْجَبَ الْكُفَّارَ نَبَاتُهُ ثُمَّ يَهِيجُ فَتَرَاهُ مُصْفَرًّا ثُمَّ يَكُونُ حُطَامًا وَفِي الْآخِرَةِ عَذَابٌ شَدِيدٌ وَمَغْفِرَةٌ مِنَ اللَّهِ وَرِضْوَانٌ وَمَا الْحَيَاةُ الدُّنْيَا إِلَّا مَتَاعُ الْغُرُورِ

Bilin ki, dünya həyatı oyun və əyləncə, bəzək-düzək, bir-birinizin yanında öyünmək, var-dövləti və oğul-uşağı çoxaltmaq istəyindən ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, ondan əmələ gələn bitki əkinçiləri heyran edir. Sonra o quruyur və sən onun sapsarı olduğunu görürsən. Sonra isə o çör-çöpə dönür. (Kimisini) axirətdə şiddətli əzab, (kimisini də) Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı isə aldadıcı ləzzətdən başqa bir şey deyildir (Hədid, 20).

**İzah:** Dünyanı məzəmmət etməyin ən ifadəli yollarından biri Allahın dünyanın müvəqqəti olması üçün göstərdiyi misallardır. Bu ayədə həmin misallardan biri qeyd olunmuşdur. Bəzi təfsirçilər yuxarıdakı ayəni həyatın müxtəlif mərhələlərinə bölmüş və bildirmişlər ki, uşaqlıqda dünyanın təzahürü oyun, yeniyetməlikdə boş məşğuliyyətlər, gənclikdə gözəllik və özünü göstərmək, orta yaşda mal və vəzifə ilə fəxr etmək, qocalıqda isə övlad və nəvələrin çoxluğudur.

**Hədis:** İmam Əli (ə): "Dünya dəbdəbəsindən uzaq olmaq ağlın meyvəsidir" (Qürərul-hikəm, c. 4, səh. 88, hədis: 4879).

## 260

## Çoxluğa hərislik və dünyapərəstliyin məzəmməti

بِسْمِ اللَّـهِ الرَّحْمَـٰنِ الرَّحِيمِ أَلْهَاكُمُ التَّكَاثُرُ حَتَّىٰ زُرْتُمُ الْمَقَابِرَ كَلَّا سَوْفَ تَعْلَمُونَ ثُمَّ كَلَّا سَوْفَ تَعْلَمُونَ كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ لَتَرَوُنَّ الْجَحِيمَ ثُمَّ لَتَرَوُنَّهَا عَيْنَ الْيَقِينِ ثُمَّ لَتُسْأَلُنَّ يَوْمَئِذٍ عَنِ النَّعِيمِ

Bir-birinizin yanında öyünmək başınızı o qədər qatdı ki, qəbirləri ziyarət etdiniz (ölülərinizin sayı ilə öyündünüz). Yox-yox! Siz (aqibətinizi) hökmən biləcəksiniz! Bir də yox! Siz (aqibətinizi) tezliklə biləcəksiniz! Xeyr! Kaş ki, yəqin biləydiniz. Siz Cəhənnəmi mütləq görəcəksiniz! Onu həqiqətən öz gözünüzlə mütləq görəcəksiniz! Sonra, o gün nemətlər barəsində hökmən sorğu-suala tutulacaqsınız (Təkasur surəsi).

**İzah:** Var-dövlət, övlad, maşın, ictimai nüfuz, vəzifə və s. kimi dünya təzahürləri ilə fəxr etmək dünyapərəstlik əlamətlərindəndir.

**Hədis:** İslam peyğəmbəri (s): "Dünya və onda olan hər şey məlundur. Yalnız Allahın razılığına vasitə olan şeylər istisnadır" (Əmali, Tusi, səh. 531, hədis: 1162).

## 261

## Guşənişinliyin və tərki-dünyalığın məzəmməti

قُلْ مَنْ حَرَّمَ زِينَةَ اللَّهِ الَّتِي أَخْرَجَ لِعِبَادِهِ وَالطَّيِّبَاتِ مِنَ الرِّزْقِ قُلْ هِيَ لِلَّذِينَ آمَنُوا فِي الْحَيَاةِ الدُّنْيَا خَالِصَةً يَوْمَ الْقِيَامَةِ كَذَلِكَ نُفَصِّلُ الْآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ

De: "Allahın Öz qulları üçün üzə çıxartdığı zinəti və təmiz ruziləri kim haram etmişdir?" De: "Bunlar dünya həyatında (hamıya), Qiyamət günü isə yalnız möminlərə məxsusdur". Biz dərk edən adamlar üçün ayələri belə izah edirik (Əraf, 32).

**İzah:** Məlumdur ki, Quran məntiqinə görə, dünya həzlərindən – onlara bağlanmadan – mübah istifadə pis hal deyil. Əksinə, zöhd bəhanəsilə guşənişinlik və tərki-dünyalıq etmək kəskin məzəmmət olunmuşdur. Zöhd, tərki-dünya olmaq və Allahın nemətlərindən faydalanmamaq demək deyil. Zöhd, dünyaya könül verməmək, bağlanmamaq deməkdir. Belə ki, dünya rifahı və asayişi insana Allahı unutdurmasın. Yuxarıdakı ayə dünya və onun həzlərinin kafirlər üçün olması haqqında yanlış inancı rədd edir və bildirir ki, mübah dünya həzləri möminlər üçün yaradılmışdır və kafirlər də möminlərə qoşulub ondan faydalanırlar.

**Hədis:** İmam Əli (ə): "Pəhrizkarlar dünyada dünya əhli ilə müştərəkdir. Amma dünya əhli Axirətdə onlara şərik deyildir" (Nəhcül-bəlağə, məktub: 27).

## 262

## 2. Yalan

إِنَّمَا يَفْتَرِي الْكَذِبَ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِآيَاتِ اللّهِ وَأُولَٰئِكَ هُمُ الْكَاذِبُونَ

Yalanı ancaq Allahın ayələrinə inanmayanlar uydururlar. Məhz onlardır yalançılar (Nəhl, 105).

**İzah:** Yalan bir çox əxlaqi qəbahətlərin kökü və günahların açarıdır. Bu pislənmiş əməlin şiddəti və böyüklüyü haqqında rəvayətlərdə onun möminin etmədiyi yeganə günah kimi göstərilməsi kifayətdir (İxtisas, səh. 231). Buna səbəb odur ki, yalan ikiüzlülükdən, qorxudan, mənfəətpərəstlikdən, ilahi ədalət və elmə inamsızlıqdan mənşə alır. Onu etməklə bir fərdin dini inanclarının gövdəsi bütünlüklə sarsılır. Yalanın məşum nəticələri kimi ümumi etibarın itirilməsini, ikiüzlülük yaranmasını və dini inancların zəifləməsini göstərmək olar. Məhz bu səbəbdən dini mətnlərdə zarafatla yalan danışmaq da qadağan edilmişdir. Hərçənd ki, bəzi hallarda – rəvayətlərdə bəyan olunan – bəzi məsləhətlərə görə yalan icazəli, müstəhəb və vacibə ayrılmışdır. Bunu da qeyd etmək lazımdır ki, yuxarıdakı ayədə yalanın bariz nümunələrindən biri (Allaha yalan isnad etmək və iftira atmaq) qeyd olunmuşdur.

**Hədis:** İmam Əli (ə): "Bəndə yalanı – istər ciddi, istərsə də zarafatyana – tərk etmədən imanı dada bilməz" (Kafi, c. 2, səh. 34, hədis: 11).

**263**

## 3. Qeybət

وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا أَيُحِبُّ أَحَدُكُمْ أَنْ يَأْكُلَ لَحْمَ أَخِيهِ مَيْتًا فَكَرِهْتُمُوهُ وَاتَّقُوا اللَّهَ إِنَّ اللَّهَ تَوَّابٌ رَحِيمٌ

Bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhimlidir (Hucurat, 12).

**İzah:** İslam dini möminlərin abrına çox önəm vermiş və heç kimə başqalarının heysiyyət və abrını təhlükəyə atmağa icazə verməmişdir. Buna görə də İslam dini başqaları olmadıqda onların haqqında pis danışmağa və qeybət etməyə icazə vermir. Bir halda ki insan hüquqlarını qoruyan ən mütərəqqi cəmiyyətlər hələ də belə böyük bir haqqı anlamamışlar. Qurana görə qeybət ölmüş qardaşının ətini yemək kimidir. Bu təşbeh hər bir insanın abrının onun bədəninin əti kimi olmasını ifadə edir. Din qardaşının abrına təcavüz etmək onun bədəninin ətini yemək və nəticədə onu sıradan çıxarmaq kimidir. Xüsusilə, bu təcavüz o özü olmadıqda olsa, özünü müdafiə imkanı da olmur. "Ölü əti" ifadəsi də bu baxımdan vurğulanmışdır. Odur ki, ən pis əməl insan əti yemək olduğu kimi qeybət də çirkin və nifrət oyadan əməldir.

**Hədis:** İmam Səccad (ə): "Qeybətdən çəkin. Çünki qeybət Cəhənnəm itlərinin xuruşudur" (Əmali, Səduq, səh. 209, hədis: 9).

**264**

## 4. Başqalarını məsxərə və təhqir etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ عَسَىٰ أَنْ يَكُونُوا خَيْرًا مِنْهُمْ وَلَا نِسَاءٌ مِنْ نِسَاءٍ عَسَىٰ أَنْ يَكُنَّ خَيْرًا مِنْهُنَّ وَلَا تَلْمِزُوا أَنْفُسَكُمْ ...

Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları (lağa qoymasınlar). Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Bir-birinizə tənə vurmayın ... (Hucurat, 11).

**İzah:** Ən bəyənilməyən əxlaqi xüsusiyyətlərdən biri başqalarını məsxərəyə qoymaq və istehza etməkdir. Bunun kökü təkəbbür və özünü üstün görməkdir. Yuxarıdakı ayədə başqalarını istehza etməyin qadağan olma səbəbinə işarə olunmuşdur. Ola bilər ki, məsxərəyə qoyulan Allah yanında məsxərə edəndən daha üstün olsun. Quran məsxərə etməyi cahillərin xüsusiyyəti adlandırır. Çünki insanların fəzilət və mərtəbəsini təqva ilə ölçməyən, xəyali dünya imtiyazları ilə könlünü xoş tutan, özündən zəif insanları məsxərəyə qoyan yalnız cahil ola bilər. Maraqlı burasıdır ki, bu ayədə qeyd olunan nümunə bir qrup möminin digər qövmləri məsxərəyə qoymasıdır. Bu, bir tərəfdən bu növ məsxərənin – hələ keçmişdən – daha çox yayğın olduğunu göstərir, digər tərəfdən isə onun fərdi məsxərəyə nisbətdə daha çox fəsadlar törətməsinə işarə edir.

**Hədis:** İslam peyğəmbəri (s): “Kim bir mömini xar etsə, Allah onu zəlil edər” (Əmali, Tusi, səh. 172, hədis: 306).

## 265

### 5. Çirkin və təhqiramiz ləqəblər işlətmək

وَلَا تَنَابَزُوا بِالْأَلْقَابِ بِئْسَ الِاسْمُ الْفُسُوقُ بَعْدَ الْإِيمَانِ وَمَنْ لَمْ يَتُبْ فَأُولَٰئِكَ هُمُ الظَّالِمُونَ

Bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fəsadçı adlanmaq necə də pisdir. Məhz (bu çirkin işlərdən) tövbə etməyənlər zalımlardır (Hucurat, 11).

**İzah:** Ötən ayənin sonunda məsxərə ilə eyni kökdən gələn başqa bir günaha, insanları xoşagəlməz ləqəblərlə çağırmağa işarə etmişdi. Təəssüflər olsun ki, bu çirkin xüsusiyyət bəzi müsəlmanlar arasında geniş yayılmışdır. Belə ki, onlar bir-birlərinə xoşagəlməz sifətlər və ləqəblər qoyur, bəzən zarafatla və ya başqalarının gülməsi üçün onları o sifət və adla çağırırlar. Belə insanlar əqli və dini meyarları bir kənara qoyur, müxtəlif rişxənd və təlxəkliklə bəzən digər xalqların şivəsini məsxərəyə qoyur, bəzən bir şəhərin və ya bir bölgənin insanlarını çirkin və nalayiq ləqəblərlə təhqir edirlər. Quran belə bir əməli zülmün bariz nümunəsi adlandırır.

**Hədis:** İslam peyğəmbəri (s): "Üç şey insanın mömin qardaşı ilə dostluğunda səmimiyyət yaradır: 1. Ona daim xoş üz göstərmək; 2. Onunla bir məclisdə oturduqda ona yer vermək; 3. Onu daha çox sevdiyi adla çağırmaq" (Kafi, c. 2, səh. 643, hədis: 3).

## 266

## 6. İftira

وَمَنْ يَكْسِبْ خَطِيئَةً أَوْ إِثْمًا ثُمَّ يَرْمِ بِهِ بَرِيئًا فَقَدِ احْتَمَلَ بُهْتَانًا وَإِثْمًا مُبِينًا

Kim xəta edər və ya günah qazanarsa, sonra da onu təqsiri olmayanın boynuna atarsa, öz boynuna böhtan götürmüş və açıq aydın günaha batmış olar (Nisa, 112).

**İzah:** İftira başqalarının heysiyyətini ləkələməyin aydın nümunələrindən biridir və böyük günahlardandır. Çünki özündə yalan və s. kimi günahlara da yer verir. Bu günah tarix boyu düşmənlərin saleh insanlarla mübarizə metodu olmuşdur. Tək bu özü bu əməlin çirkin və xoşagəlməz olması üçün kifayətdir. Cəhalət, həsəd, zəiflik və acizlik iftira amillərindəndir. Ayə və rəvayətlərə görə, Allah iftira atanlar üçün dünya və axirətdə çox ağır cəza nəzərdə tutmuşdur. Bu əxlaqi qəbahətin məşum nəticələri çoxdur. O cümlədən imanın zəifləməsini, xoş münasibətlərin pozulmasını, dünyada xar və rüsvay olmağı və yandırıcı Cəhənnəm odunu göstərmək olar. Bu səbəbdən də Allah möminlərə əmr etmişdir ki, mömin qardaşlarının işini doğruya yozsunlar, pis gümana düşməkdən və (onun eyiblərini) axtarmaqdan çəkinsinlər.

**Hədis:** İmam Sadiq (ə): "Günahsızlara iftira atmaq (günahının böyüklüyü) uca dağlardan daha ağırdır" (Xisal, səh. 348, hədis: 21).

## 267

### 7. Fəsad törətmək (pozğunluğu yaymaq)

إِنَّ الَّذِينَ يُحِبُّونَ أَنْ تَشِيعَ الْفَاحِشَةُ فِي الَّذِينَ آمَنُوا لَهُمْ عَذَابٌ أَلِيمٌ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَاللَّهُ يَعْلَمُ وَأَنْتُمْ لَا تَعْلَمُونَ

Möminlər arasında iyrənc işlərin yayılmasını istəyənlər üçün dünyada və axirətdə acılı-ağrılı bir əzab vardır. Allah (onları) tanıyır, siz isə tanımırsınız (Nur, 19).

**İzah:** "Fəhşa"nın yayılması bu gün – kütləvi informasiya vasitələrinin inkişaf etməsi ilə – təəssüf ki, daha çox rast gəlinən günahlardandır. "Fəhşa" dedikdə hər növ aşkar və böyük günah nəzərdə tutulur. Başqalarının sirlərini və gizli eyiblərini ifşa etmək nəinki onların şəxsi toxunulmazlıq hüququnu pozmaq, hətta günaha ümumi (ictimai) yön verməkdir. Yəni cəmiyyətdə bədbinliyi yayır, bir çox günahların qəbahətini aradan qaldırır və cəmiyyəti əxlaqi təhlükə və həyasızlıqla üz-üzə qoyur. Əslində "Fəhşa"nı yaymaq qeyri-müstəqim olaraq əxlaq normalarını hədəfə alır. Buna görə də Allah-Taala tək fəsadı yayanları yox, hətta bu məşum əməli sevənləri də dünya və Axirətdə üzücü əzaba düçar edəcəkdir. Qeyd edək ki, informasiya və mətbuat azadlığı, cəmiyyəti məsul şəxslərin məsuliyyəti ilə bağlı məlumatlandırmaq və s. kimi bəhanələr bu günahı işləməyə dəlil ola bilməz.

**Hədis:** İslam peyğəmbəri (s): "Pis bir əməli yayan onu ilk dəfə görən kimidir" (Kafi, c. 2, səh. 356, hədis: 2).

268

## 8. Bədgümanlıq və eyib axtarmaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيرًا مِنَ الظَّنِّ إِنَّ بَعْضَ الظَّنِّ إِثْمٌ وَلَا تَجَسَّسُوا

Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. (İnsanların gizli qalmasını istədikləri məsələləri) arayıb axtarmayın (Hucurat, 12).

**İzah:** İslam fərdlərin heysiyyətini və ictimai nüfuzunu qorumaq üçün bir sıra əxlaqi və hüquqi qayda-qanunlar nəzərdə tutmuşdur. Bu mütərəqqi qanunlardan biri möminlərə bir-birinə bədgüman olmağı və onların şəxsi işlərini arayıb axtarmağı qadağan etməsidir. Bu iki çirkin əməli başqa bir çox günahlardan fərqləndirən bu əməlin pisliyinə diqqətsizlik və bəzi möminlərin onu etmək üçün bəhanələr uydurmasıdır. Bu amillər təəssüf ki, bu iki günahın çağdaş cəmiyyətdə daha çox yayılmasına səbəb olmuşdur. Buna görə də bədgümanlığın fəsadları daha çox izah olunmalıdır ki, cəmiyyət onun etimadsızlıq və təfriqə kimi məşum nəticələrindən amanda qalsın. Əlbəttə, nəzərə almaq lazımdır ki, daha önəmli məsləhətlər qarşıya çıxdıqda – məsələn, həyat yoldaşı seçmək, məsul işçi seçmək, cəmiyyətin təhlükəsizliyini qorumaq və s. – düzgün araşdırmaqla tərəf müqabilinin ədalət və paklığı aydınlaşdırılmalıdır. Bu kimi hallarda yalnız xoş gümanla qərar vermək olmaz.

**Hədis:** İmam Əli (ə): “(İman) qardaşının işini ən yaxşı hala yoz” (Kafi, c. 2, səh. 362, hədis: 3).

## 269

## 9. Xəyanət

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَخُونُوا اللَّهَ وَالرَّسُولَ وَتَخُونُوا أَمَانَاتِكُمْ وَأَنْتُمْ تَعْلَمُونَ

Ey iman gətirənlər! Allaha və elçisinə xəyanət etməyin və bilə-bilə aranızdakı əmanətlərə də xəyanət etməyin (Ənfal, 27).

**İzah:** Əmanətə xəyanət ən rəzil böyük günahlardandır ki, geniş və əhatəli məna ifadə edir. Quran məktəbində əmanətin mənasına nəzərən anlayırıq ki, bütün maddi və mənəvi nemətlər, ilahi hökmlər və qanunlar hamısı insanın əlində əmanətdir. Ondan yersiz istifadə əmanətə xəyanət sayılır. Əmanətə ən mühüm xəyanət amili dünyapərəstlik, hərislik və tamahdır ki, insanın imanını zəiflədir, onu Rəbbin ona əhatəsindən qafil edir. Cəmiyyətdə (bu növ) xəyanətin yayılması ictimai təqvasızlığa, ictimai etimadın itirilməsinə, rüsvayçılığa və ictimai münasibətlərin sarsılmasına gətirib çıxarır.

**Hədis:** İslam peyğəmbəri (s): “Əmanətə önəm verməyən və bununla da ona tapşırılan əmanəti tələf edən bizdən deyil” (İxtisas, səh. 248).

## 270

## 10. Xəsislik

وَلَا يَحْسَبَنَّ الَّذِينَ يَبْخَلُونَ بِمَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ هُوَ خَيْرًا لَهُمْ بَلْ هُوَ شَرٌّ لَهُمْ سَيُطَوَّقُونَ مَا بَخِلُوا بِهِ يَوْمَ الْقِيَامَةِ وَلِلَّهِ مِيرَاثُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

Allahın Öz lütfündən bəxş etdiyini xərcləməyə xəsislik edənlər elə güman etməsinlər ki, bu, onların xeyrinədir. Əksinə, bu, onlar üçün pisdir. Onların xəsislik etdikləri şey Qiyamət günü boyunlarına dolanacaqdır. Göylərin və yerin mirası Allaha məxsusdur. Allah nə etdiyinizdən xəbərdardır (Ali-İmran, 180).

**İzah:** İslam səxavətli olmağı və (Allah yolunda) yoxsullara xərcləməyi ilahi bir fəzilət olaraq təkid etdiyi kimi xəsislik və simicliyi də yasaqlamışdır. İnsanda xəsisliyin yaranmasına səbəb olan ən mühüm amil dünya malına aldanmaq, çox həris və tamahkar olmaqdır. Sözügedən ayədə də bu amilə işarə olunmuş və bildirilmişdir ki, xəsis insanlar onların xəsisliyinin var-dövlətlərinin artmasına səbəb olacağını güman etməsinlər. Əksinə, xəsislik dünya və Axirətdə onların ziyanına tamamlanacaq. Qeyd edək ki, Quran xəsislik anlayışı üçün "شح" (şuhhə) – dargözlük kimi başqa ifadələrdən də istifadə etmişdir.

**Hədis:** İmam Əli (ə): "Xəsis insana təəccüb edirəm ki, dünyada yoxsullar kimi yaşayır, axirətdə isə zənginlər kimi sorğulanacaq" (Nəhcül-bəlağə, qısa kəlamlar: 126).

**271**

**11.** Təkəbbür

إِنَّ الَّذِينَ يُجَادِلُونَ فِي آيَاتِ اللَّهِ بِغَيْرِ سُلْطَانٍ أَتَاهُمْ إِنْ فِي صُدُورِهِمْ إِلَّا كِبْرٌ مَا هُمْ بِبَالِغِيهِ فَاسْتَعِذْ بِاللَّهِ إِنَّهُ هُوَ السَّمِيعُ الْبَصِيرُ

Həqiqətən, özlərinə bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlərin ürəklərində böyüklük iddiasından başqa bir şey yoxdur. Onlar heç vaxt buna çatmayacaqlar. Sən Allaha sığın! Həqiqətən, O, Eşidəndir, Görəndir (Ğafir, 56).

**İzah:** Sözügedən ayəyə diqqət etdikdə aydın olur ki, Haqq qarşısında inadın və Allaha asi olmağın əsas səbəbi kafirlərin qəlbində təkəbbürün olmasıdır. Onun bariz nümunəsi İblisdir ki, özünü yüksəkdə gördüyü üçün Allah dərgahından qovuldu (Bəqərə, 34). Firon da məhz bu səbəbdən özünü Misirin tanrısı elan etdi (Qəsəs, 4). "Əraf" surəsinin 75-ci ayəsində Allah haqq və batil cəbhələrini özünü üstün görənlər və müstəzəflər olaraq yad edir ki, kafirlərin yolunu azmasının əsas səbəbini aydınlaşdırsın (Əraf, 75). Quran hətta ən kiçik təkəbbür nümunələrini də kəskin qadağan etmişdir. Dəfələrlə yer üzündə təkəbbürlə addımlayanları pisləmişdir. Qeyd edək ki, təkəbbürün müxtəlif mərtəbələri var. Ailə kimi ən kiçik ictimai birlikdən ən yuxarı dünyəvi məqamlara qədər gedib çıxır.

**Hədis:** İmam Əli (ə): "Təkəbbürdən çəkinin. Çünki o, Rəhman Allaha asi olmağın başlanğıcıdır" (Qürərul-hikəm, c. 2, səh. 279, hədis: 2609).

**272**

## 12. Ucb və xudpəsəndlik

أَلَمْ تَرَ إِلَى الَّذِينَ يُزَكُّونَ أَنْفُسَهُمْ بَلِ اللَّهُ يُزَكِّي مَنْ يَشَاءُ وَلَا يُظْلَمُونَ فَتِيلًا

Özlərini öyənləri görmürsənmi? Xeyr! Allah istədiyini tərifləyər və onlara xurma çərdəyindəki tel qədər haqsızlıq edilməz (Nisa, 49).

**İzah:** Ucb və xudpəsəndlik bir çox möminlərin yaxasına yapışan bəladır. Onun nəfsdə kökünü qurudmaq üçün çox mübarizə aparmağa və çalışmağa ehtiyac vardır. Ucb odur ki, insan günahlarını kiçik, itaət və ibadətlərini böyük sansın. Buna görə də bir çox möminlər buna mübtəla deyillər. Çünki özlərini güahkar hesab edirlər. Amma nəzərə çarpacaq dərəcədə ibadət və itaət edənlər onun əsiri olurlar. Xudpəsəndliyin nişanəsi odur ki, insan başqalarının mədh və tərifindən razı qalır, onların özü haqqındakı sözünə inanır. Belə bir insan axmaqlıq və nadanlıq sərhədini aşmışdır. Çünki özü yanlış olduğunu bildiyi bir sözə inanmışdır.

**Hədis:** İmam Əli (ə): “Xudpəsəndlik bütün axmaqlıqların əsasıdır” (Qürərul-hikəm, c. 1, səh. 95, hədis: 348).

## 273

## 13. Həsəd

أَمْ يَحْسُدُونَ النَّاسَ عَلَىٰ مَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ فَقَدْ آتَيْنَا آلَ إِبْرَاهِيمَ الْكِتَابَ وَالْحِكْمَةَ وَآتَيْنَاهُمْ مُلْكًا عَظِيمًا

Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onlara həsəd aparırlar? Biz İbrahimin nəslinə də ktab və hikmət bəxş etmiş və onlara böyük bir səltənət verdik (Nisa, 54).

**İzah:** "حسد" (həsəd) sözü Quranda yalnız beş dəfə işlənsə də onun məfhumu Quranın bir çox ayələrində – xüsusilə "بغى" (bəğy) sözünün bəzi formalarında – təkrarlanmışdır. Qurana görə bir çox günahların kökündə həsəd dayanır. Necə ki, bu ayədə də həsəd kitab əhlinin Peyğəmbərlə (s) düşmən olmasının səbəbi kimi göstərilmişdir. İblisin Adəmə (ə) və Qabilin öz qardaşına həsəd aparması bu günahın insanların yolunu azmasında oynadığı rolu göstərən digər nümunələrdir. "Fələq" surəsinin son ayəsindən anlaşıldığına görə paxıl insan o qədər şər və pislik mənşəyidir ki, ondan xilas olmağın yeganə yolu Allaha sığınmaqdır. Düşmənçilik, kin-küdurət, daxili həqarət və imanın zəifliyi paxıllığın meydana gəlməsinin ən mühüm səbəbləridir. Qeyd edək ki, həsəd – başqasına verilən nemətin tələf olmasını arzu etmək – və qibtə – başqalarına verilən nemətlərin tələf olmasını istəmədən özünə də o nemətlərdən arzulamaq – arasında fərq var. Mənəvi məsələlərdə qibtə etmək xoşagələn haldır.

**Hədis:** İmam Baqir (ə): "Od çırpını yediyi kimi həsəd də imanı yeyir" (Kafi, c. 2, səh. 306, hədis: 1).

## 274

### 14. Yetimi incitmək

وَآتُوا الْيَتَامَىٰ أَمْوَالَهُمْ وَلَا تَتَبَدَّلُوا الْخَبِيثَ بِالطَّيِّبِ وَلَا تَأْكُلُوا أَمْوَالَهُمْ إِلَىٰ أَمْوَالِكُمْ إِنَّهُ كَانَ حُوبًا كَبِيرًا

Yetimlərin mallarını (yetkinləşdikdən sonra) özlərinə verin və pisi yaxşı ilə dəyişməyin. Onların mallarını öz mallarınızla birlikdə yeməyin. Şübhəsiz ki, bu, böyük günahdır (Nisa, 2).

**İzah:** Yetimlərə sevgi göstərmək ən üstün əxlaqi fəzilətlərdən, onlara zülm etmək ən rəzil əxlaqi qəbahətlərdən hesab olunur. Yetimi incitməyin cəzası çox ağırdır. Allah-Taala Quranda buyurur: “Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlər öz qarınlarına ancaq od doldururlar və onlar yandırıb-yaxan oda girəcəklər” (Nisa, 10). Rəvayətlərə görə, yetim malını yeyənin və ona zülm edənin övladları ağır çətinliyə və problemlərə mübtəla olarlar. Yuxarıdakı ayə yetimlərin qəyyumlarına xəbərdarlıq edir ki, əgər yetimin malını götürsələr, (özlərinə) sərf etsələr, çox böyük bir günaha bulaşmış olarlar.

**Hədis:** İslam peyğəmbəri (s): “Yetim ağlayarsa, Allahın ərşi lərzəyə gələr” (Səvabul-əmal, səh. 20).

## 275

### Yetimi incitmək dini təkzib etmək nişanəsidir

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ أَرَأَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ فَذَٰلِكَ الَّذِي يَدُعُّ الْيَتِيمَ

Dini yalan sayan o kimsəni gördünmü? O elə adamdır ki, yetimi qovar (Maun, 1-2).

**İzah:** Qurani-kərim bir çox ayələrdə möminləri yetimlərlə bağlı çox təhlükəli və həssas məsuliyyətləri haqqında məlumatlandırmış və hamını yetimləri incitməyin ağır cəzası ilə hədələmişdir. Bu ayədə yetimi qovmaq imansızlıq əlaməti sayılmışdır. Bir neçə başqa ayədə də kafirlərin azğınlıq amili kimi yetimlərin və səfillərin əlindən tutmamaq göstərilmişdir. Maraqlıdır ki, Quran yetimin maddi ehtiyacından daha çox onun ruhi və mənəvi ehtiyacı üzərində dayanmış, möminlərə bu ehtiyacı təmin etməyi tövsiyə etmişdir. Yuxarıdakı ayə bu müddəanın ən aydın nümunəsidir. Çünki yetimi qovmaq və onu narahat etmək imansızlıq əlaməti hesab olunmuşdur.

**Hədis:** İslam peyğəmbəri (s): “Kim bir yetimə qəyyumluq edib, onun ehtiyacını təmin etsə, Allah bu işinə görə Cənnəti ona vacib edər. Necə ki, yetimin malını yeyənə də odu (Cəhənnəmi) vacib etmişdir” (Kafi, c. 7, səh. 51, hədis: 1).

**276**

## 15. İsraf

وَآتِ ذَا الْقُرْبَىٰ حَقَّهُ وَالْمِسْكِينَ وَابْنَ السَّبِيلِ وَلَا تُبَذِّرْ تَبْذِيرًا إِنَّ الْمُبَذِّرِينَ كَانُوا إِخْوَانَ الشَّيَاطِينِ وَكَانَ الشَّيْطَانُ لِرَبِّهِ كَفُورًا

Qohum-əqrəbaya da, yoxsula da, müsafirə də haqqını ver. Lakin (malını) lazım olmayan yerə sərf etmə. Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur (İsra, 26-27).

**İzah:** Fərd və cəmiyyətin əxlaqi sisteminin çöküşündə çox böyük rol oynayan böyük günahlardan biri israf və ifratdır. Bu çürük özəlliyin köklərindən biri nəfsin azğınlığıdır. Buna görə də yuxarıdakı ayədə israf edənlər şeytanın qardaşları adlandırılmışlar. Çünki insan nəfsi Şeytanla yanaşı möminləri aldadan iki qüvvədir. Onlara məğlub olarlarsa, onların simasını da şeytaniləşdirər. Qeyd edək ki, israf və (ayədə sözügedən) "تبذير" (təbzir) arasında fərq var. İsraf, hər bir əməlin – hətta bəzi ibadətlərin – yerinə yetirilməsində ifrata varmağa deyilir. Məsələn, danışmaqda israf, yeməkdə israf və s. Amma təbzir yalnız malda ifrat etmək və onu lazımsız yerə xərcləməkdir.

**Hədis:** İmam Əli (ə): "Yazıq israfçı! Nəfsini islah etməkdən və işini düzəltməkdən necə də uzaqdır" (Qürərul-hikəm, c. 6, səh. 228, hədis: 10092).

## 277

### 16. Qohumlarla əlaqəni kəsmək

فَهَلْ عَسَيْتُمْ إِنْ تَوَلَّيْتُمْ أَنْ تُفْسِدُوا فِي الْأَرْضِ وَتُقَطِّعُوا أَرْحَامَكُمْ

Əgər (haqdan) üz çevirsəniz, ola bilsin ki, yer üzündə fitnə-fəsad törədəsiniz və qohumluq əlaqələrini kəsəsiniz (Məhəmməd, 22).

**İzah:** Qohumlarla əlaqəni kəsmək ən böyük günahlardandır. Belə ki, Allah-Taala "Rəd" surəsinin 25-ci ayəsində onu edənləri lənətləmişdir. Yuxarıdakı ayədə də onu Allahdan üz döndərməyin ən mühüm nişanələrindən biri hesab etmişdir. Ömrün azalması, Allah mərhəmətindən uzaq olmaq, ümmətlərin tez məhv olması, nəslin kəsilməsi, qıtlıq, quraqlıq, yoxsulluq, yalqızlıq, qəm-qüssə qohumlarla əlaqəni kəsməyin rəvayətlərdə işarə olunan nəticələridir. Buna görə də hədislərdə deyilir ki, heç bir şey, hətta qohumların kafir və fasiq olması, hətta onların əlaqəni kəsməsi belə qohumlarla əlaqəni kəsməyə səbəb olmamalıdır. Qeyd edək ki, burada qohumlar dedikdə nə qədər uzaq olsa da qan qohumları nəzərdə tutulur.

**Hədis:** İmam Baqir (ə): "Qohumlarla xoş münasibətdə olmaq əməlləri təmizləyir, sərvəti çoxaldır, bəlanı dəf edir, haqq-hesabı asanlaşdırır və ölümü təxirə salır" (Kafi, c. 2, səh. 150, hədis: 4).

**278**

## 17. Məkr və hiylə

...وَلَا يَحِيقُ الْمَكْرُ السَّيِّئُ إِلَّا بِأَهْلِهِ...

Yaramaz hiylələr isə ancaq öz sahibinin başında çatlayar (Fatir, 43).

**İzah:** Məkr başqa bir fərdə daha tez və gizli zərbə vurulmasına səbəb olan zirəklik və fərasətdir. Məkr öz-özlüyündə pis hal deyil və Allaha da isnad edilmişdir. Amma pis məkr – yəni xoşagəlməz məqsədlər üçün həyata keçən məkr – ən çirkin əxlaqi qəbahətlərdən və rəzilliklərdəndir. Bu növ məkr həqarət nişanəsidir və onun səbəbi acizlikdir. Quran münafiqləri dində məkr və hiylə işlətdiklərinə görə qınamaqla yanaşı təkid edir ki, məkr və hiylə sonda insanın özünə qayıdır. Bu ilahi ənənə tarix boyu xalq tərəfindən o qədər müşahidə olunmuşdur ki, onun haqqında bir çox zərbi-məsəllər də formalaşmışdır.

**Hədis:** İmam Əli (ə): “Kim xalqa hiylə işlətsə, Allah onun hiyləsini öz başında çatladar” (Qürərul-hikəm, c. 5, səh. 377, hədis: 8832).

**Dördüncü fəsil**

**Davranış qaydaları (Nəzakət normaları)**

Aşağıdakı mövzuları ehtiva edir:

- Evdarlıq qaydaları
- Dostluq qaydaları
- Danışıq qaydaları
- Yemək qaydaları

**279**

## Ailə və evdarlıq normaları

### 1. Ər-arvad arasında sevgi

وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُمْ مِنْ أَنْفُسِكُمْ أَزْوَاجًا لِتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُمْ مَوَدَّةً وَرَحْمَةً
إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ لِقَوْمٍ يَتَفَكَّرُونَ

Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması da Onun nişanələrindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır (Rum, 21).

**İzah:** Bir çox Quran ayəsi möminləri ailə qurmağa rəğbətləndirir. Bəzi dinlərdən fərqli olaraq, İslama görə evlilik Allaha yaxınlaşma, Şeytandan və nəfsani ehtiraslardan uzaqlaşma amilidir. Allah-Taala ailə qurmağı aramlıq və mehribanlıq səbəbi, ər-arvad arasında sevgi və ülfəti isə öz lütf və qüdrətinin nişanəsi hesab etmişdir. Quran məntiqində ailə qurmağın əsas məqsədi ruhi təskinlik və Allaha daha yaxşı bəndəlik etmək üçün zəmin yaratmaqdır.

**Hədis:** İmam Səccad (ə): “Qadının haqqı odur ki, Allahın onu təskinlik vasitəsi olaraq yaratdığını, sənə nemət olaraq bəxş etdiyini biləsən. Nəticədə ona hörmət edəsən və mülayim olasan” (Mən la yəhzurul-fəqih, c. 2, səh. 631, hədis: 3214).

## 2. Ər-arvadın vəzifələri

لرِّجَالُ قَوَّامُونَ عَلَى النِّسَاءِ بِمَا فَضَّلَ اللَّهُ بَعْضَهُمْ عَلَىٰ بَعْضٍ وَبِمَا أَنْفَقُوا مِنْ أَمْوَالِهِمْ
فَالصَّالِحَاتُ قَانِتَاتٌ حَافِظَاتٌ لِلْغَيْبِ بِمَا حَفِظَ اللَّهُ

Allahın onlardan birini digərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində himayəçidirlər. Əməlisaleh qadınlar Allaha itaət edər və qorunması lazım gələn şeyləri Allahın himayəsi sayəsində qoruyub saxlayarlar (Nisa, 34).

**İzah:** Müştərək həyatda müvəffəqiyyət şərtlərindən biri ər-arvadın bir-birinin yaradılışdan gələn vəzifələrinə münasibətdə məsuliyyət hiss etməsidir. Yuxarıdakı ayə ailənin idarə olunmasında ər-arvadın vəzifələrini yaxşı təsvir edir. Kişilər cismani bacarıq və ruhi güc etibarilə ailəni idarə etmək və evə qazanc gətirmək məsuliyyətini daşıyırlar. Qadınlar isə ruhi və emosional güc etibarilə ev işləri ilə məşğul olmalıdırlar. Bu işlərin hər biri öz yerində mühüm və həyatidir və (müştərək) həyatda müvəffəqiyyətə zəmanət verir.

**Hədis:** İmam Kazim (ə): “Qadının cihadı ərinə xoş davranmaqdır” (Kafi, c. 5, səh. 507, hədis: 4).

## 281

### 3. Ər-arvadın bir-birinin eyiblərini örtməsi

...هُنَّ لِبَاسٌ لَكُمْ وَأَنْتُمْ لِبَاسٌ لَهُنَّ ...

Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız (Bəqərə, 187).

**İzah:** Yuxarıdakı ayə ailə hökmləri ilə bağlı ayələrdən biridir. Allah bu ayədə ər-arvadı bir-birinin libasına bənzətmişdir. Bu bənzətmə aydın və ifadəlidir. Tərbiyəvi biliklər və evdarlıq qaydaları sahəsində çox məqamları ehtiva edir. Onlardan bir neçəsinə nəzər salaq: 1. Libas insanı isti, soyuq və s. xarici ziyanlardan qoruduğu kimi, ər-arvad da bir-birini intim günah və azğınlıqlar kimi mənəvi zərbələrdən qoruyurlar. 2. Libas insanın zahiri eyiblərini örtdüyü kimi, ər-arvad da – bir-birinin mənəvi inkişafına çalışmaqla yanaşı – bir-birinin eyib və qüsurlarını örtməlidirlər. 3. Yaxşı libas insan üçün təskinlik və zinətdir. Layiqli həyat yoldaşı da insan üçün fəxr və başucalığıdır. 4. Libası qorumaq üçün tamamilə diqqətli olmaq lazımdır ki, aludə olmasın və köhnəlməsin. Ər-arvad da bir-birlərini mənəvi aludəlikdən bu qədər qorumalıdır.

**Hədis:** İmam Əli (ə): “Səbir və dözüm (özünün və başqalarının) eyiblərini örtür” (Nəhcül-bəlağə, qısa kəlamlar: 6).

## 282

### 4. Ailənin hidayəti qarşısında məsuliyyət daşımaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنْفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ عَلَيْهَا مَلَائِكَةٌ غِلَاظٌ شِدَادٌ لَا يَعْصُونَ اللَّهَ مَا أَمَرَهُمْ وَيَفْعَلُونَ مَا يُؤْمَرُونَ

Ey iman gətirənlər! Özünüzü və ailənizi yanacağı insanlar və daşlar olan oddan qoruyun! Onun başı üstündə Allahın onlara verdiyi əmrlərə (heç vaxt) asi olmayan, özlərinə buyurulanları yerinə yetirən amansız və güclü mələklər vardır (Rum, 30).

**İzah:** Şübhəsiz, İslam həyat tərzində inanclı ailənin ən mühüm əxlaqi dəyərini ailə üzvlərinin istənilən ilahi həyata qovuşmaq üçün birgə addımlamasında axtarmaq olar. Qurana görə, ailə üzvlərinin hər biri – xüsusilə kişilər ailənin icraçı direktoru olaraq – bir-birlərinin mənəvi təkamülünə yardım etməli, (mənəvi) çöküşdən xilas etməlidirlər. Quranda peyğəmbərlərin (ə) həyat tərzinə baxdıqda görürük ki, onlar öz həyat yoldaşlarının və övladlarının doğru yola yönəlməsinə xüsusi önəm vermişlər. Hətta övladları dünyaya gəlməzdən öncə Allahdan onlar üçün hidayət və paklıq diləmişlər. Buna səbəb odur ki, ailə dini tərbiyənin ən kiçik və ən əsas institutunu təşkil edir.

**Hədis:** İslam peyğəmbəri (s): “Qadının kişi üzərində haqqı odur ki, onu doyursun, geyindirsin, namazı, orucu və zəkatı - əgər malına zəkat düşürsə, - ona öyrətsin və qadın da bu işlərdə ona qarşı çıxmasın” (Müstədrəkül-vəsail, c. 14, səh. 143, hədis: 1660).

## 283

### 5. Həyat yoldaşı ilə yaxşı davranmaq

...وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ فَإِنْ كَرِهْتُمُوهُنَّ فَعَسَىٰ أَنْ تَكْرَهُوا شَيْئًا وَيَجْعَلَ اللَّهُ فِيهِ خَيْرًا كَثِيرًا

Onlarla xoş rəftar edin. Əgər onlar xoşunuza gəlmirsə, (yenə də onlarla xoş davranın) ola bilsin ki, xoşlamadığınız bir şeydə Allah sizə çoxlu xeyir nəsib etmiş olsun (Nisa, 19).

**İzah:** Qurana uyğun həyat tərzinin əsas göstəricilərindən biri ər-arvadın – xüsusilə kişilərin – xoş davranmasıdır. Quran kişini həyat dəyirmanının alt daşı hesab edir və onu ailənin icraçı direktoru bildiyi üçün onunla bağlı hər növ təkəbbürü də məhkum edir. Bu ayədə Allah-Taala qadınlarla uyğun və layiqli insani davranış düsturunu verir və kişilərə tövsiyə edir ki, həyatda problemlərlə üzləşdikdə özlərini gözləsinlər. Çünki ailənin məsləhəti ər-arvad arasında asayiş və aramlığın qorunmasıdır. Qeyd etmək lazımdır ki, ayə kişilərə müraciət etsə də bu göstərişin birtərəfli olmadığı aydındır. Yalnız kişilərə müraciət olunma səbəbi odur ki, talaq hüququ yalnız onlara aiddir və onların müstəbidcəsinə davranmasına daha çox zəmin var.

**Hədis:** İslam peyğəmbəri (s): “Sizin ən yaxşınız ailəsi üçün ən yaxşı olandır və mən ailəm üçün sizin hamınızdan yaxşıyam” (Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 555, hədis: 4908).

## 284

### 6. İxtilafdan uzaq olmaq və sülhə çalışmaq

وَإِنِ امْرَأَةٌ خَافَتْ مِنْ بَعْلِهَا نُشُوزًا أَوْ إِعْرَاضًا فَلَا جُنَاحَ عَلَيْهِمَا أَنْ يُصْلِحَا بَيْنَهُمَا صُلْحًا ۚ وَالصُّلْحُ خَيْرٌ ۗ وَأُحْضِرَتِ الْأَنْفُسُ الشُّحَّ ۚ وَإِنْ تُحْسِنُوا وَتَتَّقُوا فَإِنَّ اللَّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا

Əgər bir qadın öz ərinin kobud rəftarından, yaxud (ondan) üz döndərməsindən qorxarsa, (ər-arvadın) öz aralarında barışığa gəlməsi onlara günah sayılmaz. Axı barışmaq daha xeyirlidir. Doğrusu, nəfslər (insanlar) xəsislik etməyə hazırdır. Əgər (qadınlarla) yaxşı davranıb (kobud rəftardan) çəkinsəniz, (mükafatınızı alacaqsınız. Bilin ki,) Allah nə etdiklərinizdən xəbərdardır (Nisa, 128).

**İzah:** Müştərək həyat boyu bəzən ər-arvad arasında elə hallar yaranır ki, ixtilafa səbəb olur. İslamın ər-arvada tövsiyəsi dəyərli ailə mühitində ixtilafları aradan qaldırmaq, barış və dostluğa çalışmaqdır. Qurana görə, ər-arvadın ixtilafı təkəbbür və xəsisliyin qəlblərinə yer etməsindən qaynaqlanır. Möminlərə xəbərdarlıq edir ki, müştərək həyatda yaxşılıq, təqva və xoşüzlülük ən mühüm müvəffəqiyyət ünsürüdür.

**Hədis:** İmam Əli (ə): “Həyat yoldaşınla xoş davran ki, həyatın xoş olsun” (Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 556, hədis: 4911).

## 285

## Ər-arvad arasında ixtilafın həlli yolu

وَإِنْ خِفْتُمْ شِقَاقَ بَيْنِهِمَا فَابْعَثُوا حَكَمًا مِنْ أَهْلِهِ وَحَكَمًا مِنْ أَهْلِهَا إِنْ يُرِيدَا إِصْلَاحًا يُوَفِّقِ اللَّهُ بَيْنَهُمَا إِنَّ اللَّهَ كَانَ عَلِيمًا خَبِيرًا

Əgər ər-arvad arasında ixtilaf olacağından qorxsanız, onda kişinin ailəsindən bir hakim və qadının ailəsindən bir hakim göndərin. Əgər bunlar islah etmək istəsələr, Allah da onları barışdırar. Həqiqətən, Allah Biləndir, (hər şeydən) Xəbərdardır (Nisa, 35).

**İzah:** Bu ayənin müraciəti yalnız ər-arvada yox, həm də ailə böyüklərinə və şəriət hakimlərinədir. Onlara tövsiyə edir ki, əgər ər-arvad arasında ixtilaf şiddətlənərsə, vasitəçilik etsinlər və hər birinin tərəfindən bir nümayəndə seçsinlər. Müzakirə və danışıqla aramlıq yaratmağa və problemin həllinə çalışsınlar. Quranın ailə ixtilaflarının həlli üçün irəli sürdüyü təklif cəmiyyətdə hüquqi və psixoloji təkliflərdən olduqca yaxşıdır. Şübhəsiz, bu ayənin məzmununa əməl etmək bir çox bugünkü ailə problemlərinin həll yoludur.

**Hədis:** İslam peyğəmbəri (s): “Allahın heç bir şeyə ayrılıq – talaq – olan ev qədər acığı tutmur” (Kafi, c. 5, səh. 328, hədis: 1).

## 286

## Dostluq qaydaları

### 1. Möminlərlə dostluq etmək

وَاصْبِرْ نَفْسَكَ مَعَ الَّذِينَ يَدْعُونَ رَبَّهُمْ بِالْغَدَاةِ وَالْعَشِيِّ يُرِيدُونَ وَجْهَهُ وَلَا تَعْدُ عَيْنَاكَ عَنْهُمْ تُرِيدُ زِينَةَ الْحَيَاةِ الدُّنْيَا وَلَا تُطِعْ مَنْ أَغْفَلْنَا قَلْبَهُ عَنْ ذِكْرِنَا وَاتَّبَعَ هَوَاهُ وَكَانَ أَمْرُهُ فُرُطًا

Səhər və axşam çağı Rəbbini diləyərək Ona dua edənlərlə birlikdə özünü səbirli apar. Dünyanın bərbəzəyini istəyərək nəzərlərini (zənginlərə diqqətdən) çevirmə. Qəlbini Bizi anmaqdan xəbərsiz etdiyimiz, nəfsinin istəklərinə uyan və işləri səmərəsiz olan bir kimsəyə itaət etmə! (Kəhf, 28).

**İzah:** İslamda dostluğun önəmi kimsəyə sirr deyil. Dost seçimində ən mühüm addım uyğun dost seçməkdir. Çünki dostların ruhiyyəsi və inancları bir-birinə heyrətamiz şəkildə təsir edir. Belə ki, rəvayətlərdə hər bir fərdi tanımaq üçün onun oturub-durduğu insanlara diqqət etmək tövsiyə olunmuşdur. Rəvayətlərdə uyğun dostlar üçün çox sayda meyarlar göstərilmişdir ki, onların hamısının müştərək cəhəti iman və təqvadır. Allah möminləri bir-biri ilə dostluq və yoldaşlıq etməyə dəvət etmişdir ki, həm bir-birlərini təqva və səbirə rəğbətləndirməyə zəmin yaransın, həm də insani duyğular, insanın həmdəmə və dosta ehtiyacı təmin olunsun. Yuxarıdakı ayə qafil insanlarla dostluq etməyi də qadağan etmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): “İnsanların ən xoşbəxti hörmətli insanlarla yoldaşlıq edəndir” (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 394, hədis: 5840).

## 287

## Möminlərin dostluğunun Axirətdə də davam etməsi

الْأَخِلَّاءُ يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا الْمُتَّقِينَ

O gün müttəqilərdən başqa (bütün) dostlar bir-birinə düşmən kəsiləcəklər (Zuxruf, 67).

**İzah:** Yaxşı və uyğun dostluq davamlı və qalıcı dostluqdur. Əksər dostluq və sevgilər zahiri və müvəqqətidir. Yəni onlarda məqsəd davamlı və həqiqi deyil. Gözəllik, sərvət, ehtiras, mənfəətpərəstlik, vəzifə və s. kimi məqsədlər ona müdaxilə edir. Buna görə də bu aldadıcı təzahürlər öz rəngini itirdikdə dostlar da dağılışır və sevgilər sönür. Quran təkid edir ki, dünyada ilahi yönü, ilahi rəngi olmayan heç bir şey davamlı deyil (Qəsəs, 88). Buna görə möminlərin bir-biri ilə dostluğu da davamlı olaraq qalır. Çünki məqsəd Allahın razılığını və sevgisini qazanmaqdır. Möminlər Allahın razılığını və sevgisini bütün dostluqlara və sevgilərə tərcih edirlər (Bəqərə, 165). (Nifrət günü, dostların və qohumların bir-birindən qaçacağı gün olan) Qiyamət günü pəhrizkarlar bir-birləri ilə dost olduqları üçün fəxr edəcək və sevinəcəklər. Bəli! Bu, dost seçmək üçün çox uyğun bir meyardır. Dost seçərkən düşünməliyik ki, Qiyamətdə də onunla fəxr edə biləcəyikmi?

**Hədis:** İmam Sadiq (ə): “Allah üçün sevən, Allah üçün kin bəsləyən və Allah üçün əfv edənin imanı kamilləşmişdir” (Kafi, c. 2, səh. 124, hədis: 1).

## 288

## 2. Qafillərlə dostluq etməmək

وَيَوْمَ يَعَضُّ الظَّالِمُ عَلَىٰ يَدَيْهِ يَقُولُ يَا لَيْتَنِي اتَّخَذْتُ مَعَ الرَّسُولِ سَبِيلًا يَا وَيْلَتَىٰ لَيْتَنِي
لَمْ أَتَّخِذْ فُلَانًا خَلِيلًالَقَدْ أَضَلَّنِي عَنِ الذِّكْرِ بَعْدَ إِذْ جَاءَنِي وَكَانَ الشَّيْطَانُ لِلْإِنْسَانِ خَذُولًا

Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir: “Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o, məni ondan uzaqlaşdırdı”. Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır (Furqan, 27-29).

**İzah:** Qafillərlə dostluq etmək peşmançılıqdan başqa bir nəticə vermir. Öncə də işarə olundu ki, qəflətin başlıca səbəblərindən biri qafil insanlarla oturub-durmaq və faydasız məclislərdə iştirak etməkdir. Bu növ dostluqlar insanın ürəyində imanın köklərini qurudur və qəlbini öldürür. Yuxarıdakı ayə bəzi insanların Qiyamət günü qafil və günahkarlarla dostluq etdikləri üçün çəkəcəyi acı peşmançılıq fəryadının ifadəsidir.

**Hədis:** İslam peyğəmbəri (s): “Yaxşı yoldaş təklikdən daha yaxşı, təklik isə pis yoldaşdan daha yaxşıdır” (Əmali, Tusi, səh. 535, hədis: 1162).

## 289

### 3. Naməhrəmlə dostluq etməmək

...فَانْكِحُوهُنَّ بِإِذْنِ أَهْلِهِنَّ وَآتُوهُنَّ أُجُورَهُنَّ بِالْمَعْرُوفِ مُحْصَنَاتٍ غَيْرَ مُسَافِحَاتٍ وَلَا مُتَّخِذَاتِ أَخْدَانٍ ...

(Bu kənizlər) namusunu qoruyan, zinakarlıq etməyən və gizli dost (aşna) saxlamayan qadınlardırsa, onlarla sahiblərinin icazəsi ilə evlənin və mehrlərini (şəriətə) müvafiq qaydada verin (Nisa, 25).

**İzah:** İslam naməhrəmlə dostluq etməyi və münasibət qurmağı qəti qadağan etmişdir. Bu gün – Qərb mədəni ekspansiyasının gücləndiyi bir dönəmdə – bu məşum hadisənin dağıdıcı nəticələri həmişəkindən daha çox izah olunmalıdır ki, bu əxlaqi rəzalətin daha çox yayılmasının qarşısı alınsın. Qəribə burasıdır ki, bəziləri yeniyetmə yaşlarında naməhrəmlə dostluq etməməyin insanlarda bir növ psixi boşluq yaratdığını iddia edir və dinin bununla aşkar müxalifətini yozmağa çalışırlar. Halbuki bir çox psixi çatışmazlıqlar və məşum ictimai nəticələr bu sahədə laübalılıqdan irəli gəlir. Bu nəticələrə aşağıdakıları aid etmək olar: Ehtiras instinktinin düzgün və məntiqi şəkildə doyurulmadan təhrik olunması, yersiz iztirab və sıxıntılar, əqli güclərin hiss olunacaq dərəcədə çöküşü, ailə əsasının zəifləməsi, sevgi xəyanətlərinin artması, talaq və s. İnternet və mesaj dostluqları da sözügedən nəticələri doğurur. Qurani-kərim uğurlu evliliyin şərtini həyat yoldaşının başqaları ilə gizli əlaqədən pak olmasında görür.

**Hədis:** İmam Əli (ə): “Kişilərin naməhrəm qadınlarla həmsöhbət olması bəla gəlməsinə səbəb olacaq və ürəkləri sapdıracaqdır” (Tuhəful-üqul, səh. 151).

## 290

## Nitq normaları

### 1. Başqaları ilə xoş danışmaq

...وَقُولُوا لِلنَّاسِ حُسْنًا ...

İnsanlara xoş danışın (Bəqərə, 83).

**İzah:** İnsanın danışığı onun şəxsiyyətinin göstəricisidir. Allah, dil və nitqi insanlara bəxş etdiyi ən mühüm nemət hesab edir (ər-Rəhman, 4). Buna görə də möminlərə əmr etmişdir ki, kütlə ilə - hətta kafirlərlə də - münasibətdə xoş danışın. Yuxarıdakı ayə iki şəkildə izah olunmuşdur və hər iki məna düzgündür: 1. İnsanlara gözəl və xoş söz deyin; 2. İnsanlarla gözəl və xoş danışın. Quranın vəhyə dayanan təlimlərinə ötəri nəzər salsaq, xoş danışıq və davranışın İslamın nəzakət qaydaları ilə bağlı başlıca tövsiyəsi olduğunu görərik. Çünki bu tövsiyə möminlər arasında sevgini artırır, kin-küdurəti aradan qaldırır. Həmçinin, bir çox düşmənlərin və müxaliflərin ürəkləri möminlərə qarşı yumşalır. Digər Quran ayələrində bu xoş danışma nümunələri bəyan olunmuşdur: Mətin və doğru danışmaq, salam vermək, ağılsız və axmaq insanlara qarşılıqlı cavab verməkdən çəkinmək, faydasız və mənasız sözlərdən çəkinmək, kafirlərin müqəddəs bildiklərinə nalayiq sözlər deməkdən çəkinmək. Nitqin gözəlliklərinin bəzisi də rəvayətlərdə qeyd olunmuşdur: İfadəli və çəkici olmaq, ölçüb-biçmək, anlaşıqlı olmaq, yerli ixtisar və s.

**Hədis:** İmam Baqir (ə): “İnsanların sizə deməsini istədiyiniz ən yaxşı sözü onlara deyin” (Kafi, c. 2, səh. 165, hədis: 10).

## 291

### 2. Sözün nəticə və faydasına diqqət etmək

مَا يَلْفِظُ مِنْ قَوْلٍ إِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ

Dediyi elə bir söz yoxdur ki, (onu yazmaq üçün) yanında hazır durmuş gözətçi olmasın (Qaf, 18).

**İzah:** Allah-Taala bu ayədə xatırladır ki, bəndələrin bütün sözləri qeydə alınır və danışdıqları qarşısında məsuliyyət daşıyırlar. Deməк, ən mühüm nitq norması odur ki, bir şeyi dilinə gətirməzdən öncə onun mənasına və nəticəsinə diqqət edək. Beləcə, dil günahlarından amanda qalaq və sonradan peşman olmayaq. Dil günahları ən pis və ən geniş yayılmış günahlardır. Belə ki, rəvayətlərdə Cəhənnəmə gedənlərin çoxunun dil səbəbindən gedəcəyi bildirilir. Əxlaqi qəbahətlər bölməsində yalan, qeybət, məsxərə və s. kimi bəzi dil günahlarına işarə olundu. Digər bəzi dil günahları isə bunlardır: söyüş və nalayiq sözlər, söz gəzdirmək, ağız əymək (istehza məqsədilə yamsılamaq), çox zarafat etmək, iftira yaxmaq və s. Əgər bu günahlara faydasız və boş sözləri də əlavə etsək, görərik ki, bizim bir çox sözlərimiz (danışığımız) faydasız və hətta bizim zərərimizədir. Bir çox hallarda susmaq danışmaqdan daha yaxşıdır. Allah, “Nisa” surəsinin 114-cü ayəsində təkidlə bildirir ki, insanların sözlərinin çoxu faydasızdır və yalnız Allah yolunda olduğu təqdirdə yaxşıdır.

**Hədis:** İmam Səccad (ə): “İnsanın dili hər gün onun üzvlərinə yaxınlaşır və deyir: “Necəsiz?” (Onlar) deyirlər: “Əgər sən bizi rahat buraxsan yaxşıyıq. Allahdan qorx və bizimlə işin olmasın”. Onu and verir və deyirlər: “Biz yalnız sənin vasitənlə mükafatlandırılır və sənin vasitənlə cəzalandırılırıq” (Kafi, c. 2, səh. 115, hədis: 13).

## 292

### 3. Faydasız sözlərdən çəkinmək

وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ

O kəslərdir ki, boş (sözlərdən və hərəkətlərdən) qaçırlar (Muminun, 3).

**İzah:** İslamda nitqlə bağlı normalardan biri "لغو" (ləğv) – boş və faydasız sözdən çəkinməkdir. Hərçənd, ona əməl dairəsi yalnız insanın sözündə yox, həm də davranışında özünü göstərir. Bu xüsusiyyət namazda xuşudan sonra möminin ən mühüm özəlliyi adlandırılmışdır. "لغو" (ləğv) hər növ faydasız və əsassız sözə, əmələ və düşüncəyə deyilir. Hansı ki, insana Allahı unutdurur və düzgün düşünməsinə mane olur. Məlumdur ki, danışıqda "لغو" (ləğv)dən uzaq olmağın mənası qaşqabaqlı olmaq, dizlərini qucaqlayıb qəm çəkmək deyil. Əksinə, İslam dostlarla, yaxınlarla – xüsusilə ailə və qohumlarla – söhbət etməyi, möminlərlə deyib-gülməyi yüksək dəyərləndirmiş və buna rəğbətləndirmişdir. Odur ki, danışıqda "لغو" (ləğv)dən uzaq olmağın mənası ölçüb-biçərək, düşünərək danışmaq, az sonra peşman olmayacağımız sözü deməkdir.

**Hədis:** İmam Əli (ə): "İnsanın ağlı kamilləşəndə nitqi (danışığı) qısalır" (Nəhcül-bəlağə, qısa kəlamlar: 71).

**293**

## 4. Danışıqda mətinlik və doğruluq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا

Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın (Əhzab, 70).

**İzah:** Yuxarıdakı ayə – düzgün və məntiqi danışma əmri ilə – möminlərin ən qabarıq zəruri xüsusiyyətlərindən birini təsvir edir. Rəvayətə görə, Peyğəmbər (s) bu ayəni oxumadan minbərdə əyləşməzdi (əl-Mizan, c. 16, səh. 376). Bu mətləb, bu ayəyə əməl etməyin cəmiyyətin əxlaqi qüsurlarını islah etməkdəki önəmini göstərir. "قول سديد" (qəvlun sədidun) ifadəsi həqiqətlə süslənən və doğruluğa yaxın olan sözdür. Günümüzdə məntiqsiz, yanlış və ölçülüb-biçilməmiş nitqlər gündəlik çıxışların böyük bir hissəsini təşkil edir. Belə ki, haqq və batili, doğru və yanlış sözü ayırd etmək gücünü insandan alır. Buna görə də cəmiyyətin bütün fərdləri – nüfuzlu siyasi, ictiami, mədəniyyət xadimləri və s.-dən tutmuş xalq kütlələrinə qədər yuxarıdakı ayənin məzmununa xüsusi diqqət etməli və ona əməl etməlidir.

**Hədis:** İmam Əli (ə): "Həkimin sözü doğru olsa dərman, yanlış olsa, dərddir" (Nəhcül-bəlağə, qısa kəlamlar: 265).

## 294

### 5. Uca səslə danışmaqdan çəkinmək

وَاقْصِدْ فِي مَشْيِكَ وَاغْضُضْ مِنْ صَوْتِكَ إِنَّ أَنْكَرَ الأَصْوَاتِ لَصَوْتُ الْحَمِيرِ

Yerişində həddi gözlə, (danışanda) səsini alçalt. Çünki ən çirkin səs uzunqulaq səsidir (Loğman, 19).

**İzah:** Yuxarıdakı ayədə də işarə olunduğu kimi, niqt normalarından biri uca səslə danışmamaqdır. Bu ayə Loğmanın oğluna vəsiyyətlərindəndir. Loğman öncə onu həyat tərzində mötədil olmağa çağırır. Sonra isə uca səslə danışmaqdan çəkinməyi tövsiyə edir. Yaxşı olar ki, möminlər özlərini bu xoşagəlməz adətdən qorusunlar. Bir çox insanlar elə bilirlər ki, səslərini ucaltsalar, sözlərini başqalarına daha tez qəbul etdirəcəklər. Bir halda ki məhz aram və təmkinli səs natiqin öz nəfsani güclərinə hakim olmasını və sözünün doğruluğuna əmin olmasını göstərir. Quran uca səslə danışmağı ağılsızlıq nişanəsi hesab edir və onu uzunqulağın çirkin və ürpərdici səsinə bənzədir. Bu bənzətmə yersiz danışmamaq kimi digər bir çox ibrətamiz mətləblərə də özündə yer vermişdir.

**Hədis:** İmam Əli (ə): “Səsini qısmaq, baxışlarını aşağı dikmək və yerişində orta həddi gözləmək iman və dindarlıq əlamətlərindəndir” (Qürərul-hikəm, c. 4, səh. 453, hədis: 5037).

**295**

### 6. Görüşərkən salam vermək

وَإِذَا جَاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآيَاتِنَا فَقُلْ سَلَامٌ عَلَيْكُمْ ...

Ayələrimizə iman gətirənlər sənin yanına gəldikdə (onlara) de: “Sizə salam olsun!” (Ənam, 54).

**İzah:** Ən qabarıq davranış qaydalarından biri layiqincə salam verməkdir. Bu əməl bütün cəmiyyətlərdə fərdlərin ictimai nəzakət və ədəb-ərkanının göstəricisidir. “Səlamun əleykum” cümləsinin mənası odur ki, mənim tərəfimdən sənə bir təhlükə gəlməz. Yaxud, Allahdan sənin üçün sağlamlıq və təhlükəsizlik diləyirəm. Salam təvazökarlıq əlaməti, sevgi və təhlükəsizlik nişanəsidir. Cənnət əhlinin və mələklərin də salamlaşması “Salam”dır. Salamlaşmağın İslamda başqa qaydaları da var. Onlardan salam verməkdə qabağa düşmək, ucadan salam vermək, əl vermək və qucaqlaşıb öpüşməyi qeyd etmək olar. Bir çox rəvayətlərə görə, salamın yetmiş savabı var. Onun altmış doqquzu salam verənin, biri isə salamı alanındır. Salama cavab vermək vacibdir. Bəzi Quran ayələrində – “Nisa”, 86 və “Hud”, 69 – başqalarının salamına daha layiqli və daha yaxşı cavab vermək tövsiyə olunmuşdur.

**Hədis:** İmam Sadiq (ə): “Bir-birinizlə öpüşüb-görüşün. Çünki bu, kin-küdurəti aradan qaldırır” (Kafi, c. 2, səh. 183, hədis: 18).

## 296

## Yemək qaydaları

### 1. Çox yeməkdən və israfdan çəkinmək

...وَكُلُوا وَاشْرَبُوا وَلَا تُسْرِفُوا إِنَّهُ لَا يُحِبُّ الْمُسْرِفِينَ

Yeyin-için, lakin israf etməyin. Şübhəsiz ki, (Allah) israf edənləri sevmir (Əraf, 31).

**İzah:** Yeməyin də insan həyatının digər fəaliyyətləri kimi bir sıra qaydaları var. Onların önəmlilərinin bəzilərinə Quranda işarə olunmuşdur. Çox yeməkdən çəkinmək bu qaydalardan biridir. Bir çox Quran ayələri bəndələri ilahi nemətlərdən, pak qidalardan yeyib-içməyə səsləmiş, amma dərhal bu əməldə israf və ifratdan çəkindirmişdir. Çox yeməyin bəzi psixi və fiziki fəsadları da vardır. Bir çox həkimlərə görə, əksər ürək-damar xəstəlikləri qida maddələrinin nizamsız məsrəfindən mənşə alır. Çox yemək insanın qəlbinə qəflət örtüyü salır və ona Allahı unutdurur.

**Hədis:** İmam Əli (ə): “Mədə bütün xəstəliklərin evi, pəhriz bütün dərmanların şahıdır” (Xisal, səh. 512, hədis: 3).

## 297

### 2. Haram və napak qidadan çəkinmək

يَا أَيُّهَا النَّاسُ كُلُوا مِمَّا فِي الْأَرْضِ حَلَالًا طَيِّبًا وَلَا تَتَّبِعُوا خُطُوَاتِ الشَّيْطَانِ إِنَّهُ لَكُمْ عَدُوٌّ مُبِينٌ

Ey insanlar! Yerdə olan halal və təmiz ruzilərdən yeyin, şeytanın izləri ilə getməyin! O, sizin açıq-aşkar düşməninizdir (Bəqərə, 168).

**İzah:** İslam dini qidanın halal və pak olmasına xüsusi diqqət yetirmişdir. Buna səbəb odur ki, haram və napak qida insan ruhunda dağıdıcı və əvəzolunmaz izlər buraxır və ümumilikdə onun imanını öz təsiri altına salır. Daşürəklilik bu təsirlərin ən önəmlisidir. İmam Hüseyn (ə) öz dönəminin insanlarının doğru yoldan azmasının kökünü haram yeməkdə, nəticədə isə qəlblərinin daşlaşmasında görür. Bu gün də cəmiyyətdə bəzi yanlışların yayılmasının və xalqın dindən qaçmasının əsas səbəbini onların süfrəsində yer alan haram tikədə görmək olar. Bizim din böyüklərimiz haram tikənin məşum nəticələrindən o qədər qorxurdular ki, şübhəli qidanı məsrəf etməkdən də imtina edirdilər.

**Hədis:** İslam peyğəmbəri (s): “Haram loğma yeyənin namazı qırx gün qəbul olunmaz” (Biharul-ənvar, c. 63, səh. 314, hədis: 7).

## 298

### 3. Nemət sahibini unutmamaq

فَلْيَنْظُرِ الْإِنْسَانُ إِلَىٰ طَعَامِهِ

Qoy insan yediyinə (bir az) diqqət yetirsin! (Əbəsə, 24).

**İzah:** Dünyada hər şey Allahın neməti, Onun əzəmət və böyüklük nişanəsidir. İnsan yeməyə başlamazdan öncə öz qidasına baxmalı və düşünməlidir ki, belə ləziz və gözəl nemət nə üçün və hansı məqsədlə yaradılmışdır? Yeməyə baxıb düşünmək insanı Allahın əzəməti ilə tanış edir və Onun nemətinə şükür etməyə səsləyir. Bunu da qeyd etmək lazımdır ki, rəvayətlərdə bu ayə başqa mənada da izah olunmuşdur. Bu mənaya görə, insan elm və biliyinin mənşəyi haqqında düşünməlidir. Baxıb görməlidir ki, kimdən təlim alır. Məbada ruhunu aludə və napak qidalarla bəsləsin və qəlbini qeyri-ruhani düşüncə və təlimlərlə qidalandırsın.

**Hədis:** İmam Hüseyn (ə): "Süfrənin on iki ədəbi var ki, hər bir müsəlman onu bilməlidir. Onların dördü vacib, dördü müstəhəb, dördü isə nəzakət qaydasıdır. Vacib olanlar bunlardır: İdrak, razılıq, Allahın adını dilə gətirmək və şükür etmək. Müstəhəb olanlar bunlardır: Yeməkdən qabaq əlini yumaq, bədənin sol tərəfi üstə oturmaq, üç barmaqla yemək və barmaqları yalamaq. Nəzakət qaydaları isə bunlardır: Qarşında olandan yemək, tikəni kiçik götürmək, yeməyi yaxşı çeynəmək və (süfrədəkilərin) üzünə az baxmaq (Biharul-ənvar, c. 63, səh. 415).

**299**

## 4. Təmizlik və pakizəlik

إِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ

Şübhəsiz ki, Allah tövbə edənləri də sevir, pak olanları da. (Bəqərə, 222).

**İzah:** Yemək qaydalarından biri paklıq və təmizlikdir. Buna riayət etmək həyatın bütün anlarında zəruridir. Yemək zamanı isə daha çox tövsiyə olunmuşdur. İslamın fərdi və ictimai təmizlik və sanitariya ilə bağlı çox sayda hökmləri və göstərişləri var. Buna görə də ilkin mərhələdə elə hökmlər verilmişdir ki, müsəlmanların – cisim və ruha nəzərə çarpacaq dərəcədə ziyan vuran – ən mühüm murdarlardan çəkinməsinə və uzaq durmasına səbəb olsun. Sonrakı mərhələdə dəstəmaz, qüsl və s. hökmlər vermişdir ki, müsəlmanlara cismin təmizliyinin ruhun təmizliyinin müqəddiməsi olduğunu bəyan etsin. Cismi maddi aludəliklərdən təmizləmədən ruhun paklanmasına nail olmaq olmaz. Allah, həzrət Məhəmmədin (s) peyğəmbərliyinin başladığı ilk gündən ona libasını və cismini hər növ aludəlikdən təmizləməyi əmr etdi (Muddəssir, 4). O həzrətin (s) həyat tərzi də onun həm öz fərdi, həm də cəmiyyətin təmizliyinə çox önəm verdiyini göstərir. Bu mətləbin o dönəmin – sivilizasiya təzahürlərindən xəbər-ətər olmayan, ən kiçik səhiyyə normalarına riayət olunmayan – cəmiyyətində irəli sürülməsi İslam peyğəmbərinin (s) nübuvvətinin möcüzələrindən idi. Yuxarıdakı ayədə Allah pak olanları tövbə edənlərlə yanaşı öz sevgisinə layiq bilir.

**Hədis:** İmam Sadiq (ə): “Kim evinin xeyir və bərəkətinin artmasını istəyirsə, süfrəyə oturarkən dəstəmaz alsın” (Kafi, c. 6, səh. 290, hədis: 4).

## Üçüncü hissə

## Əhkam ayələri

Aşağıdakı fəsilləri ehtiva edir:

- İbadət hökmləri
- Bəzi ilahi qadağalar (haramlar)
- Hicab hökmləri
- İqtisadi hökmlər
- Siyasi hökmlər

### Birinci fəsil

### İbadət hökmləri

Aşağıdakı mövzuları ehtiva edir:

- Namaz
- Oruc
- Zəkat
- Xüms
- Həcc
- Cihad
- Yaxşılığa əmr və pisliyə qadağa

## 300

## Namaz

### Namazın vacib olması

إِنَّ الصَّلَاةَ كَانَتْ عَلَى الْمُؤْمِنِينَ كِتَابًا مَوْقُوتًا

Şübhəsiz, namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir (Nisa, 103).

**İzah:** Namaz bütün ilahi dinlərdə olmuş ən böyük ilahi vacibdir. Çünki Allahla möhkəm və keçərli ünsiyyət, fəsad bataqlığında qərq olmamaq vasitəsidir. Namaz, Allaha aşkar bəndəlik və itaət nişanəsidir. Quranda 90 dəfədən çox bir başa namaza işarə olunmuşdur. Bu vacibin yerinə yetirilməsinə bu qədər təkid olunması onun Allah yanında xüsusi dəyərini və yüksək məqamını ifadə edir. Qurana görə müsəlmanların vəzifəsi yalnız namazı qılmaq deyil. Əksinə, Quran namaz haqqında "إقامة" (iqamə) sözünü işlədir. "إقامة" (iqamə) namazı düzgün və şərtlərinə uyğun şəkildə qılmaq, davamlı olaraq qılmaq, cəmiyyətdə onu yaymağa və gündəmdə saxlamağa çalışmaqdır. Yuxarıdakı ayədə namazın vacib olmasına və özünəməxsus vaxtı olmasına işarə olunmuşdur.

**Hədis:** İslam peyğəmbəri (s): "Namaz (Allah tərəfindən) qoyulan ən yaxşı vəzifədir. Odur ki, kim istəsə az, kim istəsə çox, namaz qılsın" (Xisal, səh. 523, hədis: 13).

## 301

## Namazın hikməti və faydası

### 1. Allahı xatırladan ən yaxşı vasitə

... وَأَقِمِ الصَّلَاةَ لِذِكْرِي

Məni xatırlamaq üçün namaz qıl! (Taha, 14).

**İzah:** Namazın bir çox hikmətləri və faydaları vardır. Allahı yad etmək, günah və pis işlərdən çəkinmək, ruhun paklanması, iradənin güclənməsi, təkəbbür və qürurun aradan qalxması və s. bu faydalardandır. Bütün bunlarla yanaşı namazın ən mühüm hikməti davamlı olaraq Allahı yad etməkdir. Allahı yad etmək ürəklərin təskinlik, bəndələrin (qəflətdən) oyanma səbəbi olduğu üçün namaz da təskinlik və qəflət yuxusundan oyanma vasitəsidir. Əgər namazı Allahı yad etməyin bariz nümunəsi hesab etsək, – bu həqiqətən də belədir – onu tərk etmək Allahı xatırlamağı tərk etmək deməkdir və məişətdə sıxıntı, dünya və axirətdə bəsirətsizlik kimi nəticələr törədir.

**Hədis:** İmam Sadiq (ə) – namazın hikməti haqqında suala cavab verərkən –: “Əgər yalnız dinin gəlişi və kitabın (Quranın) xalq arasında mövcudluğu ilə kifayətlənilsəydi, Peyğəmbərin (s) xatirəsini onların arasında yaşadan bir amil olmasaydı, keçmiş dinlərin taleyinə məhkum olardılar” (İləluş-şərai, səh. 317, hədis: 1).

**302**

## 2. Günahdan çəkindirən

اتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنَ الْكِتَابِ وَأَقِمِ الصَّلَاةَ إِنَّ الصَّلَاةَ تَنْهَىٰ عَنِ الْفَحْشَاءِ وَالْمُنْكَرِ وَلَذِكْرُ اللَّهِ أَكْبَرُ وَاللَّهُ يَعْلَمُ مَا تَصْنَعُونَ

Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə (ibadətlərin) ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir (Ənkəbut, 45).

**İzah:** Daha öncə də deyildi ki, namaz insanı pisliklərdən çəkindirir. Belə bir sual yarana bilər ki, namazın belə bir hikməti olduğu halda nə üçün bəzi namaz qılanlar hər cür günahı işləyir və pis əməllər edirlər? Bu suala cavab vermək üçün nəzərə almaq lazımdır ki, birincisi namaz onları da daha pis günahları işləməkdən çəkindirir. Yəni namaz hər kəsi onun qayda və şərtlərinə riayət etdiyi qədər günahdan uzaq saxlayır. İkincisi, namaz günahdan uzaq qalmağa zəmin hazırlayır. Amma ola bilər ki, bəzi namaz qılanlar özlərini bu uyğun zəmini görməzliyə vurur və günah edirlər. Başqa sözlə, namazın təbii tələbi günahdan uzaq olmaqdır. Amma ola bilər ki, bəziləri bu tələb qarşısında maneələr uydurur və onun təsirini aradan qaldırırlar.

**Hədis:** İslam peyğəmbəri (s): "Beş namaz ümmətim üçün evlərinin qabağından axan təmiz (duru) su kimidir. Əgər bir nəfər hər gün beş dəfə bu suda yuyunsa, sizcə onun bədənində aludəlik və çirkinlik qalarmı?" (Təhzibul-əhkam, c. 2, səh. 237, hədis: 938).

## 303

## Namazın bəzi qaydaları

### 1. Namazı vaxtında qılmaq

حَافِظُوا عَلَى الصَّلَوَاتِ وَالصَّلَاةِ الْوُسْطَىٰ وَقُومُوا لِلَّهِ قَانِتِينَ

Namazları və xüsusilə orta namazı (bəzi rəvayətlərə görə, zöhr namazını) qoruyun və Allah qarşısında mütiliklə durun (Bəqərə, 238).

**İzah:** Burada Quranda keçən bəzi namaz qaydalarını diqqətinizə çatdırırıq. Bu qaydalardan biri namaza önəm vermək və onu ən yaxşı vaxtında qılmaqdır. Quranın beş ayəsində bu haqda söhbət açılmışdır. Fikrimizcə, bu ifadə – namazı davamlı olaraq qılmağa təkiddən başqa, – hər bir namazın fəzilətli vaxtlarına riayət etməyə və onu ilk vaxtında qılmağa da işarə edir. Ümumilikdə namazın fəlsəfə və hikməti yalnız onu davamlı olaraq qılmaqla, qayda və şərtlərinə əməl etməklə gerçəkləşir. Yuxarıdakı ayə müsəlmanları bütün namazlara, xüsusilə zöhr namazına önəm verməyə səsləyir. Zöhr namazı üzərində xüsusi dayanmasının səbəbi bəzi müsəlmanların başları iş və qazanca qarışdığı üçün ona önəm verməməsi idi. Qeyd edək ki, namazın vaxtları “İsra” surəsinin 78, “Taha” surəsinin 130 və “Hud” surəsinin 114-cü ayəsində verilmişdir.

**Hədis:** İmam Sadiq (ə): “İki xüsusiyyət olmayan adamdan uzaq durun, uzaq durun, uzaq durun!” Soruşdular: “O iki xüsusiyyət hansılardır?” Buyurdu: “Namazı vaxtında qılmaq, ona önəm vermək və (mömin qardaşlarının) dərdinə şərik olmaq” (Xisal, c. 1, səh. 47, hədis: 50).

**304**

## 2. Namazda xuşu

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ قَدْ أَفْلَحَ الْمُؤْمِنُونَ الَّذِينَ هُمْ فِي صَلَاتِهِمْ خَاشِعُونَ

Möminlər, həqiqətən də, nicat tapmışlar; o kəslər ki, namazlarında mütidirlər (xuşu edirlər) (Muminun, 1-2).

**İzah:** Bu surədə möminlərin ilk özəlliyi namazda xuşu qeyd olunmuşdur. Xuşu möminlərin üstün xüsusiyyətlərindəndir. O, elə daxili bir halətdir ki, daha üstün bir qüdrət qarşısında təvazö və mütiliyin izharına səbəb olur. Böyük İslam öndərləri namazda o qədər diqqətli olmuşlar ki, Allahdan qeyrisini bütünlüklə unutmuşlar. Quran namazı xuşu etməyənlər üçün çox ağır əməl adlandırmışdır (Bəqərə, 45). Bu o deməkdir ki, xuşu namazın layiqli qılınmasının şərtidir.

**Hədis:** İmam Sadiq (ə): "Namaza başlayanda xuşu ilə başla və namazına diqqət et. Çünki Allah-Taala (nicat tapacaq möminləri vəsf edərkən) buyurur: "O kəslər ki, namazlarında mütidirlər (xuşu edirlər)" (Kafi, c. 3, səh. 300, hədis: 3).

**305**

## 3. Namazda ixlas

فَوَيْلٌ لِلْمُصَلِّينَ الَّذِينَ هُمْ عَنْ صَلَاتِهِمْ سَاهُونَ الَّذِينَ هُمْ يُرَاءُونَ

Vay halına namaz qılanların – o şəxslərin ki, onlar namazlarında səhlənkardırlar. Onlar riyakardırlar (Maun, 4-6).

**İzah:** İxlas bütün ibadətlərin qəbul olunma şərtidir. İxlassız ibadətin heç bir faydası yoxdur. Bu həqiqət “Maun” surəsində çox gözəl və təsirli şəkildə bəyan olunmuşdur. Burada Allah iki qrup namaz qılanların məşum və təəssüf doğuran aqibətindən xəbər vermişdir: 1. Namazlarını qılmaqda səhlənkarlıq edənlər; 2. Namazda gerçək məbud əvəzinə digər məqsədlərə könül verən və məxluqatın razılığı üçün ibadət edənlər. Qeyd edək ki, Allah “Nisa” surəsinin 142-ci ayəsində namazda riya və özünü nümayiş etdirməyi münafiqlərin xüsusiyyəti adlandırır.

**Hədis:** İslam peyğəmbəri (s): “Bəzi namazların yarısı, üçdə biri, dörddə biri, beşdə biri, onda birinə qədər qəbul olunur. Bəzi namazlar isə əzilmiş köhnə bir şey kimi sahibinin üzünə çırpılır. Namazın yalnız öz qəlbinlə üz tutduğun hissəsi sənə aiddir” (Biharul-ənvar, c. 84, səh. 260, hədis: 59).

**306**

## Camaat namazı

وَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ وَارْكَعُوا مَعَ الرَّاكِعِينَ

Namaz qılın, zəkat verin və rüku edənlərlə birlikdə rüku edin! (Bəqərə, 43).

**İzah:** Namazın üzərində çox dayanılan qaydalarından biri onu camaatla birlikdə qılmaqdır. İslam, daim dini yığıncaqları tövsiyə etmişdir. Çünki cəmiyyətdə mənəvi atmosfer yaranmasına və ixtilafların aradan qalxmasına səbəb olur. Bir çox rəvayətlərdə camaat namazı üzərində çox dayanılmışdır. Belə ki, camaat namazının hər rəkətinin tək qılınan namazın iyirmi beş misli savabı var.

**Hədis:** İslam peyğəmbəri (s): "Camaata gəlincə, həqiqətən ümmətimin yer üzündə sıraları mələklərin səmadakı sıraları kimidir. Bir rəkət camaat namazı hər rəkəti Allah yanında qırx ilin ibadətindən sevimli olan iyirmi dörd rəkət namaza bərabərdir" (Xisal, səh. 355, hədis: 36).

## 307

## Cümə namazı

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نُودِيَ لِلصَّلَاةِ مِنْ يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلَىٰ ذِكْرِ اللَّهِ وَذَرُوا الْبَيْعَ
ذَٰلِكُمْ خَيْرٌ لَكُمْ إِنْ كُنْتُمْ تَعْلَمُونَ

Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir! (Cumuə, 9).

**İzah:** Cümə namazı ən mühüm dini ayinlərdən biri və İslam cəmiyyətində təqvanın təzahürüdür. Bu dini vacib bir çox ictimai və tərbiyəvi faydaları olması ilə yanaşı din rəhbərləri tərəfindən təkidlə tövsiyə olunmuşdur. Cəmiyyətdə vəhdət və birlik yaratmaq, münafiqləri zəiflətmək, düşmənləri müsəlmanlar əleyhinə məşum fitnələrdən məyus etmək, cəmiyyətin oyanması və xalqın siyasi bəsirətinin artması, dini biliyin çoxalması, din maarif və hökmlərinin açıqlanması, xalqın məsul şəxslərdən tələblərinin sorğulanması və s. əzəmətli cümə namazının keçirilməsinin hikmətlərindəndir. Yuxarıdakı ayədə Allah müsəlmanlara əmr edir ki, cümə gününün azan səsini eşidəndə iş-güclərini saxlasınlar və cümə namazına doğru tələssinlər. Bilsinlər ki, bunun xeyri keçici dünya mənfəətlərindən daha yaxşı və daha qalıcıdır.

**Hədis:** İslam peyğəmbəri (s): “Kim iman üzündən, Allaha görə cümə namazına getsə, əməl haqq-hesabı əvvəldən başlayar” (Mən la yəhzuruhul-fəqih, c. 1, səh. 427, hədis: 1260).

## 308

## Məscid

إِنَّمَا يَعْمُرُ مَسَاجِدَ اللَّهِ مَنْ آمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ وَأَقَامَ الصَّلَاةَ وَآتَى الزَّكَاةَ وَلَمْ يَخْشَ
إِلَّا اللَّهَ فَعَسَىٰ أُولَٰئِكَ أَنْ يَكُونُوا مِنَ الْمُهْتَدِينَ

Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolla gedənlərdən olsunlar (Tövbə, 18).

**İzah:** Qurani-kərim möminlərə namaz qılmağı təkidlə tövsiyə etməklə yanaşı onları məscidləri canlandırmağa (abadlaşdırmağa) səsləyir. Buna səbəb odur ki, məscidlər Allahı xatırlama bazası, xalqın dini biliklənmə mərkəzi, ehtiyaclı möminlərin problemlərinin həlli məkanı və müsəlmanların əlaqələrinin möhkəmlənməsi səbəbidir. Məscid dinin cəmiyyətdə hazır olması və cəmiyyətin vəhdət oxudur. Məhz buna görə də İslam peyğəmbəri (s) Mədinəyə hicrət etdiyi və İslam hökuməti qurduğu ilk günlərdə məscid tikdi. Qeyd edək ki, yuxarıdakı ayədə məscidləri abadlaşdıranlar təqdir olunmuş və əsl iman sahibləri hesab olunmuşlar.

**Hədis:** İslam peyğəmbəri (s): “Kim camaat namazında iştirak etmək üçün məscidə getsə, atdığı hər addım üçün yetmiş savab yazılar və dərəcələri o qədər də yüksələr. Əgər o halda ölsə, Allah yetmiş min mələyə diriləcəyi günə qədər onun məzarına getməyi, ona tək ikən yoldaş olmağı və onun üçün əfv diləməyi əmr edər” (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 17, hədis: 4968).

**309**

## Gecə namazı

وَمِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَكَ عَسَىٰ أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا

Gecənin bir vaxtı oyanıb ancaq sənə məxsus (təhəccüd) namazı qıl. Mümkündür ki, (buna görə) Rəbbin səni tərifəlayiq bir məqama yüksəltsin (İsra, 79).

**İzah:** Gecə namazını bir çox digər dini ayinlərdən ayıran cəhət ixlasa daha çox yaxın olması, riyadan və özünü nümayişdən uzaq olmasıdır. Allah-Taala dəfələrlə gecə namazının insan ruhunun tərbiyəsindəki rolundan söz açmış və bəndələrini gecənin bir vaxtı öz məbudları ilə minacat və raz-niyaz etməyə səsləmişdir. Səhər tezdən durmağın və gecə namazı qılmağın günahların bağışlanması, Allahın xüsusi lütflərindən faydalanmaq, duanın qəbul olunması, üzün nuranilәşməsi, ruzinin artması, xalq arasında sevilmək və s. bənzərsiz dünya və axirət bərəkətləri vardır. Yuxarıdakı ayədə İslam peyğəmbərinə (s) gecə namazı qılmaq əmr olunmuşdur. Allah bu əməli "tərifəlayiq bir məqama" yüksəlmək vasitəsi adlandırır. Rəvayətlərə görə, "tərifəlayiq məqam" dedikdə o həzrətə (s) verilən böyük şəfaət məqamı nəzərdə tutulur.

**Hədis:** İmam Rza (ə): "Gecə namazını davamlı olaraq qılın. Çünki o, Allaha hörmətdir, ruzini artırır, üzü gözəlləşdirir və gündəlik ruzini artırır" (Biharul-ənvar, c. 87, səh. 154, hədis: 34).

## 310

## Gecə namazının təsəvvüredilməz mükafatı

تَتَجَافَىٰ جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ فَلَا
تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ جَزَاءً بِمَا كَانُوا يَعْمَلُونَ

Onlar (gecə namazını qılmaq üçün) böyürlərini yataqdan qaldırır, qorxu və ümid içində öz Rəbbinə yalvarır və onlara verdiyimiz ruzilərdən (Allah yolunda) xərcləyirlər. Etdikləri əməllərin mükafatı kimi onlar üçün gözlərinə sevinc gətirəcək nələr saxlandığını heç kəs bilmir (Səcdə, 16-17).

**İzah:** Bu ayə də gecə namazı qılanları mədh etməklə yanaşı onların Allah yanındakı mükafatına işarə edir. Bu ayədə gecə namazı qılanların gecənin bir vaxtı öz məhbubları ilə minacat etməyə böyük rəğbətini belə təsvir edir ki, öz böyürlərini yataqdan qadırır, qorxu və ümidlə Allahı səsləyirlər. Bu ibarə bildirir ki, gecə namazını qılmağa müvəffəq olmaq üçün dünya və maddi aləmə bağlılıqdan qurtulmaq lazımdır. Qeyd edək ki, daha öncə Cənnət əhlinin mükafatını qeyd edərkən bu ayə haqqında danışdıq (155-ci mövzu).

**Hədis:** İmam Sadiq (ə): “Elə bir əməl yoxdur ki, Allah Quranda onun mükafatını qeyd etməsin. Yalnız gecə namazının savabı qeyd olunmamışdır. Çünki o, Allah yanında çox böyük dəyərə malikdir” (Təfsiri-Qumi, c. 2, səh. 169).

## 311

## Oruc

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz (Bəqərə, 183).

**İzah:** Oruc ən mühüm İslam hökmlərindən və fürui-dindən hesab olunur. Bu fərz keçmiş dinlərdə də az-çox olmuşdur. Orucun vacib olmasının hikməti ilk növbədə bəndələrin imanının güclənməsi və təqvalı olmasıdır. Sözügedən ayədə bu hikmətə işarə olunmuşdur. İxlas, riyadan və özünü nümayişdən uzaq olmaq, yoxsulların dərdinə şərik olmaq, səbir ruhunu gücləndirmək, cisim və ruhun sağlamlığı, cinsi instinktin mötədilləşməsi və s. orucun vacib olma hikmətlərindəndir. Yuxarıdakı ayədə Allah orucun möminlərə vacib olmasını ən gözəl ifadə ilə xəbər vermişdir.

**Hədis:** İslam peyğəmbəri (s): Allah buyurmuşdur: “İnsanların bütün əməlləri özləri üçündür. Oruc isə mənə məxsusdur. Mən Özüm mükafatını verəcəyəm. Oruc Qiyamət günü mömin bəndənin (od qarşısında) qalxanıdır” (Xisal, səh. 45, hədis: 42).

## 312

## Zəkat

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِمْ بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلَاتَكَ سَكَنٌ لَهُمْ وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ

Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan. Onlar üçün dua et. Çünki sənin duan onlar üçün bir təskinlikdir. Allah Eşidəndir, Biləndir (Tövbə, 103).

**İzah:** Quranda möminlərin Allahla ünsiyyəti və onların fərdi tərbiyəvi yönləri önə çəkildiyi kimi, xalqla əlaqələri və müsəlmanların ictimai təkamülü də diqqətə alınmışdır. Buna görə də daim möminləri namaza dəvət etməklə yanaşı onları zəkat ödəməyə də səsləmişdir. Quranda zəkatla bağlı ayələrin çoxunun sədəqə və müstəhəb infaq (Allah yolunda xərcləmək) mənasında işlənməsinə baxmayaraq, vacib zəkat da yuxarıdakı ayədə vacib olunmaqla bütün keçmiş ayələrin bariz nümunəsi kimi təqdim olunmuşdur. Zəkat malın paklanmasına, ruhun saflaşmasına, insan nəfsində tamahın, hərisliyin və xəsisliyin kökünün qurumasına, cəmiyyətin iqtisadi problemlərinin həllinə, xalqın dini bağlarının möhkəmlənməsinə səbəb olur və başqa bir çox fərdi və ictimai nəticələr doğurur. Ona görə də bütün dinlər tərəfindən qəbul olunan ən mühüm maddi fərzdir.

**Hədis:** İmam Sadiq (ə): “Zəkat verməyənin namazı nəticəsizdir. Təqvası olmayanın zəkatı da qəbul deyil” (Mişkatul-ənvar, səh. 46).

313

## Zəkatın xərclənməsi

إِنَّمَا الصَّدَقَاتُ لِلْفُقَرَاءِ وَالْمَسَاكِينِ وَالْعَامِلِينَ عَلَيْهَا وَالْمُؤَلَّفَةِ قُلُوبُهُمْ وَفِي الرِّقَابِ وَالْغَارِمِينَ وَفِي سَبِيلِ اللَّهِ وَابْنِ السَّبِيلِ فَرِيضَةً مِنَ اللَّهِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ

Sədəqələr (zəkatlar) Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, səfillərə, onu yığıb paylayanlara, qəlbləri (İslam dininə) isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və (yolda qalan) müsafirlərə məxsusdur. Allah Biləndir, Müdrikdir (Tövbə, 60).

**İzah:** Ötən ayədə vacib zəkatın özü fərz oldu. Bu ayə isə zəkatın xərclənmə yerlərini bəyan edir. Onlar aşağıdakılardır: 1. Yoxsul. Özünün və ailəsinin illik xərcini təmin edə bilməyən şəxs. 2. Səfil (miskin). Yoxsuldan daha acınacaqlı vəziyyətdə olan şəxs. 3. Zəkatı yığanlar. İmam və ya naibi tərəfindən zəkat toplayan məmurlar. 4. Qəlbləri (İslam dininə) isinişdiriləcək kimsələr. Zəkat verməklə İslama meyl edə biləcək kafirlər. 5. Kölələrin azad olunması. 6. Borcunu ödəyə bilməyən borclular. 7. Xeyri bütün müsəlmanlara dəyəcək hər bir iş. Məsələn, məscid tikmək, körpü salmaq və s. 8. Vətənindən kənarda (yolda qalan) müsafir.

**Hədis:** İmam Əli (ə): “Zəkat dövlət işlərində işləməyənlər, tikinti və bənnalıq edə bilməyənlər, ticarət və qazanc üçün sərmayəsi olmayanlar, fəhləlik gücü, başqa bilik və bacarığı olmayanlar üçündür (Biharul-ənvar, c. 93, səh. 48).

## 314

## Xüms

ف وَاعْلَمُوا أَنَّمَا غَنِمْتُمْ مِنْ شَيْءٍ فَأَنَّ لِلَّهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبَىٰ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينِ وَابْنِ السَّبِيلِ إِنْ كُنْتُمْ آمَنْتُمْ بِاللَّهِ وَمَا أَنْزَلْنَا عَلَىٰ عَبْدِنَا يَوْمَ الْفُرْقَانِ يَوْمَ الْتَقَى الْجَمْعَانِ وَاللَّهُ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ

Əgər siz Allaha və (haqla batilin) ayırd edildiyi gün – iki dəstənin qarşı-qarşıya gəldiyi gün qulumuza nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz qənimətlərin beşdə biri Allaha, Onun elçisinə, onun qohum-əqrəbasına, yetimlərə, səfillərə və müsafirlərə məxsusdur. Allah hər şeyə qadirdir (Ənfal, 41).

**İzah:** Zəkatla yanaşı xüms də müsəlmanlara ən mühüm maddi vacib hesab olunur. Belə ki, Quranda birbaşa ona xas ayə vardır. Bu ayədə Allah çox böyük təkidlə hər bir müsəlmanın qənimətlərinin beşdə birinin xüsusi xərclənmə yerləri olduğunu bildirmiş və onu ödəməyi imanın şərti olaraq göstərmişdir. “غنمتم” (ğənimtum) ifadəsi “غنيمت” (ğənimət) kökündəndir və ərəb dilində hər növ mənfəətə deyilir. Məsələn, şəxsi gəlirlər, ticarətdə əldə olunan qazanc və müharibə qənimətləri.

**Hədis:** İmam Baqir (ə) – xüms hökmünə işarə edərək –: “Bu ağır hökmdür. (Qəlbi sınanmış) imanlı insanlardan başqa kimsə ona əməl və səbir etməz” (Bəsairud-dərəcat, c. 1, səh. 29, hədis: 5).

## 315

## Cihad

وَقَاتِلُوا فِي سَبِيلِ اللَّهِ الَّذِينَ يُقَاتِلُونَكُمْ وَلَا تَعْتَدُوا إِنَّ اللَّهَ لَا يُحِبُّ الْمُعْتَدِينَ

Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir (Bəqərə, 190).

**İzah:** Cihad bütün dinlərdə böyük fərzdir. Heç bir dini onsuz təsəvvür etmək olmaz. Cihadın əsas hikməti din sərhədlərini genişlətmək, düşmənlərə qarşı izzət, iqtidar və onu müdafiəyə nail olmaqdır. Cihadın vacib olmasında düşündürücü məsələ budur ki, İslam düşmənlərinin təbliğatının əksinə olaraq, İslamın dəvəti müharibə və qoşun çəkməyə yox, sülh və təhlükəsizlik yaratmağa və müsəlmanların zəngin mədəniyyətinə əsaslanırdı. Buna görə də İslam cihadı məhz düşmənlərin məntiq və insaniyyətindən məyus olduqda vacib etmişdir. Yuxarıdakı ayədə deyilir: "Sizinlə vuruşanlarla Allah yolunda siz də vuruşun". Quranın bir çox ayələri cihadın əhəmiyyətinə, düşməni tanımağa, düşmənlə mübarizə aparmağa, müsəlmanların qələbə və məğlubiyyət amillərinə, cihadçıların fəzilətinə və şəhidlərin məqamına həsr olunmuşdur.

**Hədis:** İmam Əli (ə): "Ey camaat! Həqiqətən cihad Allahın xüsusi övliyaları üçün açdığı Cənnət qapılarından biridir. O (cihad), təqva libası, Allahın dayanıqlı zirehi və (Onun) möhkəm qalxanıdır" (Kafi, c. 5, səh. 4, hədis: 6).

## 316

## Mücahidərin digər möminlərlə bir olmaması

لَا يَسْتَوِي الْقَاعِدُونَ مِنَ الْمُؤْمِنِينَ غَيْرُ أُولِي الضَّرَرِ وَالْمُجَاهِدُونَ فِي سَبِيلِ اللَّهِ بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ فَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ بِأَمْوَالِهِمْ وَأَنْفُسِهِمْ عَلَى الْقَاعِدِينَ دَرَجَةً وَكُلًّا وَعَدَ اللَّهُ الْحُسْنَىٰ وَفَضَّلَ اللَّهُ الْمُجَاهِدِينَ عَلَى الْقَاعِدِينَ أَجْرًا عَظِيمًا

Möminlərdən – üzürlülər istisna olmaqla – (evdə) oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri (evdə) oturanlardan dərəcə etibarilə üstün etdi. Allah (onların) hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri (evdə) oturanlardan böyük bir mükafatla üstün etmişdir (Nisa, 95).

**İzah:** Quran məntiqində heç zaman malı və canı ilə dini müdafiəyə qalxan cihadçılarla rifah içində yaşayan və rahatlığı sevənlər bir deyil. Buna görə də mücahidlərə və onların ailələrinə hörmət İslamın ən aydın göstərişlərindəndir.

**Hədis:** İslam peyğəmbəri (s): “Cənnətdə mücahidlərin qapısı adlanan bir qapı var. Birdən o qapı açılır və mücahidlər öz qılıncları ilə oradan daxil olurlar. Halbuki digər camaat hələ də haqq-hesaba çəkilir” (Kafi, c. 5, səh. 2, hədis: 2).

## 317

### Allahın cihadçılarla sövdələşməsi

إِنَّ اللَّهَ اشْتَرَىٰ مِنَ الْمُؤْمِنِينَ أَنْفُسَهُمْ وَأَمْوَالَهُمْ بِأَنَّ لَهُمُ الْجَنَّةَ يُقَاتِلُونَ فِي سَبِيلِ اللَّهِ فَيَقْتُلُونَ وَيُقْتَلُونَ وَعْدًا عَلَيْهِ حَقًّا فِي التَّوْرَاةِ وَالْإِنْجِيلِ وَالْقُرْآنِ وَمَنْ أَوْفَىٰ بِعَهْدِهِ مِنَ اللَّهِ فَاسْتَبْشِرُوا بِبَيْعِكُمُ الَّذِي بَايَعْتُمْ بِهِ وَذَٰلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ

Doğrudan da, Allah möminlərdən, Cənnət müqabilində onların canlarını və mallarını satın almışdır. (Çünki) onlar Allah yolunda vuruşub öldürür və öldürülürlər. (Bu, Allahın) Tövratda, İncildə və Quranda Öz öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdini yerinə yetirən kimdir? Elə isə sövdələşdiyiniz alış-verişə görə sevinin. Məhz bu, böyük uğurdur (Tövbə, 111).

**İzah:** Cihad, Allahla dəyəri nemət dolu ilahi Cənnət olan şirin və karlı sövdələşmədir. Bu həqiqət yuxarıdakı ayədə Quranın nüfuzedici dilindən bəyan olunmuşdur. Quran ümumilikdə dünyada yaşamağı bazara bənzədir. Belə ki, onun satıcıları – insanlar – canları və malları kimi dəyərli əmtəə üçün Cənnət kimi uyğun və layiqli dəyər biçirlər.

**Hədis:** İmam Kazım (ə): “Sizin üçün Cənnətdən qeyri dəyər yoxdur. Elə isə özünüzü Cənnətdən başqasına satmayın” (Kafi, c. 1, səh. 19, hədis: 12).

## 318

## Şəhidin məqamı

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ فَرِحِينَ بِمَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ وَيَسْتَبْشِرُونَ بِالَّذِينَ لَمْ يَلْحَقُوا بِهِمْ مِنْ خَلْفِهِمْ أَلَّا خَوْفٌ عَلَيْهِمْ وَلَا هُمْ يَحْزَنُونَ يَسْتَبْشِرُونَ بِنِعْمَةٍ مِنَ اللَّهِ وَفَضْلٍ وَأَنَّ اللَّهَ لَا يُضِيعُ أَجْرَ الْمُؤْمِنِينَ

Allah yolunda öldürülənləri əsla ölmüş sanma. Əksinə, (onlar) diridirlər; özlərinin Rəbbi yanında onlara ruzi verilir. Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətlərə sevinir, arxalarınca gəlib hələ onlara çatmamış kəslərin heç bir qorxu ilə qarşılaşmayacaqlarına və onların kədərlənməyəcəklərinə fərəhlənirlər. Onlar Allahın nemətinə, lütfkarlığına, həm də Allahın möminlərin mükafatını heçə çıxarmayacağına sevinirlər (Ali-İmran, 171).

**İzah:** Cihad mövzusuna uyğun olaraq Quran ayələrində şəhidin məqamı haqqında söhbət açırıq. Qurana görə şəhidlər sağdır. Allah yanında xüsusi ruzidən faydalanırlar. Allahın bəxş etdiyi nemətlərə sevinir və silahdaşlarının şəhadət maqamına ucalmasını arzu edirlər. Şəhidlərin sağ olmasında məqsəd onların aləmə nisbətdə qüdrəti və məlumatı olmasıdır. Yəni onlar – digər ölülərdən fərqli olaraq, – bu dünya ilə əlaqədədirlər və ona təsir edirlər.

**Hədis:** İslam peyğəmbəri (s): “Hər bir yaxşılıqdan yuxarı (başqa) bir yaxşılıq vardır. O zamana qədər ki, insan Allah yolunda öldürülsün. Allah yolunda öldürüldükdə ondan üstün heç bir yaxşılıq (dəyər) yoxdur (Kafi, c. 2, səh. 348, hədis: 4).

## 319

## Həcc

إِنَّ أَوَّلَ بَيْتٍ وُضِعَ لِلنَّاسِ لَلَّذِي بِبَكَّةَ مُبَارَكًا وَهُدًى لِلْعَالَمِينَ فِيهِ آيَاتٌ بَيِّنَاتٌ مَقَامُ إِبْرَاهِيمَ وَمَنْ دَخَلَهُ كَانَ آمِنًا وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا وَمَنْ كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ عَنِ الْعَالَمِينَ

Həqiqətən, aləmlərdən ötrü bərəkət və doğru yolu göstərən rəhbər kimi insanlar üçün ilk qurulan ev Məkkədədir. Orada aydın nişanələr – İbrahimın məqamı vardır. Oraya daxil olanın təhlükəsizliyi təmin olunar. Evi (Kəbəni) ziyarət etmək insanların – yoluna gücü çatan hər kəsin – Allah qarşısında borcudur. Kim (bunu) inkar edərsə, (bilsin ki,) Allahın aləmlərə ehtiyacı yoxdur (Ali-İmran, 96-97).

**İzah:** Həcc İslamın fürui-dinindən biri və ən böyük dini vaciblərdəndir. Allah onu maddi və fiziki baxımdan gücü çatanlara vacib etmişdir. Həccin çox sayda tərbiyəvi, əxlaqi, siyasi, mədəni və iqtisadi nəticələri vardır. Bir tərəfdən müsəlmanların ən böyük toplantısı, düşmənlərin fitnələrini puça çıxarandır. Digər tərəfdən isə insanın ruhi təkamülündə və dünya təzahürlərindən uzaq qalmasında çox böyük rolu vardır.

**Hədis:** İmam Səccad (ə): "Həcc və ümrəyə gedin ki, bədənləriniz sağlam qalsın, ruziləriniz çoxalsın, imanlarınız güclənsin və öz ailənizin xərcini təmin edəsiniz" (Səvabul-əmal, səh. 47).

## 320

### Yaxşılığa əmr və pisliyə qadağa

ف كُنْتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَتُؤْمِنُونَ بِاللَّهِ وَلَوْ آمَنَ أَهْلُ الْكِتَابِ لَكَانَ خَيْرًا لَهُمْ مِنْهُمُ الْمُؤْمِنُونَ وَأَكْثَرُهُمُ الْفَاسِقُونَ

Siz insanlar arasında üzə çıxarılmış ən xeyirli ümmətsiniz. Siz yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha iman gətirirsiniz. Kitab əhli də iman gətirsəydi, əlbəttə, onlar üçün yaxşı olardı. Onların arasında iman gətirənlər də vardır. Əksəriyyəti isə (haqq yolunu) azmış fasiqlərdir (Ali-İmran, 110).

**İzah:** Yaxşılığa əmr və pisliyə qadağa Quran və rəvayətlərdə çox önəmli yer tutmuşdur. Bu iki fərzi həyata keçirmək cəmiyyətin islah olunmasına, inancların və dini nişanələrin güclənməsinə səbəb olur. Sözügedən ayədə Allah müsəlmanların bu iki mühüm dini fərzə önəm verməkdə digər dinlərin ardıcıllarından daha üstün olduqlarını bildirir.

**Hədis:** İmam Əli (ə): “Şəriətin möhkəmliyi yaxşılığa əmr, pisliyə qadağa və (ilahi) hüdudları bərpa etməkdədir” (Qürərul-hikəm, c. 4, səh. 518, hədis: 6817).

## 321

## Yaxşılığa əmr və pisliyə qadağanı tərk etməyin nəticələri

وَاتَّقُوا فِتْنَةً لَا تُصِيبَنَّ الَّذِينَ ظَلَمُوا مِنْكُمْ خَاصَّةً وَاعْلَمُوا أَنَّ اللَّهَ شَدِيدُ الْعِقَابِ

Elə bir bəladan qorxun ki, o, sizlərdən təkcə zalım olanlara üz verməz (hamınızı bürüyər). Bilin ki, Allah şiddətli cəza verəndir (Ənfal, 25).

**İzah:** Qeyd etdiyimiz kimi yaxşılığa əmr və pisliyə qadağa cəmiyyətdə dinin hakim olması və imanın güclənməsi üçün iki mühüm təməldir. Buna görə də bu iki fərzi tərk etmək dini mətnlərdə də qeyd olunduğu kimi, İslam cəmiyyətinə dağıdıcı zərbələr vurur. Bu acı nəticələrin ən mühümü ilahi əzabın nazil olması və ilahi rəhmətin İslam cəmiyyətindən götürülməsidir. Elə bir əzab ki, tək günahkarları yox, hətta möminləri tutacaqdır. Çünki onlar öz dini vəzifələrini yerinə yetirməkdə, başqalarını məlumatlandırmaqda və yönləndirməkdə səhlənkarlıq etmişlər. İslam peyğəmbəri (s) gözəl və ifadəli bir hədisdə cəmiyyətdə bir günahkarın olmasını məlumatsız fərdə bənzətmişdir. Hansı ki, bir qrup sərnişinlə birlikdə bir gəmiyə minmiş və öz oturduğu yeri deşməklə məşğuldur. Əgər başqaları onu bu təhlükəli əməldən çəkindirməsələr, çox keçmədən hamısı qərq olacaq.

**Hədis:** İslam peyğəmbəri (s): “Ya (insanları) yaxşılığa çağırır, pislikdən çəkindirirsiniz, ya da ilahi əzab hamınızı tutur” (İmam Həsən Əsgəriyə (ə) isnad olunan təfsir, səh. 480, hədis: 307).

## 322

## Pisliyə qadağanı tərk etmək keçmiş ümmətlərin fəsad amilidir

فَلَوْلَا كَانَ مِنَ الْقُرُونِ مِنْ قَبْلِكُمْ أُولُو بَقِيَّةٍ يَنْهَوْنَ عَنِ الْفَسَادِ فِي الْأَرْضِ إِلَّا قَلِيلًا مِمَّنْ أَنْجَيْنَا مِنْهُمْ وَاتَّبَعَ الَّذِينَ ظَلَمُوا مَا أُتْرِفُوا فِيهِ وَكَانُوا مُجْرِمِينَ

Heç olmasa, sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı. Onlardan yalnız xilas etdiyimiz az bir qismi belə idi. Zülm edənlər isə onlara verilmiş dünyanın ləzzətinə uydular və günahkar oldular (Hud, 116).

**İzah:** İslam dininə hakim olan dəyər sisteminin əsası cəmiyyəti ümumi şəkildə yaxşılığa yönləndirməklə nəticələnir. İslam dini insanları elə tərbiyə etməyə çalışır ki, öz cəmiyyətlərinin əqli inkişafına və öz ətraflarının mənəvi aludəliklərdən paklanmasına yardım etsinlər. Bəli! Möminlərin başqalarının sapmalarına laqeyd qaldığı, bir-birlərinin inkişaf və yüksəlişinə yardım etməyən cəmiyyət sönük və dinamklikdən uzaq cəmiyyətdir. Belə bir toplum asanlıqla daxili və xarici düşmənlərinin əsirinə çevrilər. Onların hücumuna qarşı mübarizə aparmaq iqtidarında olmaz. Keçmiş ümmətlərin ən mühüm fəsad amillərindən biri möminlərin başqalarının günahına laqeyd qalması idi.

**Hədis:** İslam peyğəmbəri (s): “İnsanlar nə qədər ki, (xalqı) yaxşılığa səsləyir, pislikdən çəkindirir, xeyir və xoş gün görəcəklər. Amma belə olmadıqda onlardan bərəkətlər alınacaq” (Təhzibul-əhkam, c. 6, səh. 171, hədis: 373).

## 323

## Yaxşılığa əmr qruplarının təşkil olunma zərurəti

وَلْتَكُنْ مِنْكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ وَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ

Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır (Ali-İmran, 104).

**İzah:** Şübhəsiz, cəmiyyətdə dini qeyrət sönükdükcə, pis və çirkin əməllər adiləşdikcə, bir çox zəif imanlı möminlər də yanlışa yol verir və yollarını azırlar. Buna görə də Allah-Taala yaxşılığa əmri və pisliyə qadağanı vacib etməklə möminlərdən cəmiyyətdə fəsad görüntüləri ilə mübarizə aparmağı və toplumun dini simasını qorumağı istəmişdir. Yaxşılığa əmr və pisliyə qadağanın bir sıra qayda və şərtləri vardır ki, onlara riayət etmək zəruridir. Pisliyə qadağanın sıra boyu mərhələləri bunlardır: Narazılığını izhar və qəlbən inkar etmək, narahatlığını və qəzəbini büruzə vermək, dillə inkar etmək, fiziki müdaxilə və sonda müharibə və cihad. Məlumdur ki, son iki mərhələ İslam hökumətinə aiddir və fərdin üzərində belə bir məsuliyyət yoxdur. Yuxarıdakı ayəyə görə, İslam hökumətinin vəzifələrindən biri cəmiyyətdə ümumi və aşkar pisliklərlə mübarizə aparmaq üçün təşkilatlanmış, məlumatlı və nizamlı qruplar yaratmaqdır.

**Hədis:** İmam Sadiqdən (ə) soruşdular: “Yaxşılığa əmr və pisliyə qadağa bütün ümmətə vacibdirmi?” Həzrət (ə) buyurdu: “Vacib deyil. Əksinə, bu məsuliyyət o adamın üzərindədir ki, gücü var. Ondan söz eşidilir. Yaxşını pisdən ayırd edir”. Sonra yuxarıdakı ayəni oxudu (Kafi, c. 5, səh. 59, hədis: 16).

## İkinci fəsil

## Bəzi ilahi haramlar

- Zina
- Qətl
- İntihar
- Spirtli içki və qumar
- Qina və haram avaz

## 324

## Zina

وَلَا تَقْرَبُوا الزِّنَا إِنَّهُ كَانَ فَاحِشَةً وَسَاءَ سَبِيلًا

Zinaya da yaxın düşməyin. Çünki o, çox çirkin bir əməl və pis bir yoldur! (İsra, 32).

**İzah:** Bu fəsildə Allah tərəfindən haram edilmiş bəzi çirkin əməllərə işarə olunur. Zina İslam şəriətində çox böyük günahlardandır. Quranda da kəskin şəkildə pislənmişdir. Qurani-kərim nəinki zina etməyi, hətta ona yaxın düşməyi də qadağan etmiş və onu aşkar günah və çox çirkin və sonu pis bir yol adlandırmışdır. Zinaya yaxın düşmək adətən ona gətirib çıxaran müqəddimələrdən çəkinməməkdir. Məsələn, naməhrəmlə ünsiyyət, qarışıq məclislərdə iştirak etmək, naməhrəmlə zarafatlaşmaq, pozğun film və şəkillərə baxmaq, qafil insanlarla dostluq etmək və s. Rəvayətlərə görə, dünyada zinanın ən kiçik nəticəsi kimi qəfil ölümlərin çoxalması və ağır zəlzələlərin baş verməsi göstərilmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): "Ey Əli (ə)! Zinanın altı nəticəsi vardır. Üçü dünyaya, üçü isə axirətə aiddir. Dünyada doğurduğu nəticələr bunlardır: İnsanın abrını aparır, ölümü tezləşdirir və ruzini kəsir. Axirət nəticələri isə bunlardır: Çətin və dəqiq haqq-hesab, Rəhman Allahın qəzəbi və odda əbədi qalmaq (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 367, hədis: 5762).

## 325

## Qətl

وَلَا تَقْتُلُوا النَّفْسَ الَّتِي حَرَّمَ اللَّهُ إِلَّا بِالْحَقِّ وَمَنْ قُتِلَ مَظْلُومًا فَقَدْ جَعَلْنَا لِوَلِيِّهِ سُلْطَانًا فَلَا يُسْرِفْ فِي الْقَتْلِ إِنَّهُ كَانَ مَنْصُورًا

Allahın, (öldürülməsini) haram buyurduğu şəxsi haqsız yerə öldürməyin. Kim haqsız yerə öldürülmüşsə, artıq onun varisinə ixtiyar vermişik (istəsə bağışlayar, istəsə qisas tələb edər, istəsə də qanbahası alar). Lakin o da qisas aldıqda həddi aşmamalıdır. Çünki ona artıq kömək olunmuşdur (İsra, 33).

**İzah:** Allah-Taala öz məxluqatına hörmət göstərir. Bir ayədə bildirilir ki, kim haqsız yerə bir insanı qətlə yetirsə, sanki bütün insanları qətlə yetirmişdir (Maidə, 32). Quranda ən ağır Cəhənnəm əzabı bilərəkdən qətl törədənlər haqqında qeyd olunmuşdur. "Nisa" surəsinin 93-cü ayəsində Cəhənnəmdə əbədi qalmaq, ilahi qəzəbə və Onun lənətinə tuş gəlmək və böyük od əzabı bir mömini bilərəkdən qətlə yetirənlər üçün bəyan olunmuşdur.

**Hədis:** İslam peyğəmbəri (s): "Həqiqətən, insanların ən asisi odur ki, onu öldürmək məqsədi olmayan birini öldürsün, onu vurmaq niyyəti olmayan birini vursun" (Kafi, c. 7, səh. 274, hədis: 2).

## 326

## Övladı öldürməyin və uşaq salmağın qadağan olunması

وَلَا تَقْتُلُوا أَوْلَادَكُمْ خَشْيَةَ إِمْلَاقٍ نَحْنُ نَرْزُقُهُمْ وَإِيَّاكُمْ إِنَّ قَتْلَهُمْ كَانَ خِطْئًا كَبِيرًا

Yoxsulluq qorxusundan uşaqlarınızı öldürməyin. Axı onların da, sizin də ruzinizi Biz veririk. Onları öldürmək, həqiqətən də, böyük günahdır (İsra, 31).

**İzah:** (Təəssüflər olsun ki, bu gün də geniş yayılmış) ən çirkin günahlardan biri uşaqsaldırmadır. Cahiliyyət dönəmində müşriklər yoxsulluq qorxusundan öz övladlarını diri-diri basdırırdılar. Modern cahiliyyətdə və necə deyərlər, çağdaş mütərəqqi dövrdə isə bəziləri iqtisadi və ya mədəni problemlər səbəbindən abort etdirirlər. Belə bir əməl İslama görə bağışlanmaz günah və qətl nümunəsidir. Allah-Taala sözügedən ayədə zəmanət verir ki, körpələrin ruzisini Öz öhdəsinə götürmüşdür və kimsə maddi problemlərə görə, belə məzəmmət olunmuş bir iş tutmasın. Qeyd etmək lazımdır ki, uşaqsaldırma heç bir halda icazəli deyildir. Hətta ruh üfürülməmişdən öncə olsa, körpənin qüsurlu olduğu ortaya çıxsa, yaxud nikahdan kənar dünyaya gəlsə və s. belə icazəli deyil. Bu, yalnız hamiləliyin davam etdirilməsi ana və uşaq üçün təhlükə yaratdığı təqdirdə icazəlidir.

**Hədis:** İmam Kazimdən (ə) soruşuldu: “Bir qadın uşağını salmaq üçün dərmandan istifadə edir”. Həzrət (ə) buyurdu: “İcazəli deyil”. Dedim: “Hələ nütfə (sperma) mərhələsindədir”. Buyurdu: “Yaradılan ilk şey nütfədir” (Mən la yəhzuruhul-hədis, c. 4, səh. 171, hədis: 5394).

## 327

# İntihar

وَأَنْفِقُوا فِي سَبِيلِ اللَّهِ وَلَا تُلْقُوا بِأَيْدِيكُمْ إِلَى التَّهْلُكَةِ ۛ وَأَحْسِنُوا إِنَّ اللَّهَ يُحِبُّ الْمُحْسِنِينَ

(Malınızdan) Allah yolunda xərcləyin və öz əllərinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir (Bəqərə, 195).

**İzah:** İslamda intiharın haram olması çox aydındır. Allah, insana xüsusi hörmət vermişdir və həyat neməti Allahın ən üstün nemətlərindəndir (Nisa, 29). Ona görə də belə bir neməti almaq Allaha nankorluq və Rəbbin işinə qarışmaqdır. İntihar hansı səbəbdən olursa olsun, Allaha imanın zəifliyindən, həmçinin məada inamsızlıqdan mənşə alır. Çünki fərd özünü öldürməklə dünya acılarından xilas olmaq istəyir. Amma bilmir ki, onu daha çətin ağrı-acılar və əzablar gözləyir. Qeyd edək ki, canını təhlükəyə atmaq da intiharın müqəddiməsi və İslama görə haramdır. Yuxarıdakı ayə bu mətləbə işarə edir. Çox təəssüf doğurur ki, bəzi müsəlmanlar əsassız, ağıla və məntiqə sığmayan əsaslandırmalarla intiharçı hücuma təşəbbüs göstərirlər. Hansı ki, Quranın aydın buyruğuna ziddir.

**Hədis:** İmam Sadiq (ə): “Kim bilərəkdən özünü öldürsə, əbədi olaraq Cəhənnəm odunda yanacaqdır” (Kafi, c. 7, səh, 45, hədis: 1).

## 328

## Spirtli içki və qumar

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالْأَنْصَابُ وَالْأَزْلَامُ رِجْسٌ مِنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

Ey iman gətirənlər! Şübhəsiz ki, sərxoşedici (içki) də, qumar da, (tapınmaq məqsədilə) dik qoyulmuş daşlar da, fal oxları da şeytan əməlindən olan murdar şeylərdir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız (Maidə, 90).

**İzah:** Bu iki günahın cəmiyyətdə yayılması və onun ziyanlı nəticələrinə diqqət olunmadığı üçün mövzu ilə bağlı bəzi ayə və rəvayətləri diqqətinizə çatdırırıq. Fəsad törədənlərin təbliğatının əksinə olaraq sərxoşedici içki bütün dinlərdə haram olmuşdur. Belə ki, tək onu içmək yox, hətta onun istehsalı yolunda addım atmaq, onu paylamaq və yaymaq da haram və lənətlənmişdir (Kafi, c. 6, səh. 396). Allah heç zaman spirtli içkilərə – hətta xüsusi xəstəliklərdə və az miqdarda da – dərman özəlliyi verməmişdir. Qumar və mərcləşmə də çox sayda ictimai və iqtisadi ziyanlar törətdiyi üçün haram olunmuşdur. Buna görə də qumarın aydın nümunələrindən (kart və s.) çəkinməkdən başqa, şübhəli hallarda da ehtiyatla davranmaq və dini mərcələrin fitvalarına müraciət etmək lazımdır. Rəvayətlərdə qumarbazlarla oturub-durmaq şiddətlə qadağan edilmişdir. Çünki qumarbazlar Allahın qəzəbinə gəlmişlər.

**Hədis:** İmam Əli (ə): "Allah ağılı qorumaq üçün keflәndirici içkiləri tərk etməyi vacib etmişdir" (Nəhcül-bəlağə, qısa kəlamlar: 252).

## 329

## Spirtli içki və qumar Şeytan fitnəsinə zəmin yaradır

إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَنْ يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاءَ فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَنْ ذِكْرِ اللَّهِ وَعَنِ الصَّلَاةِ فَهَلْ أَنْتُمْ مُنْتَهُونَ

Həqiqətən, şeytan sərxoşedici (içki) və qumar vasitəsilə sizin aranıza ədavət və kin salmaq, sizi Allahı yad etməkdən və namazdan ayırmaq istəyər. Siz (buna) son qoyacaqsınızmı? (Maidə, 91).

**İzah:** İslam fiziki sağlamlığı qorumaq və cəmiyyətin təhlükəsizliyini və əqli inkişafını artırmaq üçün spirtli içki içməyi ən sərt şəkildə pisləmişdir. Keflәndirici içkilər və qumar Şeytanın iki aldadıcı vasitəsidir ki, onunla Allahı bəndələrə unutdurur və qəlblərini qəflətə salır. Səbəbsiz deyil ki, İslam möminləri spirtli içki içənlərlə yoldaşlıq etməyi təkidlə qadağan etmiş və onları namazı tərk edənlərdən daha pis adlandırmışdır. Çünki kefləndirici içkilərə aludə olmaq təhlükəsi özü ilə binamazlığı da gətirir. Bilirik ki, kefləndirici içkilərin hökmü müşriklərin ona çox aludə olduğu üçün tədriclə elan olundu. Yuxarıdakı ayə bu mətləbə işarə edən beşinci ayədir. Ayənin sonundan anlaşıldığına görə, kefləndirici içkilərə aludə olmaq qafillərin qəlbinə elə yer edir ki, heç bir dəlil və məntiqlə onu tərk etməyi qəbul etməyə razılaşa bilmirlər.

**Hədis:** İmam Sadiq (ə): "Kefləndirici içkilər bütün günahların mənşəyidir və kefləndirici içki içən Allahın kitabını yalan sanır. Çünki əgər ona inansaydı, haramını halal etməzdi" (Kafi, c. 6, səh. 403, hədis: 4).

## 330

## Qina və haram avaz

وَمِنَ النَّاسِ مَنْ يَشْتَرِي لَهْوَ الْحَدِيثِ لِيُضِلَّ عَنْ سَبِيلِ اللَّهِ بِغَيْرِ عِلْمٍ وَيَتَّخِذَهَا هُزُوًا أُولَٰئِكَ لَهُمْ عَذَابٌ مُهِينٌ

İnsanlar arasında elələri də var ki, heç bir biliyi olmadan (başqalarını) Allah yolundan sapdırmaq və (Allahın ayələrini) lağa qoymaq üçün boş-boş sözləri satın alırlar. Məhz onları alçaldıcı bir əzab gözləyir (Loğman, 6).

**İzah:** Qina və musiqinin yayılması insanların yoldan çıxmasına səbəb olan ən mühüm vasitələrdəndir. Bu səbəbdəndir ki, fəsad başçıları ictimai rəyi təsir altına almaq üçün onun üzərində dayanırlar. Bəzi din mərcələrinə görə xüsusi hallarda musiqinin halal olması bəzi zahirpərəstlərin onun qəti haram olduğu başqa bir çox halları da nəzərə almamasına və İslamın bu sahədə qəti və yekdil rəyinin olmamasını təsəvvür etməsinə səbəb olmuşdur. Halbuki bütün fəqihlər yekdilliklə İslamın musiqinin cəmiyyətdə yayılması ilə müxalif olduğunu bildirirlər. İmam Sadiq (ə) bu ayə haqqında buyurmuşdur: “Boş-boş sözlər dedikdə qina nəzərdə tutulur” (Kafi, c. 6, səh. 432, hədis, 8). Həmçinin, “Furqan” surəsinin 72, “Həcc” surəsinin 30 və “Muminun” surəsinin 3-cü ayəsi də haram avaz və musiqiyə uyğunlaşdırılmışdır. Qeyd edək ki, qina dedikdə eyş-işrət məclislərinə uyğun olan və insanda bir növ sərxoşluq və cinsi qıcıqlanma əmələ gətirən musiqilərin oxunması nəzərdə tutulur. Hərçənd, onun daha dəqiq anlamı, haram və halal nümunələri ixtisas tələb edən fiqhi mövzulardır.

**Hədis:** İmam Sadiq (ə) qina haqqında buyurdu: “Allahın sakinlərindən üz döndərdiyi evlərə daxil olmayın” (Kafi, c. 6, səh. 434, hədis: 18).

## Üçüncü fəsil

## İsmət və hicab hökmləri

Aşağıdakı mövzuları ehtiva edir:

- Nikaha və ismətə rəğbətləndirmək
- Geyimdə isməti qorumaq (hicab)
- Münasibətlərdə isməti qorumaq
- Baxışda isməti qorumaq
- Danışıqda isməti qorumaq

## 331

## Nikaha və ismətə rəğbətləndirmək

وَأَنْكِحُوا الْأَيَامَىٰ مِنْكُمْ وَالصَّالِحِينَ مِنْ عِبَادِكُمْ وَإِمَائِكُمْ إِنْ يَكُونُوا فُقَرَاءَ يُغْنِهِمُ اللَّهُ
مِنْ فَضْلِهِ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ وَلْيَسْتَعْفِفِ الَّذِينَ لَا يَجِدُونَ نِكَاحًا حَتَّىٰ يُغْنِيَهُمُ اللَّهُ مِنْ فَضْلِهِ

Aranızda olan subay kişiləri və ərsiz qadınları, əməlisaleh kölə və kənizlərinizi evləndirin. Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah (lütfü ilə) Genişdir, Biləndir! Qoy evlənməyə imkanı olmayanlar, Allah Öz lütfü ilə onları varlandırana qədər, ismətlərini qorusunlar (Nur, 32-33).

**İzah:** Burada ismət və hicab mövzusunda bəzi ayələrə işarə olunur. Evlilik mütərəqqi İslam məktəbində tərifəlayiq bir məsələdir. İslam bəşər səadətinin ən əhatəli proqramı olaraq insanın instinktiv meyllərini diqqətə almış, onu mötədilləşdirməyi və ondan uyğun istifadəni məqsədəuyğun hesab etmişdir. Bu instinktlərdən biri cinsi meyl və ehtirasdır ki, onun nikah yolu ilə təmin olunması qanunidir (şəriətə uyğundur). İnsanlarda ülfət və aramlıq yaranmasına, nəsil artımına və bir çox başqa faydalara səbəb olur. Bu ayədə Allah möminləri gəncləri evlənməyə rəğbətləndirməyə və evlilik şərtlərini asanlaşdırmağa çağırmiş, onların bəhanələrini kəsmək məqsədilə onlar üçün ilkin imkanları yaradacağına zəmanət vermişdir. Həmçinin, evlənmək üçün fürsət və ya şəraiti olmayan digər gənclərdən iffətli və namuslu olmağı istəmişdir.

**Hədis:** İslam peyğəmbəri (s): “Kim ailə qursa, dininin yarısını qorumuşdur. Digər yarısını qorumaq üçün isə ilahi təqvaya riayət etsin” (Əmali, Tusi, səh. 518, hədis: 1137).

**332**

## Geyimdə isməti qorumaq

يَا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِنْ جَلَابِيبِهِنَّ ذَٰلِكَ أَدْنَىٰ أَنْ يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا

Ey Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin qadınlarına de ki, (naməhrəm yanında) çarşabları ilə örtünsünlər. Bu onların tanınması və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah Bağışlayandır, Rəhimlidir (Əhzab, 59).

**İzah:** Quranda hicab və naməhrəmə baxmağın haram olması haqqında ondan çox ayə vardır. "جلباب" (cəlbab) – çadra kimi – bütün bədəni örtən geyimdir. Qadının şəxsiyyətinin qorunması, onun cəmiyyətdə layiqli şəkildə hazır olması üçün uyğun zəmin yaradılması, ailənin gücləndirilməsi, cəmiyyətdə fəsadın qarşısının alınması və s. hicaba riayət etməyin nəticələrindəndir. Yuxarıdakı ayədə qadınların hicabın hikməti belə bəyan olunmuşdur ki, hicablı qadınlar cəmiyyətdə iffət və ismətlə tanınır, şəhvətpərəstlər tərəfindən əziyyət olunmurlar. Bu ayəyə nəzərən aydın olur ki, hicab əxlaqi təhlükəsizlikdə çox mühüm rol oynayır.

**Hədis:** İmam Əli (ə): "Qadının örtünməsi və qorunması onun daha çox asayişdə olmasına və gözəlliyinin davamlı olmasına səbəb olur" (Qürərul-hikəm, c. 4, səh. 200, hədis: 5820).

## 333

## Münasibətlərdə isməti qorumaq

...وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِنْ وَرَاءِ حِجَابٍ ذَٰلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ ...

(Peyğəmbərin) zövcələrindən bir şey istədikdə, pərdə arxasından istəyin. Bu həm sizin qəlbinizə, həm də onların qəlbinə daha çox saflıq gətirər (Əhzab, 53).

**İzah:** Şeytan ən böyük tələlərini məhrəm və naməhrəmlərin bir-birinə qarışdığı yerlərdə qurmuşdur. İslama görə, kişi və qadının hər növ şəriətə uyun olmayan münasibəti – şübhəli baxışdan, söhbət etməkdən tutmuş, əl verib görüşməyə, xəlvətə çəkilməyə, hətta telefonla danışmağa, mesajlaşmağa, internetlə yazışmağa və s. qədər – haramdır və pislənmişdir. Bütün bu israrlar ona görədir ki, cinsi instinktlər insanda çox təhrikedici və ipə-sapa yatmayandır. Başqa sözlə, cinsi meyl təhrik olarsa, onun təsiri ilə baş qaldıran hiss və duyğulara nəzarət etmək mümkün olmayacaq. Buna görə də zina kimi ən böyük ehtiras günahları ən kiçik baxışdan və ya naməhrəmlə ünsiyyətdən başlamış və insanı qeyri-şüuri şəkildə günah bataqlığına batırır. İnsanın vücudunda şəhvət gücü alışqan maddə kimidir. Ən kiçik qığılcımla alovlanır və sürətlə irəliləyir. Odur ki, bu instinkti alışdıran hər bir əməldən qorunmaq lazımdır.

**Hədis:** İslam peyğəmbəri (s): “Əgər bir kişi (naməhrəm) bir qadınla tək və xəlvətdə olsa, onların üçüncüsü Şeytandır” (Mən la yəhzuruhul-fəqih, c. 3, səh. 252, hədis: 3913).

## 334

## Baxışda isməti qorumaq

قُلْ لِلْمُؤْمِنِينَ يَغُضُّوا مِنْ أَبْصَارِهِمْ وَيَحْفَظُوا فُرُوجَهُمْ ذَٰلِكَ أَزْكَىٰ لَهُمْ إِنَّ اللَّهَ خَبِيرٌ بِمَا يَصْنَعُونَ وَقُلْ لِلْمُؤْمِنَاتِ يَغْضُضْنَ مِنْ أَبْصَارِهِنَّ...

Mömin kişilərə de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini (zinadan) qorusunlar. Bu, onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır. Mömin qadınlara da de ki, (harama baxmayıb) gözlərini aşağı diksinlər (Nur, 30-31).

**İzah:** İsmət (iffət) əhatəli və tətbiqi tərifə görə ruhani bir həqiqətdir ki, insanın günaha, çirkin və nalayiq işlərə doğru getməsinə mane olur. İnsanın din və dini dəyərlərinin qorunmasına səbəb olur. Odur ki, onun bir çox şaxələri var və hicab onlardan biridir. Baxmaqda ismət, qarında ismət, ehtirasda ismət, nitqdə ismət və s. hər biri sözügedən ünsürlərin istifadəsində əxlaqi dəyərlərin qorunması deməkdir. Bunların arasında naməhrəmə baxmaqda ismətli olmaq günahdan uzaq qalmağın ən mühüm nümunələrindən biridir. Bu çirkin və pislənmiş əməl bir çox əxlaqi azğınlıqlara zəmin yaradır. Buna görə də Quran kişiləri və qadınları gözlərini harama qapamağa çağırır.

**Hədis:** İmam Əli (ə): “Əgər göz ehtirasdan başqa bir şey görməsə, ürək aqibəti görməkdə kor olar” (Qürərul-hikəm, c. 3, səh. 137, hədis: 4063).

## 335

## Nitqdə isməti qorumaq

يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِنَ النِّسَاءِ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَعْرُوفًا

Ey Peyğəmbərin zövcələri! Siz hər hansı bir qadın kimi deyilsiniz. Əgər (Allahdan) qorxursunuzsa, (yad kişilərlə) nazlana-nazlana danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər. (Şəriətə) müvafiq qaydada danışın (Əhzab, 32).

**İzah:** İslama görə fərd və cəmiyyətin inkişafı yönündə ən böyük maneə cinsi fəsadların yayılması və kişi-qadın münasibətlərində laübalılıqdır. Buna görə də Allah möminləri cəmiyyətdə iffətsizlik zəminləri yaradılmasından çəkindirmişdir. Bu zəminlərdən biri naməhrəmlə danışmaqdır ki, fərdi istəmədən ehtirasın və ağıla uyğun olmayan duyğuların tələsinə salır. Təəssüflər olsun ki, ehtirasın əsirinə çevrilənlərin etirafına görə, naməhrəmlə ilk münasibətləri qısa danışıq səviyyəsində və ilk baxışda ağıla müvafiq qaydada, yaxud sadə zarafat səviyyəsində olmuşdur. Amma qeyri-şüuri olaraq, tədriclə aldadıcı şeytani həvəslərə düçar olmuş və həyat aramlığını əldən vermişdir. Yuxarıdakı ayə Peyğəmbərin (ə) zövcələrinə naməhrəmlə hər növ nazlı danışığı yasaq edir və onlara danışarkən ədəbli və mətanətli olmağı əmr edir.

**Hədis:** İslam peyğəmbəri (s): “Qadınlarla danışmaqdan çəkin! Həqiqətən, elə bir kişi yoxdur ki, naməhrəmlə danışsın, amma ürəyində ona rəğbət və meyl yaranmasın” (Nəhcül-fəsahə, hədis: 1004).

## Dördüncü fəsil

## Bəzi iqtisadi hökmlər

Aşağıdakı mövzuları ehtiva edir:

- Məşğulluq (qazanc) qaydaları
- Alış-veriş hökmləri
- İnfaq və onun şərtləri

## 336

## Məşğulluq (qazanc) qaydaları

### 1. Haram qazancdan çəkinmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَأْكُلُوا أَمْوَالَكُمْ بَيْنَكُمْ بِالْبَاطِلِ إِلَّا أَنْ تَكُونَ تِجَارَةً عَنْ تَرَاضٍ مِنْكُمْ ...

Ey iman gətirənlər! Qarşılıqlı razılıqla aparılan ticarət istisna olmaqla mallarınızı öz aranızda haqsız yerə yeməyin ... (Nisa, 29).

**İzah:** İslam, halal qazanc mövzusuna çox önəm vermiş və bəndələri də qazanc yerlərinə diqqət etməyə səsləmişdir. Peşələr də beş qrupa – haram, məkruh, mübah, müstəhəb və vacibə bölünür ki, fiqh kitablarında geniş izahı verilmişdir. Müsəlmanların peşə və gəlir növünü seçməkdə nəzərə almalı olduqları ən mühüm məsələ onun halal və ya haram olmasıdır. Haram qazanc insanın süfrəsinə haram loğma gəlməsinə səbəb olur və süfrə başında oturanlar onun təbii və dağıdıcı nəticəsindən ziyan çəkirlər. Bundan başqa, haram bir əməli gün ərzində davam etdirmək – yəni haram məşğuliyyət – insan ruhunun da harama öyrəşməsinə və insanın imanının dinin digər sahələrində də sarsılmasına gətirib çıxarır. Qeyd edək ki, yuxarıdakı ayə öncə möminlərə haram yeməyi qadağan edir, daha sonra isə alış-verişdə tərəflərin razılığının zəruri olmasını təkidlə çatdırır.

**Hədis:** İsam peyğəmbəri (s): “İbadət yetmiş hissədən ibarətdir. Onların ən üstünü halal qazancdır” (Kafi, c. 5, hədis: 78, hədis: 6).

## 337

## 2. Ruzi qazanmaq üçün çalışmaq

هُوَ الَّذِي جَعَلَ لَكُمُ الْأَرْضَ ذَلُولًا فَامْشُوا فِي مَنَاكِبِهَا وَكُلُوا مِنْ رِزْقِهِ وَإِلَيْهِ النُّشُورُ

Yeri sizin ixtiyarınıza verən Odur. Onun hər səthində gəzin və (Allahın) ruzisindən yeyin. Qayıdış da Onadır (Mulk, 15).

**İzah:** Quran işə çox önəm vermişdir. Doğrudur, Allah ruzi verəndir. Amma O, bəndələrinin ruzi qazanmaq üçün çalışmasını və bu sahədə üzərlərinə düşən məsuliyyəti həyata keçirməsini istəmişdir. Demək, təvəkkül, Allahın ruzi verən olmasına etimad etmək ruzi qazanmaq üçün çalışmamaq və əziyyət çəkməmək demək deyil. İslam məntiqində işin savabı - əgər Allaha görə olarsa, - Allah yolunda cihada bərabərdir. İslama görə, yaxşı və uyğun iş gəliri yaxşı olan və ya daha yaxşı ictimai nüfuzu olan iş deyil. Əksinə, işin və uyğun qazancın yeganə meyarı halal ruzi qazanmaqdır. İlahi peyğəmbərlər (ə) yüksək məqam və nüfuz sahibi olmalarına, Allahın ruzi verməsinə inanmalarına və təvəkkül etmələrinə baxmayaraq, fəhləlik, dülgərlik, çobanlıq və s. kimi işləri görməkdən çəkinməmiş və ruzi qazanmağı ən üstün ibadətləri hesab etmişlər.

**Hədis:** İmam Əli (ə): “Ruzini axtarın. Çünki ruzi onu axtaran üçün zəmanətlənmişdir” (İrşad, c. 1, səh. 303).

## 338

### 3. İşdə öhdəçilik və ixtisas

قَالَ اجْعَلْنِي عَلَىٰ خَزَائِنِ الْأَرْضِ إِنِّي حَفِيظٌ عَلِيمٌ

O dedi: “Bu yerin xəzinələrini (qorumağı) mənə tapşır. Çünki mən qoruyanam, (bu işi) bilənəm” (Yusuf, 55).

**İzah:** Öhdəlik və ixtisas işdə müvəffəqiyyət və inkişaf üçün iki zəruri amildir. Həm camaat məsul şəxsləri seçərkən bu iki göstəricini nəzərə almalıdır, həm də məsul şəxslər və sahibkarlar öz müdir və işçilərinin öhdəçi və mütəxəssis olduğunu dəqiqləşdirməli və ləyaqətlərinə uyğun olaraq müxtəlif vəzifələri fərdlərə tapşırmalıdırlar. Həmçinin, xalq özü də öz peşələrində hər iki dirəyə önəm verməlidir ki, İslam cəmiyyəti inkişaf etsin.

Yuxarıdakı ayədə həzrət Yusif (ə) Misir padşahına təklif edir ki, onu ölkəsinin xəzinədarı təyin etsin. Çünki həm əmanətdardır, həm də lazımi məlumat və biliyə malikdir. Bu, cəmiyyətin idarəsində ixtisasa yer verilməsinin bir nümunəsidir. Həmçinin, xalqa xidmətin və onların iqtisadi problemlərini həll etməyin fəzilətindən xəbər verir. Çünki Yusif (ə) özü bu təklifi irəli sürdü və bu yolda padşahın kafir və xalqın əsas hissəsinin dinsiz olmasını da nəzərə almadı.

**Hədis:** İmam Cavad (ə): “(Lazımi) savadı olmadan işləyən, düzəltməkdən daha çox dağıdır” (Kafi, c. 1, səh. 44, hədis: 344).

**339**

## 4. İşi möhkəm görmək

آتُونِي زُبَرَ الْحَدِيدِ حَتَّىٰ إِذَا سَاوَىٰ بَيْنَ الصَّدَفَيْنِ قَالَ انْفُخُوا حَتَّىٰ إِذَا جَعَلَهُ نَارًا قَالَ آتُونِي أُفْرِغْ عَلَيْهِ قِطْرًا

Mənə (böyük) dəmir parçaları gətirin! Nəhayət, dağın iki yamacı arasını (dəmir parçaları ilə) doldurduqda: “Körükləyin!” – dedi. (Dəmir) közərən kimi: “Gətirin mənə, onun üstünə ərimiş mis töküm!” – dedi (Kəhf, 96).

**İzah:** İşi möhkəm və qaydasında görmək peşə əxlaqının zəruri prinsiplərindəndir. Doğrudur, bəzi müsəlmanların əməli bu dini göstərişin əksinədir. Amma bilmək lazımdır ki, bizim dini mədəniyyətimizdə bu mətləb üzərində çox dayanılmışdır. Allah-Taala özü yaradılışda işi möhkəm və lazımi qaydada görməyin nümunəsini bəndələrinə nümayiş etdirmişdir.

Bu ayələr Zülqərneyn səddinin inşası ilə bağlıdır. Belə ki, bu ilahi peyğəmbər (ə) onu bəzi zəif xalq təbəqəsinin istəyi ilə inşa etdi. O, səddin inşası üçün böyük dəmir parçalarından istifadə etdi. Bu parçalar bir-birinə yaxşı qaynaqlansın deyə onları odda əritdi və səddin ömrü uzun olsun, hava və yağışa davamlı olsun deyə onu miss layları ilə örtdü ki, dəmirin çürüməsinin də qarşısını alsın. Beləcə, çox möhkəm bir sədd ortaya çıxdı. O ilahi peyğəmbərin (ə) bu əməli möminlərin işləri lazımi qaydada yerinə yetirməsi üçün yaxşı bir örnək olmalıdır.

**Hədis:** İslam peyğəmbəri (s): “Sizdən biri bir iş gördükdə onu möhkəm və qüsursuz görsün” (Kafi, c. 3, səh. 363, hədis: 45).

## 340

## Alış-veriş hökmləri

### 1. Alış-verişin şəriətə uyğun olması tələbi

...وَأَحَلَّ اللَّهُ الْبَيْعَ وَحَرَّمَ الرِّبَا ...

Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir (Bəqərə, 275).

**İzah:** Qurani-kərim elə bir kitabdır ki, insanın heç bir maddi və mənəvi ehtiyacını nəzərdən qaçırmamışdır. İslamın ictimai və iqtisadi hökmləri də Quran ayələrinin nəzərə çarpacaq hissəsini özünə ayırmışdır. Bu hökmlər digər ilahi əmrlər kimi Tək və Bilici Allah tərəfindən çıxarılmış və (buna görə də) ona iman gətirilməli, əməl edilməlidir. Yuxarıdakı ayə Quranın alış-verişlə bağlı əhatəli və həlledici ayələrindən biridir. Bu ayədən aşağıdakı bir neçə hökm aydın olur: 1. Şəriətə uyğun alış-veriş aparmaq və şəriətə uyğun olmayan alqı-satqıdan çəkinmək; 2. Sələmin haram olması; 3. Alış-verişin və digər əmtəə mübadilələrinin halal olması. Ümumilikdə İslam, məntiqli və cəmiyyətin könlüncə olan hər bir alqı-satqı əməliyyatını təsdiq etmişdir. Məsələn, alış-veriş, icarə, müzarəbə və s. Digər tərəfdən isə ümumi kütlənin baxışında ağıla və məntiqə uyğun olmayan, yaxud şəriət baxımından sonda cəmiyyətin iqtisadi və mədəni ziyanına olacaq hər bir əməliyyat yasaqlanmışdır. Birinci qrupa daxil olan əməliyyatların nümunəsi nadir əşyaların alqı-satqısı, ikinci qrupa daxil olan əməliyyatların nümunəsi isə sələm, kefləndirici içkilərin alınıb-satılmasıdır.

**Hədis:** İmam Əli (ə): “Ey tacirlər! Öncə (alış-veriş) hökmlərini öyrənin, sonra ticarət edin. Öncə hökmlər, sonra ticarət, öncə hökmlər, sonra ticarət” (Kafi, c. 5, səh. 150, hədis: 1).

**341**

## 2. Müqaviləyə vəfadar qalmaq

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَوْفُوا بِالْعُقُودِ...

Ey iman gətirənlər! (Fərdi, ictimai, siyasi, iqtisadi və s.) əhdlərinizi yerinə yetirin... (Maidə, 1).

**İzah:** Bu ayə Quranın digər mühüm ayələrindən biridir. Onunla bir çox maddi və iqtisadi hökmlər əsaslandırılmışdır. “عقد” (əqd) sözü möhkəm və etibarlı əhd deməkdir. Yəni tərəflərin möhkəm öhdəlik götürdüyü əhd-peyman deməkdir. Demək, ayənin mənası budur ki, möminlər – dini, ictimai, siyasi və iqtisadi əhd-peymanlar daxil olmaqla – bütün müqavilələrə sadiq olmalıdırlar. İslam iqtisadi fiqhində bu ümumi hökm “əqdə vəfanın vacib olması” və ya “alış-verişin keçərliliyi qaydası” adları ilə verilmişdir. Bu fiqhi qaydaya əsasən, alqı-satqının tərəflərinin heç biri onu poza bilməz. Bu, yalnız şəriətin özündə aydın göstərilən hallarda mümkündür.

**Hədis:** İmam Sadiq (ə): “Müsəlmanlar Allahın kitabına uyğun olduğu təqdirdə şərtlərinə sadiqdirlər (Şərtlərinə tam diqqət və ona əməl etməlidirlər)” (Kafi, c. 5, səh. 169, hədis: 1).

## 342

### 3. Sələmi tərk etmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَذَرُوا مَا بَقِيَ مِنَ الرِّبَا إِنْ كُنْتُمْ مُؤْمِنِينَ فَإِنْ لَمْ تَفْعَلُوا
فَأْذَنُوا بِحَرْبٍ مِنَ اللَّهِ وَرَسُولِهِ وَإِنْ تُبْتُمْ فَلَكُمْ رُءُوسُ أَمْوَالِكُمْ لَا تَظْلِمُونَ وَلَا تُظْلَمُونَ

Ey iman gətirənlər. Allahdan qorxun və əgər möminsinizsə, sələmdən qalan faizi almayın. Bunu etməsəniz, Allahın və Onun elçisinin sizə müharibə elan etdiyini bilin. Yox, əgər tövbə etsəniz, sərmayəniz sizindir. Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar (Bəqərə, 278-279).

**İzah:** Daha öncə qeyd etdik ki, İslam bütün kütlənin xoşuna gələn, uzun müddət ərzində iqtisadi və mədəni ziyan vurmayan hər növ alqı-satqını və müqaviləni təsdiq etmişdir. Buna görə də bir çox Quran ayəsi müsəlmanlara sələmli alış-verişi qadağan etmişdir. Çünki həm cəmiyyətin iqtisadi tarazlığının pozulmasına səbəb olur, həm məşğulluq sahəsində dinamikliyi və inkişafı təhlükəyə atır, həm də çox pis mədəni və psixi nəticələr doğurur. Quran bəzən – "Bəqərə" surəsinin 275-ci ayəsi kimi – sələmçiləri fiziki və psixi tarazlığını itirmiş dəlilərə bənzətmişdir. Bəzən də – yuxarıdakı ayə kimi – sələmçiliyi Allah və elçisi ilə aşkar müharibə adlandırmışdır.

**Hədis:** İslam peyğəmbəri (s): "Allah, sələm yeyəni, sələm verəni, yazanı və şahidlik edəni lənətləmişdir" (Əmali, Səduq, səh. 425, hədis: 1).

## 343

## 4. Çəkidə aldatmamaq

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ وَيْلٌ لِلْمُطَفِّفِينَ الَّذِينَ إِذَا اكْتَالُوا عَلَى النَّاسِ يَسْتَوْفُونَ وَإِذَا كَالُوهُمْ أَوْ وَزَنُوهُمْ يُخْسِرُونَ أَلَا يَظُنُّ أُولَٰئِكَ أَنَّهُمْ مَبْعُوثُونَ لِيَوْمٍ عَظِيمٍ يَوْمَ يَقُومُ النَّاسُ لِرَبِّ الْعَالَمِينَ

Çəkidə və ölçüdə aldadanların vay halına! O kəslərin ki, camaatdan (bir şey) aldıqda (onu) tam almaq istəyərlər, onlar üçün (bir şey) ölçdükdə və ya çəkdikdə (onu) ziyana salarlar. Onlar dirildiləcəklərini fikirləşmirlərmi? (Həm də) əzəmətli bir gündə. O gündə ki, insanlar aləmlərin Rəbbinin qarşısında dayanacaqlar. (Mutəffifin, 1-6).

**İzah:** İslamda ticarətin özünəməxsus şərtləri, qaydaları və hökmləri vardır ki, onlara riayət etmək malın paklanmasına və ruzinin artmasına səbəb olur. Böyük İslam öndərləri daim tacirləri bu hökm və qaydalarla tanış etmiş, onlara ona riayət etməyi tövsiyə etmişlər. Ticarət hökmlərindən biri alqı-satqı zamanı insaflı olmaq, baha satmaqdan çəkinmək və ya başqalarını aldatmamaqdır. “Mutəffifin” surəsinin ilk ayələri digər bir çox Quran ayəsi ilə yanaşı bu mətləbə işarə edir. Bu ayələrə diqqət etmək hər bir yatmış vicdanı oyadacaqdır.

**Hədis:** İmam Sadiq (ə): “Çəkmək o zaman kamil olur ki, tərəzinin gözü ağır gəlsin” (Kafi, c. 5, səh. 159, hədis: 1).

344

### 5. Alış-verişdə insaflı olmaq

وَأَوْفُوا الْكَيْلَ إِذَا كِلْتُمْ وَزِنُوا بِالْقِسْطَاسِ الْمُسْتَقِيمِ ۚ ذَٰلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلًا

Ölçdükdə ölçüyə tam riayət edin, (çəkdikdə) düzgün tərəzi ilə çəkin. Bu, daha xeyirli və nəticə baxımından daha yaxşıdır (İsra, 35).

**İzah:** Az çəkmək, alış-verişdə aldatmaq Quran və rəvayətlərdə kəskin məzəmmət olunan günahlardandır. Təəssüflər olsun ki, bu günahlar cəmiyyətdə çox geniş yayılmış və onların doğurduğu ziyanlı və dağıdıcı mədəni-iqtisadi nəticələr nəzərdən yayınmışdır. Şüeyb (ə) qövmünün əhvalatına nəzər saldıqda görürük ki, bu qövmün ən mühüm əxlaqi çöküş amili alqı-satqıda insafa riayət etməmək idi. Odur ki, İslam cəmiyyəti də bu acı tarixi hadisədən dərs almalı, bu böyük iqtisadi afət qarşısında ayıq-sayıq olmalıdır. Yuxarıdakı ayə bu sahədə mühüm və təsirli bir həqiqətə işarə edir və bildirir ki, ticari əməliyyatı yaxşı yerinə yetirmək, onun hökm və qaydalarına riayət etmək fərd və cəmiyyət üçün çox faydalıdır. Çünki sərmayə və ticarət bazarına etibar qazandırır, alış-verişin rövnəq tapmasına səbəb olur və iqtisadi ədalətin bərqərar olması üçün daha yaxşı zəmin yaradır.

**Hədis:** İmam Sadiq (ə): Ey tacirlər! Yalan danışmaqdan çəkinin. Zülm etməkdən çəkinin. Məzlumlarla insaf və ədalətlə davranın” (Kafi, c. 5, səh. 151, hədis: 3).

## 345

## İnfaq və onun şərtləri

### İnfaq və sədəqə tövsiyəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِمَّا رَزَقْنَاكُمْ مِنْ قَبْلِ أَنْ يَأْتِيَ يَوْمٌ لَا بَيْعٌ فِيهِ وَلَا خُلَّةٌ وَلَا شَفَاعَةٌ وَالْكَافِرُونَ هُمُ الظَّالِمُونَ

Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün gəlməmişdən öncə sizə verdiyimiz ruzidən (Allah yolunda) xərcləyin! Kafirlər isə zalımdırlar (Bəqərə, 254).

**İzah:** Yoxsullara əl tutmaq, ehtiyacı olanlara yardım etmək (infaq) möminlərin ən gözəl özəlliklərindəndir. Buna görə də dini mətnlərdə çox diqqət göstərilmişdir. İnfaqın ən mühüm fərdi nəticələri mala bərəkət verilməsi və artması, bəladan uzaqlaşmaq, nəfsin paklanması və saflanması, günahların bağışlanması və s. İnfaqın ən mühüm ictimai nəticələri isə bunlardır: İslam cəmiyyətində yoxsulluğun aradan qalxması, iqtisadi və ictimai ədalətin bərqərar olması, iqtisadi sistemin dinamikliyi və inkişafı, cəmiyyətin tələf olmaq və fəsada sürüklənməkdən qorunması və s. Yuxarıdakı ayədə Allah möminlərə əmr etmişdir ki, Allahın bəxş etdiyi nemətlərdən vacib və ya müstəhəb) infaq etsinlər. Beləliklə, öz axirətləri üçün azuqə tədarükü görsünlər. Ayənin son ibarəsi də bu mətləbə işarədir ki, infaqı tərk edənlər kafirlər və özünə zülm edənlər zümrəsindədirlər.

**Hədis:** İmam Əli (ə): “Hər kəsin dünyadan nəsibi öz Axirəti üçün infaq etdiyi qədərdir” (Qürərul-hikəm, c. 5, səh. 87, hədis: 7516).

## 346

## İnfaqın mükafatı

مَثَلُ الَّذِينَ يُنْفِقُونَ أَمْوَالَهُمْ فِي سَبِيلِ اللَّهِ كَمَثَلِ حَبَّةٍ أَنْبَتَتْ سَبْعَ سَنَابِلَ فِي كُلِّ سُنْبُلَةٍ مِائَةُ حَبَّةٍ وَاللَّهُ يُضَاعِفُ لِمَنْ يَشَاءُ وَاللَّهُ وَاسِعٌ عَلِيمٌ

Mallarını Allah yolunda xərcləyənlərin məsəli yeddi sünbül verən bir toxumun məsəlinə bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah dilədiyi kimsənin (mükafatını) artırar. Allah (hər şeyi) Əhatə edəndir, Biləndir (Bəqərə, 261).

**İzah:** İnfaq və yoxsullara əl tutmağın çox sayda maddi və mənəvi nəticələri vardır. Bir çox Quran ayələri möminləri buna rəğbətləndirmək üçün nazil olmuşdur. İnfaqı tərk etməyin bəhanələrindən biri gələcəkdə yoxsul olma qorxusudur. Quranın təbiri ilə desək, Şeytan bu qorxu-hürkünü insanda yaradır ki, onları infaqın yüksək fəzilətindən məhrum etsin (Bəqərə, 268). Digər tərəfdə isə Allah-Taala Quranın çox sayda ayəsində infaq edənlərə vəd vermişdir ki, nəinki verdiklərini onlara geri qaytaracaq, hətta onlara onun neçə qatını bəxş edəcək. Ayə və rəvayətlərdə bu mətləb üzərində o qədər dayanılmışdır ki, hətta yoxsul və ehtiyaclı insanlara da Allah onların malına bərəkət versin, onlara Öz lütfünü bəxş etsin deyə infaq etmək tövsiyə olunmuşdur.

**Hədis:** İslam peyğəmbəri (s): “İnsanın malı heç vaxt sədəqə verməklə azalmaz. Elə isə qorxmayın, verin” (Nəvadir, Ravəndi, səh. 3).

## 347

## İnfaqın bəzi şərtləri və qaydaları

### 1. İmkanı olanda və olmayanda infaq etmək

لِيُنْفِقْ ذُو سَعَةٍ مِنْ سَعَتِهِ وَمَنْ قُدِرَ عَلَيْهِ رِزْقُهُ فَلْيُنْفِقْ مِمَّا آتَاهُ اللَّهُ لَا يُكَلِّفُ اللَّهُ نَفْسًا إِلَّا مَا آتَاهَا سَيَجْعَلُ اللَّهُ بَعْدَ عُسْرٍ يُسْرًا

Var-dövlət sahibi öz varına görə xərcləsin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi (nemətdən) artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir (Talaq, 7).

**İzah:** İnfaqın da digər bir çox ibadətlər kimi bir sıra şərtləri və qaydaları vardır ki, Quranda və rəvayətlərdə işarə olunmuşdur. İnfaq mövzusunun önəminə və bu şərtlərin əxlaqi fəzilətlərə təsirinə görə, bir neçəsini diqqətinizə çatdırırıq. İnfaqın qaydalarından biri odur ki, möminlər yalnız imkanları olanda infaq etməsinlər. Əksinə, yoxsul və sıxıntılı şəraitdə olduqda da bacardıqları qədər bu fəzilətə əməl etsinlər.

**Hədis:** İslam Peyğəmbəri (s): “Üç şey imanın həqiqətlərindəndir: Sıxıntıda olduqda infaq etmək, xalqa münasibətdə insaflı olmaq və öyrənmək istəyənə elm öyrətmək” (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 360, hədis: 5762).

## 348

### 2. Sədəqəni gizlətmək

إِنْ تُبْدُوا الصَّدَقَاتِ فَنِعِمَّا هِيَ وَإِنْ تُخْفُوهَا وَتُؤْتُوهَا الْفُقَرَاءَ فَهُوَ خَيْرٌ لَكُمْ وَيُكَفِّرُ عَنْكُمْ مِنْ سَيِّئَاتِكُمْ وَاللَّهُ بِمَا تَعْمَلُونَ خَبِيرٌ

Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar. (Allah) sizin bəzi günahlarınızdan keçər. Allah nə etdiklərinizdən xəbərdardır (Bəqərə, 271).

**İzah:** İnfaqın qaydalarından biri onu insanlardan gizlətməkdir. Bu, həm yoxsulların heysiyyətini qorumağa səbəb olur, həm də infaq edənin əməlinin ixlasını artırır. Hərçənd, şərait tələb edir ki, başqalarını yaxşı iş görməyə rəğbətləndirmək və cəmiyyətdə infaqı yaymaq üçün yoxsullara aşkar şəkildə infaq edilsin və sədəqə verilsin. Buna görə də yuxarıdakı ayədə infaqın hər iki forması yaxşı və gözəl hesab olunmuşdur. Baxmayaraq ki, sədəqənin gizlində verilməsi tövsiyə olunmuşdur. Qeyd edək ki, İmam Baqirdən (ə) nəql olunan bir rəvayətə görə, vacib zəkatın aşkar, müstəhəb zəkatın (sədəqənin) isə gizli verilməsi tövsiyə olunmuşdur (Kafi, c. 4, səh. 60, hədis: 1). Güman ki, buna səbəb müstəhəb işlərdə riyaya aludə olmaq təhlükəsinin çox olmasıdır.

**Hədis:** İmam Sadiq (ə): "Vacib zəkatı aşkara çıxarın və aşkara ödəyin. Ondan başqasını isə (yəni müstəhəb zəkatları) gizlində versəniz daha yaxşıdır" (Təfsiri-Qumi, c. 1, səh. 92).

349

## 3. Sədəqəni həqiqi ehtiyaclılara vermək

لِلْفُقَرَاءِ الَّذِينَ أُحْصِرُوا فِي سَبِيلِ اللَّهِ لَا يَسْتَطِيعُونَ ضَرْبًا فِي الْأَرْضِ يَحْسَبُهُمُ
الْجَاهِلُ أَغْنِيَاءَ مِنَ التَّعَفُّفِ تَعْرِفُهُمْ بِسِيمَاهُمْ لَا يَسْأَلُونَ النَّاسَ إِلْحَافًا وَمَا تُنْفِقُوا مِنْ خَيْرٍ
فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ

(Sədəqə) Allah yolunda cihad edən və yer üzündə hərəkət edə bilməyən yoxsullar üçündür. (Bu adamlar) həya edib dilənmədiklərinə görə tanımayan adam onları varlı hesab edir. Sən onları üzlərindən tanıyırsan. Onlar insanlardan israrla (bir şey) istəməzlər. Şübhəsiz ki, Allah malınızdan nə sərf etdiyinizi bilir (Bəqərə, 273).

**İzah:** İnfaqın qaydalarından biri də sədəqəni həqiqətən ehtiyacı olanlara verməkdir. O kəslər ki, həyat xərclərini təmin edə bilməmələrinə baxmayaraq, çox həyalı olduqları üçün kimsəyə əl açmır, ehtiyaclarını bildirmirlər. Əlbəttə, qeyd etmək lazımdır ki, yoxsulların vəziyyətini araşdırmaq xeyirxahların missiyası deyil. Həmçinin, yuxarıdakı ayədən aydın olur ki, dilənmək xoşagəlməz işdir.

**Hədis:** İslam peyğəmbəri (s): “Sədəqə ehtiyacı olmayana halal deyil” (Məanil-əxbar, səh. 262, hədis: 1).

**350**

## 4. Ən sevdiyin mallarından infaq etmək

لَنْ تَنَالُوا الْبِرَّ حَتَّىٰ تُنْفِقُوا مِمَّا تُحِبُّونَ وَمَا تُنْفِقُوا مِنْ شَيْءٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ

Sevdiyiniz şeylərdən (Allah yolunda) xərcləməyincə xeyrə nail olmayacaqsınız. Sizin nə xərclədiyinizi, şübhəsiz ki, Allah bilir (Ali-İmran, 92).

**İzah:** Yaxşılıq və infaqın həqiqəti o zaman kamilləşir ki, xeyirxah insan sevdiyi şeyi infaq etsin (Allah yolunda versin). Yoxsa, ehtiyacı olmayan bir şeyi etinasızlıqdan yoxsullara verməsin. Bu o deməkdir ki, insanın həqiqi imanı və ixlası Allahın razılığı yolunda qəlbinin meyl etdiyi və maddi baxımdan rəğbət bəslədiyi şeylərdən keçməklə ölçülür. "Bəqərə" surəsinin 276 və 177-ci ayələrində, eləcə də "İnsan" surəsinin 8-ci ayəsində bu mətləbə işarə olunmuşdur.

**Hədis:** İmam Sadiq (ə) şəkər sədəqə verirdi. Ona dedilər: "Şəkərmi sədəqə verirsən?" Buyurdu: "Bəli, şəkəri hər şeydən daha çox sevirəm və buna görə də ən çox sevdiyim şeydən sədəqə vermək istəyirəm" (Kafi, c. 4, səh. 61, hədis: 3).

**351**

## 5. İxlasa diqqət və riyadan çəkinmək

الَّذِينَ يَبْخَلُونَ وَيَأْمُرُونَ النَّاسَ بِالْبُخْلِ وَيَكْتُمُونَ مَا آتَاهُمُ اللَّهُ مِنْ فَضْلِهِ وَأَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا مُهِينًا

O kəslər ki, xəsislik edir və insanları da xəsisliyə sövq etdirirlər, Allahın Öz lütfündən onlara verdiyini gizlədirlər. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq (Nisa, 38).

**İzah:** Riya və özünü göstərmək hər bir əməli puça çıxarır. İnfaq və maddi yaxşılığın ən mühüm afəti nəfsani meyllərin, özünəvurğunluğun, bəzən də başqalarından tərif gözləməyin tələsinə düşməkdir. Buna görə də əməldə ixlaslı olmaq – xüsusilə müstəhəb ibadətlərdə ixlaslı olmaq – çox çətindir. Çünki onu başqalarının gözündən uzaq etdikdə öz nəfsinə xoş gəlmək üçün ola bilir və ücbə, xudpəsəndliyə səbəb olur. Sözügedən ayə bu həqiqəti vurğulayır ki, riya və özünü göstərmək üçün olunan infaqın heç bir faydası yoxdur. Bu ayədə digər ibrətli məqamlar da vardır: 1. Riyakar Allaha və Qiyamət gününə inanmır. Çünki insanlara xoş gəlmək, onların təqdirini qazanmaq və savabını onlardan almaq istəyir. 2. Riyakar Şeytanın həmdəmi və həmrəyidir. Bu elə bir həmdəmlik və yoldaşlıqdır ki, riyakarın tamamilə məhv olması və əbədi ziyana uğramasından başqa bir şey düşünmür.

**Hədis:** İslam peyğəmbəri (s): “Heç bir bəndə Allah üçün gördüyü işlərə görə xalqın onu tərifləməməsini istəmədikcə ixlasın həqiqətinə çatmaz” (Məcməül-bəyan, c. 1, səh. 409).

352

## 6. Minnət qoymaqdan və danlamaqdan çəkinmək

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تُبْطِلُوا صَدَقَاتِكُمْ بِالْمَنِّ وَالْأَذَىٰ كَالَّذِي يُنْفِقُ مَالَهُ رِئَاءَ النَّاسِ
وَلَا يُؤْمِنُ بِاللَّهِ وَالْيَوْمِ الْآخِرِ فَمَثَلُهُ كَمَثَلِ صَفْوَانٍ عَلَيْهِ تُرَابٌ فَأَصَابَهُ وَابِلٌ فَتَرَكَهُ صَلْدًا
لَا يَقْدِرُونَ عَلَىٰ شَيْءٍ مِمَّا كَسَبُوا وَاللَّهُ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

Ey iman gətirənlər! Sədəqələrinizi, özünü camaata göstərmək məqsədilə xərcləyən, Allaha və Axirət gününə inanmayan şəxs kimi minnət qoymaqla və əziyyət verməklə puç etməyin. Bunun məsəli üzərində torpaq olan hamar qayanın məsəlinə bənzəyir ki, şiddətli yağış yağıb onu çılpaq hala salmışdır. Onlar qazandıqlarından heç bir şeyə nail olmazlar. Allah kafir xalqı doğru yola yönəltməz (Bəqərə, 264).

**İzah:** İnfaqın afətlərindən biri yoxsullara minnət qoymaq və onlara kömək etdiyini xatırlatmaqdır. Bu afət insanların xudpəsənd və riyakar ruhundan mənşə alır. Onlar gözləyirlər ki, başqaları onların yaxşı əməllərini mədh etsinlər, onları tərifləsinlər. Quran dəfələrlə möminləri bu xoşagəlməz əxlaqdan çəkindirmiş və minnətlə olunan yaxşılığı hamar qayaya bənzətmişdir. Hansı ki onun üzərinə toxum səpilməsinə və yağışın yağmasına baxmayaraq, onda heç bir bitki bitmir. Çünki onda bitki bitməsi üçün lazımi şərait yoxdur.

**Hədis:** İslam peyğəmbəri (s): “Kim bir möminə yaxşılıq etsə, sonra onu öz sözü ilə incitsə və ya ona minnət qoysa, Allah onun sədəqəsini batil edər” (Təfsiri-Qumi, c. 1, səh. 91).

## 353

### 7. Diləndçini yola salarkən xoş üz göstərmək

قَوْلٌ مَعْرُوفٌ وَمَغْفِرَةٌ خَيْرٌ مِنْ صَدَقَةٍ يَتْبَعُهَا أَذًى وَاللَّهُ غَنِيٌّ حَلِيمٌ

Xoş söz demək və xətaları bağışlamaq, minnətlə verilən sədəqədən daha yaxşıdır. Allah Zəngindir, Həlimdir (Bəqərə, 263).

**İzah:** Bir çox hallarda insanlar yoxsullara kömək zamanı turş üz göstərir, onlarla ikrahla davranır və ya ona sədəqəni xərcləmək üçün uyğunsuz şərt qoyur. Bu iş din təlimlərində kəskin pislənmiş və sədəqənin özünü də puça çıxartdığı bildirilmişdir. İslamın etik məntiqində yoxsulun izzətini qorumaq ona yardım etməkdən daha mühümdür. Sədəqə qaydalarına görə, yaxşı olar ki, sədəqə verən dilənçi istəmədən qabaq ona yardım etsin. Əlini onun əlindən yuxarı tutmasın. Əksinə, əlini açsın və yoxsul özü əlindən götürsün. Elə bir şey versin ki, onun izzətini daha çox qorusun. Məsələn, pul əvəzinə ehtiyacı olan əmtəəni alsın və hədiyyə versin və s. Quran, xoşüzlülük və ehtiyacı olanların heysiyyətinin qorunmasını – hətta ona kömək etmədikdə belə – minnətli köməkdən və qaşqabaq sallamaqdan daha yaxşı hesab edir.

**Hədis:** İslam peyğəmbəri (s): “Yoxsul bir şey istəyəndə qoyun sözü bitsin. Sözünü kəsməyin. Sonra onun ehtiyacını hörmət və mülayimliklə təmin edin və ya bir şey verin. Çünki bəzən nə insan, nə də cin olmayan kimsə gəlir və Allahın sizə verdiyi ilə necə davrandığınızı görmək istəyir” (Məcməül-bəyan, c. 2, səh. 648).

**354**

## 8. İnfaqda mötədilliyi qorumaq

وَلَا تَجْعَلْ يَدَكَ مَغْلُولَةً إِلَىٰ عُنُقِكَ وَلَا تَبْسُطْهَا كُلَّ الْبَسْطِ فَتَقْعُدَ مَلُومًا مَحْسُورًا

Əlini nə qoynunda gizlət, nə də onu büsbütün aç (nə xəsis ol, nə də israfçı). Yoxsa qınanmış və peşman vəziyyətdə qalarsan (İsra, 29).

**İzah:** İnfaqın – Quranın da xüsusi diqqət ayırdığı – ən mühüm qaydalarından biri etidala riayət etməkdir. Etidal və orta yol bütün əməllərdə – hətta ibadətdə də – zəruridir. İnfaqda mötədillik hər kəsin öz iqtisadi vəziyyətinə və öz zəruri ehtiyaclarına nəzərən başqalarına kömək etməsi deməkdir. Buna riayət etmək fərdin asayiş və aramlığına, ictimai və iqtisadi çatışmazlıqların həll olunmasına səbəb olur. Quran iqtisadiyyatda mötədilliyi layiqli bəndələrinin bariz xüsusiyyətlərindən biri hesab edir (Furqan, 67). Bu ayədə Peyğəmbərə (s) göstəriş verilmişdir ki, infaq məsələsində nə infaqdan qalacaq qədər xəsislik etsin, nə də özünü hər şeydən məhrum edəcək dərəcədə əliaçıq olsun. Nəzərə almaq lazımdır ki, insanların bu ayəyə əməldə də iman dərəcələri fərqlidir. Ola bilər ki, bəziləri Əhli-Beyt (ə) kimi yoxsula əl tutmaq üçün öz şam yeməyindən də keçsin. Çünki birincisi, imanları çox yüksəkdir. İkincisi, Allaha iman və təvəkkülləri kamildir.

**Hədis:** İslam peyğəmbəri (s): “Allah yanında heç bir infaq mötədil infaq qədər sevimli deyil” (Mən la yəhzuruhul-fəqih, c. 2, səh. 279, hədis: 2446).

355

## 9. İnfaq prioritetlərinə riayət etmək

يَسْأَلُونَكَ مَاذَا يُنْفِقُونَ قُلْ مَا أَنْفَقْتُمْ مِنْ خَيْرٍ فَلِلْوَالِدَيْنِ وَالْأَقْرَبِينَ وَالْيَتَامَىٰ وَالْمَسَاكِينِ
وَابْنِ السَّبِيلِ وَمَا تَفْعَلُوا مِنْ خَيْرٍ فَإِنَّ اللَّهَ بِهِ عَلِيمٌ

Səndən (Allah yolunda) nə verəcəklərini soruşurlar. De: "Verəcəyiniz hər bir xeyir valideynlərə, qohum-əqrəbaya, yetimlərə, kasıblara və müsafirlərə aiddir. Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir" (Bəqərə, 215).

**İzah:** İnfaq nümunələri geniş olsa da, Allah-Taala, ictimai məsləhətləri nəzərə alaraq yoxsullara kömək etmək üçün prioritetlər qeyd etmişdir. Bu prioritetlərə riayət etmək də infaq qaydalarındandır. Belə ki, İmam Səccad (ə) "Məkarimul-əxlaq" duasında Allahdan onu buna hidayət etməsini istəyir. Bütün bu prioritetlərin başında ata-ana, daha sonra isə qohum-əqrəba dayanır. Maraqlı burasıdır ki, sözügedən ayədə Peyğəmbərdən (s) infaq nümunələri haqqında soruşulmuşdur. Amma Allah, infaq nümunələrinə işarə etməklə yanaşı (xeyir olan hər bir şey) infaqın prioritetlərinə də işarə etmişdir ki, daha mühüm məsələdir. Təəssüflər olsun ki, əksər möminlər buna riayət etməkdə diqqətsizlik edir, bəzən öz ehtiyaclı yaxınlarını görmür və köməklərini başqalarına yönləndirirlər.

**Hədis:** İslam peyğəmbəri (s): "Qohumun ehtiyacı olduqca başqa birinə sədəqə vermək olmaz" (Mən la yəhzuruhul-fəqih, c. 2, səh. 68, hədis: 1740).

356

## 10. İnfaqın davam etdirilməsi

وَالَّذِينَ فِي أَمْوَالِهِمْ حَقٌّ مَعْلُومٌ لِلسَّائِلِ وَالْمَحْرُومِ

O kəslər ki, onların mallarında dilənən və (həya edib) dilənməyən miskinlər üçün məlum bir haqq vardır. (Məaric, 24-25).

**İzah:** İnfaq da digər əxlaqi fəzilətlər kimi o zaman faydalı olur ki, daxili adətə çevrilsin və davamlı olsun. Bu ayədə Cənnət əhlinin sifətlərindən birinin bu olduğu bildirilmişdir ki, öz gəlirlərindən infaq üçün məlum və müəyyən bir pay ayırırlar. Bu əxlaqi fəzilət birincisi, müxtəlif iqtisadi hadisələrin onları infaqdan geri salmamasına səbəb olmuşdur. Çünki infaqa da digər cari xərcləri kimi baxırlar. İkincisi isə öz iqtisadi dəstəkləri altına daha çox yoxsulu almalarına və onları bu davamlı maddi yardıma arxayın etmələrinə gətirib çıxarır.

**Hədis:** İmam Sadiq (ə): – "məlum haqq" ifadəsini izah edərkən – : "Məqsəd odur ki, insan şəxsən özünə malından ayırıb ödəməyi vacib bilir. ... Hər gün, əgər istəsə, hər cümə günü və ya hər ay. Az və ya çox (fərqi yoxdur. Amma fərd onu davam etdirir" (Kafi, c. 3, səh. 499, hədis: 9).

## 357

## 11. “Gözəl borc” ənənəsinin yayılması

مَنْ ذَا الَّذِي يُقْرِضُ اللَّهَ قَرْضًا حَسَنًا فَيُضَاعِفَهُ لَهُ أَضْعَافًا كَثِيرَةً وَاللَّهُ يَقْبِضُ وَيَبْسُطُ وَإِلَيْهِ تُرْجَعُونَ

Kim Allaha gözəl bir borc verər (malından Allahın razılığını qazanmaq üçün ehtiyacı olanlara borc verər) ki, O da onun üçün bunu qat-qat artırsın? Allah (kimisinin ruzisini) azaldar, (kimisinin ruzisini də) artırar. Siz Ona qaytarılacaqsınız (Bəqərə, 245).

**İzah:** Vacib və müstəhəb infaqla yanaşı İslamın üzərində təkidlə dayandığı digər bir fəzilət də başqalarına borc vermək və “قرض الحسنة” (qərzul-həsənə) – gözəl borcdur. Belə ki, rəvayətlərə görə, onun savabı sədəqənin savabından on səkkiz dəfə çoxdur (Mən la yəhzuruhul-fəqih, c. 2, səh. 67, hədis: 1738). İnfaqın bütün fərdi və ictimai faydalarından başqa “qərzül-həsənə”nin də başqa faydaları vardır: 1. Yoxsulların heysiyyətinin qorunması və onlara hörmət göstərilməsi; 2. (Pulun özü geri döndüyünə görə) daha çox insana əl tutmaq; 3. Borcu alanda pul qazanmağa stimul yaranması; 4. Cəmiyyətin tənbəllikdən və başqalarına yük olmaqdan uzaqlaşmasına zəmin yaradılması; 5. Sələm və faiz üzərində qurulan digər iqtisadi sistemin müqabilində dini iqtisadi sistemin güclənməsi. Buna görə də Allah – mütləq mənada ehtiyacsız olduğu halda – bu əməli “Özünə borc” adlandırmışdır.

**Hədis:** İslam peyğəmbəri (s): “Müsəlman bir qardaşının borc üçün ehtiyacı olduğu kimsə, ona borc verə biləcəyi halda verməsə, Allah Cənnətin iyini ona haram edəcəkdir (Mən la yəhzuruhul-fəqih, c. 4, səhş 15, hədis: 4968).

**Beşinci fəsil**

**Bəzi siyasi hökmlər və qayda-qanunlar**

Aşağıdakı mövzuları ehtiva edir:

- Allahın xalq üzərində hakimiyyəti
- Şura və demokratiya
- İslam cəmiyyətinin vəhdəti
- İslam hökumətinin vəzifələri

## 358

## Allahın insanlar üzərində hakimiyyəti

يَا دَاوُودُ إِنَّا جَعَلْنَاكَ خَلِيفَةً فِي الْأَرْضِ فَاحْكُمْ بَيْنَ النَّاسِ بِالْحَقِّ وَلَا تَتَّبِعِ الْهَوَىٰ فَيُضِلَّكَ عَنْ سَبِيلِ اللَّهِ

Ey Davud! Biz səni yer üzündə xəlifə təyin etdik. Elə isə insanlar arasında ədalətlə hökm ver, nəfsin istəyinə uyma, yoxsa o səni Allahın yolundan azdırar... (Sad, 26).

**İzah:** Din, bəşər səadətinin əhatəli proqramıdır. Siyasət də bəşəri qanunların tənzimlənməsində ən təsirli məsələlərdəndir. Buna görə də qəbul etmək olmaz ki, İslam dininin ən mühüm kitabı – yəni Quran – siyasət və cəmiyyəti idarə etməklə bağlı ümumi məsələlərə diqqət etməmişdir. Peyğəmbərlərin (ə) həyat tərzi və onların tağut hakimlərlə mübarizəsi, həmçinin, onların bəzisinin, məsələn, Davudun (ə), Süleymanın (ə) və İslam peyğəmbərinin (s) dini hökumət qurması göstərir ki, dinin siyasətdən ayrı olması nəzəriyyəsi kökündən yanlış və əsassızdır. İslam, müxtəlif hökumət fərziyyələri arasından – şəxsin xalq üzərində hakimiyyəti və xalqın xalq üzərində hakimiyyəti – hakimiyyətin Allaha məxsus olduğunu bildirir. İslama görə, yeganə legitim hökumət forması Allahın xalq üzərindəki hakimiyyəti, yəni rəhbərliyini Allahın təyin etdiyi hökumətdir. İstər o rəhbər Peyğəmbər (s) olsun, istər imamlar (ə) olsun, istərsə də imamların ümumi canişinləri – din alimləri və vilayəti-fəqih olsun. Sözügedən ayə həzrət Davuda (ə) hakimiyyət verilməsini hekayət edir.

**Hədis:** İslam peyğəmbəri (s): “Allahın özünü şahənşah adlandıran kəsə qəzəbi tutur. (Çünki) hökmranlıq yalnız Allaha məxsusdur” (Kənzül-ümmal, c. 16, səh. 436, hədis: 45244).

## 359

## Şura və xalqın seçimi

... وَشَاوِرْهُمْ فِي الْأَمْرِ فَإِذَا عَزَمْتَ فَتَوَكَّلْ عَلَى اللَّهِ إِنَّ اللَّهَ يُحِبُّ الْمُتَوَكِّلِينَ

Görəcəyin işlər barədə onlarla məsləhətləş. Qəti qərara gəldikdə isə Allaha təvəkkül et! Həqiqətən, Allah təvəkkül edənləri sevir (Ali-İmran, 159).

**İzah:** Daha öncə də əziz İslam peyğəmbərinin (ə) özəlliklərindən danışarkən bu ayəyə işarə olundu. Burada yuxarıdakı ayənin siyasi və idari önəmi haqqında söhbət açacağıq. Bu ayədə Peyğəmbərə (s) xalqla məsləhətləşmək tövsiyə olunmuşdur. Ümumilikdə məşvərət etmək möminlərə xas sifətlərdən və insan zəkasının, intellektinin əlamətidir. Siyasi və ictimai məsələlərdə xalqın fikrini öyrənmək ikiqat önəmlidir. Çünki nəzərdə tutulan mövzu birbaşa onların özü ilə əlaqəlidir. Buradan aydın olur ki, dini sistemin siyasi quruluşu seçki və xalqın iradəsinə əsaslanır. Əlbəttə, ayədə də qeyd olunduğu kimi, xalqla məşvərət etmək hərc-mərcliyə və rəhbərliyin düşüncələrinin dağılmasına və onun qətiyyətinin sarsılmasına səbəb olmamalı, son qərarı rəhbər verməlidir (فَإِذَا عَزَمْتَ). Qeyd etmək lazımdır ki, dini xalqyönlülük demokratiya ilə fərqlidir. Çünki İslam məntiqində əksəriyyətin seçiminə o halda müraciət edilir ki, o mövzularda dinin birbaşa göstərişi yoxdur.

**Hədis:** İmam Əli (ə): “Məşvərətdən daha möhkəm dayaq və arxa yoxdur” (Kafi, c. 8, səh. 20, hədis: 4).

## 360

## İslam cəmiyyətinin vəhdəti

وَأَطِيعُوا اللَّهَ وَرَسُولَهُ وَلَا تَنَازَعُوا فَتَفْشَلُوا وَتَذْهَبَ رِيحُكُمْ وَاصْبِرُوا إِنَّ اللَّهَ مَعَ الصَّابِرِينَ

Allaha və Onun elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir (Ənfal, 46).

**İzah:** İslamın tövsiyə etdiyi siyasi məfhumlardan biri də müsəlmanların həmrəyliyi və yersiz siyasi gərginliklərdən çəkinməkdir. Bu mühüm islami təlim bir cəmiyyətin daxili və xarici düşmənlərinə qarşı ən zəruri müqavimət və dinamika ehtiyacıdır. Quran möminləri bir-birinin qardaşı adlandırır, onları problemlərə qarşı birləşməyə səsləyir. Hələ qədimdən İslam düşmənləri İslam məmləkətlərinə hökmranlıq etmək üçün təfriqə və münaqişə siyasətindən istifadə etmiş, din, məzhəb, irq və qəbilə münaqişələrini onların ən mühüm cari məsələlərinə çevirmişlər ki, onları əsas mövzulardan yayındırsınlar. Vəhdət əsla dini inanclardan əl çəkmək deyil. Əksinə, müştərək cəhətlər ətrafında birləşmək və sistemin yüksək mənafeləri istiqamətində müştərək düşmənlə mübarizə aparmaqdır. Cəmiyyətdə vəhdət mehvəri də möhkəm ilahi ip olan Quran olmalıdır (Ali-İmran, 103).

**Hədis:** İmam Əli (ə): “Bilin ki, Məhəmməd (s) ümmətinin vəhdət və birliyini məndən çox istəyən yoxdur. Mən bu işdə yaxşı mükafat və layiqli aqibət istəyirəm” (Nəhcül-bəlağə, məktub: 78).

## 361

## İslam hökumətinin vəzifələri

### 1. Dini və din hökmlərini icra etmək

الَّذِينَ إِنْ مَكَّنَّاهُمْ فِي الْأَرْضِ أَقَامُوا الصَّلَاةَ وَآتَوُا الزَّكَاةَ وَأَمَرُوا بِالْمَعْرُوفِ وَنَهَوْا عَنِ الْمُنْكَرِ وَلِلَّهِ عَاقِبَةُ الْأُمُورِ

Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir (Həcc, 41).

**İzah:** Burada Qurana görə İslam hökumətinin bəzi zəruri vəzifələrinə işarə edirik. Bu müqəddiməni qeyd etmək lazımdır ki, İslamda hökumət və xalq əlaqələri ikitərəfli əlaqədir və hər iki tərəfin hüquqlarını əsas götürür. Yəni xalq öz məişət və mədəni vəziyyətinin yaxşılaşmasını yalnız dövlətdən tələb etməməlidir. Əksinə, özü də cəmiyyətin problemləri qarşısında məsuliyyət daşımalıdır. Dinə görə, hakimlərin ilkin vəzifəsi dini həyata keçirmək və dini göstərişləri icra etməkdir. Yəni çıxarılan qayda-qanunlar və onların icrası tam olaraq İslam təlimlərinə uyğun olmalıdır. Yuxarıdakı ayədə möminlər belə vəsf edilmişdir ki, yer üzündə hökmranlıq əldə etdikdə dini ayinləri və namazı bərpa edər və onunla məşğul olarlar.

**Hədis:** İmam Əli (ə): “Həqiqətən, imamın Allahın hökmünü icra etməkdən başqa vəzifəsi yoxdur. Bu da moizə, nəsihət və dini ənənənin bərpasından başqa bir şey deyil” (Nəhcül-bəlağə, xütbə: 105).

**362**

## 2. İctimai ədalətin təmin olunması

لَقَدْ أَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَأَنْزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ وَأَنْزَلْنَا الْحَدِيدَ فِيهِ بَأْسٌ شَدِيدٌ وَمَنَافِعُ لِلنَّاسِ ...

Biz elçilərimizi aydın dəlillərlə göndərdik və onlarla birlikdə kitab və tərəzi nazil etdik ki, insanlar ədalətli olsunlar. Biz özündə çox böyük qüvvə və insanlar üçün mənfəətlər olan dəmiri də endirdik (Hədid, 25).

**İzah:** Heç şübhəsiz, dini hökumətin ən mühüm ictimai missiyası icra, məhkəmə, mədəniyyət, iqtisadiyyat və s. sahələrdə ədaləti təmin etməkdir. İslamda ədalət anlayışı cəmiyyətin kəsimlərinin iqtisadi bərabərliyi deyil. Əksinə, İslam şəxsi azadlıqlara və fərdi mülkiyyətə hörmətlə yanaşı əxlaqi dəyərləri də iqtisadi prinsiplərə daxil etmək və cəmiyyətdə elə bir şərait yaratmaq istəyir ki, hər kəsin ictimai və iqtisadi yeri onun istedad və səyi qədər olsun. Məlumdur ki, cəmiyyətdə ədaləti icra edənlər özləri ədalətli olmalı və onun icra şərtlərini də bilməlidirlər. Qeyd edək ki, yuxarıdakı ayədə peyğəmbərlərin (ə) göndərilmə məqsədi ictimai ədalətin bərqərar olması hesab olunmuş və onun həyata keçirilmə vasitələri, yəni dini qanunlar və hərbi vasitələr haqqında da xəbər verilmişdir. Başqa ibrətli bir məqam da budur ki, bu ayədə hakimlər yox, xalq ədalətin icraçısı kimi göstərilmişdir. Bu, onların bu sahədə istək və iradəsinin aydın roluna işarə edir.

**Hədis:** İmam Əli (ə): “Ən yaxşı hökmdar odur ki, zülmü öldürsün, ədaləti isə diriltsin” (Qürərul-hikəm, c. 3, səh. 431, hədis: 505).

## 363

## 3. Hərbi imkanları genişlətmək

وَأَعِدُّوا لَهُمْ مَا اسْتَطَعْتُمْ مِنْ قُوَّةٍ وَمِنْ رِبَاطِ الْخَيْلِ تُرْهِبُونَ بِهِ عَدُوَّ اللَّهِ وَعَدُوَّكُمْ
وَآخَرِينَ مِنْ دُونِهِمْ لَا تَعْلَمُونَهُمُ اللَّهُ يَعْلَمُهُمْ وَمَا تُنْفِقُوا مِنْ شَيْءٍ فِي سَبِيلِ اللَّهِ يُوَفَّ إِلَيْكُمْ
وَأَنْتُمْ لَا تُظْلَمُونَ

(Düşmənlərə) qarşı bacardığınız qədər qüvvə və döyüş atları hazırlayın ki, bununla Allahın düşmənini, öz düşməninizi və onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi kimsələri qorxudasınız. Allah yolunda nə xərcləsəniz, əvəzi sizə tam ödənilər və sizə zülm edilməz (Ənfal, 60).

**İzah:** İslam məntiqində ölkə sərhədlərini genişlətməyə və müharibəyə yer yoxdur. Amma lazımi hərbi hazırlıqdan qafil olmaq olmaz. Buna görə də İslam hakimləri mümkün düşmən təcavüzləri ilə mübarizə aparmaq üçün öz hərbi güclərini son dərəcə hazırlıqlı vəziyyətə gətirməli və onları ən modern döyüş texnikası ilə təchiz etməlidirlər. Bu, həm düşmənin ürəyinə qorxu salır, həm müharibə zamanı müdafiə imkanı yaradır, həm münafiqləri və şayiəçiləri məyus edir, həm də xalqa aramlıq və təhlükəsizlik bəxş edir.

**Hədis:** İmam Əli (ə) – Malik Əştərə məktubunda – : “Sülhdən sonra düşmənə münasibətdə çox ayıq-sayıq ol” (Nəhcül-bəlağə, məktub, 33).

**364**

## 4. Kafirlərlə münasibətdə izzət və iqtidarı qorumaq

وَلَا تَرْكَنُوا إِلَى الَّذِينَ ظَلَمُوا فَتَمَسَّكُمُ النَّارُ وَمَا لَكُمْ مِنْ دُونِ اللَّهِ مِنْ أَوْلِيَاءَ ثُمَّ لَا تُنْصَرُونَ

Zalımlara meyl etməyin, yoxsa sizə od toxunar. Sizin Allahdan başqa dostlarınız yoxdur. Sonra sizə kömək də olunmaz (Hud, 113).

**İzah:** İslam cəmiyyətinin izzət və iqtidarını qorumaq İslam dinində siyasətə hakim olan ən mühüm prinsiplərdəndir. Bir çox Quran ayəsi müsəlmanları bu prinsipə riayət etməyi əmr etmiş və onları kafirlərlə yaxın münasibətdən, onlara tam etimad etməkdən çəkindirmişdir. Bu prinsip "nəfyi-səbil" qaydasının əsasını təşkil etmişdir. Hansı ki "Nisa" surəsinin 141-ci ayəsi buna işarə edir və İslam alimləri tərəfindən də diqqətə alınmışdır. Bu qaydaya görə, müsəlmanların kafirlər üzərində üstünlüyünün azalmasına səbəb olan istənilən növ qanun və ya beynəlxalq müqavilə və öhdəlik keçərsiz və əsas etibarilə batildir. Kafirlərlə münasibətlərin tənzimlənməsi üzərində bu qədər dayanılmasına səbəb odur ki, onların müsəlmanlarla düşmənçiliyinin sərhədi yoxdur. Onlar müxtəlif növ məkr və hiylə ilə İslam dinini zəiflətməyi planlayırlar. Ona görə də İslam hökumətinin məsul şəxsləri onlarla münasibətlərdə ayıq-sayıq olmalı, etimad etməməlidirlər.

**Hədis:** İslam peyğəmbəri (s): "İslam üstünlük qazanacaq və heç bir şey ondan üstün olmayacaq" (Mən la yəhzuruhul-fəqih, c. 4, səh. 334, hədis: 5719).

**365**

## 5. Qeyri-stabilliyə və fəsada qarşı mübarizə

قَالَ أَمَّا مَنْ ظَلَمَ فَسَوْفَ نُعَذِّبُهُ ثُمَّ يُرَدُّ إِلَىٰ رَبِّهِ فَيُعَذِّبُهُ عَذَابًا نُكْرًا

O dedi: “Haqsızlıq edəni cəzalandıracağıq. Sonra o, Rəbbinə qaytarılacaqdır. O da ona ağır bir əzab verəcəkdir!” (Rum, 30).

**İzah:** İslam hökumətinin vəzifələrindən biri təhlükəsizliyi təmin etmək və sabitliyi pozanlarla kəskin mübarizə aparmaqdır. Məlumdur ki, hakimlərin həddən artıq xoş münasibəti, mərhəməti və xatakarlar haqqında ölçü götürməkdə qətiyyətsizliyi mənfəətpərəst və fürsət axtaran insanları başqalarının hüququnu tapdamağa və cəmiyyətin ümumi ab-havasını korlamağa həvəsləndirir. Ona görə də iğtişaş törədənlərə, iqtisadi, siyasi və mədəni stabilliyi pozanlarla mübarizə aparmaq hər bir dövlətin güclü tərəfi hesab olunur və dini hökumətdə də zəruri və qaçılmazdır. Yuxarıdakı ayə yer üzünə hakim olan Zülqərneynin dilindən nəql olunmuşdur. O, bir qrup dinsiz insanlarla qarşılaşdıqda onları əmrlərinə tabe olmağa çağırdı və xatakarları şiddətlə təhdid etdi.

**Hədis:** İmam Əli (ə): “Zalım və rəhmsiz hakim daimi hərc-mərclikdən daha yaxşıdır” (Qürərul-hikəm, c. 6, səh. 236, hədis: 10109).